Mahmud Kaşğari

Divanü Lüğat-it-Türk

III


Bakı - 2006


محمود كاشغرى

ديوان لغات الترك

III

باكو - ٢٠٠٦



جابرقا
ماسين
فيافي ورمال
بلاد الغز
خاتون سيني
سلجي
بلاد ايغور
قوجو
ارض كيماك
كوشان
بلاد الصقالبه
الاسكيزة من الترك
الشرقي
جنبلق
الاتراك
مسكن جيل
الوركن
وادي نار
وادي ارقش
فيافي عاد
فيافي بشقرت
وادي ايلا
فيافي تتار
فيافي ايمل
بلده سقال محدثه
مسكن قبجاق والغزيه
جبل قريق
بلاد الغزيه
بلغار
سوار
وادي كاما
مساكن قبجاق
شعبه منه
روس
صقالبه
ورنك
يغرك
خوارزم
ارض الصقالبه
ارض الاسكون
ارض الاكراد
ارض الشام
حدود مصر
الاسكندريه
ارض آذربادكان
ارض خزرا
ارض العراقين
ارض الحجاز
ارض القيروان
وغيرها
اراضي المغاربه وهي اندلس
لايسكن فيها الخلق لغلبة الحرارة عليها
لايسكن فيها الخلق لغلبة البرودة عليها
رمل
سان
شاش
اسبيجاب
طراز
نزل
يفنج
اكي اكوز
بلاساغون
برسقان
بارسخان
فجيكان
باشي
شنجي
كلي
سرمان
اج
كلي
بلاساغون



Mahmud Kaşğarinin çəkdiyi və «Divanü lüğat-it-türk»ə əlavə etdiyi dünya xəritəsinin ərəb əlifbası ilə verilən variantı.


Bu xəritədə Balasağun şəhəri mərkəz olaraq qəbul edilmişdir.

Dənizlər yaşıl, çaylar mavi, dağlar qırmızı, şəhərlər sarı, səhralar sarı-qırmızı rənglə göstərilmişdir.



Bu Tərcüməni Zəmanəmizin Ən Böyük Türklərindən Və Türkçülərindən Biri, Türk Dünyasının Şanlı Övladı, Çağdaş Azərbaycan Dövlətinin Banisi, Ana Dilimizin, Elm Və Mədəniyyətimizin Hamisi, Ümummilli Liderimiz, Mərhum Prezidentimiz Heydər Əliyevin Parlaq Və Əbədi Xatirəsinə İthaf Edirəm. Qədirbilən Türk Dünyası Və Azərbaycan Xalqı Onu Heç Zaman Unutmayacaq!

Ramiz Əskər



Türklüyün Şahəsəri Divanü Lüğat-it-Türk
Qardaş Türkiyə Respublikasının 9-cu Prezidenti,
Azərbaycan Respublikasının Fəxri Vətəndaşı,
Türk Dünyasının Ağsaqqalı, Türk Dilinin Və
Türk Mədəniyyətinin Ulu Qoruyucusu və Hamisi
Xalı-Alilləri Cənab Süleyman Dəmirəlin
Yüksək Himayələri Altında Nəşr Olunmuşdur.
Azərbaycan Türkü Ona Daim Minnətdar Olacaqdır!

Türkologiyanın və Türklüyün şah əsəri

«DİVANÜ LÜĞAT-İT-TÜRK»

AtaHoldinqin

sponsorluğu ilə nəşr edilmişdir.

Sonsuz təşəkkürlər!

آذربایجان ملی علملر آکادمیاسی

فولکلور انستیتوتی

محمود کاشغری

دیوان لغات الترك

دؤرد جلددە

اوچونجو جلد

ترجمه ائدن و
نشره حاضیرلایان
رامیز عسکر

اوظان نشریاتی

باکو- ۲۰۰۶

AZƏRBAYCAN MİLİLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

MAHMUD KAŞĞARİ

«DİVANÜ LÜĞAT-İT-TÜRK»

DÖRD CİLDDƏ

III CİLD

Tərcümə edən və
nəşrə hazırlayan:
Ramiz ƏSKƏR

Bakı - "Ozan" - 2006

Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu Elmi Şurasının qərarı ilə nəşr olunur

Elmi redaktor: Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Türk Dil Qurumunun fəxri üzvü, əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Tofiq HACIYEV

Rəyçi: Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, filologiya elmləri doktoru, professor Nizami CƏFƏROV

Məsləhətçilər: professor Hüseyn İSMAYILOV
professor Məmmədəli QIPÇAQ
professor Əzizxan TANRIVERDİ

Mahmud Kaşğari. «Divanü lüğat-it-türk». Dörd cilddə. III cild, Bakı, "Ozan", 2006, 400 səh.

Dahi türk dilçisi və ensiklopedisti Mahmud Kaşğarinin «Divanü lüğat-it-türk» əsəri dünya dilçilik elminin ən qədim və ən möhtəşəm nümunələrindən biridir. Türk dünyasının və türkologiya elminin ən parlaq, ən əhəmiyyətli əsəri olan «Divanü lüğat-it-türk» yalnız türk dili və ədəbiyyatının deyil, eləcə də türk tarixinin, türk mədəniyyətinin, türk mənəviyyatının və psixologiyasının tədqiqi üçün misilsiz mənbə, bitməz-tükənməz qaynaqdır. Bu şah əsər haqlı olaraq min il bundan əvvəlki türk dünyasının ensiklopediyası, türklüyün aynası, Mahmud Kaşğari isə türkçülüyün banisi sayılır.

Kitab dilçilər, ədəbiyyatçılar, tarixçilər, etnoqraflar və digər elm sahələrinin mütəxəssisləri, habelə ali məktəblərin filologiya fakültələrinin tələbələri və şanlı türk keçmişi ilə maraqlananlar üçün nəzərdə tutulur.

Kitabla bağlı arzu və iradlarınızı bu ünvana göndərə bilərsiniz:
ramizasker@mail.yahoo.com

ISBN 9952-426-00-x

Ə $\frac{4072060105}{On - 047-06}$ - 2006

© Ramiz Əskər, tərcümə, 2006

S U N U Ş

Aziz Azerbaycan'lı Kardeşlerim!

Uzun bekleyiş ve hasretten sonra Türklüğün ve Türkoloji'nin şaheseri Divanü Lugat-it-Türk'e kavuştunuz. Azerbaycan'ın Fahri Vatandaşı olarak bu muhteşem eserin basılmasında ve böylece Sizlere ulaşmasında benim de katkılarım olduğu için çok bahtiyarım.

Değerli dostum, kardeşim Dr. Ramiz Asker uzunca yıllar çalışarak bu eseri çevirmiştir. Büyük bir hizmet yapmıştır. Kendisini kutluyorum.

Divanü Lugat-it-Türk yaklaşık bin sene bundan önceki Türklüğün ansiklopedisi, aynasıdır. Ünlü bilgin Kaşgarlı Mahmut bu kitabında o dönemin Türkçesini, Türk Kültürünü, Edebiyatını, Tarihini, Coğrafyasını, Etnografisini, sosyal ilişkilerini, dini inançlarını, ünvan ve makamlarmı, atasözleri ve deyimlerini, efsane ve mitlerini, şiir ve ağıtlarını, giyim ve kuşamını, yemek ve silahlarını, bitey ve direğini... ayrıntılı biçimde işlemiştir. En önemlsi, Kaşgarlı Mahmut Türkçenin ilk gramerini yazmış, dünya dilcilik ilmi tarihinde ilk kez karşılaştırmalı [mukayeseli] yöntemin temelini atmış ve bunu Avrupa Aydınlanma [Maarifcilik] çağının ünlü dilcilerinden asırlarca önce başarmıştır. Yazar, kitabında aşağı yukarı dokuz bin Türkçe kelimenin anlamını açıklamış, onları fiil, isim, sıfat, zamir [evezlik] olarak sınıflandırmıştır.

İşte bunlardan dolayı Divanü Lugat-it-Türk evrensel Türk Kültürünün ana kaynağı, en temel eserlerinden biri olarak çeşitli ülkelerde basılmıştır. Türkiye Türkçe'sinin yanı sıra Özbek, Uygur, Kazak Türkçe'lerine, Almanca'ya, İngilizce'ye, Farsça'ya, hatta Çince'ye çevrilmiştir.

Sevgili okurlar!

Kaşgarlı Mahmut bu eserle gelecek kuşaklara da gerekli mesajlar göndermiş, Türkçe'yi, Türk Kültürü'nü sevmeyi, geliştirmeyi ve yüceltmeyi öğütlemiştir. Bu husus çok önemlidir.

Bu bağlamda tercümenin ünlü Devlet ve Siyaset adamı, Türk Dilinin ve Medeniyetinin havarisi, çağdaş Azerbaycan Devleti'nin mimarı, rahmetli Cumhurbaşkanı, milli lider, dostum ve kardeşim Haydar Aliyev'in unutulmaz ve parlak hatırasına ithaf edilişi pek yerinde bir harekettir ve beni fevkalade memnun etmiştir. Sayın Cumhurbaşkanı İlham Aliyev'in de aynı çizgide yürüyeceğine inanıyorum. Kaşgarlı Mahmut, daha bin sene önce Türklerde varislik ve devamlılığı şu atasözünde ifade etmiştir: "Ata oğlu ataç toğar." Dinlerken her zaman zevk duyduğum kıvrak ve güzel Azericede bunun karşılığı şöyledir: "Oğul atasına çeker, ot, kökü üstünde biter."

Bu vesileyle, Dr. Ramiz Asker'e takdir ve teşekkürlerimi iletiyorum. Ayrıca, eserin bilimsel editörü, ünlü bilim adamı, Azerbaycan Milli Bilimler Akademisi Muhabir Üyesi, Türk Dil Kurumu Şeref Üyesi Prof. Dr. Tofik Haciyev'i, reyci, Azerbaycan Milli Bilimler Akademisi Muhabir Üyesi Prof. Dr. Nizami Caferov'u, eserin basımı için Bilim Konseyi kararını çıkarmış, Türk Dünyasında kendi alanında biricik kurum olan Folklor Enstitüsü ve Enstitü'nün Başkanı Prof. Dr. Hüseyin İsmailov'u ve sevgili Azerbaycan'lı kardeşlerimi içtenlikle kutluyorum.

Saygılarımla

S. Demirel

Süleyman DEMİREL
T.C. 9. Cumhurbaşkanı
Ankara, Ocak 2006

III CİLDƏ ÖNSÖZ

Mahmud Kaşğari «Divanü lüğat-it-türk»ün III cildində misal kitabmı, üç hərfli sözlər (zəvat üs-səlasə), dörd hərfli sözlər (zəvat ül-ərbəa), günnəli sözlər, nəhayət, yan-yana gələn iki sükunlu sözlər (cəm beyn əs-sakineyn) kitabmı vermişdir. Ərəb dilçilik elminə xas olan bu terminləri qısaca izah edək.

Əgər sözün ilk hərfi ərəbcə hərfi-illət adlanan hərflərdən, yəni əlif, vav, ye hərflərindən biri ilə başlasa, ona «misal» deyilir. Burada yalnız ye (y) hərfi ilə başlayan sözlər verilmişdir. Onlara nümunə olaraq *yıp*= ip, *yaş, yük, yer* kimi isimləri, *yudı*=yudu, *yedi, yapışdı, yaradı* və sair fe'lləri göstərmək olar. Təbii ki, y hərfi ilə başlayan sözləri ayrı bir kitabda toplamaq ərəb qrammatikası və lüğətçiliyi ənənələrinə və qaydalarma uyğunluq baxımmdan zəruri olmuşdur. Ərəb qrammatikasını və dilini yaxşı bilən Mahmud Kaşğari türk dilini ərəblərə onların anlayacağı şəkildə təqdim etməyə üstünlük vermişdir.

«Divan»dakı hər bir kitabda, eləcə də zəvat üs-səlasə və zəvat ülərbəada isim və fe'llər iki (sünai), üç (sülasi), dörd (rübai), beş (xümasi) və altı hərfli (südasi) sözlərdən ibarət bablar şəklində düzülmüşdür. I və II cildlərin şərhlər qismində dəfələrlə vurğulanmasma baxmayaraq belə bir faktı bir daha təkrar etmək lazımdır ki, iki, üç ... altı hərfli sözlər deyərkən həmin sözlərin ərəb əlifbası ilə yazılışı zamanı türkcə səslərin sayı deyil, ərəb hərflərinin sayı nəzərdə tutulur. Bəzən fe'llərdəki -dı, -di

şəkilçisi sayılmır. Məsələn, *bildi* tipli fe'llər üçün iki hərfli deyilir ki, burada fe'lin kökündə olan hərflərin sayı (b+l) diqqətə alınır.

Tərkibində gənizdən gələn bir hərf olan sözlər bu cilddə verilmişdir ki, onlara «ğünnəli» sözlər deyilir. Boğazda tələffüz edilən hərflər isə «hürufi-hülq - boğaz hərfləri» adlanır. Burada ğünnəli isimlər və fe'llər sözlərdəki hərflərin sayına və bablara görə ardıcıl sıralanmışdır.

Mahmud Kaşğari bu cildin sonunda yan-yana gələn iki sükunlu (cəm beyn əs-sakineyn) sözləri vermişdir. Müəllif ayrı-ayrı kitablar üzrə misal, mənqus, matvi, ləfif, ğünnəli və sair sözləri xüsusi başlıqlar altında toplamış, fe'llərin müzare və məsdərlərini göstərmiş, yeri gəldikcə geniş və qısa qrammatik izahatlar vermişdir.

I və II cilddə olduğu kimi, bu cilddə də biz «Divan»ın Türkiyədə, Özbəkistanda, Çində və İranda çıxmış nəşrlərinə tez-tez müraciət etmiş, müqayisələr aparmış, bəzi mübahisəli məqamları aydmlığa qovuşdurmağa çalışmışıq. Bu zaman türkcə Bəsim Atalay nəşrini ixtisarla DLT (Divanü Lügat-it-Türk), türkcə Seçkin Ərdi və Sərap Tuğba Yurtsevər nəşrini qısaca DLT-2005 (bu kitab 2005-ci ildə nəşr olunmuşdur), uyğurca nəşrini müxtəsər şəkildə TTD (Türki tıllar divanı), özbəkcə Salih Mütəllibov nəşrini TSD (Turkiy suzlar devoni), farsca Hüseyn Düzgün nəşrini د ل ت abbreviaturası (yəni ديوان لغات الترک) ilə, çincə tərcüməni isə DLT-Çin kimi göstərmişik.

Dahi dilçi, ensiklopedist, filoloq, mədəniyyətşünas, folklorçu, ən əsası isə türkçü Mahmud Kaşğari «Divanü lüğat-it-türk»ün III cildində də bir-birindən mənalı atalar sözləri və məsəllər, gözəl bənd və beytlər, xeyli tarixi və etnoqrafik bilgilər vermişdir. Ruhu şad olsun!

Tanrı türkü qorusun!

Ramiz ƏSKƏR.

23 sentyabr 2005-ci il, Bakı.

DİVANÜ LÜĞAT-İT-TÜRK

III CİLD

(mətn)



BİSMİLLAH İR-RƏHMAN İR-RƏHİM

HƏRFİ-İLLƏTLƏ BAŞLAYAN, MİSAL OLAN İSİMLƏR KİTABI[1]

[1] Ərəb dilçiliyinin ənənəsinə görə, الف əlif, و vav, ى ye hərflərinə «hərfi-illət» deyilir. Hərfi-illətlə, yəni الف əlif, و vav, ى ye hərflərindən biri ilə başlayan sözlər isə «misal» adlanır.

İKİ HƏRFLİLƏR BÖLMƏSİ

يَب Y a p: dəyirmi olan hər hansı bir şey. « يَب يَرماق يوُق yap yarmak yok = yanımda dəyirmi pul yoxdur».

يَب Y a p: əlçim. «يوُنک يَب yunq yap = yun əlçimi».

يب Y ı p: ip.

يب Y ı p: at hörükləmək üçün uzun çatı, örkən. İpə də يب yıp deyilir.

يَت Y a t: bir növ şamanlıq, qamlıq. Müəyyən daşlarla (yada daşı ilə) yağış və qar yağdırıhr, külək əsdirilir. Bu, türklər arasında məşhur bir şeydir. Mən bunu yağma ölkəsində öz gözümlə gördüm. Orada yay vaxtı bir yanğın baş vermişdi. Bu surətlə qar yağdırıldı və ulu Tanrının izni ilə yanğın söndürüldü.

يَر Y a r: selik. «اَنِک يَرى اَقتى anınq yarı aktı=onun ağzmın suyu axdı».

ير Y ı r: mahnı; məqam (musiqidə). « اُل ير يرلادى ol yır yırladı = o, şərqi söylədi». Bu söz çox zaman şeir, qəzəl mənasmda işlənir.

ار I r: yuxarıdakı sözdəki ى i hərfi الف əlifə çevrilmişdir; həmin mənadadır; məqam, motiv, melodiya.

يَش Y a ş: yaş; təzətər; səbzə, tərəvəz. « يَش اُت yaş ot = təzə ot». Bu söz « يُش yuş» sözü ilə birlikdə « يَش يُش yaş-yuş[2]» şəklində də işlənir, mənası «yaş-maş» deməkdir.

---

[2] S.Mütəllibov bu sözü «yaş-yoş» kimi (TSD, III tom, bet 9), S.Ərdi ilə S.T.Yurtsevər (DLT-2005, s.670) və uyğurlar «yaş-yoş» kimi (TTD, III tom, bet 2), çinlilər isə maddəni (baş sözü) «yəş», misalı «yaş-yuş» kimi (DLT-Çin, III cild, s.2) oxumuşlar.

يُش Y u ş[3]: sıxışma. Oğuzca. « بُدُون يُش بُلدی budhun yuş boldı = xalq sıxışdı».

يش Y ı ş: yoxuş. « اَرت يش art yış = eniş, yoxuş». « اِين en = eniş, اَرت art =sarp, sıldırım yer».

يُق Y o k: qab-qacaq bulaşığı. Bu, « يَق yak» sözü ilə birlikdə «يُق يَق yok yak» şəklində qoşa işlənir.

يُق Y o k: «يُق يير yok yer = yoxuş yer»[4].

يُک Y ü k: yük, tay. « بر يُک بُغدای bir yük buğday = bir yük buğda». Qatır yükünə və digər yüklərə də belə deyilir.

يُل Y u l: bulaq, çeşmə, su mənbəyi. «جُقرَما يُل çokrama yul=fışqıran su qaynağı».

يل Y ı l: il. Buradan alınaraq «يير يل كَجتی bir yıl keçti = bir il keçdi» deyilir.

يَم Y a m: çör-çöp, zibillik. «كُوزكا يَم تُشتی közgə yam tüşti = gözə çöp düşdü».

يَم Y ə m: baharat, ədviyyat. «اوُت يَم ot yəm = qarabibər, keşniş, reyhan, yarpız, zirə kimi ədviyyatlar». «يَم yəm» sözü tək işlənmir, həmişə «اوُت ot» ilə birlikdə söylənir.

---

[3] Yazma, eləcə də basma nüsxədə bu sözün ilk hərfinin üstündə zəmmə, altında isə kəsrə vardır. Buna görə də həmin sözü həm «yuş», həm də «yış» kimi oxumaq mümkündür. Bəsim Atalay bu sözdən əvvəl «يَش yaş», bu sözdən sonra isə «يش yış» sözünün gəldiyini nəzərə alaraq onu «يُش yuş» kimi oxumağı təklif etmişdir (DLT, III, s.4). Salih Mütəllibov bu gərəkçələri çox tutarlı saymasa da, Bəsim Atalayın oxunuşunu qəbul etmişdir (TSD, III tom, bet 9). Üstəlik, Salih Mütəllibov həmin sözü «toplanma, uyuşma» kimi tərcümə etmişdir. Hüseyn Düzgün bu sözü «yuş» (د ل ت s.444) kimi, Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər isə Bəsim Atalayın təklif etdiyindən bir az fərqli şəkildə, yəni «yoş» kimi (DLT-2005, s.703) oxumuşlar. Uyğurlar (TTD, III tom, bet 2-3), çinlilər isə (DLT-Çin, III cild, s.2) «yuş» kimi vermişlər.

[4] Salih Mütəllibov bu sözü «yuxarı yer, hündür yer» kimi çevirmişdir (TSD, III tom, bet 10). Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər isə Bəsim Atalayla eyni mənada «yoxuş yer» kimi (DLT-2005, s.702) çevirmişlər. Uyğurlar bu sözü «yuk» (TTD, III tom, bet 3), çinlilər «yok» şəklində (DLT-Çin, III cild, s.3) oxumuşlar. Uyğurlarla çinlilərin oxunuşunda adətən cüzi sait fərqləri müşahidə olunur ki, bu da DLT-nin çincə nəşrini uyğur alimlərinin redaktə etməsi ilə bağlıdır.

ين Y i n: mal peyini, təzək. «قوُی ینی koy yini = qoyun peyini».

ين Y i n: hin, yuva. «أرسلان ینی arslan yini = aslan yuvası». Tülkünün və başqa yırtıcı heyvanların sığmağına da «ین yin» deyilir. Bu məsəldə də işlənmişdir: «تِلکُو اوز ینِکا اورسا أدُوز بُلور tilkü öz yinigə ürsə, udhuz bolur = tülkü öz hininə hürsə, qotur olar». Bu məsəl öz soyunu, yerini–yurdunu tənqid edən, danan adamlar haqqmda söylənir. Həmin söz bu şeirdə də işlənmişdir:

قُش قُرت قمُغ تِرلدی
اِرلِـــک تِشی تِیرلدی
أکُـــــر اَلِب تَرلدی
ینقـــــا یَنا کِرکُسُوز

«Kuş, kurt kamuğ tirildi,
Erkək[5], tışı terildi,
Ögür alıp tarıldı,
Yınka yana kirgüsüz».
Quş-qurd bütün dirildi,
Erkək-dişi dərildi (toplandı),
Höyür alıb dağıldı,
Artıq hinə girməyəcək.

(Baharı tərifləyərək deyir: yaz gəlincə, qış yuxusuna getmiş bütün canhlar, qurd-quş dirildi, erkək-dişi hamısı bir yerə yığışdı, bölük-bölük olub ətrafa dağıldılar, növbəti qışa qədər bir daha öz yuvalarına, hinlərinə girməyəcəklər).

---

[5] Bu söz, yəni «erkək» sözü yazma və basma nüsxələrdə «اِرلِـــک ərlik» şəklindədir. Təbii ki, səhvdir. Şəkilcə bir-birindən yalnız bir cizgi ilə fərqlənən ل l hərfi yerinə ک k hərfi olmahdır. Ondan sonra gələn «tışı=dişi» sözünün tələbi ilə bu söz «ərlik» deyil, «erkək» olmalıdır.

Yuxarıdan bəri söylənən bu sözləri yazıda mənqus bölməsinə daxil etmək və tələffüzdə yumşaltmaq mümkün idi. Doğru olanı da elə budur[6].

[6] Mahmud Kaşğari burada ى y ilə başlayan bu sözlərin ى y-siz də yazıla biləcəyinə işarə edir. Məsələn: «ير yır = ار ır» kimi.

[ÜÇ HƏRFLİLƏR BÖLMƏSİ]

ORTASI SÜKUNLU فعل ,فعل ,فعل FƏ'L, FU'L, FE'L BABI

يَرب Y a r p: «يَرب نانک yarp nənq = sağlam, möhkəm nəsnə».

يَرب Y a r p: insan sevindiyi zaman üzündə yaranan parıltı, sevinc şöləsi. «آنِک يَرِيی يَزلدی anmq yarpı yazıldı = sevincdən onun üzünün damarları açıldı, gözəlləşdi».

يُرت Y u r t: yurd; köhnə tikililər, bina qalıqları, xarabalıqlar.

يَلت Y a l t: «يَلت قيا yalt kaya = yalçm qaya, sərt qaya». Sərt olan hər şeyə belə deyilir.

يُرج Y u r ç: arvadın kiçik qardaşı, kiçik qayın. Ərlə arvadm kiçik qayınları bir-birindən ayırd edilir, ərin kiçik qardaşına «اِنی ini», yaşca böyüksə «اِجی içi» deyilir. Ərin özündən kiçik bacısına «سِنکِل sinqil», özündən böyük bacısına «اکا əkə», arvadm özündən kiçik bacısma «بَلدِز baldız», özündən böyük bacısına «اکا əkə» deyilir.

يُند Y u n d[7]: at. Bu, dəvə sözü kimi həm təki, həm də cəmi bildirir. «يُند آتی يِيار yund əti yıpar = at əti müşk kimi qoxar», (at əti bişdikdən sonra soyumağa qoyulur, ondan müşk ətri gəlir).

---

[7] Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər bu sözü «yond» kimi (DLT-2005, s.700) oxumuşlar. Onlar Bəsim Atalaydan və Salih Mütəllibovdan fərqli olaraq u-ları bəzən o kimi oxuyurlar. Bundan sonra gələn «yudhut» sözündə də vəziyyət belədir («yodhut»). Uyğurlar (TTD, III tom, bet 7) və çinlilər sözü «yund» şəkhndə (DLT-Çin, III cild, s.5) oxumuşlar.

يُنْد Y u n d: türklərin on iki heyvan ilindən birinin adı, buna «يُنْد يلى yund yılı» deyilir.

Bu bölmə hürufi-zəlakə ب[8]، م، و، ر، ل، ن ilə bağlıdır, ona görə də bu qəbildən olan isim sayı azdır.

ORTASI HƏRƏKƏLİ فعِل ,فعَل ,فعُل FƏ'ƏL, FƏ'UL, FƏ'İL BABI

يُدْت Y u d h u t: «يُدْت نانک yudhut nənq = xeyirsiz nəsnə, heç bir faydası olmayan şey». Bir adama söyüldüyü zaman «يُدْت yudhut» deyilir.

يَشُت Y a ş u t: gizli. «يَشُت نانک yaşut nənq = gizli şey». Ondan sonra «بَكُت bəküt» sözü artırılaraq «يَشُت يَكُت yaşut-bəküt» şəklində qoşa deyilir.

يِكِت Y i g i t: hər şeyin gənci; igid.

يَمَت Y ə m ə t: «əvət» mənasında bir sözdür. ى i hərfi الف əlifə çevrilərək «اَمَت əmət» də deyilir.

يَنْت Y a n u t: cavab, əvəz, qarşılıq, bədəl.

يَسِچ Y a s ı ç: yastı və uzun təmrən.

يغچ Y ı ğ a ç: ağac parçası.

يغچ Y ı ğ a ç: kişinin kişilik aləti.

يغچ Y ı ğ a ç: fərsəx, əski bir uzunluq ölçüsü. «بير يغچ بير bir yığaç yer = bir fərsəx yer»[9].

يغچ Y ı ğ a ç: ağac. Buradan almaraq «اُزُم يغاجى üzüm yığaçı = üzüm ağacı, meynə» və «يَغاق يغاجى yağak yığaçı=qoz ağacı» deyilir. Bunu الف əliflə « يغاچ » şəklində yazmaq daha yaxşıdır.

---

[8] Salih Mütəllibov «hürufi-zəlakə» termini üçün bu izahatı vermişdir: «Qədim fonetikada dil və dodaq səsləri altı olub üçü – v, b, m dodaq səsi, üçü, yəni n, r, l isə dil səsləri adlandırılırdı» (TSD, III tom, bet 13).

[9] Bir fərsəx 12 min arşındır.

يُغج Y u ğ a ç[10]: bir dərənin və ya çayın qarşı sahili. Bir adam çaym bir sahilində dursa, yuğaç qarşı tərəf olur. «يُغج كَجتِم yuğaç keçtim» deyilir ki, qarşı tərəfə, o taya keçdim deməkdir.

يَغِر Y a ğ ı r: at, qatır və eşşək kimi heyvanların belindəki palan və ya yəhərin döyməsindən yaranan yara; yağır. « يَغِرلِغ اَت yağırlığ at = yağırı olan, yağırlı at».

يُكُر Y ü g ü r: darı. «اُكُر ügür» də deyilir.

يُمُر Y u m u r: heyvanlarda olan gödən bağırsağı[11].

يُلَر Y u l a r: atın yüyəni, cilovu. «يُلد باشِن يُلارلب كَنكلدى yund başm yularlap kənqildi=atın başmı cilovlayaraq, bağlayaraq ye»[12], (əgər atm başmı bişirərək yemək istəyirsənsə, əvvəlcə onu yüyənlə, qaçmaması üçün bağla, sonra bişirib ye). Bu söz atı başıboş buraxmaması məsləhət olan adama deyilir.

يَتِز Y e t i z[13]: enli, eni geniş olan hər şey. Bu sözdən alınaraq «يَتِز قَدِش yetiz kadhış=enli qayış» deyilir. «يَتِز يِر yetiz yer=enli, geniş, yer».

---

[10] Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər bu sözü «yoğuç» kimi (DLT-2005, s.699) oxumuşlar. Salih Mütəllibov isə bu sözü eynən Bəsim Atalay kimi «yuğaç» şəklində (TSD, III tom, bet 16) oxumuşdur. Uyğurlar (TTD, III tom, bet 9) və çinlilər də «yuğaç» şəklində (DLT-Çin, III cild, s.7) vermişlər

[11] Salih Mütəllibov bu sözü «yamur» şəklində oxumuş və «heyvanın qursağı» (TSD, III tom, bet 16), Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər isə «heyvanların kor bağırsağı» kimi (DLT-2005, s.710) tərcümə etmişlər.

[12] Bəsim Atalay «كَنكلدى kənqildi» şəklində yazılan sözü anlamadığım bildirmiş, yazma nüsxədə bir düzəltmə olduğunu yazmış, buna görə də həmin sözü «keyin yegin» (sonra yeginən) kimi çevirməyi təklif etmişdir (DLT, III, s.9). Salih Mütəllibov da bu fikri dəstəkləmişdir (TSD, III tom, bet 17). Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər bu cümləni «yond başm yularlap kənki ye» kimi oxumuş və «atın başmı bişirib yemək istəyirsənsə əvvəlcə yuları, yəni cilovu möhkəm tax ki, qaçmasın, sonra yeyərsən» şəklində tərcümə etmişlər (DLT-2005, s.707). Uyğurların tərcüməsi də buna yaxındır: «atnmq başnı nuxtalap ye. Atnınq başnı pişirip yeməkçi bolsanq, kaçmaslığı üçün əvvəl uni nuxtalap bağla, undan uni yegin=atın başım noxtalayıb ye. Atın başını bişirib yemək istəsən qaçmaması üçün əvvəlcə onu noxtalayıb bağla, sonra onu ye» (TTD, III tom, bet 10).

[13] Çinlilər bu maddədəki «yetiz» sözlərini «yatız» kimi oxumuşlar (DLT-Çin, III cild, s.7-8). Orijinalda ə ilə «يَتِز yətiz» olan bu sözü biz e ilə «yetiz» şəklində oxuduq.

يَغِز Y a ğ ı z: yağız. Bu, qırmızı ilə qara arasında bir rəngdir. Buna bənzədilərək yer üzünə «يَغِز يِر yağız yer» deyilir.

يَغِز Y a ğ ı z: «يَغِز اَت yağız at = yağız at».

يَفُز Y a f u z: hər şeyin pisi, fənası; yavuz.

يُغِز Y u m ı z[14]: «يُمِز اَر yumız ər = ətli-canlı, şişman adam.

يَمِز Y a m ı z: qasığm iki tərəfi, sağrının iç tərəfdən iki yanı; yanbız.

يَرِش Y a r ı ş: yarış, at yarışı. «اُل اَت يَرِشتى ol at yarıştı = o, at yarışı keçirdi, at yarışında iştirak etdi».

يَرِش Y a r ı ş: iki adam arasında mal bölüşdürmə.

يَغِش Y a ğ ı ş: islamiyyətdən öncə türklərin nəzir üçün, yaxud tanrıya yaxmlıq əldə etmək üçün bütlərə kəsdikləri qurban.

يَقُش Y a w a ş: «يَقُش كِشى yawaş kişi = həlim adam, xoşxasiyət adam». Sakit, həlim heyvanlara da «يَقُش yawaş» deyilir. Bu şeirdə də işlənmişdir:

قُلدَش بِـــلا يَرَشغِل
قَرشـــِب اَدِن اُدُرما
بَک تُت يَقُش تَقاغُو
سُقُلِن يَـــزن اَدَرما

«Koldaş bilə yaraşğıl,
Karşıp adın üdürmə,
Bək tut yawaş takağu,
Süwlin yazm ədərmə».
Yoldaş ilə yaraşginən,
Ona qarşı çıxma, başqasını seçmə,
Bərk tut yavaş toyuğu,
Çöldə qırqovul arama.

[14] Çinlilər mətnaltı haşiyədə bu sözün həm «yumuz», həm də «yumız» şəklində oxuna biləcəyi barədə qeyd vermişlər (DLT-Çin, III cild, s.8).

(Bir adamla yoldaş olsan, özünü ona yaraşdır, ona qarşı sayğılı ol, işlərində ona uyğunlaş, başqasmı ondan üstün tutma, eləcə də əlindəki yavaş toyuğu bərk tut, əldən qaçırma, çöldə qırqovul arama).

يُفْش Y ü f ü ş[15]: qohumların bir-birinə paltar və mal ilə əl tutması. Bu çox vaxt gərdəyə girən gəlin üçün söylənir, çünki qohumlar ona ehtiyac duyduğu müxtəlif ərməğanlar verirlər. Bu məsəldə də işlənmişdir: «يُفْش لک کَلِن کُدْاکوُ يَفش بُلوُر yüfüşlüg kəlin küdhəgü[16] yafaş bulur = hədiyyəli, cehizli gəlinin əri yavaş olar», (qohumlarm verdiyi hədiyyələr sayəsində cehizi zəngin olan gəlinin əri də xoşxasiyyət olar, cehizə görə ona hörmətlə yanaşar).

يُمُش Y u m u ş: iki və ikidən artıq adam arasmda elçilik. Bu sözdən alınaraq mələyə «يُمِشجی yumışçı» deyilir, çünki mələk ərəb dilindəki «اَلوُکَه» sözündən almmışdır, elçilik deməkdir. Türklər [dillərində «mələk» mənasma gələn söz olmadığına görə] «mələk» admı heç bilməzlər[17].

---

[15] Seçkin Ərdi ilə Sərap T.Yurtsevər bu sözü «yöwüş» (DLT-2005, s.706), uyğurlar (TTD, III tom, bet 13) və çinlilər isə «yüfüş» kimi ((DLT-Çin, III cild, s. 9) oxumuşlar.

[16] B.Atalay bu sözün yazma nüsxədə «کُراکوُ = körəkü» şəklində yazıldığını, Anadoluda işlənən «körəkən» (kürəkən) sözünün buradan olduğunu ehtimal edir (DLT-III, s.11).

[17] Salih Mütəllibov «mələk» sözünü ərəbcə «məlik», yəni «şah» sözü ilə eyniləşdirərək «Y u m u ş» maddəsini belə vermişdir: «ikki va undan ortik kişi orasida elçilik. Bu suzdan olib şoxni yumuşçi deyiş xam mumkin. Çunki şox manosidaqi malik suzi arabça elçilik manosidaqi əl-vukkə suzidan olinqandir. Turkiy kabilalar malik ismini mutlako bilmaydilar=iki və ondan artıq adam arasında elçilik. Bu sözdən alınaraq şaha yumuşçı demək də mümkündür. Çünki şah mənasındakı məlik sözü ərəbcə elçilik mənasındakı «əl-vukkə» sözündən alınmışdır. Türk boyları məlik ismini əsla bilməzlər» (TSD, III tom, bet 19). Halbuki burada məlikdən (şahdan) deyil, məhz mələkdən bəhs edilir. Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər də bizim dediklərimizi təsdiq edirlər (DLT-2005, s.710). Uyğurların tərcüməsi: «iki və daha çox adam arasındakı elçilik. Bu sözdən ahnaraq fəriştəyə «yumuşçı» deyilir, çünki fəriştə mənasındakı mələk sözü ərəbcə elçilik mənasındakı «əl-vukkə» sözündən alınmışdır. Türklər mələk adım ümumən bilmirlər» (TTD, III tom, bet 13). Çinlilər bu maddədə iki yerdə latın əlifbası ilə «mələk» sözünü işlətmişlər (DLT-Çin, III cild, s.9-10).

يَمِش Y e m i ş: meyvə, yemiş. Həm tək, həm də cəm bildirir. Çox zaman ağacların meyvəsinə deyilir.

يَتْغ Y a t ı ğ: yuxu və yatılacaq yer. «آنى يَتغِندا تُتغيل anı yatığında tutğıl = onu yatağında tut», (onu yatağında yaxala).

يذغ Y ı d h ı ğ: pis qoxan hər şey.

يذغ أت Y ı d h ı ğ o t: kaşğarca «üzərlik otu» deməkdir. Uç və Barsğan dillərində «الدُرک öldrük»[18], oğuzca «يوزارلِک yüzərlik»dir.

يُذْغ Y u d h u ğ: başqasınm günahı üzündən üzünə söz gələn adam. «انِک يُذْغى تُقِندى anmq yudhuğı tokmdı=onun günahının cəzası toxundu», (başqasmm əməlinin cəzası ona toxundu).

يُذْع Y u d h u ğ: söyüş mənasında uşaqlara deyilən bir söz. Bu, «يُذْت yudhut» sözü kimidir.

يَرَغ Y a r a ğ: fürsət, imkan. Bu məsələdə də işlənmişdir: « ايش يَراغِندا سَرت اسِغِندا ış yarağında, sart asığında=iş fürsətində, tacir karmda», (işi öz yerində, taciri də öz xeyrində görərlər, yəni tacir bir işdə qazanc görsə, ən sevdiyi şeyini də satar).

يشِغ Y ı ş ı ğ: qayışdan hörülmüş olan bağ, boyunduruq qayışı.

يَقْغ Y a w u ğ: selin yüksəkdən yuvarladığı qaya parçası. İnsan və ya heyvan bir təpə üstündə gedərkən ayağı ilə toxunduğu qayalar yuvarlanıb dərənin dibinə enir, buna « يَقْغ yawuğ» deyilir.

يَقغ Y a k ı ğ: yaxı. Şiş və ya şişə bənzər şeylərin üstünə salınır, qoyulur.

يَلغ Y a l ı ğ: pipik. «تَقُق يَلغى takuk yalığı = xoruz pipiyi» deməkdir.

يَلْغ Y a l ı ğ: at yalı. «يال yal» da deyilir. Doğru olanı «يَل yal»dır.

يُلْغ Y o l u ğ[19]: fəda. Bu beytdə də işlənmişdir:

---

[18] Bu söz yazma və basma nüsxələrdə «الدُرک əlludrk» şəklindədir (DLT, III, s.12). «Divan»ın III cildinin 304-cü səhifəsində isə «əldrük» imlası ilədir. Doğrusu da budur.

[19] Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər bu sözü «yuluğ» kimi (DLT-2005, s.709) oxumuş, «fidyə» kimi çevirmişlər. Salih Mütəllibov «yoluğ» şəklində oxumuş, «fəda

مِنک کِشی یُلغی بُلب اوْزُنکا

برکلَر اوْزوُن اَنِک کوْزُنکا

«Minq kişi yoluğı bolup özünqə,

Bergələr özün anınq közünqə».

Minlərlə gənc adam qıyar özünə,

Fəda edər canını onun gözünə.

(Minlərlə adam özünü onun üçün fəda edər, gözünü görərək canını verər). «اوْز öz» sözü bu beytdə ruh mənasındadır. Bu sözün xalq dilində hansı mənada işləndiyini bildirmişdim[20].

يِلغ Y ı l ı ğ: ilıq. «سوُف يِلغ yılığ suw = ilıq su». Hər hansı bir şey isti ilə soyuq arasında qızdırılmış, isidilmiş olsa, belə deyilir.

يَلَغ Y a l ı ğ: yəhər qaşı, yəhərin ön və arxa qaşı. Bir-birindən ayırd etmək üçün «اَنکدُنکی يَلَغ önqdünki yalığ» və « کيدِنکی يَلَغ kidinki yalığ» deyilir.

يَنَغ Y a n ı ğ: qusma. «اُل يَنَغ يَنَدی ol yanığ yandı = o qusdu, çox qusdu».

يَنَغ Y a n ı ğ: yanıma, qorxutma, təhdid. «بَک يَنَغِندا تُشما bəg yanığmda tüşmə = bəy qəzəbinə gəlmə». Başqası da belədir.

يَتُق Y a t u k: iki növ ipdən toxunan bir parça. Bunun ərişi yun, arğacı pambıqdır.

يَتُق Y a t u k: «يَتُق نانک yatuk nənq = atılan, unudulan hər şey».

يَتُق Y a t u k: tənbələ adama «يَتُق کِشی yatuk kişi» deyilir. Bəzi oğuzlar şəhərlərindən kənara çıxmır, müharibə etmirlər, ona görə də onlara «yatuk» deyilir, «tənbəllər və atılmışlar» deməkdir.

---

olmaq» kimi tərcümə etmiş (TSD, III tom, bet 21), uyğurlar isə «yuluğ» kimi oxumuş, «pəda=fəda» kimi mənalandırmışlar (TTD, III tom, bet 15). Çinlilər də «yuluğ» kimi vermişlər (DLT-Çin, III cild, s.11)

[20] Mahmud Kaşğari «Divan»ın I cildində (s. 80, Bəsim Atalay nəşri) bu söz haqqında verdiyi izahata işarə edir.

يَتِق Y a t ı k: yuxu və yatacaq yer. «اَنى يَتِقِندا تُتّى anı yatıkmda tuttı = onu yuxusunda, yatarkm tutdu, yatağında tutdu».

يَرُق Y a r u k: aydınlıq, parıltı, şüa. «يَرُق يير yaruk yer = aydmlıq yer», «يَب يَرُق نانک yap yaruk nənq = parlaq nəsnə».

يَرُق Y a r u k: yarıq, yerdə, divarda, dağda, şüşədə və buna bənzər şeylərdə olan yarıq, çat. «بُو اَيَق نِک يَرُقى يار bu ayaknmq yarukı bar = bu qabın yarığı, çatı var».

يَرق Y a r ı k: zirehə, qalxana verilən ümumi addır. Bir-birindən fərqləndirmək üçün zirehə «كُبا يَرق kübə yarık», dəmir qalxana «سای يَرق say yarık» deyilir.

يُرق Y o r ı k: bəlağətli, dilavər. «يُرق تِل yorık tıl = fəsih dil, aydın dil».

يُرق Y o r ı k: rəftar, xasiyyət. «اَنِک يُرقى نَتَک كِشى بِلا anmq yorıkı nətək kişi bilə = onun xasiyyəti və xalqla rəftarı necədir».

يُرق Y o r ı k: axma, yürümə. «اَت يُرقى نَتَک at yorıkı nətək = atın qaçışı necədir». Su və suya bənzər şeylərin axması da belədir.

يَرق Y a r ı k: iki çıxmtınm birləşdiyi yer, sümüklərin başı. Bu söz «يَرلدى نانک yarıldı nənq» cümləsindəki «يَرلدى yarıldı» sözündən alınmışdır, «nəsnə yarıldı, açıldı» deməkdir, necə ki, iki ayaqdan bir sağa, o biri sola doğru açılır.

يَزَق Y a z a k: otlaq. Yağma və toxsı dillərində.

يَزُق Y a z u k: boş buraxılmış. «يَزُك اَت yazuk at = boş buraxılmış, bağmdan açılmış at». Hər hansı bir şey bağından və ya bağlandığı yerdən açılsa, yenə belə deyilir.

يَزُق Y a z o k: «يَزُق اَت yazok ət = basdırma». Payızda bəzi ədviyyatlar vurulmaqla qurudulan ətdir, eləcə saxlanır və yazda yeyilir. Bu, «يازاُق يى yaz ok ye» sözündən almmışdır, «ancaq yazda, baharda ye» deməkdir. Çünki yazbaşı heyvanlar

arıq olur, basdırma tədarükü görmüş adam isə yazda yaxşı ət yeyir.

يَزُق Y a z u k: günah, suç. Bu atalar sözündə də işlənmişdir: « اوت تُتنسُز بُلماس، يكِت يازُقسُز بلماس ot tütünsüz bolmas, yigit yazuksuz bolmas = od tüstüsüz olmaz, igid günahsız olmaz». Gənclərdən biri hər hansı günah iş görsə, bu sözü söyləyərək üzr istəyir.

يَسِق Y a s ı k: yay qabı, yay qılıfı, gədələc. Digər türklərin dilində. Oğuzlar və qıpçaqlar bu sözü bilmirlər. Onlar «قُرمان kurman» deyirlər. Bu məsəldə də işlənmişdir: « اُبرَق يَسِقدِن توُزلغ يا جِقار oprak yasıkdın tozluğ ya çıkar = köhnə gədələcdən tozlu yay çıxar», (köhnə yay qabmdan tozlu yay çıxar). Bəzən möhkəm yay elə əski qılıfdan çıxır. Bu, ərəblərin تَرى الرَّجل النَّحيف فَتَزدَريهِ وَفى اَثوابِه اَسَدٌ مَريدُ sözü[21] kimidir.

يُلق Y u l a k: kiçik-kiçik çoxlu su bulağı. Buradan almaraq « يُل يُلق yulyulak» deyilir. Burada «يُل yul» sözünə ق ka əlavə edilmişdir. Bu beytdə də işlənmişdir:

اَقتُــرُركُوزُم يُلاق
تُش قِلر اُردَك يُغاق

«Akturur közüm yulak[22],
Tüş kılur ördək, yuğak».
Gözümdən bir çay axır,
Orda qaz, ördək toplaşır.

---

[21] Ərəblərin sözünün tərcüməsi belədir: «sısqa bir adam görüb onu həqir zənn etmə, bəlkə də o paltarın altında asi bir aslan var». (DLT-2005, s.670). Bu bizdə işlənən «papaq altda necə oğullar var və ya papaq altda necə oğullar yatır» məsəlinin ekvivalentidir.

[22] Bəsim Atalay bunun «yolak» ola biləcəyini yazır (DLT-III, s.17), ancaq yanılır. Ona görə ki, sözün kökü «yol» deyil, kiçik su mənbəyi, bulaq mənasına gələn «yul»dur.

(Deyir ki, gözümdən yaş çay kimi axır, bu çayda ördək və müxtəlif su quşları toplaşır).

يُلَق Y o l a k: cığır, iz, qırda olan kiçik yol.

يُلَق Y o l a k: «يُلَق بَرچِن yolak barçm = yol-yol cizgisi olan ipək parça». Üstündə cizgilər və zolaqlar olan hər şey üçün belə deyilir. Əsli [vav hərfi ilə] «يُولَق yolak»dır.

يتُک Y i t ü k: itik, itən şey. Bu məsəldə də işlənmişdir: « يتُکلِک آناسی قويُن آجار yitüklüg anası koyun açar = itik sahibinin anası axtarılmaq üçün qoyun açar», (itik sahibi yoxlamaq üçün hətta öz anasının qoynunu açdırar). Bu sözlə itik sahibinin öz itiyini hər yerdə axtarmaq haqqı olduğu vurğulanır.

يتِک Y i t i k: iti, kəskin, bülövlənmiş, ovxarlı. «يتِک بجاک yitik biçək = iti bıçaq». Qılınc və qılınca bənzər ağzı iti olan hər şey belədir.

يتِک Y e t i k: «آر يتِک yetik ər = işində bacarıqlı adam, çətin işləri bacaran».

يُرَک Y ü r ə k: ürək, qəlb. «يُرَکلِک yürəklig = ürəkli, igid adam».

يُرُک Y ö r ü k: təbir, yozma. «تُوش يُرُکی tüş yörügi = yuxu yozması».

يُرُک Y ö r ü k: sözün axarı, anlaşılması. «سوُز يُرُکی söz yörügi = sözün gedişi, axarı, anlaşılması».

يرُک Y i r ü k[23]: «يرُک اِشلار yirük işlər=bakirə olmayan qadm».

يرُک Y i r ü k[24]: «يرُک نانک yirük nənq = uzununa yarılmış, gözəlliyi getmiş olan hər nəsnə».

يرُک Y i r ü k: gədik, aşırım.

يُرُک Y ü z ü k: üzük. (Barmağa taxılan üzük).

---

[23] Bu söz anlaşılmır. Bizcə, bakirə olmayan, yaşlanmış qadın deməkdir.Digər tərəfdən, bu söz əvvəlinə y qəbul etmiş «iri=yekə, böyük» sözündən də ola bilər. O zaman «iri əndamlı qadın» kimi tərcümə edilməlidir. Digər nəşrlərdə də «yirük» sözü açılmır.

[24] Çinlilər bunu və üstdəki sözü «yerük» kimi oxumuşlar (DLT-Çin, III cild, s.16).

يزاك Y i z ə k: qoşunun öndə gedən bölüyü, öncül, avanqard.

يَنِك Y ə n i k: yüngül, xəfif.

يَسُل Y a s u l: yastı. «يَسُل تاغ yasul tağ = yastı dağ». Yastı və əngin olan hər yerə «يَسُل yasul» deyilir.

يشِل Y a ş ı l: yaşıl. Tünd yaşıla «يَب يَشِل yam yaşıl» deyilir. «يُشُل yuşul» sözü ilə birlikdə «يَشِل يُشُل yaşıl-yuşul» deyilir ki, «yaşıl-maşıl» deməkdir.

يَذِم Y a d h ı m: döşək, yayğı. «تولُك يَذِم tülüg yadhım = tüklü yayğı, xalı». Bu söz türkcə deyildir.

يَرِم Y a r ı m: bir şeyin yarısı, yarım. «المِلا يَرمی almıla yarımı = almanın yarısı». Başqası da belədir.

يَرِم Y a r ı m: hər hansı bir şeyin ikiyə bölünmüş hissələrindən biri. «بُتِق يَرمی butık yarımı = budağm yarısı». Bu sözün əsli «yarılmak» sözündəndir.

يشِم Y i ş i m: soyuqda dizlərə geyilən nəsnə, bir növ dizlik.

يغِم Y ı ğ ı m: «تُبراق يغِم yığım toprak = yığılmış torpaq». م m hərfi ن n hərfini əvəz etmişdir.

يَلِم Y a l ı m: «يَلِم قيا yalım kaya = dik, sıldırım qaya». Bu, sıldırım dağın ətəyidir. Bu atalar sözündə də işlənmişdir: « تَلِم سوزُك أقسا بُلماس. يَلِم قيا يقسا بُلماس təlim sözüg uksa bolmas, yalım kaya yıksa bolmas = çox söz anlaşılmaz, yalçın qaya yıxılmaz», (insan dağdan yalçın qayanı yıxa bilməz, eləcə də çox sözü anlaya bilməz). Bu, sözü uzatmaması tövsiyə olunan adama deyilir.

يَلِم Y ə l i m: tük və tükə bənzər şeylər yapışdırılan yapışqan, tutğal. Balıq yapışqanına «يَرُق يَلِم yaruk yəlim» deyilir.

بَين B a y ı n[25]: tünd qırmızı. Gəlincik çiçəyi rəngində olan hər hansı bir şey. Bu atalar sözündə də işlənmişdir:

قِلنـــو بلسا، قِزِل كذار

يَرانُو بلسا، يَشِل كذار

«Kılnu bilsə, kızıl kedhər,

Yaranu bilsə, yaşıl kedhər».

Özünü sevdirməyi bacarsa, qırmızı geyər,

Yarınmağı bacarsa, yaşıl geyər.

(Qadın gözəl görünməyi, özünü sevdirməyi bacarsa, qırmızı geyinər, naz etməyi, yarınmağı bacarsa, yaşıl geyər). Bu rənglərlə kişi qadını daha çox sevər demək istəyir.

يَتَن Y ə t ə n[26]: taxta yay. Onunla ox atılır.

يَتَن Y ə t ə n: həllac yayı, pambığı, yunu atmaq üçün istifadə olunan yay.

يَرن Y a r ı n: kürək sümüyü, çiyin sümüyü. Türklərin belə bir deyimi vardır: «يَرن بُلغسا ايل بُلغنور yarın bulğansa, el bulğanur = kürək sümüyü qarışsa, el qarışar»[27].

يُرُن Y u r u n: ipək parça. Bu sözdən alınaraq «يُرُن يُقا yurun yuka[28]» deyilir.

---

[25] Bəsim Atalayın bu sözlə və misalla bağlı üç qeydi vardır. 1. Bu bölmə y hərfi ilə başladığına görə, söz «بَين bayın» deyil, «يبين yipin» şəklində olmalıdır. «Divan»da «yipin» və «yipkin» sözü bir neçə dəfə keçir (III, s. 28, III, s.35). 2. Nümunədə «bayın» və ya «yipin» deyil, «قِزِل kızıl» sözü verilir. 3. Misaldakı «يَشِل yaşıl» sözünün ərəbcəsi doğru deyil (DLT, III, s. 21). Salih Mütəllibov da bu qeydlərlə razıdır (TSD, III tom, bet 27). Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər isə bu sözü Bəsim Atalayın təklif etdiyindən bir az fərqli imla ilə, yəni «yepün» kimi (DLT-2005, s.685), uyğurlar (TTD, III tom, bet 24) və çinlilər isə «yəpin» kimi oxumuşlar (DLT-Çin, III cild, s.17).

[26] Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər bu sözü «yatan», bundan sonrakı sözü isə «yatanq» (DLT-2005, s.673) kimi oxumuşlar. Uyğurlar (TTD, III tom, bet 25), eləcə də çinlilər (DLT-Çin, III cild, s.18) və Salih Mütəllibov hər iki sözü «yatan» imlası ilə vermişdir (TSD, III tom, bet 28).

[27] Əski türklər kürək sümüyünə baxaraq fal açır və gördükləri şeyə görə bəzi mənalar çıxarırmışlar. Bu söz həmin adətlə bağlı olmalıdır.

يَشِن Y a ş ı n: şimşək. Türklərdə belə bir hikmətli söz var: « كِمِنک بِلا قاش بُلسا يَشِن يَقماس kiminq bilə kaş bolsa, yaşın yakmas = kimin üstündə qaş olsa, ona şimşək toxunmaz». Qaş ləkəsiz, saf və ağ bir daşdır, üzüyə qoyulur. Üzüyün sahibinə şimşəkdən zərər gəlməz, çünki daşın təbiəti buna imkan vermir. Qaşı bir bezə sarıyıb oda atsalar, nə bez, nə də daş yanar. Bu, sınanmışdır. Bir adam susadığı zaman qaşı ağzma qoysa, susuzluğu gedər.

يغِن Y ı ğ ı n: «يغِن تُبراق yığın toprak = yığılmış torpaq, torpaq küməsi». Başqası da belədir.

يَقِن Y a k ı n: yaxm. «يَقِن يير yakın yer = yaxın yer».

يَقِن Y a k ı n: «يَقِن ار yakın ər = yaxm adam, yaxm qohum, doğma-əziz adam». Bu beytdə də işlənmişdir:

يَقِن يَغُق كُرمَذِب نانكنى كُدُور

قَدَش تَبا اِت كِبى قِينــكرُو بَقار

«Yakın-yağuk körmədhip nənqni ködhür,

Kadhaş taba ıt kibi kınqru bakar».

Yaxını-yavuğu körməyib öz malmı görər,

Qohum-qardaşa it kimi yan baxar.

(İnsanda vəfanm azlığından şikayətlənərək deyir: adamlar qohum-qardaşı deyil, ancaq malı, sərvəti görür, ona əhəmiyyət verir-

---

[28] Yazma və basma nüsxələrdə bu sözün ərəbcəsi verilməmişdir. Bəsim Atalay burada bir yanhşhq sezmişdir. Onun fikrincə, bu ifadə «يُرُن يَقا yurun yaka», yəni «ipək yaxa, ipək yaxahq» olmalıdır (DLT, III, s.22). Salih Mütəllibov da bu ehtimalı həqiqətə yaxın saymışdır (TSD, III tom, bet 28). Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər bu sözü «yurun yuka» kimi oxumuş, ancaq tərcüməsini verməmişlər (DLT-2005, s.713). Çinlilər də bunu «yurun yuka» kimi oxuumuşlar (DLT-Çin, III cild, s.18), lakin necə çevirdiklərini bilmirik. Uyğurlar isə «yurun yuka» kimi oxumuş və «uzunıslğa yırtılğan rəxt, ya ki ipək rəxt parçisi» kimi tərcümə etmişlər (TTD, III tom, bet 26). Bu, «uzununa kəsilmiş paltar, mələfə, yaxud ipək paltar» mənasına gəlir. Rəxt– paltar, mələfə, ev müxəlləfatı; yol azuqəsi; qoşqu ləvazimatı mənasına gələn çoxmənalı sözdür.

lər. Sümüyü başqasından gizləyən it kimi qohum-qardaşa yan gözlə baxırlar).

يكَن Y i k ə n[29]: bir növ otdur, bundan həsir toxunur.

يَلِن Y a l ı n: alov. «أوت يَلنى ot yalmı = oddan çıxan alov».

يُلُن Y u l u n: murdar ilik, qoxan ilik.

يلن Y e l i n: yelin, qısraq məməsi. Bütün dırnaqlı heyvanların məməsi bu sözlə ifadə olunur.

BUNUN BAŞQA BİR NÖVÜ

يَيغ Y a y ı ğ: «يَيغ كِشى yayığ kişi=əndək-döndək, hərdəmxəyal adam, gah buna, gah ona meyl edən adam».

يَيق Y a y ı k: «يَيق كِشى yayık kişi». Bu söz də bundan əvvəlki mənada işlənir. «Bişmiş ət» mənasındakı «يشغ اَت pışığ ət» və « يشق pışık» sözləri kimi.

يتم Y i t i m[30]: kətən toxumu. Bu, küncüt dənəsi kimidir, lakin qırmızı olur, yağından çıraqda istifadə edilir.

AXIRDA SƏSLİ HƏRF OLAN SÖZLƏR

يَبا Y a b a[31]: yaş və islaq olan hər hansı bir şey. Oğuzca.

---

[29] Salih Mütəllibov bu sözü «yikən» (TSD, III tom, bet 29), Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər isə «yigən» (DLT-2005, s.695) kimi oxumuş, «həsir otu, qamış» kimi çevirmişlər. Uyğurlar bunu «yikən» kimi oxumuş, «yikən» kimi çevirmişlər (TTD, III tom, bet 28). Deməli, həmin söz uyğurcada min ildən bəri eyni mənada işlənir. Çinlilər də «yikən» kimi oxumuşlar (DLT-Çin, III cild, s.20).

[30] «يتم» sözünün ərəb əlifbası ilə yazılışında bir qeyri-dəqiqlik olduğu barədə B. Atalayın qeydi var (DLT, III, s.24). Uyğurlar (TTD, III tom, bet 29) və Salih Mütəllibov onu «yim» (TSD, III tom, bet 30), çinlilər «yitim» (DLT-Çin, III cild, s.20), Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər isə «yayım» kimi (DLT-2005, s.677) oxumuşlar.

[31] Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər bu sözü «yıba» kimi (DLT-2005, s.688), bundan sonrakı sözü isə «yapı» kimi (DLT-2005, s. 661) oxumuşlar. Uyğurlar (TTD, III tom, bet 29) və çinlilər isə «yaba» və «yapı» kimi vermişlər (DLT-Çin, III cild, s.20).

يَبى Y a b ı: yəhərin üstünə və altına qoyulan keçə, yəhər yastığı. Çigilcə.

يَرو Y a r u: «يَرو يِلِم yaru yəlim = balıq yapışqanı».

يُرا Y ö r ə[32]: yörə, çevrə, bir şeyin ətrafı. Oğuzca.

يَرى Y a z ı: yazı, boşluq, açıqlıq, sahə.

يَسى Y a s ı: yastı, enli. «يَسى نانك yası nənq = yastı şey, enli nəsnə».

يَغى Y a ğ ı: düşmən.

يَڤا Y a w a[33]: oğuzlardan bir oymaq. و vav ilə «يَوا yava», الف əliflə «اَڤا awa» da deyilir.

يَفا Y a f a[34]: kolğan tikanı.

يَفا Y a f a: «yafa yer = tənha, hücra yer».

يَقا Y a k a: yaxa, paltar yaxası.

يَقى Y a k ı: «يَقى يُقى اَر yakı-yuku ər = yaltaq adam».

يَقُو Y a k u: yağmurluq, plaş. Əsli «ياغقُو yağku»dur, ixtisar olunmuşdur.

يكى Y i g i: «يغاج يكى yigi yığaç=budaqları bir-birinə girmiş böyük ağac. Bəzən ك g hərfi atılaraq «يى يغاج yi yığaç» da deyilir.

يكى Y i g i: «يكى تيش yigi tış = sıx diş» mənasındadır.

يكى Y i g i: «تَوُن يكى تِك ton yigi tik = paltarı sıx tik». Tikişə «يى yi» deyilir, əsli «يكى yigi»dir.

يَلا Y a l a: töhmət, ittiham, birinin haqqmda pis zənndə olmaq.

يَلا Y a l a: çörəyin, lavaşın bir növünə «يَلاجى يُغا yalaçı yuğa» deyilir. Çox incə olduğu üçün toxunan kimi öz-özünə qırılan çö-

---

[32] Salih Mütəllibov bu sözü «yura» kimi (TSD, III tom, bet 31) oxumuşdur.

[33] Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər bu sözü «yewə» kimi (DLT-2005, s.688) oxumuşlar. Onlar oğuz boylarmın adlarım göstərən siyahıda bu sözü ««ewə /yewə» kimi (DLT-2005, s.354) vermişlər.

[34] Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər bu sözü və bundan sonrakı sözü «yawa» kimi (DLT-2005, s.675) oxumuşlar.

rəyə belə deyilir. Adam çörəkçini «bunu sən qırdın» deyə ittiham edə bilər.

يُلا Y u l a: çıraq, qəndil. Bu beytdə də işlənmişdir:

تَكما ايڤت اَشقا كُرب ثُرغِل الا

جَقَمَق جَقِب اِيڤسا قلى اُذِنوُر يُلا

«Təgmə ewət ışka[35] körüp turğıl ala,

Çakmak çakıp ewsə kalı udhınur yula».

İş görərkən sakit ol, heç vaxt tələsmə, ey ər,

Çaxmaq çaxan tələssə, bil, çırağı söndürər.

(İşə hövllə başlama, işin gedişinə bax, sakit ol, çünki çaxmaq çaxarkən tələsən adam çırağı, qəndili söndürər).

يَلوُ Y a l u: dayçaları bağlamaq üçün istifadə olunan ip, çatı. Qısraqlar sağılan zaman dayçalar bir iplə bağlanır. Yaylaqda sağılmaq üçün qısraqlar dayçalarm ətrafmda dolanırlar.

يَمُو Y ə m ü: «bu sözü qəbul etdinmi, dediyimi eləməyi ağlm kəsdimi» mənasında bir sözdür. «سَن بَرغِل يَمُو sən barğıl, yəmü = sən get, yaxşımı». Əsli «يَه yəh»dir. Bu, «bəli» mənasmdadır. م، و [yəni –mü] isə sual şəkilçisidir.

يَنا Y a n a: yenə, təkrarən, ikinci dəfə. «يَنا كلدى yana kəldi = yenə gəldi, ikinci dəfə gəldi, təkrar gəldi».

BUNUN BAŞQA BİR NÖVÜ

يَيا Y a y a: insanm sağrısı, dalı. Yalnız insana şamildir.

يَوا Y a v a: suyu ilə tutmaca rəng verən bir bitki. Yumşaq w ilə «يَڤا yawa» da deyilir.

---

[35] Çinlilər mətnaltı haşiyədə verdikləri qeyddə «aşka» və «ışka» sözlərini hallandıraraq nəsə yazmışlar (DLT-Çin, III cild, s.22). Təəssüf ki, anlamaq mümkün deyil.

يَوا Y a v a[36]: «يَفا yawa» da deyilir. Oğuzlarm bir boyudur. Oğuzlar isti yerə «يَفا ييِر yafa yer» deyirlər. Yuxarıda dediyim kimi, و vav hərfi yumşaq w-yə çevrilmişdir.

FƏ'LƏL فعلِ BABI

يَتّى Y e t t i[37]: yeddi. «يَتّى قت كوُك yetti kat kök = yeddi qat göy».

FƏV'ƏL فوعَلِ BABI

يوُلِچ Y o l ı ç: keçi qılının dibindəki incə, yumşaq tük[38].

يُوغا Y u ğ a: yuxa, lavaş[39].

يَيغُق Y a y ğ u k: qısrağın məmələrinin ücü. Bəziləri «يَزغُق yazğuk» deyirlər. Qıpçaqca.

HƏR NÖV HƏRƏKƏSİ İLƏ فعالِ FƏ'AL BABI

يَنُوت Y a n u t: cavab. «سوُز يَنُوتى söz yanutı = sözün cavabı».

يَنُوت Y a n u t: əvəz, qarşılıq.

يغاج Y ı ğ a ç: ağac. Dörd dildə. «يغج» sözü də var.

ييار Y ı p a r: müşk, ənbər. Sərt ب ilə. [ب=پ=p ilə].

يُلار Y u l a r: at cilovu, yüyəni.

---

[36] Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər bu sözü «yevə» kimi (DLT-2005, s.688) oxumuşlar.

[37] ى y hərfindən sonrakı fəthəyə görə bu sözü «yətti» oxumaq mümkündür, ancaq biz tarixi orfoepiyaya uyğun olaraq «yetti=yeddi» kimi verdik.

[38] Bu sözün baba uyması üçün «yovlıç» şəklində olması lazımdır . Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər bunu «yovhç» kimi (DLT-2005, s.704) oxumuşlar.

[39] Bu söz də baba uyğun deyil, uyğun olması üçün «yuvğağ» olması lazımdır (DLT, III, s.27). Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər bunu «yuvğa» kimi (DLT-2005, s.713) oxumuşlar, ancaq bu oxunuş da baba uyğun deyil. Uyğurlar sözü «yuğa» kimi yazmış, ancaq baba uyğun olmadığı barədə müvafiq qeyd vermişlər (TTD, III tom, bet 34). Çincə tərcümədə bu haqda nə isə bir qeyd var (DLT-Çin, III cild, s.24).

يَمار Y a m a r: bir yer adı. Yabaku qırlarında böyük bir çay axır, adma «يَمار سوُقْى Yamar suwı» deyirlər.

يَداغ Y a d a ğ : piyada.

يَراغ Y a r a ğ: fürsət, imkan, tav. «ايش يَراغى ış yarağı = işin tavı, sırası, fürsəti, imkanı». «يَرَغ» da deyilir.

يَماغ Y a m a ğ: bu atalar sözündə də işlənmişdir: « بَرجِن يَماغى بَرجِنقا قرش يَماغى قرشقا barçm yamağı barçınka, karış yamağı karışka = ipək yamağı ipək parçaya, yun yamağı yun parçaya yaraşar». Bununla hər şeyin, hər kəsin babı var demək istənir.

يراق Y ı r a k: iraq, uzaq. «يراق يير yırak yer = uzaq yer». Qohumlardan və başqasmdan uzaq olan şeyə belə deyilir. Bu beytdə də işlənmişdir:

أغرَغِم كَندوُ يراق
بُلنَدى مـانـى قراق

«Oğrağım kəndü yırak,
Bulnadı məni karak».
Gedəcəyim yer uzaq,
Əsir etdi məni qara gözlüm.

(Gedəcəyim mənzil çox uzaqdır, ancaq sevgilimin qara gözləri məni əsir edib yolumdan qaytardı).

يَغاق Y a ğ a k: qoz, cəviz.

يَغوُق Y a ğ u k: yaxın. «يَغوُق يير yağuk yer = yaxm yer». Qohumlara « يَق يَغوُق yak - yağuk» deyilir.

يُناق Y o n a k: eşşək, öküz və sair heyvanların palanı altına qoyulan şey, çul, çuval parçası.

يَماك Y ə m ə k: türklərin bir boyu. Biz onları qıpçaqlardın bir boy saydıq. Halbuki qıpçaqlar da özlərini ayrı boy sayırlar.

يَغان Y a ğ a n: fil, (iki dilin - türkcə və türkməncə – birində). يَغان تِكين Yağan Tegin şəxs adı kimi işlədilir.

يُغُن Y o ğ u n: yoğun, qalın, şişkin.

يلان Y ı l a n: ilan. «اُق يلان ok yılan = özünü ox kimi insanm və başqa canlılarm üstünə atan ilan».

يلان Y ı l a n: «يلان يلى yılan yılı = türklərin on iki ilindən birinin adı».

يَمان Y a m a n: pis, yaman, (hər şeyin pisi). «يَمان ايک yaman ig = yaman xəstəlik, miskinlik xəstəliyi».

ORTASI SÜKUNLU فعلى FƏ'Lİ BABI

يَلبى Y a l b ı: yastı. «يَلبى نانک yalbı nənq = ağacdan oyulmuş olan enli hər şey», (dayaz boşqab kimi).

يَرتُو Y a r t u: yonqar, talaşa. Buna bənzədilərək üzərinə bir şey yazılan lövhəyə, taxtaya da «يَرتُو yartu» deyilir.

يرجُو Y e r ç ü: sin daşı, məzar.

يُرجى Y o r ç ı: mahir bələdçi, usta qılavuz.

ينجُو Y i n ç ü: inci. Cariyələrə də «ينجُو yinçü» deyilir. Bu məsəldə də işlənmişdir: «اوتلک ينجُو يِيردا قلماس ötlüg yinçü yerdə kalmas =deşilmiş inci yerdə qalmaz», (dəlinmiş inci yerdə qalmaz, onu bir alan tapılar). Bu söz cariyələrin uzun müddət bakirə qala bilməyəcəklərini, nəhayət, onları da alan tapılacağmı bildirmək üçün söylənir. Oğuzlar və qıpçaqlar ى y hərfini ج ç-yə çevirərək buna «جِنجُو çinçü» deyirlər.

يُغدُو Y o ğ d u: dəvənin çənəsinin altmdakı uzun tüklər.

يكدا Y i g d ə: iydə.

يَمدُو Y a m d u: qasıq.

يُندى Y u n d ı: yeməkdən sonra qabm yaxantısı.

يَبرى Y a p r ı: «يَبرى يير yaprı yer = düz və enli yer».

يِيرى Y a p r ı: «يَبرى قُلاق yaprı kulak = palaz qulaq».

يَشرُو Y a ş r u: gizli. «أل يَشرُو كلدى ol yaşru kəldi = o, gizlin gəldi», « يَشرُو ايش yaşru ış = gizli iş».

يُغرُو Y o ğ r u: dəvə tükünün uzun olanları. «يُغرُوى yoğruy» da deyilir. Bu sözdəki ر r hərfi د d hərfini əvəz etmişdir. Ərəb dilində də belə şey var. Məsələn: «عَكَدَهُ » və «عَكَرَهُ ».

يَغرُو Y a ğ r u: çevrə, yaxınlıq. «أل انكَرَ يَغرُو يُريماس ol anqar yağru yorımas = o onun həndəvərinə yaxın getməz». Bu sözün başqa bir variantı «يَقرُو yakru»dur, burada hərf dəyişməsi (غ < ق) baş vermişdir. Ərəb dilində də belə hallar çoxdur. Məsələn: «يَقرُبُ» sözü « يَقرُو » olur, b hərfi vava çevrilir.

يُغرى Y o ğ r ı: qab-qacaq. Bu məsəldə də işlənmişdir: « اَش تَتِغى توُز. يُغرين ييماس aş tatığı tuz, yoğrm yeməs = aşın dadı duzdur, duz qabda yeyilməz», (qabda ancaq duz yeyilməz). Bu söz qənaətlə dolanması tövsiyə olunan adama deyilir.

يَقرى Y a k r ı: iç yağı, piy. Bu beytdə də işlənmişdir:

يِشرلاوُر يَقرى قِياق
تُشغُرُر يُغرى جَناق

«Pışrılur yakrı kıyak,
Toşğurur yoğrı çanak».
Bişirilər kərə yağı, piy və yağ,
Onlar ilə dolub-daşar qab-qacaq.

(İç yağı, piy, qaymaq bişilirər, qab-qacağı doldurar).

يَخشى Y a x ş ı: yaxşı, gözəl, hər şeyin gözəli. «يَخشى نانك yaxşı nənq = yaxşı nəsnə», «يَخشى ايش yaxşı ış = gözəl iş».

يَرشى Y a r ş ı: bir şeyi yarıya bölən şəxsin adı. Bu söz bir şeyin yarısı mənasına da gəlir. «أنِك يَرشيسى يوُ anınq yarşısı bu=onu ya-

rıya ayıran, bölən budur», «اُل مَنِک برلا تام يَرشی ol məninq birlə tam yarşı = o mənimlə divarda yarı-yarıya ortaqdır, divar aramızda pərdədir».

يَفغُو Y a f ğ u: xaqandan iki dərəcə aşağı mövqedə olan adama verilən ləqəb.

يَفغُو Y a f ğ u: Barsğan yaxınlığında bir şəhər adı. Həmin şəhərin yaxmlığındakı bir təpəyə də bu ad verilərək «يَفغُو ارت Yafğu art» deyilir.

يُفغا Y u f ğ a: oğulluq, oğulluğa götürülmüş.

يَلغا Y a l ğ a: «قرا يَلغا Kara Yalğa = türk diyarı ilə Fərqanə arasında sıldırım bir yer». Bu nıəsəldə də işlənmişdir: « قرا موُنک كَلمَكنِجا قرا يَلغا كَجما kara munq kəlməginçə Kara Yalğa keçmə = qara bəla gəlmədikcə Kara Yalğanı keçmə», (qara bəla gəlmədikcə, məcbur qalmadıqca bu sıldırım yeri keçmə, çünki sarpdır və həmişə qarlıdır).

يَلغُو Y a l ğ u: axmaq, gicbəsər, beyinsiz. Oğuzca.

يَلقُی Y a l w ı[40]: əfsun, sehr, tilsim. Sehrbaza «يَلقُجی yalwıçı» deyilir. Bu şeirdə də işlənmişdir:

يَلقِـــن اَنِک کوُزی
يَلکِـــن اَنِک اوُزی
توُلـــن آين يوُزی
يَردی مَنِنک يوُراک

«Yalwın anmq közi,
Yəlkin anınq özi,
Tolun aym yüzi,

[40] Uyğurlar (TTD, III tom, bet 42) və çinlilər (DLT-Çin, III cild, s.30) bu sözü «yəlvi», şeirdəki «yalvın» sözünü isə «yəlvin» şəklində oxumuşlar. Salih Mütəllibov bu sözü «yalwı» kimi (TSD, III tom, bet 40) vermişdir.

Yardı məninq yürək».
Sehrlidir gözü,
Bir qonaqdır özü,
Dolunaydır üzü,
Parçalandı ürəyim.

(Sevgilisindən bəhs edərək deyir: onun gözündə sehr var, onunla ovlayır, özü içimdə qonaqdır, üzü isə on dörd gecəlik ay kimidir, məni baxışları ilə vurdu, ürəyim yarıldı, parçalandı).

يُقْقا Y u w k a: hər şeyin incəsi, zərifi; yuxa, lavaş. Bu məsəldə də işlənmişdir: «اَناسی تَقْلَک يُقْقا يَپار اُغلی تَتِک قُشا قبار» anası tewlük, yuwka yapar, oğlı tətik, koşa kapar = anası bicliklə lavaşı nazik, incə yapar, oğlu isə tətik, diribaş olduğu üçün qoşa-qoşa qapar», (anası uşağı aldatmaq üçün bicliklə çörəyi incə yapar, uşaq isə zirək olduğu üçün çörəyi iki-iki qapar). Bu söz iki hiyləgərin qarşılaşması zamanı deyilir.

يُبقا Y u p k a: yuxa. Bu söz ف f ilə də deyilir, ب p hərfi ف f hərfinin yerində işlənir. Bu xüsusiyyət ərəbcəyə də məxsusdur: «اُسرُف، اُسرُبّ، مَصطَبَة، مَصطقة، پانيذ ». Son söz ərəbcələşdirilərək «فانيذ» şəklinə düşmüşdür.

يلقى Y ı l k ı: dörd ayaqlı heyvanlara verilən ümumi ad; sürü, ilxı.

يَرما Y a r m a: «يَرما يُوغا yarma yuğa=bir lavaş (?) növü». Uzununa yarılan hər şeyə belə deyilir.

يَغما Y a ğ m a: türklərin bir boyunun adı. Bunlara «قرا يَغما kara yağma» da deyilir.

يَفما Y a ğ m a: Taraz yaxınlığmda bir kəndin adı. Kənd bu adı yağmalardan almışdır.

يَلما Y a l m a: kaftan, qalın kaftan, yağmurluq; yapıncı. Farslar bu sözü türklərdən alaraq «يَلمه yalmah» [«yəlmə»], ərəblər də

farslardan alaraq «يَلمَق yəlmək» şəklində işlədirlər, ه h hərfini ق ka-ya çevirmişlər. Ərəblər eyni şəkildə «كَنده kəndə» sözünü «خَندَق xəndək», «يارَن yaran» kəlməsini isə «يارَق yarak» etmişlər. Ərəb şairi Zü r-Rümmə[41] həmin sözü bu misrada işlətmişdir: «كَأنَّهُ مُنقَبّى يَلمَق عَرَبُ ». Heç kim çıxıb türklər bu sözü farslardan almışdır deyə bilməz. Çünki mən onu sərhədlərin lap o biri ucunda savadsız, cahil türklərin dilindən də eşitdim. Onların diyarmda yağış çox yağır, onlara yapıncı hər kəsdən daha çox lazımdır.

يَزنا Y e z n ə[42]: böyük bacmın əri.

يكنا Y i g n ə: iynə. İri iynəyə, çuvaldıza «تَمَن يكنا təmən yignə» deyilir.

BU BABIN MATVİ[43] OLAN SÖZÜ

يُمغى Y u m ğ ı: toplu, çox. «يُمغى نانك yumğı nənq = çoxlu şey», « كِشى يُمغى كلدى kişi yumğı kəldi = camaat topa halında gəldi».

HƏR NÖV HƏRƏKƏSİ İLƏ فعالى FƏ'ALİ BABI

يَلاجى Y a l a ç ı: «اَر يَلاجى yalaçı ər=hər şeydə insanı günahkar sayan, ittiham edən kimsə, şərxata».

---

[41] Uyğurlar (TTD, III tom, bet 45), çinlilər (DLT-Çin, III cild, s.32), Salih Mütəllibov (TSD, III tom, bet 42) və Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər (DLT-2005, s.654) bu şairin adını ذُوالرُّمَّه şəklində göstərmişlər. Zü r-Rümmə (696-735) Əməvilər dövrünün böyük şairlərindən biri olmuş, qədim ərəb şeir ənənələrini sədaqətlə davam etdirmişdir. Onun şeirinin tərcüməsi belədir: كَأنَّهُ مُنقَبّى يَلمَق kə-ənnəhu mutəqəbbi yalmakin = o sanki yalmak geymişdi. Yəni o, türklərin yalma dedikləri yapıncı geymiş kimiydi.

[42] Çinlilər bu sözü «yəznə» kimi vermişlər (DLT-Çin, III cild, s.32). Biz bu tipli bəzi sözləri e ilə veririk.

[43] Sözün tərkibində hərfi-illət varsa, ona «matvi» deyilir.

يَلاجى Y a l a ç ı: lavaşın bir növünə də «يَلاجى يوُغا yalaçı yuğa» deyilir, çünki ona toxunan kimi qırılır.

يُباغوُ Y u b a ğ u: «يُباغوُ ايش yubağu ış = üzərində durulmaması, əhəmiyyət verilməməsi lazım olan iş».

يُريغوُ Y o r ı ğ u: «يُريغوُ يير yorığu yer = gəziləsi-gediləsi yer». Bu, məkan ismidir, zaman ismi də belədir.

يراغوُ Y ı r a ğ u: çalğıçı; müğənni, şərqiçi.

يَشاغوُ Y a ş a ğ u: «بوُ ار اُل اُزوُن يَشاغوُ bu ər ol uzun yaşağu = uzun yaşamaq bu adamın haqqıdır». İsmi-zaman və ismi-məkan da belədir.

يَماغوُ Y a m a ğ u: «بُو توُن اُل يَماغوُ bu ton ol yamağu = bu paltarı yamamağa dəyər, yamanmaq bu paltarın haqqıdır».

يَباقوُ Y a b a k u: türklərin bir boyu.

يَبلاقوُ Y a b a k u: yun yoluntusu. Başdakı tük keçə kimi olduqda « يَباقوُ يُلدى yabaku boldı» deyilir.

يَبلاقوُ Y a b a k u: «يَباقوُ سُقى Yabaku suwı = öz mənbəyini Kaşğar dağlarından alan, Fərqanə ilə Özçənd arasında axan çay».

يُلاكوُ Y ü l ə g ü: dəstək, dayaq. «يُلاكوُ نانك yüləgü nənq = dəstək olan, dayanılan nəsnə».

يَنيكوُ Y ə n i g ü: «يوُ اُراغت اُل يَنيكوُ bu urağut ol yənigü = bu qadın doğmaq üzrədir».

HƏR NÖV HƏRƏKƏSİ İLƏ فعلان FƏ'LAN BABI

يَبجان Y a p ç a n: yovşan. ب p hərfini ف f-ə çevirməklə «يَڤجان yawçan» da deyilir. Bu qayda barədə danışmışıq.

يمشان Y e m ş ə n: qıpçaq diyarında bitən bir yabanı meyvəsinin adı.[44]

يَقغان Y a w ğ a n: yavan. «يَقغان اَش yawğan aş = yavan aş, içində ət olmayan yemək».

يَلغان Y a l ğ a n: yalan. Bəzən bu söz sifət olur: «يَلغان كِشى yalğan kişi = yalançı adam», «يَلغان سوُز yalğan söz = yalan söz».

يَلغوُن Y ı l ğ u n: yulğun, yulğun kolu.

يبكين Y i p k i n[45]: «يبكين نانك yipkin nənq = qonur rəngli, tünd qırmızı, ərğuvan rəngində olan nəsnə».

يَلكِن Y ə l k i n: qonaq. «يَلكِن اَتلِغ yəlkin atlığ = atlı qonaq». Oğuzlar ى y əvəzinə الف əliflə bu sözə «اَلكِن əlkin» deyirlər.

يَملان Y a m l a n: gəmiricilərdən olan bir siçan növü .

فعيلان FƏ'İLAN BABI

يَتيكان Y e t i g ə n[46]: «yeddi qardaş» adı verilən ulduz, Böyük Ayı bürcü.

يَسيمان Y a s ı m a n: su boşaldarkən boğazı qur-qur edən kuzə.

يَليمان Y a l ı m a n: adda-budda baş verən çapulçuluq, talançılıq.

فعَلى FƏ'ƏNLİ BABI

يُنندى Y o n ı n d ı: yonqar, talaşa.

Üç hərflilər və onlara əlavə olunanlar bölməsi bitdi.

---

[44] Bəsim Atalayın qeydinə görə. «يمشان» sözü bu gün də Anadoluda «yemşan» şəklində işlədilir, tikanlı bir kolun üstündə bitən qırmızı, kiçik meyvələrə deyilir (DLT, III, s.37). Bu, bizdəki yemişan kolu və meyvəsidir. Salih Mütəllibov bu sözü «yımşan» (TSD, III tom, bet 44), çinlilər «yemşən» kimi oxumuşlar (DLT-Çin, III cild, s.34).

[45] Çinlilər bu sözü «yepkin» kimi oxumuşlar (DLT-Çin, III cild, s.34).

[46] «Yeddi» sözü ilə bağlı olduğu üçün bu sözü «yətigən» deyil, «yetikən» kimi oxuduq.

DÖRD HƏRFLİLƏR BÖLMƏSİ

يَبغُت Y a p ğ u t: yun və ya tük didintilərindən doldurulmuş mindər və buna bənzər şeylər.

يَبتَج Y a p t a ç: yağışda, qarda çobanların geydikləri kiçik bir yapmcı.

يَبغَج Y a p ğ u ç: eşşək və ona bənzər heyvanları sürmək üçün işlədilən dəyənək.

يَسغاج Y a s ğ a ç: urva taxtası, xəmir yaymaq üçün işlədilən taxta. Əsli «يَسى يغاج yası yığaç»dır, «yastı ağac» deməkdir.

يَغمُر Y a ğ m u r: yağmur, yağış.

يَمغُر Y a m ğ u r: yağmur. Bu məsəldə də işlənmişdir: « نَجاما اُبرَق كَدُک اَر سا يَغمُرقا يَرار neçəmə oprak kedhük ərsə yağmurka yarar = paltar nə qədər köhnə olsa da, yenə yağmurda işə yarayar», (yapıncı nə qədər köhnəlsə də, yağmurda kara gələr). Bu söz xidmətçilərindən birini axmaqlığı və ya zəifliyi üzündən qovmaq istəyən adama deyilir və «necə olmasa, onun da yaradığı bir iş var, ondan həmin işdə istifadə et, özün dincəl» mənasında işlənir. Bu şeirdə də işlənmişdir:

قَيدى بُلُت يَغمُرن
كَرب تُتاراق تُرين
قِرقا قُذتى اُل قَرن
اَقِن اَقرانكرَشوُر

«Koydı bulut yağmurın,
Kərip tutar ak torın,

Kırka kodhtı ol karın,
Akın akar, ənqrəşür».
Qoydu bulud yağmurunu,
Gərib tutdu ağ torunu,
Qıra tökdü öz qarını,
İnləyərək axar sel.

(Bulud səmaya öz ağ torunu gərdi, yağışını qırlara, qarmı isə dağlara tökdü, dağlardan inləyərək, uğuldayaraq sel axır).

يَرپُز Y a r p u z: yarpız, gözəl rayihəli bir ot, qır nanəsi.

يَرپُز Y a r p u z: ilan yeyən bir heyvan, firon siçanı, manqust. Bu məsəldə də işlənmişdir: «يلان يَرپُزدِن قَجار. قنجا يَرسا يَرپُز اُترُو كَلر yılan yarpuzdın kaçar, kança barsa, yarpuz utru kəlür = ilan yarpızdan qaçar, hara getsə, qabağına yarpız çıxar»[47]. Bu söz sevmədiyi şeydən çəkinən, ancaq yenə də o şeyə yaxalanan adam haqqmda deyilir.

يُلدُز Y u l d u z: ulduzlara verilən ümumi ad. Müştəri ulduzuna Ərəntüz, Mizan ulduzuna Karakuş, Sürəyyaya Ülkər, Yeddi qardaş ulduzuna Yetigən, Qütb ulduzuna Təmür-kazuk, Mərrix ulduzuna Bakırsokım deyilir[48].

---

[47] Dilimizdəki «ilanın zəhləsi yarpızdan gedər, o da gəlib yuvasının ağzında bitər» şəklindəki atalar sözünün əsil mənası indi anlaşılır. Buradakı «yarpız» sözü əslində bitki deyil, firon siçanı imiş. Çünki yarpız xoş ətirli bir bitkidir və ilanın ondan zəhləsi gedə bilməz. İlanın zəhləsi yuvasının ağzında «bitən», yəni dikəlib duran və onu gözləyən firon siçanından, manqustdan gedirmiş...

[48] «Divanü lüğat-it-türk»də 7 planetin (yulduz) və 12 bürcün (ükək) türkcə adlarına rast gəlirik. Sonralar türk dillərində onların yerini əsasən ərəbcə və farsca terminlər, müasir dövrdə isə latın mənşəli terminlər tutmuşdur. Konkret olaraq bu maddəyə gəlincə, burada bəzi yanlışlıqlar vardır. Məsələn, yazma nüsxənin 51-ci səhifəsində Mizan ulduzuna Ərəntüz deyildiyi halda, burada həmin ulduz Müştəri adlandırılır. Yazma nüsxənin 167-ci səhifəsində isə Qaraquş ulduzuna Müştəri ulduzu deyilmişdir, bu maddədə həmin ulduz Mizan adlandırılır. Bu mövzu Mahmud Kaşğarinin müasiri, dahi türk şairi və mütəfəkkiri Yusif Xas Hacib Balasağunlunun «Qutadğu Bilig» poemasında daha geniş və dəqiq şəkildə işlənmişdir. Məlumat üçün bax: Ramiz Əskər. Qutadğu Bilig, Bakı, Elm, 2003, s. 88-89.

يلدز Y ı l d ı z: ağacm kökü, damarı. İnsanın soyu da buna bənzədilərək «ثوبلك يلدزلغ tüblüg yıldızlığ» deyilir ki, «əsalətli, nəcabətli, köklü» deməkdir.

يلسوز Y o l s u z: yolunu azan adam. Əsli [و vav ilə] «يولسوز»dur.

يردش Y e r d ə ş: həmyerli. «يردش كشى yerdəş kişi = həmyerli adam». Bu, iki adamın eyni şəhərdən olmasıdır. Onlar bir-birinə «يردش yerdəş» deyirlər. Oğuzca.

يرمش Y a r m a ş: yaxşı döyülmüş bulğur və buna bənzər şeylər[49].

يرمش Y a r m a ş: «يرمش اوُن yarmaş un = narm un». Bu iki söz məna etibarilə bir-birinə zidd olsa da, kökləri birdir.

يغرش Y u ğ r u ş: türklərə görə, xalq içindən çıxıb vəzirlik dərəcəsinə çatan bir adamdır. Nə qədər varlı olursa-olsun, bu ünvan bir farsa, yaxud başqasma verilə bilməz[50]. Yuğruş xaqandan bir dərəcə aşağıdır. Ona qara ipəkdən bir çadır (çətir?) verilir. Yağışda, qarda, istidə başı üstündə tutulur.

يُنجغ Y u n ç ı ğ: «يُنجغ ايش yunçığ ış = pozuq, perspektivsiz iş».

يُنجغ Y u n ç ı ğ: «يُنجغ اَر yunçığ ər = zəif, cılız, arıq, xəstəhal adam». Bu şeirdə də işlənmişdir:

اَذلك اَرغ كَقْرَدى

يُنجـغ يَقُز تَقْرَدى

اَردَم يـما سَقْرَدى

اَزْن بَـكى جَرتِلوُر

«Ödhlək arığ kəwrədi,

---

[49] Salih Mütəllibov bu sözü «kraxmal» (TSD, III tom, bet 47), uyğurlar «yarma» (TTD, III tom, bet 52), Seçkin Ərdi ilə Srap Tuğba Yurtsevər isə «pis üyüdülmüş, qalın, qaba un» kimi (DLT-2005, s.667) tərcümə etmişlər.

[50] «Farsa, yaxud başqasına» ifadəsi həm Salih Mütəllibovda (TSD, III tom, bet 47), həm də uyğurlarda (TTD, III tom, bet 54) var. Lakin Seçkin Ərdi və Sərap Tuğba Yıırtsevər həmin cümləni belə çevirmişlər: «Bu işə yararlı və geniş tərəfdar kütləsinə malik olsa da, atlı bir savaşçıya [süvariyə], yaxud ona bənzər bir şəxsə bu ünvan verilə bilməz» (DLT-2005, s.706).

Yunçığ yawuz tawradı,
Ərdəm yemə sawradı,
Ajun bəgi çərtilür».
Dövran tamam zəiflədi,
Miskinlər, pislər davrandı,
Ərdəm yenə sovruldu,
Dünya bəyi yox olur.

(Dövran zəiflədi, miskinlər, düşkünlər davranıb qabağa düşdülər, dünyanın bəyi Əfrasiyab öldükdən sonra zəmanənin insanları fəzilətdən, ərdəmdən uzaqlaşdılar).

يُرتُغ Y o r t u ğ: savaş günündə və ya bir yerə gedərkən xaqanın yanında olan adamlar, məiyyət.

يَرلِغ Y a r l ı ğ: yoxsul, biçarə. Bu sözdən almaraq « يَرلِغ اَر yarhğ ər» deyilir ki, «rəhm edilən adam» deməkdir.

يَرلِغ Y a r l ı ğ: xaqanın məktubu, fərmanı, buyruğu. Çigilcə. Bu sözü oğuzlar bilmirlər.

يَشلِغ Y a ş l ı ğ: «يَشلِغ كوز yaşlığ köz = yaşlı göz».

يَشلِغ Y a ş l ı ğ: yaşlı. «يَشلِغ اَر yaşlığ ər = yaşlı adam». Gənc olmayan heyvanlar üçün də belə deyilir. Əsli «ياشلِغ»dır.

يَملِغ Y a m l ı ğ: «يَملِغ كوز yamlığ köz = çöp düşən göz». Əsli «يامِلغ»dır.

يَبغاق Y a p ğ a k: quş ovunda istifadə edilən bir tələ növü.

يَتغاق Y a t ğ a k: xaqanın və ölkənin qoruyucusu, mühafizi, keşikçisi. «يَتغاق يَتّى yatğak yattı = keşikçi yatdı»[51].

---

[51] Bəsim Atalayın ciddi tənqidə məruz qaldığı bir söz də budur. Opponentləri bu tənqiddə haqlıdırlar. Çünki «yatğak» termini hətta Osmanlı dövründə də işlənmişdir, mənası «qarovulçu, mühafiz, keşikçi» deməkdir. «Yatğak yattı» sözü «keşikçi uyudu» deyil, «keşikçi gecəni keşik çəkərək keçirdi» deməkdir. Salih Mütəllibov bu nüansın fərqinə varmamış, «mühafizəçi adam yatdı» kimi (TSD, III tom, bet 49) çevirmişdir. Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər «yatğak yattı» cümləsini «adam gecəni qarovulda keçirtdi» (DLT-2005, s.673), uyğurlar isə «keşikçi gözət kıldı» (TTD, III tom, bet 56) şəklində tərcümə etmiş, Hüseyn Düzgün də doğru çevirmişdir (د ل ت s.459).

يُذرُق Y u d h r u k: yumruq. Bu atalar sözündə də işlənmişdir: « ياتـ نِـک ياغلِغ تِکوُسِنداً اُوزنُک قانلِغ يُذرُق بيک yatnınq yağlığ tiküsindən öznünq kanlığ yudhruk yeg = yadın yağlı tikəsindən özünün qanlı yumruğu yaxşıdır», (qohumun yumruqla vurması yadın yağlı tikəsindən yaxşıdır). Bu söz qohumlar arasında inciklik düşən zaman onları barışdırmaq üçün söylənir.

يَرمَق Y a r m a k: pul.

يَستُق Y a s t u k: yastıq.

يَقلَق Y a w l a k: pis, yava, dəyərsiz. «يَقلَق کِشی yawlak kişi = bədxasiyyət adam».

يَقلاق Y a w l a k: pis, düşkün. Hər şeyin pisi. Oğuzca və qıpçaqca. Bu şeirdə də işlənmişdir:

کُلسا کِشی يُزينکا
کُرکلُک يُزن کُرُنکِل
يَقلـــق کُدَز تِلِکنی
اَذکوُ سَقُغ تِلنکِل

«Külsə kişi yüzinqə,
Körklüg yüzin körüngil,
Yawlak ködhəz tılınqnı
Edhgü sawığ tiləngil».
Gülsə biri üzünə,
Göstər görklü üzünü,
Ad-san dilə özünə,
Diqqətlə seç sözünü.

(Əgər bir adam sənin üzünə gülsə, sən də onu gülər üzlə qarşıla, dilini pis sözlərdən qoru ki, adın-sanın elə yayılsm).

يَقلاق Y a w l a k: «يَقلاق سَرغ Yawlak Sarığ» bir bəyin adı idi.

يَقْلاق Y a w l a k: «يَقْلاق yawlak» sözü «şiddətli, qatı, sərt» deməkdir. «يَقْلاق قَتِغ يغاج yawlak katığ yığaç = çox sərt ağac».

يُمغاق Y u m ğ a k: yumaq, yuvarlanan və yuvarlaq olan hər şey. « يُمغاق تَنا yumğak tənə=yuvarlaq danə». Uç ləhcəsində. Zənnimcə, «tənə» sözü farsca «danə» sözündən alınmışdır, türklər onu türkcələşdirərək «تَنا tənə» demişlər.

يُمشاق Y u m ş a q: yumşaq, hər şeyin yumşağı.

يَنْدَق Y a n d a k: «يَنْدَق تِكان yandak tikən = gəvən tikanı».

يَنْدَق Y a n d a k: «يَنْدَق جَكَر yandak çəkər = havadan şeh kimi ağaclarm üstünə yağan şirə, filloksera».

يَنْدِق Y a n d ı k: soysuz. «يَنْدِق لَت yandık at[52] = soysuz at».

يُنْدَق Y u n d a k: at peyini, təs. Yalnız atlarla bağlı işlədilən sözdür. Bu məsəldə də işlənmişdir: «يَغينک ارسا كَرَل يُنْدَقى تكير yağınq ərsə kərəl[53] yundakı təgir = düşmənin olsa da təsi qalar», (qoy düşmənin də mal sahibi olsun, barı atmın təsi qalar, onu yandırıb qızmarsan).

يُنغق Y u n ğ a k[54]: kökü sabun kimi köpüklənən bir bitki.

[Qayda]:

Bilməlisən ki, fe'l kökünə artırılan ق ka hərfi alət ismi yaradır. Məsələn, «اوُردى ordı» sözündən alınan «أرغاق orğak» sözü kimi.

---

[52] Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər bu misalı «bir qüsuru, şikəstliyi olan at» kimi çevirmişlər (DLT-2005, s.658).

[53] Bu söz mətndə «كَرَل kərəl» şəklindədir, ancaq «كَرَك kərək» olmalıdır. Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər (DLT-2005, s.711) və uyğurlar bunu «kərək» kimi (TTD, III tom, bet 59) oxumuşlar. Salih Mütəllibov da müvafiq qeyd vermişdir (TSD,III, bet 51)

[54] Bu söz mətndə «يُنغُق yunğuk» şəklindədir. Bəsim Atalayın fikrincə, əslində «يُنغق yunğak» olmahdır (DLT, III, s.45). Salih Mütəllibov onu «yanğuk» kimi (TSD, III tom, bet 52), uyğurlar (TTD, III tom, bet 59), çinlilər (DLT-Çin, III cild, s.43) və Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər «yunğuk» kimi (DLT-2005, s.711) oxumuşlar.

Bu «يُنغاق yunğak» sözü də «يُودى yudı» sözündən yaranmışdır. Mənası «yumaq» deməkdir.

يَنلِق Y a n l ı k: yanlıq, çoban heybəsi, dağarcıq.

يَنجُق Y a n ç u k: kisə, pul kisəsi, tütün kisəsi.

يُدرُک Y ü d r ü k: yüklük; üstünə paltar və ya əşya qoyulan şey; dolab, masa və buna bənzər şeylər.

يُزلُک Y ü z l ü g: «اِکی يُزلُک ار iki[55] yüzlüg ər = ikiüzlü adam».

يُزلُک Y ü z l ü g: «اکی يُزلُک کُزنکو iki yüzlüg köznqü = ayna».

يُکرُک Y ü g r ü g: «يُکرُک اَت yügrüg at = qaçağan at, yüyrək at».

يُکرُک Y ü g r ü k: Oğuzlar ağıllı, bilikli, hikmət sahibi adamlara « يُکرُک بلکا yügrük bilgə» deyirlər.

يُکسَک Y ü k s ə k: «يُکسَک تاغ yüksək tağ = yüksək dağ, hündür dağ». Hər hansı bir şey hündür, yüksək və uzun olsa, ona «يُکسَک yüksək» deyilir. Bu, quş tükü mənasına gələn «يُوک yük» sözündən almmışdır. Çünki onun təbiətində yüksəlmək vardır. Beləliklə, hər yüksək şeyə bu ad verilmişdir. Bu beytdə də işlənmişdir:

اُس اَس کُرُب، يُکسَک قلِق قُودى جَقار

بلـــــــکا کِشى اُکت برب تَقرق اُقار

«Üs əs körüp yüksək kalık kodı çakar,
Bilgə kişi ögüt berip tawrak ukar».
Kərkəs quşu leşi yüksəkdən görüb aşağı enər,
Bilgə kişi öyüd verib tez anlayar.

(Kərkəs quşu[56] yüksəkdən uçarkən leşi görüb tez aşağı şığıyar, bilgə kişinin ovu isə öyüd-nəsihətdir. Ağıllı adam öyüdü eşidən kimi tez əzbərləyər və yadında saxlar).

---

[55] Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər bu və bundan sonrakı misalda verilən «iki» sözünü hər yerdə olduğu kimi burada da «ekki» kimi (DLT-2005, s.719) oxumuşlar.

يُكسَک Y ü k s ə k[57]: üsküк, barmaq qabı. Tuncdan, yaxud dəridən hazırlanır, dərzilər iynə batmaması üçün onu barmaqlarına taxırlar.

يلبک Y e l p i k: cin vurması, yel çarpması. «ارکا يلبک تکدی ərgə yelpik təgdi = adama yel toxundu»

يبکِل Y i p k i l: ərğüvan rəngi. «يبکِل تونْ yipkil ton = ərğüvan rəngində paltar». Burada ل l hərfi ن n hərfini əvəz etmişdir[58].

يَرتِم Y a r t ı m: ayrılmış. «بر يَرتِم بُدُون bir yartım budhun = xalqdan ayrılmış bir bölük».

يُغرُم Y o ğ r u m: «بير يُغرُم اوْن bir yoğrum un = bir dəfə yoğrulacaq qədər un, bir xəmirlik un»[59].

يَتِرُم Y e t r ü m: buraxılmış. «يَتِرُم سَچ yetrüm saç = buraxılmış saç», (ilk saç qırxıldıqdan sonra buraxılan saç?)[60].

يَرشِم Y a r ş ı m: «بير يَرشِم يير bir yarşım yer = at yarışı keçiriləcək böyüklükdə yer; qoşmaq, qaçmaq yarışmaq üçün yer».

يُکرُم Y ü g r ü m: «بير يُکرُم يير bir yügrüm yer = bir dəfəyə yüyürüləcək, qət ediləcək qədər yer, bir nəfəsə qaçılacaq yer».

---

[56] Beytin uyğurca tərcüməsində kərkəs quşunun «tapquş», leşin isə «tapnı» adlandırıldığını gördük (TTD, III tom, bet 61). Deməli, «tapquş», yəni kərkəs hərfi mənada «leşyeyən» deməkdir.

[57] Karl Brokkelmanın və Bəsim Atalayın fikrincə, bu söz «يُکسُک yüksük» şəklində olmahdır. Salih Mütəllibov isə Bəsim Atalayın qeydini zikr etsə də, onu «Divan»dakı az qala hər sözü çağdaş türkcə ilə qarşılaşdırmaqda qınayır (TSD, III tom, bet 53), özü isə addımbaşı Əlişir Nəvaidən, ara-sıra da digər özbək klassiklərindən misallar göstərir. Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər həmin sözü məhz «yüksük» kimi (DLT-2005, s.717) vermişlər. Uyğur naşirlər isə bu sözü «yüksək» kimi (TTD, III tom, bet 61) oxumuş, «oymaq» kimi tərcümə etmiş, üsküyün tuncdan və dəridən hazır-landığını yazmışlar. Çinlilər də «yüksək» kimi vermişlər (DLT-Çin, III cild, s.44).

[58] Yəni sözün əslinin «يبکن yipkin» olduğuna işarə vurulur.

[59] «Bir atım çay», «bir bişirim ət» modeli üzrə «bir yoğrum un» deməkdir. Bu model bir maddə sonra «yarşım» və «yügrüm» sözlərində də görünür.

[60] Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər «يَتِرُم yetrüm» sözünü belə tərcümə etmişlər: «möhkəm yığılıb-bağlandıqdan sonra arxaya salınan saç» (DLT-2005, s.687). Uyğurca mətni adətən başa düşmək olur, lakin bu maddənin tərcüməsini dəqiq anlamaq mümkün olmadığı üçün burada verə bilmədik.

يِبكِن Y i p k i n: «يِبكِن تونْ yipkin ton=ərğüvan rəngində paltar». Bu, ل l hərfi ilə ayrı bir sözdür.

BU BABIN BAŞQA BİR NÖVÜ

يَيلاغ Y a y l a ğ: yaylaq, yayla, yayda qalınan yer.

فَعالِل FƏ'ALİL BABI

يَلاڤُج Y a l a w a ç: peyğəmbər. «يَلاوَج yalavaç» da ayrı bir sözdür.

يَلاڤَر Y a l a f a r: xaqanm göndərdiyi elçiyə verilən addır. Uyğurca. Bu məsəldə də işlənmişdir: «ياش أت كُيماس، يلاڤَر أل ماس yaş ot köymməs, yalafar ölməs = yaş od yanmaz, elçi ölməz», (yaş ot yanmadığı kimi, elçi də öldürülməz. Elçiliyi nə qədər ağır və acı olsa da, ona zaval yoxdur. Bu, ulu Tanrmm « ما عَلَى الرَّسولِ إلاّ البلاغُ» ayəsi [=elçinin vəzifəsi ona deyilən sözü çatdırmaqdır] kimidir.

يَبيتَق Y a b ı t a k: «يَبيتَق أت yabıtak at = çılpaq at, belində yəhəri və çulu olmayan at», «أل أتغ يَبيتَق مُندى ol atığ yabıtak mündi = o, çılpaq ata mindi».

يَماجُک Y ə m ə ç ü k: buğda daşman kiçik çuval; kisə.

فَعَلوُ FƏ'ƏLLU BABI

يَڤشغُو Y a f ı ş ğ u: qızılcıq, yaxud gürən adı verilən yabanı meyvə. Ona يُمُشغا yumuşğa» da deyilir.

يكِرما Y i g i r m ə: iyirmi. «يكِرمى yigirmi» də deyilir.

Dörd hərflilər bölməsi bitdi.

BEŞ HƏRFLİLƏR BÖLMƏSİ

HƏR NÖV HƏRƏKƏSİ İLƏ فَعْلَل FƏ'ƏLƏL BABI

يِيَرلِغ Y ı p a r l ı ğ: «**يِيَرلِغ كَسُرْكُو** yıparlığ kəsürgü=müşk saxlanan mücrü». Bu məsəldə də işlənmişdir: « **يِيَرلِغ كَسُرْكُوْدِن يِيَر كِتسا يِيذى قَلِير** yıparlığ kəsürgüdin yıpar kitsə, yidhi kalır = mücrüdən ənbər getsə də iyi qalar», (qabdan müşk getsə də iyi getməz). Bu söz sərvəti getsə də, bir az malı qalan və istənilən zaman küncdən-bucaqdan bəzi şeylər tapan adam barədə deyilir.

يَغِرلِغ Y a ğ ı r l ı ğ: yağırh, yağırı olan. «**يَغِرلِغ تَفْى** yağırlığ təwəy = yağırlı, beli yaralı dəvə». Başqası da belədir.

يُلَرلِغ Y u l a r l ı ğ: cilovlu, yüyənli, noxtalı. «**يُلَرلِغ اَت** yularlığ at = cilovlu, yüyənli at».

يَبغلِغ Y a p ı ğ l ı ğ: qapalı, bağlı, «**يَبغلِغ قَبُغ** yapığlığ kapuğ=qapalı qapı».

يَذِغلِغ Y a d h ı ğ l ı ğ: yayılı, yayılmış, sərilmiş. «**يَذِغلِغ تُشاك** yadhığlığ töşək = sərili, yayılı döşək».

يَرغلِغ Y a r a ğ l ı ğ: mümkün. «**يَرَغلِغ ايش** yarağlığ ış=mümkün olan iş».

يَرغلِغ Y a z ı ğ l ı ğ: açılmış. «**يَرغلِغ اَت** yazığlığ at = bağmdan açılmış at». Başqası da belədir.

يشِغلِغ Y ı ş ı ğ l ı ğ: ipli. «**يشِغلِغ اَر** yışığlığ ər = ipli, ipi olan adam».

يُلغلغ Y o l u ğ l u ğ: fidyəli. «يُلغلغ كِشى yoluğluğ kişi = fidyəsi ödənmiş adam».

يَمَغلغ Y a m a ğ l ı ğ: yamaqlı. «يَمَغلغ تونُن yamağlığ ton=yamaqlı paltar».

يَرَغلغ Y a r a ğ l ı ğ: zirehli. «يَرَغلغ ار yarağlığ ər = zirehli adam».

يَرُقلغ Y a z u k l u ğ: günahlı, günahı olan, suçlu.

يشقلغ Y ı ş ı k l ı ğ: dəbilqəli. «يشقلغ ار yışıklığ ər = başına dəbilqə, dəmir başlıq qoymuş adam».

يَسغلغ Y a s ı ğ l ı ğ: gədələcli. «يَسغلغ يا yasığlığ ya = gədələci olan yay».

يَغقلغ Y a ğ a k l ı ğ: cevizli. «يَغقلغ يغاج yağaklığ yığaç = cevizli ağac».

يُرُنلغ Y u r u n l u ğ: ipək parçaları olan. «يُرُنلغ اُراغت yurunluğ urağut = ipək parçalara sahib olan qadın».

يَشنلغ Y a ş ı n l ı ğ: şimşəkli. «يَشنلغ بُلت yaşınlığ bulıt = şimşəkli bulud».

يَغنلغ Y a ğ a n l ı ğ: fili olan. «يَغنلغ ار yağanlığ ər=fili olan adam, filban».

[Qayda]:

Bu bölmə[61] bəzi mənaları ehtiva edir.

Bunlardan biri ismi-məful mənasma gəlməkdir. Məsələn: «يَذغلغ تُشلك yadhığlığ töşək» və «يَرَغلغ اَت yazığlığ at» kimi. Bunlar «sərilmiş döşək» və «açılmış at» deməkdir. Digəri isə adı verilmiş şeyin sahibi olmaq mənasıdır. Məsələn: «ييَرلغ ار yıparlığ ər=ənbəri olan adam» kimi. Bu, yuxarıda da gördüyün kimi, «sahib» mənasındadır. «اَيَقلغ تَقسى ayaklığ təwsi=kasalı, qədəhli məcməyi», «اُيُغلغ اف uyuğluğ əw= kəmərli ev» deməkdir.

[61] Mahmud Kaşğari burada -hğ/-luğ şəkilçisi qəbul edən sözləri nəzərdə tutur.

يَرندَق Y a r ı n d a k: türk qayışı. Keçi dərisindən hazırlanır.

يَبُشغاق Y a p u ş ğ a k: tikanlı bir ot, pıtrax. Fındıq boyda olur, atlarm və başqa heyvanlarm quyruğuna yapışır. Hər işə qarışan, burnunu soxan adama «yapuşğak» deyilir.

يَبُرغاق Y a p u r ğ a k: ağacm yarpağı. Kitabın yarpağma, səhifəsinə də belə deyilir.

يغجلِق Y ı ğ a ç l ı k: ağaclıq, ağacı olan yer. Şalban olan yerə də belə deyilir.

يذغلق Y a d h a ğ l ı k[62]: piyada üçün, piyadalıq; piyada yürümək.

يَذغلق Y ı d h ı ğ l ı k: qoxmuş, qoxmuşluq, yıpranmışlıq.

يَمَغلِق Y a m a ğ l ı k: yamaqlıq. «يَمَغلِق بوُز yamağlık böz = yamaq üçün hazırlanan, ayrılan bez».

يلغلق Y ı l ı ğ l ı k: ılıqlıq, istilik.

يَغقلِق Y a ğ a k l ı k: cəvizlik, cəviz, qoz bitən yer, sahə.

يَرُقلُق Y a r u k l u k: nur, işıq, aydınlıq.

يرَقلِق Y ı r a k l ı k: uzaqlıq, iraqhq.

يَلَندَق Y a l ı n d a k: yalm, çılpaq. «يَلَندَق اَر yalındak ər = çılpaq adam».

يكِتلِك Y i g i t l i k: igidlik, gənclik. Buradan almaraq «اَسِز اَنِك يكِتلِكى əsiz anmq yigitligi» deyilir ki, «heyif onun igidliyinə, gəncliyinə» deməkdir.

يُركَلِك Y ü r ə k l i g: ürəkli. «يُركَلِك اَر yürəklig ər = ürəkli, cəsur adam».

يَتزلِك Y e t i z l i k: genişlik, bir şeyin eni.

يُلكلِك Y ü l ə k l i g: dayanmış, söykənmiş. «يُلكلِك يغاج yüləklig yığaç = bir şeyə dayanmış, söykənmiş ağac».

يلِكلِك Y i l i k l i g: ilikli. «يلِكلِك سُنكُوك yiliklig sünqük = ilikli sümük».

---

[62] Yazma və basma nüsxədə «يذغلق yadhağlık» sözü hərəkəsizdir.

HƏR NÖV HƏRƏKƏSİ İLƏ فَعَلان FƏ'ƏL'AN BABI

اَيتغان A y ı t ğ a n: soruşan. «**اَل كِشى اَل تَلِم سوُز اَيتغان** ol kişi ol təlim söz ayıtğan = o adam çox söz soruşan adamdır».

يَرَتغان Y a r a t ğ a n: yaradan. «**تَنكرى اَل ييرك يَرَتغان** tənqri ol yerig yaratğan = yeri yaradan tanrıdır». Başqası da belədir.

يَرُتغان Y a r u t ğ a n: aydmladan, işıqlandıran. «**كُن اَل اَرُنغ يَرُتغان** kün ol ajunuğ yarutğan = dünyanı işıqlandıran günəşdir».

يُرُتغان Y o r u t ğ a n[63]: yel buraxan. «**يُرُتغان كِشى** yorutğan kişi = yel buraxan adam».

يَغُتغان Y a ğ u t ğ a n: yaxınlaşdıran. «**اَل كِشى اَل اوُزن يَغُتغان** ol kişi ol özin yağutğan=o adam özünü daim başqalarına yaxınlaşdıran adamdır».

يَغتِغان Y a ğ ı t ğ a n: yağdıran. «**تَنكرى اَل يَغمُر يَغتِغان** tənqri ol yağmur yağıtğan = yağışı yağdıran tanrıdır».

يَغتِغان Y a ğ ı t ğ a n: düşmənçilik edən. «**اَل كِشى اَل تُتجى يَغتِغان** ol kişi ol tutçı yağıtğan = o adam daim düşmənçilik edəndir».

يُمتِغان Y u m ı t ğ a n: toplanan, toplaşan. «**اَل كِشيلار اَل يُمتِغان** ol kişilər ol yumıtğan = o adamlar daim bir iş üçün toplanan adamlardır».

يَبُرغان Y a p u r ğ a n: örtən, qapayan, gizlədən. «**بو اَر اَل ايشِن يَبُرغان** bu ər ol ışın yapurğan=bu adam işini daim gizləyən adamdır». Hər hansı bir şey gizləmək də belədir.

يَشرغان Y a ş u r ğ a n: gizləyən. «**اَل اَر اَل تَنكِن يَشرغان** bu ər ol nənqin yaşurğan = bu adam malını gizləyəndir». Başqası da belədir.

---

[63] Yazma və basma nüsxədə bu söz «**يُرتغان** yortğan» şəklində yazılmışdır. Bu baba uyğun olması üçün «**يُرُتغان** yorutğan» şəklində olması lazımdır.

يَبُشغان Y a p u ş ğ a n: yapışqan. «اُل ار اُل ايشقا يَبُشغان» ol ər ol işka yapuşğan=o adam işə yapışandır, işə yapışmaq onun adətidir». Hər hansı bir şey bir şeyə bağlansa, yenə belə deyilir.

يُشُلغان Y u ş u l ğ a n: axan. «بو باش اُل قانى يُشَلغان» bu baş ol kanı yuşulğan =bu daim qanı axan yaradır».

بُشُلغان B u ş u l ğ a n: «بو ار اُل اِلكى ايشقا بُشُلغان» bu ər ol əligi işka buşulğan =bu adamın əli işdə yeyindir, iş xüsusunda əli yatqındır».

يغلغان Y ı ğ ı l ğ a n: yığılan. « بو يير اُل مُندا كِشى يغلغان bu yer ol munda kişi yığılğan = bu yer adamların daim yığıldığı yerdir».

يقِلغان Y ı k ı l ğ a n: yıxılğan, yıxılan. «اُل تام اُل تُتجى يقِلغان» ol tam ol tutçı yıkılğan = o divar daim yıxılandır». Başqası da belədir.

يُغُرقان Y o ğ u r k a n: yorğan.

يُكُركان Y ü g ü r g ə n: çapar. Çindən çıxaraq islam diyarma gəlmək üzrə olan karvandan daha əvvəl onların məktubunu, xəbərlərini gətirən adam.

يُكُركان Y ü g ü r g ə n: «يُكُركان لت» yügürgən at = yüyrək at». Başqası da belədir.

يُكُركُون Y ü g ü r g ü n: darı kimi qırmızı dənələri olan bitkidir. Bunu türkmənlər yeyirlər.

يَمُركان Y e m ü r g ə n: sökən, qoparan. «بو سوُف اُل بغاجغ يَمُركان» bu suw ol yığaçığ yemürgən = bu su daim ağacın dibini oyandır». Hər hansı bir şeyin dibini oyan, sökən şey barədə də bu söz işlənir.

يرلكان Y i r i l g ə n: yarılan. «بوُ بُتق اُل تُتجى يرلكان» bu butık ol tutçı yirilgən = bu budaq daim çatlayan, yarılandır».

يُمُلكان Y ü m ü l g ə n: yumulan. «بو ار اُل كوُزى يُمُلكان» bu ər ol közi yümülgən = bu adam daim gözü yumulandır».

BU BABIN MATVİ OLANLARI

يزغجى Y a z ı ğ ç ı: yazıçı, mirzə. Qohumlar arasında məktub gətirib-götürən elçi. Oğuzca.

يَيلغان Y a y ı l ğ a n[64]: yayılan. «**يَيلغان كِشى** yayılğan kişi = bir yerdə dura bilməyən biqərar, səbatsız adam».

HƏR NÖV HƏRƏKƏSİ İLƏ فعّلل FƏ'LƏLƏL BABI

يُركَمَج Y ö r g ə m ə ç: [yemək növü; resepti]: işkəmbə və bağırsaq incə-incə doğranır, bağırsaq içinə doldurulur, bişirilərək, yaxud qızardılaraq yeyilir.

يَتغشُق Y a t ğ a ş u k[65]: bir yerdə başqa biri ilə yatan. «**يَتغشُق أغرى** yatğaşuk oğrı = yatma zamanı».

يَقرقن Y a k r ı k a n: fındıq boyda qırmızı meyvəsi olan bir bitkidir, yel adamm dodoqlarını çatlatdığı zaman yapışdırılsa çat və yarıqlar sağalır.

يَقرقان Y a k r ı k a n: buz yağı (?). Bu, buz parçalananda ondan ayrılan yağa bənzər şeydir[66].

---

[64] Bu söz matvi qismindən ola bilməz. Sözün matvi olması üçün onun sonunda hərfi-illət olmalıdır. Bu söz bundan əvvəlki qismə aiddir.

[65] Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər bu maddəni iki maddə halında belə vermişlər: «Y a t ğ a ş u k: yataq yoldaşı». «Y a t ğ a ş ı k: yatğaşık uğrı=gecənin üç hissədən ibarət olduğu düşünülsə, gecənin ilk hissəsi» (yalnız müəyyən bir ləhcədə) (DLT-2005, s.673). Uyğurlar da bu məddəni «Y a t ğ a ş u k: biri ilə yatan kişi» və «Y a t ğ a ş ı k: yatar çağ», yəni «yatmaq vaxtı» olmaq üzrə iki maddə halında vermişlər (TTD, III tom, bet 75). Çinlilər də uyğurlar kimi hərəkət etmişlər (DLT-Çin, III cild, s.54).

[66] Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər bu maddəni belə tərcümə etmişlər: «donmuş, buz kəsilmiş iç yağı; kəsildiyi zaman iç yağı parçaları tökülür» (DLT-2005, s.664). Bu tərcümə də bir az naqisdir, məna tam aydın deyil. Uyğurların tərcüməsi belədir: «buz [bağlamış] yağ, don[muş] yağ. Belə yağ parçalananda ondan buza bənzər qəlpələr qopur» (TTD, III tom, bet 75). Bu tərcümə daha anlaşıqlı və aydındır.

BUNUN BAŞQA BİR NÖVÜ

يُبَاقْلَق Y u b a k u l a k[67]: qızdırmadan titrəmə. Yabaku və yəmək dillərində.

يَبَاقْلَق Y a b a k u l a k[68]: bayquş. Yabaku və yəmək dillərində.

Beş hərflilər bölməsi bitdi.

[67] Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər bu sözü «yapakulak» şəklində (DLT-2005, s.660) oxumuşlar. Çinlilər də belə oxumuşlar (DLT-Çin, III cild, s.54).

[68] Uyğurlar (TTD, III tom, bet 76), çinlilər (DLT-Çin, III cild, s.55) və Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər bu sözü «yapakulak» şəklində (DLT-2005, s.660) oxumuşlar. Salih Mütəllibov isə hər iki sözü «yabakulak» kimi (TSD, III tom, bet 64) vermişdir.

ALTI HƏRFLİLƏR BÖLMƏSİ

يَرسِنجِغ Y a r s ı n ç ı ğ: murdar, pis, iyrənc. «يَرسِنجِغ نانىك yarsınçığ nənq =pis, iyrənc, murdar şey».

يَغمُرجِل Y a ğ m u r ç ı l: «يَغمُرجِل يير yağmurçıl yer = yağmuru çox olar yer».

[Qayda]:

Bu bir qaydadır: hər hansı bir şey bir nəsnə üzərində çox davamlılıq göstərsə, ardı kəsilmədən fasiləsiz sürsə, o isimə جِل [-çil şəkilçisi] əlavə edilir. Bu yolla yaranan söz sifət olur. Məsələn, «تُبجِل يير tüpçil yer» deyilir. «تُبى tüpi» boran deməkdir. Buna جِل [-çil suffiksi] artırılmaqla boranm çox olması bildirilir. Eyni şəkildə uzun müddət xəstə olan adama «ايكجِل igçil» deyilir. Ancaq onu da demək lazımdır ki, bu qaydanm işlənmə dairəsi məhduddur, geniş tətbiq olunmur.

Tanrıya şükr olsun, başında hərfi-illət olan isimlər kitabı bitdi.



BİSMİLLAH İR-RƏHMAN İR-RƏHİM

BAŞDA HƏRFİ-İLLƏTLİ FE'LLƏR KİTABI

İKİ HƏRFLİLƏR BÖLMƏSİ

يَبتى Y a p t ı: bağladı, bərkitdi. «ار قبغ يَبتى ər kapuğ yaptı = adam qapı qapadı».

يَبتى Y a p t ı: qürdu. «اَر توُر يَبتى ər tor yaptı = adam tor düzəltdi, tələ qurdu», (quş və ya başqa şey tutmaq üçün tələ qurdu).

يَبتى Y a p t ı: yapdı, yapışdırdı. «إشلار أتماك يَبتى işlər ötmək yaptı = qadm çörək yapdı», (təndirə çörək yapdı).

يَبتى Y a p t ı: hördü. «ار تام يَبتى ər tam yaptı = adam divar hördü», (يَبار - يَبماق yapar – yapmak).

يَردى Y a r d ı: yardı. «ار يغاج يَردى ər yığaç yardı = adam ağac yardı». Başqası da belədir. Yerə şırım çəksə və ya çəpərləsə yenə belə deyilir, (يَرار - يَرماق yarar – yarmak).

يُردى Y ö r d i: «أراغت أغلِن بَشِكتِن يُردى urağut oğlm beşiktin yördi = qadın uşağını beşikdən götürdü», (يُرار - يُرماك yörər – yörmək).

يَردى Y e r d i: «أل بُتِق يَردى ol butık yerdi = o, budaq yardı». Başqası da belədir. Bu, dəmir tətbiq etmədən yaş bir şeyi uzunlaması-na yarmaqdır. (يَرار - يَرماك yerər –yermək)[69], «yarmak» bir şeyi kəsərək zorla yarmaqdır, ayırmaqdır, «yermək» isə onu asanlıqla yarmaqdır. Bu məsəldə də işlənmişdir: « تَبغ تاش يَرار. تاش باشغ يَرار tapuğ taş[70] yarar, taş başığ yarar =

[69] Bəsim Atalay bu sözü «yirdi–yirər–yirmək», bəlkə də «yırdı–yırar–yırmak» kimi oxumağa tərəfdardır. Bu tipli şeylərə dilimizdə də çox rastlanır. Məsələn: «cızıq–cizik», «siyirmək-sıyırmaq», «çirmənmək–çırmanmaq» və s.

[70] Bu söz təsirli olduğu üçün «تا شغ taşığ» şəklində olmalıdır.

xidmət daşı yarar, daş da qayıdıb başı yarar». Bu söz ağasından yaxşılıq görən, ancaq onun düşmənlərinə kömək edən xidmətçi haqqında deyilir.

يَزدى Y a z d ı: açdı. «اُل تُكوُن يَزدى ol tügün yazdı = o düyün açdı».

يَزدى Y a z d ı: yazdı. «اُل بِتِك يَزدى ol bitik yazdı = o, kitab yazdı».

يَزدى Y a z d ı: yanıldı. «اُل سوُزندا يَزدى ol sözində yazdı=o, sözündə yanıldı».

يَزدى Y a z d ı: az qala... «اُل انى اُروُ يَزدى ol anı uru yazdı[71] = o, onu az qala vuracaqdı, döyəcəkdi».

يَزدى Y a z d ı: vura bilmədi. «اُل كَيكنى يَزدى ol keyikni yazdı = o, geyikə ox atdı, vura bilmədi». Bu atalar sözündə də işlənmişdir: «يَزماس اَتِم بُلماس. يَتِكلماس بِلكا بُلماس yazmas atım bolmas, yanqılmas bilgə bolmas = çaşmayan atıcı (ovçu), yanılmayan bilgin olmaz (yoxdur)», (يَزماق - يَزار yazar – yazmak).

يوُزدى Y ü z d i: üzdü. «اَر سُڤدا يوُزدى ər suwda yüzdi=adam suda üzdü».

يوُزدى Y ü z d i: yayıldı. «اَرنك يوُزدى irinq yüzdi = irin bədənə yayıldı».

يوُزدى Y ü z d i: üzdü. «اَرتغم يوُزدى ər tuğum[72] yüzdi=adam kəsilmiş heyvanm dərisini üzdü, çıxartdı», (يُزماك - يُزار yüzər–yüzmək).

يَسدى Y a s d ı: buraxdı. «بَك سوُسِن يَسدى bəg süsin yasdı = bəy qoşunu tərxis etdi».

يَسدى Y a s d ı: bu sözün əsli «اَر ياسِن يَسدى ər yasın yasdı = adam yayınm kirişini çıxartdı» sözündən alınmışdır.

يَسدى Y a s d ı: sökdü. «خان جواج يَسدى xan çuvaç yasdı = xan çadırını sökdü», (xan başı üstündəki çadırının düyününü açdı), (يَسار - يَسماق yasar – yasmak).

---

[71] Salih Mütəllibov «اُروُ uru» sözünün sonundakı vav hərfini v kimi qəbul etdiyinə görə həmin sözü «uruv», misah isə «ol anı uruv yazdı» kimi oxumuşdur (TSD, III tom, bet 67).

[72] Türkcə son nəşrdə bu söz «tokum» kimi verilmişdir (DLT-2005, s.719).

يَشدى Y a ş d ı: gizləndi. «اُل مَنى كُرُب يَشدى ol məni körüp yaşdı = o məni görüb gizləndi». Bu atalar sözündə də işlənmişdir: « تَڤى مُنُب قَوُى ار يَشماس təwəy münüp koy ara yaşmas = dəvəyə minməklə qoyunlar arasında gizlənmək olmaz», (dəvəyə minən özünü qoyunlar arasında gizləyə bilməz). Bu söz hər tərəfə yayıldıqdan sonra gizlədilmək istənən iş haqqında deyilir, (يَشار- يَشماق yaşar – yaşmak).

يُشدى Y ü ş d i: axıtdı. «اُل بَكنى يُشدى ol bəkni yüşdi = o, bozanı axıtdı», (o, bozanı sürahinin lüləsindən axıtdı). Boza arpa, buğda, darı kimi bitkilərdən düzəldilən içkidir, (يُشار- يُشماك yüşər – yüşmək)[73].

يَغدى Y a ğ d ı: yağdı. «يَغمُر يَغدى yağmur yağdı = yağış yağdı». Bu məsəldə də işlənmişdir: «قُتلُغ قا قُشا يَغار kutluğka koşa yağar=qutluya, bəxtəvərə qoşa-qoşa yağar», (bəxtəvər adama var-dövlət üst-üstə gələr), (يَغار- يَغماق yağar – yağmak). Qar və dolu yağsa, yenə belə deyilir.

يغدى Y ı ğ d ı: yığdı, yığışdırdı. «اُل مَنى اشقا يغدى ol məni aşka yığdı = o məni yeməyə qoymadı». Başqası da belədir.

يغدى Y ı ğ d ı: «اُل تَرغ يغدى ol tarığ yığdı = o, taxıl yığdı». Hər hansı bir şeyi yığan adam üçün də belə deyilir, (يغار- ينماق yığar – yığmak).

يُڤدى Y u w d ı: yuvarladı. «ار تُيق يُڤدى ər topık yuwdı = adam top yuvarladı». Başqası da belədir. Bu beytdə də işlənmişdir:

---

[73] Bəsim Atalay yazma nüsxədə düzəliş aparılaraq «يُشدى» sözünün bu şəklə salındığını, əslində isə bu kəlmənin «yuşdı–yuşar–yuşmak» şəklində olduğunu yazmışdır (DLT, III, s.60). Salih Mütəllibov bu fe'li «yüşdi» şəklində vermişdir (TSD, III tom, bet 68). Uyğurlar (TTD, III tom, bet 81) və Hüseyn Düzgün bu sözü «yuşdı» (د ل ت s.467), Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər isə iki variantda - «yuşdı/yüşdi» kimi oxumuşlar (DLT-2005, s.713). Çinlilər «yuşdı» şəklində vermişlər (DLT-Çin, III cild, s.58).

تَقُر يِغِب سُڤ اَقِن اندى سَقِن

قُرُم كِـــبى ايذِشِن قوُدى يُقار

«Tawar yığıp suw akın indi sakın,

Korum kipi idhişin[74] kodı yuwar».

Yığılan mal axan su kimidir, özünü gözlə,

Sahibini qaya kimi aşağı yuvarlar.

(Mal-sərvət yığmaqdan bəhs edərək deyir: dağdan gələn sel qayanı necə yuvarlayırsa, yığılan mal da öz sahibini eləcə məhv edə bilər).

يُقْدى Y u w d ı: qaçdı. «اشياك يُقْدى eşyək yuwdı = eşşək qaçdı».

يُقْدى Y u w d ı: aldatdı. «اُل اَنى اردى يُقْدى ol anı ardı-yuwdı = o ona hiylə etdi, aldatdı»[75].

يُقْدى Y u w d ı: qovuşdu. «اَر قداشِن قُردى يُقْدى ər kadaşın kurdı-yuwdı = adam qohum-qardaşa qovuşdu», (yaxın adamına qovuşdu, ona mal verərək könlünü aldı), (يُقْار- يُقْماق yuwar – yuwmak).

يَقدى Y a k d ı: yaxdı. «اَر بَشقا يَقغ يَقدى ər başka yakığ yakdı = adam başma yaxı yaxdı».

يَقدى Y a k d ı: «اُل اَنكَر يَقدى ol anqar yakdı = o ona yaxınlaşdı».

يَقدى Y a k d ı: «اَنِك كَلماكى يَقدى anınq kəlməgi yakdı=onun gəlişi yaxınlaşdı».

---

[74] Bəsim Atalayın yazdığına görə, bu beytin ilk misarası xeyli qarışıqdır. İkinci misrada isə «idişin» əvəzinə «idhisin» olmalıdır, çünki «idiş=qədəh, piyalə, kasa», «idhi» isə «sahib» deməkdir. Beytin məzmununa da məhz «sahib» sözü uyğundur DLT, III, s.62). Biz bu beyti bir az fərqli tərcümə elədik. Salih Mütəllibov (TSD, III tom, bet 69) və Hüseyn Düzgün (د ل ت s.357-58) Bəsim Atalayın qeydlərini nəzərə almışlar. Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər isə «indi» sözünü «endi», «kipi» sözünü «kepi» (DLT-2005, s.714), uyğurlar «idişin» yerinə doğru olaraq «idhisin», «indi» sözünü «ındı», «kipi» sözünü «kəbi» kimi vermişlər (TTD, III tom, bet 83). Çinlilərin də mətn altında müvafiq qeydi vardır (DLT-Çin, III cild, s.59).

[75] Bəsim Atalay yazma nüsxədə bu sözdə düzəliş aparıldığını, nəticədə «təwdi» yerinə «yuwdı» yazıldığını göstərmişdir (DLT, III, s. 62).

يَقدى Y a k d ı: «اُل اَنكَر اِلِک يَقدى ol anqar əlig yakdı=o ona əli ilə toxundu», (يَقار - يَقماق yakar–yakmak).

يُقدى Y u k d ı: bulaşdı, keçdi. «اِلِک كا ياغ يُقدى əliggə yağ yukdı = ələ yağ bulaşdı».

يُقدى Y u k d ı: «اَنِک اُدوزى اَنكَر يُقدى anınq udhuzı anqar yukdı = onun qoturu ona keçdi». Hər hansı bir şey başqa şeyə bulaşsa və ya keçsə, yenə belə deyilir, (يُقار - يُقماق yukar – yukmak).

يقدى Y ı k d ı: yıxdı, uçurdu. «اُل اَقِن يقدى ol əwin yıkdı = o, evini uçurdu». Başqası da belədir, (يقار - يقماق yıkar – yıkmak).

يَلدى Y a l d ı: alovlandı. «اوُت يَلدى ot yaldı = od alovlandı».

يَلدى Y a l d ı: iltihablandı. «باش يَلدى baş yaldı = yara iltihablandı».

يَلدى Y a l d ı: yaladı. «كوُن يوُزُک يَلدى kün yüzüg yaldı = gün adamın üzünü qarsdı, yaladı, qaraltdı», (يَلار - يَلماق yalar–yalmak).

يُلدى Y o l d ı[76]: qurtardı, buraxdı, «اَر بُلنَق يُلدى ər bulunuk[77] yoldı = adam dustağı buraxdı».

يُلدى Y o l d ı: azad etdi. «اَر تُتُغ يُلدى ər tutuğ yoldı = adam girovu azad etdi».

يُلدى Y o l d ı: yoldu. «اَر قُش يُلدى ər kuş yoldı = adam quş yoldu», (tüklərini yolmaq üçün qaynar suya saldı, pöşülədi). Dəridən tük yolunsa, yenə belə deyilir. Başqası da belədir.

يُلدى Y o l d ı: «اُراغت بَشِن يُلدى urağut başın yoldı = qadın öz mehr və başlığından vaz keçərək ərindən ayrıldı, başını, canını qurtardı», (يُلار - يُلماق yolar – yolmak).

يُلدى Y o l d ı: «اُل يِتِک يُلدى ol bitik yoldı = o, kitab yazdı, üzünü köçürdü».

---

[76] Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər bu fe'li «yuldı» kimi (DLT-2005, s.707) oxumuşlar. Çinlilər (DLT-Çin, III cild, s.61-62) və uyğurlar «yoldı» ilə başlayan maddələrin hamısını «yuldı» kimi vermişlər (TTD, III tom, bet 85-86).

[77] Bu söz «بُلنَق bulunuk» deyil, «بُلنُغ bulunuğ» olmalıdır.

يلدى Y e l d i: qoşdu, çapdı. «اتلغ يلدى atlığ yeldi = atlı qoşdu, çapdı». Başqası da belədir, (يلماك - يلار yelər – yelmək).

يلدى Y e l d i: yeyildi. «اش يلدى aş yeldi = yemək yeyildi». Başqası da belədir, (يلماك - يلور yelür – yelmək).

يُمدى Y ü m d i: yumdu. «ار كوز يُمدى ər köz yümdi = adam göz yumdu», «يُماك - يُمار yümər – yümmək)[78].

يَندى Y a n d ı: döndü. «ار يُولدَن يَندى ər yoldan yandı = adam yoldan döndü». Başqası da belədir. Bu məsəldə də işlənmişdir: «يلنكُق متككوُ تِرلماس، سين قا كِرُوب كِروُ يلماس yalnquk mənqgü tirilməs, sınka kirüp kirü yanmas = adam əbədi diri qalmaz, yaşamaz, qəbrə girən geri dönməz, qayıtmaz».

يَندى Y a n d ı: təhdid etdi, yanıdı. «بَك انى يَندى bəg anı yandı = bəy onu yanıdı, təhdid etdi». Başqası da belədir.

يَندى Y a n d ı: alışdı, yandı. «اوُت يَندى ot yandı = od yandı». Bu mənada «يلدى yaldı» sözü də var. Qıpçaqca.

يَندى Y a n d ı: qusdu. «ار يَندى ər yandı = adam qusdu», (يَنار - يَنمق yanar – yanmak). Bu şeirdə də işlənmişdir:

يَنــدى ارنج اُغرَغى
كَــلدى بَرو تِغرغى
اوُزى قُــى اُغرَغى
الب لار قمُغ تِركَشور

«Yandı ərinç oğrağı,
Kəldi bərü tığrağı,
Özi kuyı oğrağı,
Alplar kamuğ tirkəşür».
Bəlkə fikrindən döndü,

[78] Bəsim Atalayın fikrincə, bu sözlər «u» ilə «yumdı-yumar-yumak» olmalıdır (DLT, III, s.64).

Onun xəbərçisi bəri gəldi,
Dərəyə varmaq üzrədir,
Bütün alplar toplaşırlar.

(Düşməndən bəhs edərək deyir: bəlkə də o, əzmindən vaz keçdi, bizə onun elçisi gəlir, elçi dərəyə varmaq üzrədir, alplar isə savaş üçün toplaşırlar).

يُندى Y u n d ı: yuyundu. «اَر سُقْدا يُندى ər suwda yundı = adam suda yuyndu, yaxandı».

يُندى Y u n d ı: «اَر يُندى ər yundu=adam abdəst aldı». Oğuzca. (يُنار - يُنماق yunar – yunmak).

يندى Y i n d i: sordu, soruşdurdu, xəbər aldı. «اُل اَنِک اَڤِن يندى ol anınq əwin yindi = o onun evini soruşdu, evinin harda olduğunu xəbər aldı». Bu kəlmənin əsli «يندتى yindti» sözüdür, qısaldılmışdır, (يندار - يندماک yindər – yindmək).

BU BABIN BAŞQA BİR NÖVÜ

يوُدى Y u d ı: yudu. «اَر تُون يوُدى ər ton yudı = adam paltar yudu». Başqası da belədir, (يُور - يوُماق yur – yumak). Bu məsələdə də işlənmişdir: «قانغ قان بلا يوُماس kanığ kan bilə yumas = qanı qanla yumazlar», (qanı qanla yumazlar, fitnəni fitnə ilə deyil, sülhlə aradan qaldırarlar).

ييدى Y e d i: yedi. «اَر اَش ييدى ər aş yedi = adam aş[79] yedi». Başqası da belədir, (يير - ييماک yer – yemək).

---

[79] Bizim məcburiyyət qarşısında çox vaxt «yemək» deyə tərcümə etdiyimiz «aş» sözünü uyğurlar hər yerdə haqlı olaraq «aş» deyə verirlər. Dilimizdə «aş» yeməklərin ümumi adıdır, «aşxana» sözü də bunu göstərir, «aş»ın plov mənası sonra yaranmışdır.

ÜÇ HƏRLİLƏR BÖLMƏSİ

ORTASI HƏRƏKƏLİ فَعَلدى FƏ'ƏLDİ BABI

يَبُردى Y a p u r d ı: parlatdı, süpürdü. «اُل يِرک يَبُردى ol yerig yapurdı = o, yeri parlatdı, süpürdü».

يَبُردى Y a p u r d ı: gizlədi, saxladı. «اَر سوُزُک يَبُردى ər sözüg yapurdı = adam sözü gizlədi, saxladı», (يَبُرُر- يَبُرماق yapurur – yapurmak).

يتُردى Y i t ü r d i: itirdi. «اَر يَرماق يتُردى ər yarmak yitürdi = adam pul itirdi». Başqası da belədir, (يتُرُر- يتُرماک yitürür – yitürmək).

يُدُردى Y ü d h ü r d i: yüklədi. «اُل تَفى کا يُک يُدُردى ol təwəygə yük yüdhürdi =o, dəvəyə yük yüklədi». Başqası da belədir, (يُدُرُر- يُدُرماک yüdhürür – yüdhürmək). Bu beytdə də işlənimişdir:

اَغــرُق اَغرِاشِنکنى اَدناغقا يُدُرما

اَجرُب اُزُنک اُشارب اَدناغنى تُدُرما

«Ağruk ağır işinqni adhnağuka yüdhürmə,
Açrup özünq öşərip adhnağunı todhurma».
Ağır yükünü başqasına yükləmə,
Özünü aclıqdan öşərib başqasını doyurma.

(Öz yükünü başqasma yükləmə, gözün qaralana qədər özünü ac qoyub başqasını doyurma).

يَشَردى Y a ş a r d ı: yaşardı. «اُت يَشَردى ot yaşardı = ot yaşardı», (يَشارُر- يَشَرماق yaşarur - yaşarmak).

يَشُردى Y a ş u r d ı: gizlədi. « اُل نانک يَشُردى ol nənq yaşurdı = o, əşyanı gizlədi», (يَشُرماق - يَشُرُر yaşurur – yaşurmak).

يَقُردى Y a k u r d ı: yaxınlaşdırdı. «اُل اَتغ مَنکا يَقُردى ol atığ manqa yakurdı = o, atı mənə yaxmlaşdırdı». Başqası da belədir, (يَقُرُر - يَقُرماق yakurur – yakurmak).

يَقْردى Y a k u r d ı: tez-tez nəfəs aldı, təngnəfəs oldu. «كِشى يَقْردى kişi yakurdı = adam tövşüdü, tez-tez nəfəs aldı», (يَقُرُر - يَقْرماق yakurur – yakurmak).

يُكُردى Y ü g ü r d i: qoşdu, yüyürdü. «اَر يُكُردى ər yügürdi = adam qoşdu», (يُكُرماک - يُكُرُور yügürür – yügürmək). Bu şeirdə də işlənmişdir:

اُندَب اُلغ تَبارُو
تَقْرَق كَلِب يُكُركِل
قُرغَق يِلِن بُدُن كُر
قَندا تُشَر قُودى اِل

«Ündəp uluğ tabaru
Tawrak kəlip yügürgil,
Kurğak yılın budhun kör,
Kanda tüşər kodı ıl».
Yaşlı adam haylasa,
Dərhal yüyür yanma,
Quraq ildə köçsə el,
Sən də köçüb ora get.

(Yaşlı, ulu bir adam səni çağırsa, dərhal onun səsinə səs ver, ona tərəf qoş, yüyür, qıtlıq, quraqlıq vaxtı el hara köçsə, sən də onunla bərabər köç get). El-obaya bir fəlakət üz versə, onunla birlikdə ol deməkdir.

يُكُردى Y ü g ü r d i: « اُل بوُز يُكُردى ol böz yügürdi =o, bezə əriş düzəltdi», (يُكُرماك - يُكُرُر yügürür – yügürmək).

يَمُردى Y a m u r d ı: kəsdi. «اَر يغاج يَمُردى ər yığaç yamurdı = adam ağac kəsdi». Başqası da belədir, (يَمُرماق - يَمُرُر yamurur – yamurmak).

يَبِشدى Y a p ı ş d ı: yapışdı. « يَلِم يوكًا يَبِشدى yəlim yükkə yapışdı = tutğal quş lələyinə yapışdı». Hər hansı bir nəsnə bir şeyə yapışsa və ya taxılsa, yenə belə deyilir.

يَبِشدى Y a p ı ş d ı: «ات كَيكًا يَبِشدى ıt keyikkə yapışdı=it geyiki tutdu, dişini keçirdi, yapışdı», (يَبِشماق - يَبِشُر yapışar – yapışmak).

يَذِشدى Y a d h ı ş d ı: yayıldı. «اُل انكَر تُشاك يَذِشدى ol anqar töşək yadhışdı =o ona döşək sərməkdə, yaymaqda, döşəməkdə kömək etdi». Yarış üçün də belə deyilir, (يَذِشماق - يَذِشُور yadhışur – yadhışmak).

يُذشدى Y o d h u ş d ı: «اُل قِلِج تِن قان يُذشدى ol kılıçtın kan yodhuşdı = o, qılıncdan qan silməkdə kömək etdi». Kitabdan hər hansı bir şeyi silmək və hər hansı mayenin bir şeyin üstündəki izini silmək də belədir, (يُذشماق - يُذشُور yodhuşur– yodhuşmak).

يدشدى Y ı d ı ş d ı: «يدِشدى نانك yıdışdı nənq = bir şeyin hissələri, parçaları bir-birinin içində çürüdü, yıprandı», (يدِشماق – يدِشُور yıdışur – yıdışmak).

يدشدى Y e d i ş d i: «اُل مَنكا يَنكاك يدشدى ol manqa yenqək yedişdi = o mənə heybənin kənarını tikməkdə kömək etdi». Boğçanm və buna bənzər şeylərin kənarmı tikmək də belədir, (يدشور - يدشماك yedişür – yedişmək). Bundan əvvəlki f'elin məsdəri «يدشماق yıdışmak» şəklində ق ka ilədir.

يُدْشدى Y ü d h ü ş d i: yüklədi. «اُل اِكّى تَرغ يُدْشدى olar ikki tarığ yüdhüşdi =o iki adam buğda yükləməkdə bir-birinə kömək etdilər». Başqası da belədir, yarış üçün də belə deyilir, (يُدْشوُر- يُدْشماك yüdhüşür – yüdhüşmək).

يَرَشدى Y a r a ş d ı: uyuşdu, anlaşdı. «اُلار اِكّى يَرَشدى olar ikki yaraşdı = onlar ikisi bir işdə bir-biri ilə uyuşdular, anlaşdılar, dil tapdılar». Bu şeirdə də işlənmişdir:

اُرتـَق بُلب بِلِشدى
مَنِک تَقْر سَتِشدى
بسـتا بِلا يَرَشتى
كِزلـب تُتار تايمى

«Ortak bolup bilişdi,
Məninq tawar satışdı,
Bistə bilə yaraştı,
Kizləp tutar tayımı».
Ortaq olub tanışdı,
Mənimlə mal satışdı,
Bistə ilə anlaşdı,
Gizlər mənim taymı.

(Vəfasız bir adam haqqında deyir: o mənimlə tanışlıqdan sonra ortağım oldu, malımı satmaqda mənə kömək etdi, ev sahibi ilə anlaşdı, məndən dayçamı gizlədir). «Bistə» taciri evində qonaq saxlayan adamın adıdır. Tacir onun evində qalır, o da tacirin malını satır, qoyunlarını yığır, tacir gedən zaman ondan hər iyirmi qoyuna bir qoyun alır. Toxsı, çigil, yağma boylarında belədir, özüm şəxsən görmüşəm, (يَرَشُور- يَرَشماق yaraşur – yaraşmak).

(Yazı vəsf edərək deyir: yaz gəldiyi üçün qoç qoyundan, təkə isə keçidən ayrıldı. Sağılan qoyun sürüləri qatıldı. Əmcəklərindən südlər axdı, quzular analarına qarışır), (يَمرَشوُر- يَمرشماق yamraşur – yamraşmak)[101].

يَمرُشدى Y e m r ü ş d i: «أل آنكَر يغاج يَمرُشدى ol anqar yığaç yemrüşdi = o ona ağac sökməkdə yardım etdi», (يَمرُشوُر- يَمرُشماك yemrüşür – yemrüşmək).

يَتغشدى Y a t ğ a ş d ı: «أل آنِک برلا يَتغشدى ol anmq birlə yatğaşdı = o onunla birlikdə yatdı, ikisi birlikdə yatdı», (يَتغشوُر- يَتغشماق yatğaşur – yatğaşmak).

يلغشدى Y a l ğ a ş d ı: «أالر بال يلغشدى olar bal yalğaşdı = onlar birlikdə bal yaladılar». Başqası da belədir, (يلغشوُر- يلغشماق yalğaşur – yalğaşmak).

يُلقشدى Y o l k a ş d ı[102]: «يُلقشدى نانک yolkaşdı nənq = nəsnə sıyrıldı», (يُلقشوُر- يُلقشماق yolkaşur – yolkaşmak).

---

[101] Unudulan məsdəri Bəsim Atalay mətnaltı haşiyədə göstərmişdir, biz isə müzareni əlavə etdik.

[102] Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər bu sözü «yulkaşdı», bundan sonra gələn sözü isə «yulkışdı» şəklində oxumuşlar (DLT-2005, s.708). Uyğurlar da elə etmişlər.

يُلقُشدى Y o l k u ş d ı: «اُلار بير اكندِدِن نانک يُلقُشدى ol bir ekindidin nənq yolkuşdı = onlar bir-birindən fayda, kar əldə etdilər», (يُلقُشوُر- يُلقُشماق yolkuşur – yolkuşmak).

يُركَشدى Y ö r k ə ş d i: «يغاچقا يب يُركَشدى yığaçka yıp yörkəşdi = ağaca ip sarmdı». Başqası da belədir. Hər hansı bir şey başqa bir şeyə sarmsa, yenə belə deyilir, (يُركَشوُر- يُركَشماک yörkəşür – yörkəşmək).

يبلشدى Y ı p l a ş d ı: «اُراغت لار يوُزن يبلشدى urağutlar yüzin yıplaşdı = qadmlar bir-birlərinin üzünə ip salaraq epilyasiya etdilər», (يبلشوُر- يبلشماق yıplaşur – yıplaşmak).

يذلشدى Y ı d h l a ş d ı: «يلقى يذلشدى yılkı yıdhlaşdı = ilxı, sürü qoxlaşdı». Başqası da belədir, (يذلشوُر- يذلشماق yıdhlaşur–yıdhlaşmak). Bu atalar sözündə də işlənmişdir: «كِشى سوُزلشوُ، يلقى يذلشوُ kişi sözləşü, yılkı yıdhlaşu=insan söyləşərək, heyvan qoxlaşaraq», (insanlar bir-biri ilə söyləşərək, danışaraq, heyvanlar isə bir-biri ilə qoxlaşaraq tanış olarlar).

يَذلِشدى Y a d h l ı ş d ı: «سوُ يَذلِشدى sü yadhlışdı = qoşun dağılışdı, yayıldı». Sulu mürəkkəb keyfiyyətsiz kağız üzərində yayıldığı kimi bir şey başqa şeyin üzərində yayılsa, yenə belə deyilir, (يَذلِشوُر- يَذلِشماق yadhlışur – yadhlışmak).

يُذلشدى Y o d h l u ş d ı: «بِتک لار يُذلشدى bitiklər yodhluşdı = kitablar silindi». (يُذلشور- يُذلشماق yodhluşur – yodhluşmak).

يَزلِشدى Y a z l ı ş d ı: «تُكوُن لار يَزلِشدى tügünlər yazlışdı=düyünlər açıldı». Başqası da belədir, (يَزلِشوُر- يَزلِشماق yazlışur-yazlışmak).

يغلِشدى Y ı ğ l ı ş d ı: «سوُ قمُغ يغلِشدى sü kamuğ yığlışdı = bütün qoşun yığıldı, toplandı», (يغلِشوُر- يغلشماق yığlışur – yığlışmak).

يُفلشدى Y u f l u ş d ı: «قُرُملار قعُغ يُفلشدى korumlar kamuğ yufluşdı = bütün qayalar yuvarlandı». Başqası da belədir, (يُفلشوُر- يُقلشماق yufluşur – yuvluşmak)[103].

يَملشدى Y a m l a ş d ı: «اُل انكَر اَف يَملشدى ol anqar əw yamlaşdı = o ona ev süpürməkdə kömək etdi». Başqası da belədir, (يَملشوُر- يَملشماق yamlaşur – yamlaşmak).

يُملشدى Y u m l u ş d ı: «كوُزلار يُملشدى közlər yumluşdı = gözlər yumuldu», (يُملشوُر- يُملشماق yumluşur – yumluşmak).

يَرسِقدى Y a r s ı k d ı: «اَر اُغلندِن يَرسِقدى ər oğlundm yarsıkdı = adam oğlundan ayrı düşdü». Oğulla atanm qırda yoldan azaraq bir-birini itirməsi, birinin bir tərəfə, digərinin başqa tərəfə düşməsi və düşmənin əlinə keçməsi kimi, (يَرسِقار- يَرسِقماق yarsıkur – yarsıkmak).

يَتسِكتى Y e t s i k d i: «اَر يَتسِكتى ər yetsikdi = adam çox yaşlandı, yaman qocaldı».

يَتسِكتى Y e t s i k d i: «قجِغى اَر يَتسِكتى kaçığay[104] ər yetsikdi» deyilir ki, «qaçan adama yetildi» deməkdir, (يَتسِكار- يَتسِكماك yetsikər –yetsikmək).

يرتِلدى Y ı r t ı l d ı: « تونُ يرتِلدى ton yırtıldı = paltar yırtıldı». Bu şeirdə də işlədilmişdir:

اَتسا اُقِن كَزكــَرب

كِم تُرانى يغدَجى

تاغِغ اَتِب اُغرَسا

اوُزى قيى يرتِلوُر

---

[103] «Yufluşdı» fe'li və onun «yufluşur» müzaresi həm Atalayda (DLT,s.105), həm də S.Mütəllibovda (TSD, III tom, bet 115) f ilə, «yuvluşur» məsdəri isə w ilə verilmişdir.

[104] Bəsim Atalayın fikrincə, yazma nüsxədə bu sözün son hərfinin üstünə nöqtə qoyulmaqla o, n hərfinə çevrilmək istənmiş, lakin bu iş bir az səliqəsiz yerinə yetirilmişdir. Həmin söz «قجِغى kaçığay» deyil, «قجِغن kaçğın» olmalıdır (DLT, I, s.106). Salih Mütəllibov bu qeydi haşiyədə vermişdir.

«Atsa okın kəzgərip
Kim tur anı yığdaçı,
Tağığ atıp oğrasa
Özi, kuyı yırtılur».
Gəzi gərib atsa ox,
Söylə, onu kim tutar?
Əgər dağa çatsa ox,
Dağ da, daş da yırtılar.

(Zəmanədan bəhs edərək deyir: zaman oxunu gəzləsə, gərərək atsa və bir dağı hədəf alsa, dağın özü də, döşü də parça-parça olar, yırtılar), (يرتِلماق - يرتِلوُر yırtılur – yırtılmak).

يَستَلدى Y a s t a l d ı: «يَستُق يَستَلدى yastuk yastaldı = yastıq yastılandı».

يَستَلدى Y a s t a l d ı: «اُق اَمَجقا يَستَلدى ok amaçka yastaldı = ox hədəfim, nişangahm bir yanma ilişdi, dəydi», (يَستَلماق - يَستَلوُر yastalur – yastalmak).

يَنجِلدى Y a n ç ı l d ı: « قاغوُن يَنجِلدى kağun yançıldı = qovun əzildi». Qovuna bənzər şeylər əzilsə, yenə belə deyilir, (يَنجِلماق يَنجِلوُر- yançılur – yançılmak).

يَبرُلدى Y a p r u l d ı: «بير نانک بيركا يَبرُلدى bir nənq birgə yapruldı = bir nəsnə bir nəsnəyə yapışdı», (bir şey başqa şeyə keçələşərək yapışdı).

يَبرُلدى Y a p r u l d ı: «توُن يَبرُلدى ton yapruldı=paltar yıprandı», (paltarm ipi keçələşərək yıprandı), (يَبرُلماق - يَبرُلوُر yaprulur – yaprulmak).

يَترُلدى Y e t r ü l d i: «سُنكُق بُرُنقا يَترُلدى sonquk burunka yetrüldi = bir şeyin sonu, ucu burun tərəfə, ön tərəfə yetirildi, çatdırıldı», (يَترُلماک - يَترُلوُر yetrülür – yetrülmək).

يُغرُلدى Y o ğ r u l d ı: «اوُن يُغرُلدى un yoğruldı = un yoğruldu», (يُغرُلور- يُغرُلماق yoğrulur – yoğrulmak).

يغرلدى Y ı ğ r ı l d ı: «ار ثُملُغقا يغرلدى ər tumluğka yığrıldı = adam soyuqdan (soyuğa görə) büzüşdü, titrədi».

يغرلدى Y ı ğ r ı l d ı: «توُن يغرلدى ton yığrıldı=paltar yuyulmaqdan girdi, qısaldı», (يغرلور- يغرلماق yığrılur – yığrılmak).

BU BABIN BAŞQA BİR NÖVÜ

يَيقَلدى Y a y k a l d ı: «سوُف يَيقَلدى suw yaykaldı = su çalxandı». Hər hansı bir mayenin çalxanması da belədir.

يَيقَلدى Y a y k a l d ı: «ار كُنكلى يَيلدى يَيقَلدى ər könqli yayıldı-yaykaldı», könlü hər şeyə meyl edən adama belə deyiilir. Bu, az işlənən ifadədir. (يَيقَلوُر- يَيقَلماق yaykalur – yaykalmak).

يَلَبلَدى Y e l p i n d i: «أغلان يَلَبلَدى oğlan yelpindi = uşaqı yel, cin çarpdı».

يَلَبلدى Y e l p i n d i: «أل اوُزنكا ييل يَلَبلَدى ol özinqə yel yelpindi = o özü özünü yelpazələdi», (o özünü yelpiklədi), (يَلَبلَماك- يَلَبلُور yelpinür – yelpinmək).

يرتِندى Y ı r t ı n d ı: «أل توُنِن يرتِندى ol tonın yırtmdı = o, paltarını yırtırmış kimi göründü». Başqası da belədir, (يرتِلُور- يرتِلماق yırtmur – yırtınmak).

يَبجُندى Y a p ç u n d ı: « أقّا يلِم يَبجُندى okka yilim yapçundı = oxa yapışqanla quş tükü yapışdırıldı». Bir şey başqa şeyə yapışdırılsa və taxılsa, yenə belə deyilir, (يَبجنُور- يَبجِنماق yapçmur – yapçınmak). Bu söz ش ş ilə يَبشُندى yapşundı, w ilə يَڤجُندى yawçundı şəklində də söylənir.

يكرَندى Y i g r ə n d i[105]: «اَنِک يينى يكرَندى anınq yini yigrəndi = onun tükü ürpərdi».

يكرَندى Y i g r ə n d i: «اَر اَتنى يكرَندى ər ətni yigrəndi = ət çiy olduğu üçün adam ondan iyrəndi, yemədi», (يكرَنمَاک - يكرَنوُر yigrənür = yigrənmək).

يَخسِندى Y a x s ı n d ı: «اَر قفتان يَخسِندى ər kaftan yaxsındı = adam kaftanı çiyninə atdı», (qollarını geymədən, belini düymələmədən çiyninə saldı). Xirqə və xirqəyə bənzər şeylərdə də belə edilir, (يَخسِنمَاق - يَخسِنوُر yaxsmur – yaxsınmak).

يَرسِندى Y e r s i n d i: «اَر يِيرک يَرسِندى ər yerig yersindi = adam bir yeri özünə yurd elədi», (يَرسِنمَاک - يَرسِنُور yersinür – yersinmək).

يَمسِندى Y e m s i n d i: «اَر اَش يَمسِندى ər aş yemsindi = adam əslində yemədiyi halda özünü yemək yeyən kimi göstərdi», (يَمسِنور - يَمسِنمَاک yemsinür – yemsinmək).

يَلغَندى Y a l ğ a n d ı: «اَر چَناق يَلغَندى ər çanak yalğandı = adam qab yaladı». Başqası da belədir, (يَلغَنمَاق - يَلغَنُور yalğanur–yalğanmak).

يَلقَندي Y a l w a n d ı: «اَر اَغزن يَلقَندي ər ağzın yalwandı = adam dilini çıxartdı, ağzmın içində dolaşdırdı», (يَلقَنمَاق - يَلقَنُور yalwanur – yalwanmak).

يُلقَندي Y o l k u n d ı: «يُلقَندي نانك yolkundı nənq = nəsnə sıyrıldı», (يُلقَنور - يُلقَنماق yolkunur – yolkunmak).

يُركَندي Y ö r k ə n d i: «اُرُق يغاجقا يُركَندي uruk yığaçka yörkəndi = ip, urğan ağaca sarıldı».

---

[105] Bu söz basma nüsxədə «ڭكرندى tügrindi» şəklində yazılmışdır, əslində isə «يكرَندى yigrəndi» olmalıdır. Ondan sonra gələn üç söz də bunu göstərir. Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər (DLT-2005, s.695), çinlilər (DLT-Çin, III cild, s.105) və uyğurlar bu sözü «yigrəndi» şəklində oxumuşlar (TTD, III tom, bet 148).

يُركَندي Y ö r k ə n d i: «اَر يُغرقانقا يُركَندي ər yoğurkanka yörkəndi = adam yorğana büründü». Başqası da belədir, (يُركَنور - يُركَنماك yörkənür – yörkənmək».

يذلَندي Y ı d h l a n d ı: « اَت يذلَندي ət yıdhlandı = ət xarab oldu». Başqası da belədir, (يذلَنور - يذلَنماق yıdhlanur – yıdhlanmak).

يَزلَندي Y a z l ı n d ı: «تُكون يَزلَندي tügün yazlındı = düyün açıldı». Başqası da belədir, (يَزلَنور - يَزلَنماق yazlmur – yazlmmak).

يُزلَندي Y ü z l ə n d i: «اُل مَنكا يُزلَندي ol manqa yüzləndi = o, üzünü mənə tərəf çevirdi».

يُزلَندي Y ü z l ə n d i: «اَر يُزلَندي ər yüzləndi = adam xalq yanında hörmət sahibi oldu». Adamlardan bir xidmət tələb etdikdə, yenə bu söz işlənlir, (يُزلَنور - يُزلَنماك yüzlənir – yüzlənmək).

يَغلَندي Y a ğ l a n d ı: «يَغلَندي نانك yağlandı nənq = nəsnə yağlandı, yağ sürtüldü», (يَغلَنور - يَغلَنماق yağlanur – yağlanmak).

يُقلَندى Y u w l u n d ı: «يُقلَندى نانك yuwlundı nənq = nəsnə yuvarlandı», (يُقلَنور - يُقلَنماق yuwlunur – yuwlunak).

يَرمَندى Y a r m a n d ı: «اَرتامقا يَرمَندى ər tamka yarmandı = adam divara dırmandı», (يَرمَنور - يَرمَنماق yarmanur–yarmanmak).

Qayda:

İki hərfli hər hansı təsirli bir fe'lə ل l hərfi artırıldığı zaman o, təsirsiz, yaxud məchul fe'lə çevrilir. Bu barədə yuxarıda məlumat vermişdik.

Təsirli bir fe'lə n artırıldığı zaman təsirsiz olur. Bu, ərəbcəyə də uyğundur. Məsələn, ərəb dilində «qapını açdı» demək üçün « فَتَحَ البابَ fətəhə əl-bab» deyilir. Bu fe'l təsirlidir. Həmin sözə ن n hərfi əlavə edilərək «اِنفَتَحَ البابُ infətəhə əl-bab = qapı açıl-

dı» deyilsə, artıq fe'l təsirsiz hala keçmiş olur. Bir adam bir şeyi qırdığı zaman «كَسَرَ الرَّجُلُ الشَّىَ kəsərə ər-rəculu əş-şey» deyilir. Şey qırılsa, onda «اِنكَسَرَ inkəsərə» deyilir. Bu dildə [türkcədə] « اَر تُكوُن يَزدى ər tügün yazdı = adam düyün açdı» cümləsindəki «yazdı» fe'linə ن n hərfi artırılmaqla «تُكُون يَزلِندى tügün yazlındı»[106] deyilir ki, «düyün açıldı» deməkdir, ن n hərfi əlavə edilməklə fe'l təsirsiz olmuşdur.

Fe'lə l hərfi artırılaraq «تُكُون يَزلدى tügün yazıldı=düyün açıldı» deyilir. Sözə ل l və ن n hərfləri əlavə edilsə, fe'l «يَزلِندى yazlındı» olur, bu da «öz-özünə açıldı» deməkdir.

Yenə eyni şəkildə «اَر تُبِق يُقدى ər topık yuwdı» deyilir ki, «adam top yuvarladı» deməkdir. Sonra «تُبِق يُقُلدى topık yuwuldı = top yuvarlandı» deyilir. Burada fe'l məchuldur və top başqası tərəfindən yuvarlanmışdır. Top öz-özünə yuvarlansa, o zaman sözə ن n hərfi əlavə olunaraq «يُقُلندى yuwlundı» deyilir. ل l hərfindən sonra ن n artırılmazdan əvvəl bu fe'l iki cəhətdən təsirsiz idi.

Birincisi: iş və hərəkət tanınmayan, naməlum bir fail tərəfindən həyata keçirildiyi üçün fe'l təsirsiz fe'l yerində idi. ن n hərfinin

---

[106] Burada nəsə bir dolaşıqlıq var. Bəsim Atalay və Salih Mütəllibov bu xüsusa diqqət yetirmişlər. Bəsim Atalay yazmışdır: «Burada bir yanhşlıq olmahdır. «Tügün yazhndı» sözü səhvdir, bunun doğru variantı «tügün yazındı» şəklidir. «Yazındı» fe'li təsirli olsa da, ibarənin gedişindən anlaşıldığına görə, bu fe'lə yalnız n hərfi əlavə olunmalıdır. Öncə «yazdı» sözü misal gətirilir, sonra n artırılmaqla «yazlındı» nümunəsi verilir. Halbuki «yazdı» sözünə n hərfinin əlavəsi ilə bunun «yazmdı» olması daha təbiidir. Zatən bir az aşağıda l hərfindən bəhs edilir və «yazlmdı» şəkli verilir. O halda burada bir qarışıqlıq vardır. Diqqət edilsin» (DLT, III, s.112).

Bu məsələ ilə əlaqədar Salih Mütəllibovun qeydi belədir: «Mahmud Kaşğari fe'lə n hərfinin qoşulması barədə izah versə də, misalda n deyil, -hn şəkilçisi ilə yaranan söz göstərilmişdir. Ehtimal ki, müvafiq misal mətndən düşmüşdür» (TSD, III tom, bet 122).

yanına ل l hərfi artırılmaqla fe'l başqa bir failin təsiri olmadan öz-özünə yerinə yetirildiyi üçün təsirsiz idi. Biz bu barədə yuxarıda «يُقْدى yuwdı» fe'lini misal göstərmişdik. Bu fe'l iki hərfli və təsirlidir. Ona ل l hərfi əlavə etməklə fe'l «يُقْلدى yuwuldı» şəklinə düşür və başqasmın yuvarlaması ilə yuvarlandı və ya öz-özünə yuvarlandı mənasına gəlir. Bu zaman fe'l üç hərfli və iki cəhətdən təsirsiz olur. Bundan sonra ل l hərfinə ن n hərfi də artırıldıqda «يُقْلندى yuwlundı» deyilir ki, öz-özünə yuvarlandı deməkdir. Nəticədə «yuwdı» fe'li iki hərflidən [y+w] üç hərfliyə [y+w+l], sonra da üç hərflidən dörd hərfliyə [y+w+l+n] keçir və təsirsiz olur.

Qaydaların çoxunu salim kitabında vermişik. Bu fe'llərin hamısında əmr, inkarlıq və buna bənzər şeylər orada dediyimiz kimidir.

Dörd hərflilər bölməsi bitdi.

BEŞ HƏRFLİLƏR BÖLMƏSİ

فَعْلَلدى FƏ'ƏL'ƏLDİ BABI

يغجلندى Y ı ğ a ç l a n d ı: «**يير يغجلندى** yer yığaçlandı = yer ağaclandı». Yerdə ağac çoxalsa, yenə belə deyilir, (**يغجلنوُر- يغجلنماق** yığaçlanur – yığaçlanmak).

يَغِرلندى Y a ğ ı r l a n d ı: «**تَقى يَغِرلندى** təwəy yağırlandı = dəvə yağırlandı, dəvənin yağırı çoxaldı». Başqası da belədir, (**يَغِرلنوُر- يَغِرلنماق** yağırlanur–yağırlanmak). Yağırdan qaşmsa, yenə belə deyilir.

يُمُرلندى Y u m u r l a n d ı: «**سوُ يُمُرلندى** sü yumurlandı = qoşun toplandı». Başqas· da belədir, (**يُمُرلنوُر- يُمرلنماق** yumurlanur – yumurlanmak).

يُلرلندى Y u l a r l a n d ı: «**اَت يُلرلندى** at yularlandı = at yüyənləndi, ata yüyən vuruldu», (**يُلرلنوُر- يُلرلنماق** yularlanur– yularlanmak).

يَقُزلندى Y a w u z l a n d ı: «**اُل اَتغ يَقُزلندى** ol atığ yawuzlandı=o, atı yavuz, pis hesab etdi». Başqası da belədir, (**يَقُزلنوُر- يَقُزلنماق** yawuzlanur – yawuzlanmak).

يَقْشلندى Y a w a ş l a n d ı: « **اَر يَقْشلندى** ər yawaşlandı = adam yavaşıdı, adamın xasiyyəti yumşaldı», (**يَقْشلنوُر- يَقْشلنماق** yawaşlanur – yawaşlanmak).

يَمِشلندى Y e m i ş l ə n d i: «يغاج يَمِشلندى yığaç yemişləndi = ağac meyvə tutdu, meyvə verdi», (يَمِشلنمـاك - يَمِشلنوُر yemişlənür – yemişlənmək).

يَلِغلندى Y a l ı ğ l a n d ı: «تَفُق يَلِغلندى takuğ yalığlandı = xoruz pipikləndi, pipiyi çıxdı». Atın yalı çıxanda da belə deyilir, (يَلِغلنُور - يَلِغلنماق yalığlanur - yalığlanmak).

يَرَقلندى Y a r ı k l a n d ı: «اَر يَرَقلندى ər yaraklandı[107] = adam zirehləndi, zirehli köynək geyindi». Zirehli libas geyinəndə də belə deyilir, (يَرَقلنماق - يَرَقلنُور yarıklanur – yarıklanmak).

يرَقلندى Y ı r a k l a n d ı: «اَر بيرك يرَقلندى ər yerig yıraklandı = adam yeri uzaq hesab etdi», (يرَقلنماق - يرَقلنوُر yıraklanur – yıraklanmak).

يُلقلندى Y u l a k l a n d ı: «بير يُلقلندى yer yulaklandı = yerdə bulaqlar çoxaldı», (يُلقلنماق - يُلقلنوُر yulaklanur – yulaklanmak).

يُرَكلندى Y ü r ə k l ə n d i: «اَر يُرَكلندى ər yürəkləndi = adam zorla cəsarətə gəldi, ürəkləndi». Başqası da belədir, (يُرَكلنماك - يُرَكلنوُر yürəklənür – yürəklənmək).

يَرملندى Y a r ı m l a n d ı: «يَرَملندى نانـك yarımlandı nənq = nəsnə yarımlandı», (يَرملنماق - يَرملنوُر yarımlanur – yarımlanmak).

يشِملندى Y i ş i m l ə n d i: «اَر يشِملندى ər yişimləndi[108] = adam tozluq geydi». Bu, dolaq kimi bir şeydir, (يشِملنماك - يشِملنوُر yişimlənür –yişimlənmək).

يَلِملندى Y e l i m l ə n d i: « اُق يَلِملندى ok yelimləndi = ox tutğallandı, oxa yapışqan vuruldu», (يَلِملنماك - يَلِملنوُر yelimlənür – yelimlənmək). Başqa bir şey yapışdırılsa, yenə belə deyilir.

---

[107] Bu söz basma nüsxədə «يَرَقلندى yaraklandı» şəklində keçir, lakin doğrusu «يَرقلندى yarıklandı – yarıklanur – yarıklanmak» olacaq. Çünki «يَرق yarık = zireh» deməkdir.

[108] V.V.Radlovun lüğətində (III cild, s.529) «yişim» sözü «corab» mənasındadır.

BU BABIN ALTI HƏRFLİLƏRİ

يَلغَندُردى Y a l ğ a n d u r d ı: «ار يَلغَندُردى ər yalğandurdı = adam yalanladı, təkzib etdi», (يَلغَندُرماق -يَلغَندُرُر yalğandurur – yalğandurmak).

يَلدِزلَندى Y ı l d ı z l a n d ı: «يغاج يلدِزلندى yığaç yıldızlandı = ağac köklədi, kök atdı». Bir adam bir yerə yerləşmək üçün hazırlaşsa və oraya yerləşsə, yenə belə deyilir.

يلدِزلَندى Y ı l d ı z l a n d ı: «ار يلدِزلندى ər yıldızlandı = adam soylandı, sanki onun kökü bir yerdə yerləşdi, yayıldı, yaxud o, soylu, əsilli-nəsilli, nəcabətli oldu», (يلدِزلنماق -يلدِزلنُور yıldızlanur – yıldızlanmak).

يُدُرقَلندى Y u d r u k l a n d ı: «ار يُدرُقلندى ər yudruklandı = adam əlini yumruq etdi», (يُدرُقلنماق -يُدرُقلنوُر yudruklanur – yudruklanmak).

يَرمَقلندى Y a r m a k l a n d ı: «ار يَرمَقلندى ər yarmaklandı = adam pullandı, pul sahibi oldu», (يَرمَقلنماق -يَرمَقلنوُر yarmaklanur – yarmaklanmak).

يُمشَقلندى Y u m ş a k l a n d ı: «ار مَنكا يُمشَقلندى ər manqa yumşaklandı = adam mənə qarşı yumşaq oldu, yaltaqlandı», (يُمشَقلنماق -يُمشَقلنوُر yumşaklanur – yumşaklanmak).

يُمغقلندى Y u m ğ a k l a n d ı: «يمغقلندى نانك yumğaklandı nənq = nəsnə yumaqlandı, yumaq şəklinə salındı, yuvarlaq edildi», (يُمغقلنماق -يُمغقلنوُر yumğaklanur – yumğaklanmak).

يَقْغَنلندى Y a w ğ a n l a n d ı: « ار اَشغ يَقْغَنلندى ər aşığ yawğanlandı = adam yeməyi yavan hesab etdi», (adam yeməyi ətsiz saydığı

üçün az yedi), (يَقْتلنور- يَقْتلماق yawğanlanur – yawğanlanmak).

يلغْتلندى Y ı l ğ u n l a n d ı: «يير يلغْتلندى yer yılğunlandı=yer yulğunlandı, yerdə yulğun kolu bitdi», (يلغْتلنور- يلغْتلنماق yığlunlanur – yığlunlanmak).

Tanrıya şükür olsun, misal kitabı bitdi.



BİSMİLLAH İR-RƏHMAN İR-RƏHİM

ÜÇ HƏRFLİLƏR KİTABI

İKİ HƏRFLİLƏR BÖLMƏSİ[109]

تاه تاه T a h – t a h: uçurulduqdan sonra şahini geri çağırmaq üçün işlədilən söz. Buradakı ه səsi nəfəs almağa xidmət edir.

جوه جوه Ç u h – ç u h: atı tərpətmək və azarlamaq üçün çıxarılan səs.

كاه كاه K a h – k a h: köpəyi çağırmaq üçün çıxarılan səs.

ماه M a h[110]: buyur, aha, al mənasındadır. Bir şey təklif edildiyi zaman söylənir.

BU BABIN MİSAL OLANI

ياه Y a h: bəli, yaxşı mənasında bir sözdür. «اَت تُت at tut = atı tut» deyildiyi zaman cavab verən şəxs « ياه yah = yaxşı» deyir.

[Qayda]:

Bu sözlər sürətlə söyləndiyi zaman yumşaq hərf (hərfi-lin) düşür, sözlər «تَه تَه، يَه، مَه، كَه كَه، جُه جُه» şəklində deyilir. Buna görə də biz bu sözləri mənqus babında verdik, çünki yumşaq hərf

[109] Bəsim Atalaym qeydi: «Mahmud Kaşğarinin üç hərfli sözlər kitabı bitdikdən sonra «iki hərflilər bölməsi» deyə bir bölmə açmasının səbəbini biz ancaq bu şəkildə başa düşürük: onun bu bölmədə verdiyi sözlərin iki cür yazıldığı müşahidə olunur, «tah», «çuh», «mah», «yah», «kah» şəklində yazılarkən bu sözlər üç hərfli olur. Belə olduqda onları yuxarıda söylənən «üç hərflilər kitabı»na daxil etmək mümkündür. Mahmud Kaşğarinin bu sözlər «th», «çh», «mh», «yh», «kh» şəklində yazılır deməsindən isə onların iki hərfli isimlər arasma qoyulmuş olduğu anlaşılır. Bu halda müəllif bu sözlər üçün «yazılışda iki hərfli, oxunuşda üç hərfli» demək istəyir» (DLT, III, s.117).

yazılışda deyil, tələffüzdə düşür, ه hərfi isə nəfəس almağa xidmət edir. Ulu tanrının «فَبِهُدَاهُمُ اقْتَدِهْ وَ لَمْ يَتَسَنَّهْ» ayəsində olduğu kimi. Burada da ه hərfi nəfəس almaq üçündür.

Əsil hərfimə gəlincə, o, türk dilində yoxdur. Türkcə yalnız «ار اهلدی ər ahladı» sözü vardır, «adamcığaz ah çəkdi» deməkdir. Bu söz sinədən bir səsin çıxmasını bildirir. Bayquşa «اوُهی uhi» deyilsə də, əsil türklər ona «اوُکی ügi» deyirlər. Xotən və kənçək dillərində ه var, ancaq onlar əsil türklərə aid deyillər, türk ölkəsinə köçmüş boylardır.

ORTASI SÜKUNLU فِعْل, فَعْل, فُعْل FE'L, FƏ'L, FU'L BABI

تُوب T ü p: hər hansı bir şeyin dibi, əsli, kökü. «**يغاج تُوبی** yığaç tüpi = ağac kökü».

تُوب T ü p: təməl. «**تام تُوبی** tam tüpi = divarın təməli».

تُوب T ü p: insanın əslinə də «**تُوب** tüp» deyilir. Buradan almaraq « **تُوبلُک اَرَن** tüplüg ərən» deyirlər ki, «soylu adamlar, əsalətli kişilər» deməkdir.

تُوب T o p: «**تُبق** topık» sözünün qısaldılmışıdır.

جُوب Ç ö p: hər hansı bir şeyin puçası, bir şeyin sıxıldıqdan sonra qalan çör-çöpü. «**اُزُم جُوبی** üzüm çöpi = üzüm puçası».

جُوب Ç ö p: «**ياغ جوبی** yağ çöpi = yağ tortası».

جُوب Ç ö p: «**بُور جُوبی** bor çöpi = şərab xıltı». Başqası da belədir.

جُوب Ç ö p: «**تُتماج جوبی** tutmaç çöpi = tutmac bişirmək üçün kəsilən xəmir parçalarından hər biri».

---

[110] Çinlilər bu sözü və bundan sonrakı «yah» sözünü «məh» və «yəh» şəklində vermişlər (DLT-Çin, III cild, s.115).

قوُب K o p: «اُل مَنی کُرُب قوُب قِلدی ol məni körüp kop kıldı = o məni görüb çox sevindi».

کوُب K ü p: küp, küpə.

کیب K i p: qəlib, pəstah. Hər hansı bir şeyin qəlibi. «کَربج کیبی kərpiç kipi =kərpic qəlibi».

کیب K i p[111]: bənzər, tay. Oğuzca. «بُو اَر اَنِک کِبی bu ər anınq kipi = bu adam onun tayıdır, onun kimidir».

بُوت B u t: bud.

بُوت B u t: iri və dəyərli firuzə daşına deyilir, böyüklərin oğullarmın və qızlarının alınlarına, alınlarındakı dingələrə taxılır. « قِز بُوت اُریدی kız but üridi[112] = qız firuzə taxdı».

بُوت B u t: bir böyük adam tərəfmdən göndərilən ərməğanı gətirən şəxsə verilən bəxşiş. Bu, bir adamm digərinə hədiyyə olaraq göndərdiyi atı gətirən şəxsə verilən pul, qoyun kimi bir şeydir. Bu şəkildə verilən qoyuna «بُوت but» deyilir.

تیت T ı t: şam fıstığı, sənubər ağacı. Dağlarda bitir.

جیت Ç i t: üstündə ala-bula naxışları, gülləri olan ipək Çin qumaşı; çit.

سوُت S ü t: süd.

شوُت Ş ü t: soy, əsil, nəcabət. Xotəncə.

توُج T u ç: tunc.

کوُج K ü ç: güc, qüvvət.

کوُج K ü ç: zülm. «کوُج اِیلدِن کِرسا تُرُو تُنکلکتِن جِقار küç eldin kirsə, törü tünqlüktin çıkar=zor həyətdən girsə, törə bacadan çıxar», (zülm qapıdan girsə, törə, adət-ənənə, mərhəmət bacadan

[111] Salih Mütəllibov bu sözü «kib» şəklində transkripsiya etmiş və onun «Divan»da həm «kibi», həm də «kib» şəklində keçdiyini, ancaq Mahmud Kaşğari tərəfmdən müvafiq izahat verilmədiyini yazmışdır. «Ona görə də bu sözün o dövrdə iki variantda işləndiyi, yoxsa variantlarından birinin doğru, digərinin yalnış olduğu bizə naməlum qaldı» (TSD, III, bet 131).

[112] Bəsim Atalay bu sözü «اُردی urdu» şəklində oxumağı təklif etmişdir.

çıxar). Zülmkar adama «كُجَمجى küçəmçi», qüvvətli adama «كوُجلُك küçlüg» deyilir.

كوُج K ü ç: küncüt. Küncüt yağına «كوُج ياغى küç yağı» deyilir. Çigilcə. Küncüt otunun toxumuna böyüklüyündən dolayı « اِنكاك كُوجى inqək küçi [=inək küncütü]» deyilir.

كِيج K e ç: gec. Bu sözdən almaraq «كِيج كلدى keç kəldi = gec gəldi» deyilir.

بُوذ B o d h: boy. «اُزُون بُوذلُغ كِشى uzun bodhluğ kişi = uzun boylu, uzunboy adam».

بُوذ B o d h: toy quşu[113], doğdaq.

بُوذ B o d h: «بُوذ مُنجُق bodh monçuk=müşk və raməkdən hazırlanm bir növ muncuq. Bunu qadınlar taxırlar».

بُور B o r: şərab. Bu məsəldə də işlənmişdir: «بُور بُلماذِب سِركا بُلما bor bolmadhıp sirkə bolma = şərab olmamış sirkə olma». Bu söz özünü böyüklərə oxşadan uşaq haqqında deyilir.

بير B i r: bir. «بير يَرماق bir yarmak = bir pul».

تُور T ö r: otağın ən yaxşı yeri. «تُوركا كَج törgə keç = yuxarı başa keç».

تُور T o r: tələ; quş və balıq ovlanan tor.

جوُر Ç o r: «جوُر اُراغت çor urağut=ayıb yeri bitişik olan qadın».

جوُر Ç o r: oğuzlar sarılğan otlara, sarmaşıqlara da «جُور اوُت çor ot» deyirlər. Əvvəlki sözün əsli bundandır.

سوُر S u r: «اَر سوُر سُور مُون اُبتى ər sur-sur mün öpti = adam şap-şupla şorba içdi». Bu, dodaqlarm çıxardığı səsi bildirir.

قوُر K o r: ziyan. «اَر قوُر قِلدى ər kor kıldı = adam ziyan elədi».

---

[113] «Toy quşu»nun hansı quş olduğunu anlamaq üçün digər nəşrlərə baxdıq. Uyğurlar onu «dovdaq» kimi (TTD, III tom, bet 167) vermişlər. Salih Mütəllibov «boynu uzun, arxa ayaqları qısa bir yırtıcı» kimi (TSD, III tom, bet 132) çevirmişdir. Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər isə sözü dh ilə «todh» kimi (DLT-2005, s.573) oxumuşlar.

قوُر K o r: yoğurt mayası, çalası. Bu uyuşmuş, tutmuş qatıq və ya kımızdan qabın dibində qalan hissədir, onun üstünə süd tökülərək yoğurt və ya kımız hazırlanır.

قور K u r: quru. Oğuzca. Bu, «قُرُغ kuruğ» sözünün qısaldılmışıdır. Bu məsəldə də işlənmişdir: «قلان قدُغقا تُشسا قوربقا ايغِر بُلور kolan kuduğka tüşsə, kur baka ayğır bolur=qulan, çöl eşşəyi quyuya düşsə, [quyunun sahibi] qurbağa ayğır olar». Bu, ərəblərin «اِنَّ البُغاثَ بِاَرضِنا يَستَنسِرُ» sözü[114] kimidir.

بُوز B o z: boz. «بُوز اَت boz at = boz rəngli at». Bu, fəsih deyildir. Hər hansı bir heyvan ağla qırmızı arasmdakı rəngdə olsa, yenə belə deyilir. «بُوز قوُى boz koy = boz rəngli qoyun».

بُوز B ö z: bez.

بُوز B u z: buz. Bu atalar sözündə də işlənmişdir: «بُوزدَن سوُف تَمار buzdan suw tamar=buzdan su damar». Bu söz xasiyyəti atasınmkına bənzəyən adam haqqmda işlədilir.

بِيز B e z: ətlə dəri arasında peyda olan şiş.

تُوز T o z: toz.

تُوز T o z: yaya sarınan sırım.

تُوز T ü z: xalq, rəiyyət. «ايل تُوز نتَك el tüz nətək = el, xalq necədir»?

تُوز T ü z: əsil, kök. «اَنِک تُوبى تُوزى كِم anınq tüpi tüzi kim = onun əslinəsli, soyu-sopu kimdir»?

تُوز T ü z: düz. «تُوز يِير tüz yer = düz yer».

تُوز T u z: duz.

تِيز T i z: diz.

تِيز T i z: yüksək yer. Farslar bu sözü alaraq qalaya «دِز diz» deyirlər.

---

[114] Ərəblərin məsəlinin tərcüməsi belədir: اِنَّ البُغاثَ بِاَرضِنا يَستَنسِرُ = innəl buğat biarzina tastansiru = bizim eldəki atmaca quşu oldu sizdə ağbaba», yəni bizim eldəki sərçə sizdə qartal oldu.

تِز T i z: Kaşğara yaxm bir yaylaya yüksəkliyi dolayısı ilə Tarığ art tiz deyilir.

تِزنک تِز T i z i n q t i z: başqa bir yaylanın adı.

ییز Y i z: «ییز اڤی تِز Yiz əwi tiz = Barsğan yaxmlığında bir yayla adı».

جیژ Ç i j: dəmir çivi, (iki məxrəc arasındakı ژ j ilə). Zireh çivilərinin ucuna da «جیژ çij» deyilir.

سوُز S ö z: söz.

سیز S i z: çigil dilində böyüklərə, hörmətli adamlara deyilən bir xitabdır, «سَن sən» deməkdir. Əsil mənası sizlərdir. Kiçiklərə «سَن sən» deyirlər. Oğuzlar bunun tərsini edirlər.

قوز K u z: «قوز تاغ kuz tağ = günəş görməyən dağ, dağın quzey tərəfi».

بُوس P u s[115]: «کوُک بُوس بُلدی kök pus boldı = göyün üzü örtüldü, qaraldı».

بُوس P u s: «اَر کوزی بوُس بُلدی ər közi pus boldı = adamın gözünə qaranlıq çökdü, mədəsində meydana gələn buğdan gözü qaral-dı».

تُوس تُوس T u s - t u s[116]: «اَنی تُوس تُوس اُردی anı tus-tus urdu=onun paltarının üstünə tez-tez vurdu».

بوُش B o ş: «بوُش کشی boş kişi = azad adam».

بوُش B o ş: «بوُش اُراغت boş urağut = boşanmış qadm, dul qadın».

بوُش B o ş: «بوُش اِلک boş əlik = boş əl, işdən və ya bir şeydən qurtulmuş, boş qalmış əl».

---

[115] Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər bunu və bundan sonrakı sözü «bus» kimi oxumuşlar (DLT-2005, s.209). Onlar maddə başmdakı bütün p-ləri b ilə oxuyurlar.

[116] Bəsim Atalayın qeydinə görə, bu söz basma nüsxədə «tus-tus» şəklindədir, yazma nüsxədə əvvəlcə «bus-bus» şəklində ikən sonra qırmızı mürəkkəblə düzəldilərək «tus-tus» şəklinə salmmışdır. Burada iki şey nəzərə almmalıdır: əgər söz burada verilməlidirsə, o zaman «bus-bus» olmalıdır, çünki burada b ilə başlayan sözlər gəlir. Əgər söz «tus-tus» şəklində olacaqsa, onda bu söz iki maddə sonra t hərfi sırasında gəlməlidir (DLT-III, s.124). Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər bu sözü «tos-tos» kimi oxumuşlar (DLT-2005, s.582). Uyğurlar müvafiq qeydlə «tus-tus» şəklində vermişlər (TTD, III tom, bet 171). Çinlilər maddə başında «tus», misalda isə «tus-tus» kimi yazmışlar (DLT-Çin, III cild, s.121).

بوُش B o ş: «بوُش اَت boş ət = yumşaq ət». Yumşaq torpağa da belə deyilir.

بوُش B o ş: «بوُش اَت boş at = sərbəst buraxılmış at».

بوُش B o ş: «تُوش اَف boş əw = boş ev». Boşaldılan qab və ya bir işi gördükdən sonra boş qalan alət haqqında da belə deyilir.

بيش B e ş: beş, sayda beş.

تُوش T u ş: tuş, tay, bab. «اَنِک تُوشی anmq tuşı = onun tayı, onun babı».

تُوش T u ş: qarşı, bir şeyin qarşısı. «اَوِم تُوشی əwim tuşı = evimin qarşısı, evimin tuşu».

تُوش T ö ş: döş, köksün başı.

تُوش T u ş: kəmər qayışlarınm ucuna taxılan qızıl və ya gümüş toqqa.

تُوش T ü ş: «تُوش اُودی tüş ödi = səhərlə gönorta arasında olan vaxt»[117].

تُوش T ü ş: pollyusiya; yuxu azması. «تُوش کُرمِش اُغلان tüş körmiş oğlan =yuxusunda ehtilam görən gənc oğlan».

تُوش T ü ş: düş, röya. «تُوش يوُردی tüş yordı = yuxu yozdu».

تيش T ı ş: diş. İnsanm və başqa canlıların dişi.

تيش T ı ş: kotan dəmiri, cüt ucluğu, məc.

تيش T ı ş: «تيش اَت tış at = alnındakı ağ qaşqası gözlərinin önünə qədər uzanan, ancaq qulaqlarına qədər çatmayan, burnuna qədər enməyən, bunun ikisinin ortasmda qalan at.

سيش S ı ş: tutmac şişi.

سيش S i ş: şişmiş olan hər nəsnə, yumru.

---

[117] Bəsim Atalay «تُوش اُودی tüş ödi=quşluq vaxtı», yəni «səhərlə gönorta arasında olan vaxt» kimi (DLT, III, s.125), Salih Mütəllibov «tüş = gün çıxandan sonrakı vaxt», «tüş ödi=düş [yuxu] vaxtı» (TSD, III tom, bet 138), Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər «tüş ödi=dincəlmə, şəkərləmə [mürgüləmə, günorta yuxusu] vaxtı» kimi (DLT-2005, s. 610) vermişlər. Hüseyn Düzgün isə «öd» yerinə «od» yazsa da, ifadəni «zəmani-xabi-nimruzan, ğeylulə», yəni «günorta yuxusunun vaxtı» kimi (د ل ت s.493) tərcümə etmişdir.

سَيِش S a y ı ş[118]: (imalə ilə) ödənək, təxsisat. «مَن آنكَر سَيِش بيردِم mən anqar sayış berdim=mən ona ödənək, təzminat verdim».

قُوش K o ş: «آت قُوش koş at = xaqanın yanında gedən yedək, ehtiyat at».

قُوش K o ş: hər hansı bir şeyin cütü, eşi, qoşası. Bu sözdən alınaraq qayçıya da «قُوش يِجاك koş biçək», yəni «qoşa bıçaq» deyilir. Bu atalar sözündə də işlənmişdir: « قُرقمِش كِشيكا قوُى بَشى قوُش كُرُنُور korkmış kişigə koy başı koş körünür = qorxmuş adamın gözünə qoyun başı qoşa görünər». Bu söz bir şeydən qorxan və hər an xəyal görərək diksinən, səksənən adam haqda deyilir.

كيش K i ş: samur. Bunun quyruğuna «كيش قُذرُقى kiş kudhrukı» deyilir.

كيش K i ş: sədəq, oxdan, oxqabı. Oğuzlar və oğuzlarm qardaşı olan qıpçaqlar bunu bilməzlər[119].

ليش L i ş[120]: selik, tüpürcək. Çigilcə. Bu sözün bəlğəm mənası da var. «ليش آقتى liş aktı = selik və ya bəlğəm axdı».

موُش M u ş: pişik. Çigilcə. Oğuzlar «چَتُك çətük» deyirlər.

بُوغ B o ğ: içinə əşya qoyulan heybə, boğ, boğça.

تُوغ T o ğ: at ayaqlarının zərbəsindən qopan toz.

---

[118] Bəsim Atalay «seyiş» və «seyş» kimi oxunan bu sözün «sayış» ola biləcəyini də istisna etməmişdir. Ancaq bu sözlər bu babın qəlibinə uymur, ona görə də bu sözü «siş» kimi oxumağı təklif etmişdir (DLT, III, s.126). Uyğurlar (TTD, III tom, bet 174), çinlilər (DLT-Çin, III cild, s.123) və Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər bu sözü «seş» kimi oxumuşlar (DLT-2005, s.483).

[119] Burada Salih Mütəllibovun bir qeydi var: «o dövrdə hərbi terminlərdən olan bu sözün oğuzlar tərəfindən bilinməməsi onların bu mənada başqa bir sözdən istifadə etmələri ilə bağlı olmalıdır. Çünki bir boyda bu sözün olmaması o dövrün savaş tələblərinə görə həmin boyun çox əhəmiyyətsiz mövqe tutmasına işarədir. Halbuki o dövrdə oğuzların türklər arasında çox mühüm mövqe tutduqları məlumdur» (TSD, III tom, bet 140). Onda belə çıxır ki, «oğuzların və onların qardaşları olan qıpçaqların bilmədiyi» bu söz karluqlara aiddir, lakin nədənsə Mahmud Kaşğari bu sözün hansı ləhcədə işləndiyini göstərməmişdir. Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər bu sözü «keş» kimi oxumuşlar (DLT-2005, s.309).

[120] Çinlilər (DLT-Çin, III cild, s.124), uyğurlar (TTD, III tom, bet 175) və Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər bu sözü «leş» kimi oxumuşlar (DLT-2005, s.339).

تُوغ T u ğ: xaqanın yanmda çalman nağara (kös) və davul. «خان تُوغ اُردی xan tuğ urdu = xan növbə davulunu vurdu, orkestr çaldı».

تُوغ T u ğ: bayraq, sancaq. «تُقُوز تُوغلُغ خان tokuz tuğluğ xan = doqquz tuğlu xan və ya xaqan». Xanın vilayəti nə qədər çox, dərəcəsi nə qədər yüksək olursa-olsun, tuğu doqquzdan artıq ola bilməz. Çünki bu, uğurlu rəqəmdir. Bu tuğlar turuncu rəngli ipəkdən və ya qumaşdan tikilir, bu rəng uğurlu rəng sayılır.

تُوغ T u ğ: su bəndi, sədd. «سُققا تُوغ اُر suwka tuğ ur = suya bənd vur».

تُوغ T u ğ: hər hansı bir nəsnənin tıxacı. Buradan almaraq «تُنكلك تُوغی tünqlük tuğı», yəni «pəncərə, ocaq kimi evdəki dəliklərin qapağı» deyilir.

تیغ T ı ğ: «تیغ اَت tığ at = rəngi qırmızı ilə doru arasmda olan at, qonur at».

جاغ، جوُغ Ç a ğ - ç u ğ: «جاغ جوُغ قُبتی çağ-çuğ koptı = gurultu qopdu, həşir düşdü», «جُغی قُبدی çuğı kopdı = gurultu qopdu».

جوُغ Ç o ğ: əşya qoyulan heybə, boğça.

جوُغ Ç o ğ: günəş şüaları, günəşin saçaqları. «كوُن جوُغی kün çoğı = günəşin şüası».

جوُغ Ç o ğ: odun alovu, odun yandıqdan və köz olduqdan sonra közün üstündə uçuşan şölə.

جیغ Ç ı ğ: köçərilərin çadır içini bölmələrə ayırmaq üçün sələ qamışından (çığ otundan) düzəltdikləri pərdə. Bu, qamışdan daha incə, daha yumşaqdır.

جیغ Ç ı ğ: bir türk arşmıdır. Ərəb arşınının üçdə ikisi qədərdir. Köçərilər onunla bez ölçürlər.

سیغ S ı ğ: bənzətmə qoşmasıdır. Arzu ediləni və söylənəni o şeyə bənzətmək üçün ismin sonuna əlavə olunur. «قُلسیغ اَر kulsığ ər

=qula bənzəyən adam», «بوُ قرى أل أغلانسغ bu karı ol oğlansığ=bu qocamn xasiyyəti uşaq kimidir». Söz ك ke-li, yaxud incə ahəngli olsa, غ ğ yerinə ك g gəlir [-sığ yerinə sig işlənir]. Məsələn: «بوُ ار أل بَكسِك bu ər ol bəgsig = bu adamın xasiyyəti bəyinkinə bənzəyir», «بوُ أغل أل ارسِك bu oğul ol ərsig = bu uşağın xasiyyəti ərlərin xasiyyətinə bənzəyir».

قوُغ K o ğ: gözə və ya yeməyə düşən çör-çöp.

قاغ قوغ K a ğ-k u ğ: «قاز قاغ قوُغ انّى kaz kağ-kuğ etti = qazlar qağ-quğ etdilər, bu şəkildə çığıraraq səs saldılar».

قيغ K ı ğ: torpağı qabartmaq üçün işlənən gübrə.

ثوُف S u f[121]: yun ipdən əllə hörülən qurşaq.

سوُف S u w: su. Bu atalar sözündə də işlənmişdir: «سوُف بيرماس كا سوُت بير suw berməskə süt ber = su verməyənə süd ver», (sənə su verməyən adama süd ver). Bu sözün mənası budur: sənə pislik edənə sən yaxşılıq et, çünki sənin yaxşılığın onu sənə qul edər.

قاف قوف K a w-k u w: «تونُ قاف قوُف بُلدى ton kaw-kuw boldı = paltar tikilərkən büzüldü, çəkildi».

بُوف P o w: bayatlaşmaqdan və ya qoxmaqdan çörəyin üstündə yaranan yaşıl təbəqə. Başqası da belədir.

بوُق B o k: nəcis. Oğuzca.

بوُك B u k: «قاغوُن بوُق بيركا تُشدى kağun buk yergə tüşdi = qovun part deyə yerə düşdü». İçi boş olan hər şey yerə düşüb yarılsa, «buk etti» deyilir, bu, əşya düşərkən çıxan səsi ifadə edir.

---

[121] Bu sözlə bağlı Bəsim Atalayın qeydində deyilir ki, türk dilində ث se hərfi yoxdur və Mahmud Kaşğari bunu «Divan»ın əvvəlində bildirmişdir. O zaman ث se ilə yazılan «suf» sözü س sin hərfi ilə yazılmalı idi. Buradan belə bir nəticə hasil olur ki, katib Savəli-Şamlı Məhəmməd kitabı orijinal nüsxədən köçürərkən bir nəfər oxumuş, o isə yazmışdır (DLT, III, s.129).

جُوق Ç o k: «ار جوُق çok[122] ər = pis, alçaq adam». Oğuzca.

جيق Ç ı k: «ات كُراين جيق çık et körəyin = hələ bir səsin çıxsın görüm, kişisən, səsini çıxar». Bu, incidən adama qarşı çıxa bilməyən adam üçün söylənir.

سوُق S u k: «ار سوُق suk ər = acgöz, alçaq adam».

سوُق S u k: «سوُق ارنكاك suk ərnqək = şəhadət barmağı». Bu, həris barmaqdır, çünki yeməyə birinci o uzanır.

سيق S ı k: az. Oğuzca. «الاردا قوُى سيق ال olarda koy sık ol = onlarda qoyun azdır».

قاقوُق K a k - k u k: «قاز قاقّوُق انّى kaz kak-kuk etti = qaz qağ-quğ deyə səs çıxardı».

قاقوُق K a k u k[123]: yarma, qurudulmuş ət, yaxud ərik, qaysı kimi meyvə qaxı (?).

بوُك B ö k:[124] bök, oyunda aşığın belinin yuxarı düşməsi. Buna « جك بوُك çik bök = cik bök» də deyilir.

بوُك B ö g[125]: böv. Bir hörümçək növü. Türk və türkmən dillərinin birində.

كوُك K ö g: (yumşaq ك g ilə). Şeirin vəzni, ölçüsü. « بوُ يير نا كوُك أزا أل bu yır nə kög üzə ol=bu şeirin vəzni, ölçüsü nə üstündədir, bu şeir hansı vəzndədir».

---

[122] Salih Mütəllibov bu sözü «çuk» şəklində vermişdir (TSD, III tom, bet 143). Lakin kiril əlifbası ilə «чук» sözünü həm «çuk», həm də «çok» kimi də oxumaq mümkündür.

[123] Bəsim Atalay belə hesab edir ki, bu söz də əvvəlki kimi «kakkuk» şəklində olmahdır. Çünki «kakuk» sözü bu bölməyə uymur. Ehtimal ki, «kakuk» sözündəki ikinci k şəddəli imiş, şəddə düşmüşdür (DLT, III, s.130). Uyğurlar bu sözü «kakkuk» kimi oxumuş və «qax» deyə tərcümə etmişlər (TTD, III tom, bet 179). Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər isə «kak kok» kimi (DLT-2005, s.400) oxumuş, «qurudulmuş meyvə» kimi mənalandırmış, sonra isə «söz uzatması vardır» qeydini vermişlər. Onda belə çıxır ki, bu söz «kak», yəni bizinı işlətdiyimiz «qax=meyvə qaxı» deməkdir.

[124] Uyğurlar «bök» maddəsini «pük» kimi vermişlər (TTD, III tom, bet 180).

[125] Salih Mütəllibov həm bu sözü, həm də üstdəki sözü «pük» şəklində oxumuşdur. (TSD, III tom, bet 144). Ərəb imlasında eyni cür yazılan (بوُك) bu iki söz, şübhəsiz ki, fərqli şəkildə tələffüz edilmişdir.

كوُك K ö g: oxumada səsin yüksəlib-alçalması, zil-bəm. «**اَر كوُكلَندى** ər kögləndi=adam səsini alçaldıb-yüksəldərək şərqi oxudu».

كوُك K ö g: bir şəhərin xalqı arasmda meydana çıxaraq ilboyu gülünən şey, gülməcə. «**بوُ بل بوُ كوُك كَلدى** bu yıl bu kög kəldi = bu il bu gülməcə gəldi, bu ilin gülməcəsi, məzhəkəsi budur».

كوُك K ö g: «**كوُك يلقى** kög yılkı = başıboş, sərbəst yayılan heyvan». Bu şeirdə də işlənmişdir:

كُوكلر قمُغ تُزُلدى
اِقِرق اِدِش تِزلدى
سـَنسِز اُزُم اُزَلدى
كَـــلكِل اَمُل اُينَلِم

«Köglər[126] kamuğ tüzüldi,
Iwrık idhiş tizildi,
Sənsiz özüm özəldi,
Kəlgil amul oynalım».
Mahnı tamam düzüldü,
İbrik, qədəh düzüldü,
Sənsiz canım üzüldü,
Gəl çıx, yavaş oynayaq.

(Şərqilər, mahnılar ard-arda sıralandı, sürahilər, qədəhlər masa üstdə düzüldü, könlüm səni istədi, gəl çıx, ürəyim dincəlsin, yavaş-yavaş oynayıb şadlanaq).

كوُك K ö g: qoçun, yaxud başqa heyvanlarm qışa yaxm dişilərlə cütləşməsi. «**قوُى كُوكى بُلدى** koy kögi boldı = qoç qatımı oldu». Başqası da belədir.

---

[126] Çincə (DLT-Çin, III cild, s.128) və uyğurca nəşrlərdə bu söz «küglər» şəklində (TTD, III tom, bet 181) verilmişdir.

كوُك K ö g: aynanm üzündə peyda olan pas; korroziya. Bu sözdən alınaraq «كوُزُنكُوكا كوُك تُشدى közünqügə kög tüşdi = aynaya pas düşdü» deyilir.

كوُك K ö g: qadmların üzünə düşən çillik. Başqasmın üzünə düşən çillik üçün də belə deyilir.

كوُك K ö k: göy. Bu məsəldə də işlənmişdir: «كوُكًا سنْدسا يوزكا تُشوُر kökgə sudhsa, yüzgə tüşür = göyə tüpürsə, üzə düşər», (bir adam göyə türüpsə, tüpürcək qayıdıb üzünə düşər). Bu söz başqasma pislik edərkən pisliyi özünə toxunan adam haqda deyilir.

كوُك K ö k: göy rəngi. «كوُك تُون kök ton = göy rəngli paltar». Göy, səma rəngində olan hər şeyə belə deyilir.

كوُك K ö k: «كَنْد كوُكى kənd köki = şəhərin dörd yanında yerləşən bağlar, bostanlar; şəhərin qaralтısı». Bu sözlə ağaclarm yaşıllığı murad edilir.

كوكيوُق K ö k y u k: kəndlilərə və türkmənlərin böyüklərinə verilən ad.

بيل B e l: bel. «اَنى بيلِندا ثُت anı belində tut = onu belindən tut».

بيل B e l: «اُل اَنكَر اَنجا اَشِن بيردى بيل قيلدي ol anqar ançа aş berdi, bel kıldı = o ona o qədər yemək verdi ki, boş beli doldu». Bir adama dilədiyindən çox yemək verənə «bel kıldı» deyilir.

تُول T u l: dul. «تُول اُراغُت tul urağut = dul qadm». Bu atalar sözündə də işlənmişdir: «يَقْلاق تيلّغ بيكدن كروُ يَلنكُوس توُل بيك yawlak tıllığ bəgdən kerü yalınqus tul yeg=bəd dilli ərdənsə yalnız [tənha] dul olmaq yaxşıdır», (qadmın tənha dul olması onu söyən bəd dilli əri olmasmdan yaxşıdır).

تُول T ö l: döl vaxtı. Oğuzca. Balaya da «تُول töl» deyilir.

تيل T ı l: dil. Bu hikmətli sözdə də işlənmişdir: «اَردَم باشى تيل ərdəm başı tıl = fəzilətin, ərdəmin başı dildir». Bu, ərəbin « اَلمَرءُ مَخبُوٌّ تَحتَ لِسانِهِ » sözü[127] kimidir.

تيل T ı l: dil. «اُيغُرتيلى uyğur tılı = uyğur dili», «خِتاى تِلى Xıtay tılı = Çin dili».

تيل T ı l: dil, söz. «اُل بَكا تيل تَكُردى ol bəggə tıl təgürdi = o, bəyə dil uzatdı,o, bəyə sözlə toxundu».

تيل T ı l: casus. «يَغيدَن تيل تُتّى yağıdan tıl tuttı = düşməndən dil tutdu».

جيل Ç i l: çirkinlik, çil. Oğuzca.

جيل Ç i l: bədəndə qalan qançır izi.

سُول S ü l: ətdə və ağacda olan yaşlıq, nəm.

سُول S ü l: «سُول لُك اَت süllüg ət=yaxşı bişməmiş, üstündə qan izi qalmış ət». Bu atalar sözündə də işlənmişdir: « سُكُت سوُلِنكا قَذِنك قاسِنكا sögüt sülinqə, kadmq kasınqa=söyüdə təzəlik, qaym ağacma qatılıq, sərtlik (xasdır, yaraşır)», (söyüdə yaşlıq nə qədər yaraşırsa, qayına da sərtlik bir o qədər yaraşır).

سُول S o l: «سُول اَلِك sol əlig = sol əl».

سيل S i l: «سيل كِشى sil kişi = hər yeməkdən diksinən sofu adam».

سيل S i l: «سيل اَت sil at = yemi az yeyən at».

قُول K o l: qol.

قُول K o l: dağın təpəsindən aşağıya doğru enən, ancaq dərənin ortasından yüksək olan yer. «اُوبرى قوُلى oprı kolı=dərənin qolu».

قُول K o l: qılıncın və ya bıçağın üzərində olan yiv biçimindəki oyma. O çox zaman qızılla işlənir, ona «قِلِج قوُلى qılıç kolı» deyilir.

كوُل K ö l: hovuz.

كوُل K ö l: göl, sututar, yığılmış su.

---

[127] Ərəbin sözü belədir: «اَلمَرءُ مَخبُوٌّ تَحتَ لِسانِهِ əl məru məxbu təhtə lisanihi= hər adam öz dilinin altında gizlidir, gizlənmişdir», yəni danışanda onun kim olduğu ortaya çıxar.

اِسِک کوٗل İ s i g k ö l: Barsğanda bir göl, uzunluğu 30 fərsəx, eni 10 fərsəxdir.

کُرنک K ö r ü n q: Kaşğar dağlarında, Biyizdə[128] olan bir gölün adı. Çevrəsi 30 fərsəxdir.

سِذِنک کوٗل S i d h i n q k ö l: قُجنکار باشی Koçnqar Başına yaxın (yuxarıdakı kimi) bir göl.

یُلدُز کوٗل Y o l d u z k ö l: Köçə, Kinqüt və uyğurlar arasında yerləşən bir göl.

ااى کوٗل A y k ö l: Uç yaxınlığında bir yerin adı.

تَرنک کول T a r ı n q k ö l: İki Öküz sərhədində olan bir gölün adıdır. Bu göllərdən hər birinin sahəsi 30-40 fərsəxdir. Bunlar kimi türk ölkələrində çoxlu göllər vardır. Mən ancaq islam diyarında olan göllərin irilərini söylədim.

کوٗل K ö l: dəniz. Buradan almaraq dəniz köpüyünə «کوٗل کُبکُی köl köpügi» deyilir, ancaq «تَنِکز کُبکُی tənqiz köpügi» deyilmir.

تیم T i m: şərab dolu tuluq. «تیمجی timçi = şərabçı, meyxanaçı». Bəziləri şərab satana da «تیم tim» deyir, ancaq bu, doğru deyil, doğru olan əvvəlkidir, çünki ی ج [–çı/-çi] peşə bildirir.

سیم سمراق S ı m s ı m r a k: bir yemək növü. Resepti: baş [yəni kəllə] qaynadılıb bişirilir, sonra xırda-xırda doğranaraq bir qaba qoyulur, ədviyyat vurulur və üstünə köhnə yoğurt tökülür. Bir müddət eləcə saxlanır, daha sonra yeyilir. Çigilcə.

قُوم K o m: dəvə yəhəri. Dəvənin çulu samanla doldurulur, dəvənin hürgücü qədər yüksəldilir, sonra dəvənin üstünə qoyulur. Buna « تَقْی قُومی təwəy komı» deyilir.

---

[128] Bəsim Atalayın fikrincə, «Biyiz» sözünün yerinə «yiz» olmalıdır. «Yiz» sələ otunun adıdır, bu ot qamışa bənzəyir, ancaq ondan daha incə və yumşaqdır. Kaşğardakı bu göl adını həmin sözdən almış olmasın? (DLT, III, s. 135).

قُوم K u m: dalğa, su dalğası. Bu beytdə də işlənmişdir:

كُلُـــم قوُمى ڤبسا قلى تامغ اِتار

كُرسا آلى بِلكا كِشى سوُزكا بُتار

«Kölüm kumı kopsa kalı tamığ itər,

Körsə anı bilgə kişi sözgə bütər».

Gölümün dalğası qopsa, divarı itələyər, döyəclər,

Görsə onu bilgə adam, sözə inanar.

(Gölüm dalğalansa, sarayımın divarma çarparaq sanki onu yerindən oynadar, itələyər, ağlı başmda bir adam bunu görsə, o zaman sözümün doğruluğuna inanar).

نوُم N o m: millət, şəriət, yasa, qanun. Buradan almaraq «تَنكرى نوُمى tənqri nomı», yəni «tanrmm dini və şəriəti» deyilir. Bütün dinlərə də «نوُم nom» deyilir. Bu söz çincədir.

توُن T o n: paltar.

توُن T u n: dincəlmə, rahatlıq. «كُنكُل توُن بُلدى könqül tun boldı = könül rahat oldu».

توُن T u n: «توُن اُغل tun oğul = qadının ilk uşağı, (oğlan və ya qız olsun).

توُن T u n: «توُن قيز tun kız = qadmın ilk doğduğu qız uşağı».

توُن T u n: qadınm ilk ərinə «توُن بَك tun bəg» deyilir.

تين T ı n: «تين كِشى tın kişi = bir işin qulpundan yapışmayan avara adam». Harınlaşan, tənbəlləşən heyvana da belə deyilir.

تين T i n: yüyən, cilov.

جين Ç ı n: «جين سوُز çm söz = doğru söz».

جين Ç ı n: «جين كِشى çın kişi = doğru-dürüst adam».

خوُن X u n: «خوُن ايش xun ış=qaba, faydasız iş», «خوُن خَرا ايشلما xun xara ışlama = qaba, faydasız iş işləmə».

سوُن S u n: «سوُن كِشى sun kişi = yumşaq xasiyyətli, ürəyi yuxa adam».

سوُن S o n: «سوُن التُون son altun = külçə qızıl». Bu, bir barmaqdan bir arşma qədər uzunluqda ola bilər.

سين S ı n: boy-buxun. Bu sözdən alınaraq «بوُذلغ سين لغ كِشى bodhluğ smlığ kişi=boylu-buxunlu adam» deyilir. Buradan alınaraq məzara da «سين sın» deyilir, çünki məzar insanın boyu uzunluqda olur.

سين S ı n: məzar.

قاثُون سينى K a t u n s ı n ı: Çinlə tanqut ölkəsi arasmda bir şəhər adı.

سين S i n: sən. Kənçək dilində. Türklər «سَن sən» deyirlər. Kənçək dilində çox zaman sözlər kəsrə ilə deyilir. Çünki onların dili pisdir. Yuxarı Çinə qədər çigil, yağma, toxsı dillərində sözlər zəmməli, rum ölkəsinə qədər oğuzlar, suvarlar və qıpçaqlarm dilində isə fəthəli olur. Bu, türklərin dəvəyə ت t hərfinin kəsrəsi ilə «تِڤى tiwi», oğuzların isə ت t hərfinin fəthəsi ilə «تَوا təvə»[129] demələri kimidir. Türklər «بَرِدِم bardım» deyirlər, «getdim» deməkdir, د d hərfi kəsrəlidir. Bu, normaya uyğundur. Oğuzlar və başqaları د d hərfini fəthəli söyləyərək «بَرَدَم bardam» deyirlər. Bu, qaydaya ziddir. Arğular isə د d hərfmi zəmməli qılaraq keçmiş zaman fe'llərinin hamısmda «بَرُدُم، كَلُدُم bardum, kəldüm» deyirlər. Bu tələffüz isə qaydadan büsbütün uzaqdır. Bu boylar arasmdakı fərqlər belədir.

شين Ş ı n: taxt. Çigilcə.

قوُن K o n: qoyun. Arğuca. Bu sözdə ن n hərfi ى y hərfmdən çevrilmişdir. Yuxarıda da deyildiyi kimi, qayda belədir.

قين K ı n: bıçaq və ya qılmc qmı.

---

[129] Dəvə sözü «Divan»ın basma və yazma nüsxələrinin müxtəlif yerlərində «təvə», «dəvəy», «təwəy», «tiwi» imlasında verilmişdir.

كوُن K ö n: gön, at dərisi. «أت كوُن at köni» deyilir və ən çox da bu ifadədə işlənir. Bu söz bəzən insan dərsi üçün də işlənir. « أنِك كوُنى قُريدى anınq köni kurıdı», yəni «onun dərisi qurudu, o öldü» deyilir. Buradan alınaraq dəvə gönünə «تَقى كوُنى təwəy köni» deyilir. Gön sözü dəri aşılanmazdan əvvəl işlədilir, aşılandıqdan sonra ona «قُغوش koğuş» deyilir.

موُن M u n: xəstəlik, ayıb. «موُن كِشى mun kişi=qəlbi dölək, könlü sələk adam» (?). Bu savda da işlənir: «يَلنكُق أغلى موُن سزُ بُلماس yalnquk oğlı munsuz bolmas=insan oğlu eyibsiz olmaz».

BU BABIN MATVİ OLANLARI

بوُى B o y: yeyilən bir otdur. Oğuzca.

بُوى B o y: hörümçək fəsiləsindən bir həşərat. «بُوك böğ = böv» də deyilir, doğrusu da budur.

بُوى B o y: qövm, qəbilə, tayfa, əşirət, qohum. Bir-birini tanımayan iki adam rastlaşdıqları zaman öncə salamlaşır, sonra «بُوى كِم boy kim» deyə soruşurlar. Yəni «hansı boydansan». Biri «سَلغُر salğur» deyə cavab verir, yaxud kitabm başında [I cilddə] göstərdiyim boy adlarından birini söyləyir. Bundan sonra danışmağa başlayır, yaxud dərhal ayrılırlar. Beləliklə, biri digərinin qəbiləsini, boyunu tanımış olur.

تُوى T o y: ordugah, ordu qərargahı. Bu sözdən çıxış edərək «خان تُوى xan toy» deyilir ki, «xaqanm ordu qurduğu yer» deməkdir. Bu sözü oğuzlar bilməzlər.

تُوى T o y: «تُوى أوتى toy otı = dərman düzəldilən bir ot».

تُوى T o y: qab-qacaq düzəldilən palçıq, çamur. Bu sözdən alınaraq qab-qacağa «تُوى أشِج toy aşıç» deyilir.

ثُوی T o y: toy quşu, dovdaq. Bu, ذ dh hərfini ی y hərfinə çevirənlərin dilincədir. «ثُوذ todh» da deyilir. Çigilcə.

قوُی K o y: qoyun.

قوُی یلی K o y y ı l ı: türklərin on iki ilindən biri.

قوُی K o y: paltarm qoynu. «اِلک قوُیتا سنُق əlig koyka sok = əlini qoynuna sox» deyilir.

قوُی K u y: dərənin dibi, düz yeri.

BU BABIN MİSAL OLANLARI

یاب یوُب Y a p - y u p: hiylə, al. «یوُب yup» sözü tək işlənmir. Buradan alınaraq oğuzlar «اُل انی یوُیلادی ol anı yupladı» deyirlər ki, «o onu aldatdı, ona hiylə etdi» deməkdir.

یوُت Y u t: qışda şaxta zamanı heyvanları qıran fəlakət.

یار Y a r: yarğan; suların açdığı yer.

ییر Y e r: yer.

ییر Y e r: qumaşm bir üzü, yaxud arğaşm bir üzü. Rənglərdən biri üstün, çox olan əriş və ya arğac kimi şeydir ki, digər rənglər buna uyur. «یَشِل ییرلِک یَرجِن yaşıl yerlig barçm = yaşıl yerlikli parça» deyilir. Yaşıllıq bu qumaşda üstün rəngdir, digərləri az işlənir.

ییر Y ı r: qəzəl, şeir.

یوُز Y ü z: üz. Bu atalar sözündə də işlənmişdir: «یُوزکا کوُرما اَردَم تِلا yüzgə körmə, ərdəm tilə = üzə baxma, ərdəm ara», (üzün gözəlliyinə, çirkinliyinə baxma, adamda ədəb axtar). Bu, İsamın bu sözü kimidir إنَّما المَرءُ یاصَغریَه بقلبِهِ وَ لِسانِهِ:[130]

[130] Burada məşhur ərəb şairi İsamın «innəmə əl-məru bi asqareyhi bi qəlbihi və lisanihi = insan iki kiçik qismində – qəlbində və dilində vardır, təzahür edir» misrası verilib.

يِيز Y i z: bir ot növü, sələ qamışı. Köçərilər ondan çadırı bölmələrə ayırmaq üçün pərdə düzəldirlər, qamışdan daha incə və yumşaqdır.

ياش يوُش Y a ş-y u ş: yaşıllıq. «يُوش yuş» sözü tək işlənmir.

يِيش Y ı ş: eniş. Buradan alınaraq «أرت يِيش art yış» deyilir ki, «yoxuş, eniş» deməkdir.

يوُغ Y u ğ: ölü basdırıldıqdan sonra üç, yaxud yeddi günə qədər verilən ehsan.

ياق يِيُق Y a k - y u k: qabdakı bulaşıq. Buradan almaraq «اِياق يُقى ayak yukı» deyilir ki, «qab bulaşığı» deməkdir.

ياق يوُق Y a k - y u k: uzaq qohumlara da «ياق يوُق قداش yak-yuk kadaş» deyilir.

يُوق Y o k: «اُل مُندا يُوق ol munda yok = o burada yoxdur».

يُوک Y ö k: quş tükü.

يِيک Y i g: «يكون يِيكى yügün yigi = qantarğanm ağıza düşən qismi».

يِيک Y e g: xeyir. Bu ancaq bir şeyin digər şey üzərində üstünlüyünü bildirir. «يوُ أت أندا يِيک bu at anda yeg = bu at ondan yaxşıdır, üstündür, xeyirlidir».

يِيک Y i g: «أت يِيک yig ət = bişməmiş, çiy ət». Çiy olan hər şeyə « يِيک yig» deyilir.

يِيک Y i k: (sərt ک ke ilə) iy, məkik. Əlif ilə « ايک ik» kəlməsi də ayrı bir sözdür. Bu, ərəb dilinin dəyişmə yolu ilə « اَلمَعِيُّ وَ يَلمَعِيُّ وَ اَلنَدَدُ و يَلَندَدُ »[131] sözləri kimidir.

يُول Y o l: yol. Səfərə də «يُول yol» deyilir. «أنكَر يوُل جِقتى anqar yol çıktı» deyirlər, «ona yol göründü» deməkdir. Bu söz qəfil səfərə çıxmaq lazım gələndə söylənir.

---

[131] Burada ərəbcə iki qoşa ifadə verilmş və orada i ilə y-nin dəyişməsi göstərilmişdir: əlmai-yəlmai; ələndəd-yələndəd.

يُول Y u l: bulaq, su gözü.

ييل Y e l: yel, külək, rüzgar.

ييل Y e l: cin. «اَر يَلپندى ər yelpindi» deyilir, «adamı yel çarpdı, cin çarpdı» deməkdir.

ييم Y e m: yemək, təam. «يِيم كَلدُر yem kəldür = yemək gətir».

يُون Y u n: «يُون قُش yun kuş = tovuz quşu».

يوُن اَرق Y u n A r ı k: Balasağuna yaxm bir yayla adı.

ييِن Y i n: insan bədəni.

و VAVLI SÖZLƏRİN ƏVVƏLİ VƏ SONU HƏRƏKƏLİ OLAN فَعَل FƏ'ƏL BABI [132]

تاب T a p: yaralama və ya döymə izi. «اُل آنى تاب تاب اُردى ol anı tap-tap urdu = o onun hər yahma tez-tez vurdu».

ساب S a p: qılınc və ya bıçaq sapı. Bu atalar sözündə də işlənmişdir: «أغلان ايشى ايش بُلماس، أغلاق مُنكُزى ساب بُلماس oğlan işi iş bolmas, oğlak münqüzi sap bolmas=uşağın işi iş olmas, oğlağm buynuzu sap olmaz».

ساب S a p: bir sözə veriləcək cavabda sıra, növbə. Dəyirmanda taxıl üyüdəndə, tarlada torpaq suvarmaqda sıra üçün də belə deyilir. «اُل سوُزكالى ساب بيرماس ol sözkəli[133] sap berməs = o,

---

[132] Bu bab fə'əl deyil, faktiki olaraq fə'l babıdır, üstəlik, burada verilən sözlərin heç birində vav yoxdur. Bəlkə də bu, katib xətasıdır.

[133] B.Atalaym fikrincə, bu sözdəki –li artıqdır (DLT, III, s.145). S.Mütəllibov bu fikrə etiraz etmiş və -gə şəkilçisinin XI əsrdə səbəb mənasında işləndiyini, bu sözün –lə suffiksi ilə «sözləgəli» şəklində ola biləcəyini vurğulamışdır (TSD, III tom, bet 159). Bu nümunənin tərcüməsi də qaranhqdır. B.Atalay onu «o, sözə sıra verməz», yəni başqasının danışması üçün növbə və sıra verməz, S.Mütəllibov «o, danışmağa növbə verməz» kimi çevirmişlər. Bizcə, burada «o, quru sözə növbə verməz, quru sözə görə öz növbəsindən vaz keçməz» mənası var. Uyğurlar misalı «o, söz növbəsini əldən verməz» kimi (TTD, III tom, bet 199), S.Ərdi ilə S.T.Yurtsevər isə «o heç kimsəyə söz söyləmək sırası, fürsəti verməz» şəklində (DLT-2005, s.468) mənalandırmışlar.

quru sözə görə öz növbəsindən vaz keçməz». Taxıl üyütməkdə və başqa şeylərdə «سَنِک ساب کَلدی sənin sap kəldi = sənin sıran, sənin növbən gəldi» deyilir.

شاب شاب Ş a p-ş a p: «اَنی شاب شاب بُیُنلدی anı şap-şap boyunladı = onun boynuna şap-şap vurdu, şapalaqladı».

شاب شاب Ş a p-ş a p: «اُل قاغوُنغ شاب شاب یِیدی ol kağunuğ şap-şap yedi = o, qovunu şappur-şuppur yedi». Şaftalı və ona bənzər sulu şeyləri marçıltı ilə yesə, yenə belə deyilir. Bu söz ərəb dilinə uyğundur, çünki ərəbcə «الشیب əş-şib» dodağm çıxardığı səsi bildirir.

قاب K a p: tuluq.

قاب K a p: zərf. Hər hansı bir qaba da «قاب kap» deyilir. Bu, ərəb dilindəki «الفرس əl-fərsu» sözü kimidir. Əslində «boyun vurmaq» mənasında olan bu söz sonra hər cür qətl üçün işlənməyə başlanmışdır.

قاب K a p: ana bətnində uşağın içində olduğu zər, torba. Uşaq o zərin içində doğulsa, həmin uşaq uğurlu sayılır və «قابلغ اُغل kaplığ oğul» adlanır[134].

قاب K a p: dolaylı olaraq (istiarə yolu ilə) qohum. «اُل مَنِک برلا اُیا قاب اُل ol məninq birlə uya kap ol=o mənimlə bir bətndən çıxmış kimi qohumdur».

جات Ç a t: quyu. Oğuzca.

قات K a t: tikanlı bir ağacın meyvəsi. «اَفلغو قاتی afılğu katı[135] = bir dəniz ağacının meyvəsi» (?), «سنجغان قاتی sınçğan katı=tikanlı bir

---

[134] Bu, dilimizə ruscadan kalka yolu ilə keçən «köynəkdə doğulan uşaq», yəni «xoşbəxt uşaq» ifadəsinin ekvivalentidir.

[135] Dəniz ağacı ifadəsi anlaşılmır. Uyğurlar «qurum ağacı» deyə yazmış, onun çinara bənzədiyini qeyd etmişlər (TTD, III tom, bet 200). Seçkin Ərdi ilə S.T.Yurtsevər «avulğu ağacı» yazmış, «sınçğan»ın isə akasiya olduğunu (DLT-2005, s.412) göstərmişlər.

ağacm meyvəsi», sıxılaraq yoğurda qatılır, rəng verməsi üçün tutmaca vurulur. Yəmək, qıpçaq, kay, tatar, çomul dillərində istənilən ağacm meyvəsinə də «قاب kat» deyilir.

ساج S a ç: tava.

قاذ K a d h: insanı öldürən boran. Bu sözdən almaraq « قاذ بُلدی kadh boldı» deyilir ki, «boran qopdu» deməkdir. Bu ancaq yazda və qışda dağlarda, qışda ovalarda olur. Bu şeirdə də işlənmişdir:

كَلدی اَسِن اَسنَيُو
قاذقا تُـكَل اسنَيوُ
كِردی بُدُن قسنَيوُ
قرا بُلِت كُكرَشوُر

«Kəldi əsin əsnəyü,
Kadhka tükəl üsnəyü,
Kirdi budhun kasnayu,
Kara bulıt kökrəşür».
Gəldi əsinti əsərək,
Düz borana bənzəyirdi,
Budun titrəşərək içəri girdi,
Qara bulud kükrəşir.

بار B a r: var. Bir şeyin bir yerdə olduğunu göstərən sözdür. Biri « سَندا يَرماق بار موُ səndə yarmak bar mu=səndə pul varmı» desə, o biri ona «بار bar» deyə cavab verir. Bu söz ərəbcədəki «ليسَ leysə» sözünün antonimidir, türkcəsi «يوُق yok» sözüdür.

بار B a r: «بار يكدا bar yigdə = böyük iydə».

تار T a r: dar. Dar olan hər hansı şeyin vəsfi. «تار اَف tar əw = dar ev». Başqası da belədir.

تار T a r: sal. Tuluqları şişirərək ağızlarını bağlayır, sonra hamısını birbirinə bənd edirlər. Suyun üzərində dam kimi bir şey düzəldir və üstünə minərək çayı keçirlər. Bu, qamış və ağac budaqlarından da düzəldilir. Yabakı və tatar dillərində.

تار T a r: yağ tortası, yağ əridilib süzüldükdən sonra qabın dibinə çökən çöküntü, kəf.

تَر T ə r: muzd, işçilərə verilən əmək haqqı. Bu sözdən almaraq rəncbərə «تَرجی tərçi» deyilir.

تَرجی T ə r ç i: tər[136].

جار جَرمَق Ç a r-ç a r m a k: çoluq-çocuq, oğul-uşaq.

قار K a r: qar.

باز B a z: yad, yabançı, qərib. «یات باز یاذلِدی yat baz yadhıldı = yad-yabançı dağıldı, ayrıldı».

تاز T a z: daz, keçəl.

تاز T a z: «تاز اَت taz at = ala-bula at».

تاز T a z: «تاز قوُی taz koy = buynuzsuz qoyun».

تاز T a z: «تازییر taz yer = çılpaq yer, bitkisi az olan yer». Bu məsəldə də işlənmişdir: «تاز اَت تَفارجی بُلماس taz at tafarçı bolmas = alaca at yük daşımaz», çünki onun dırnağı pisdir[137].

قاز K a z: qaz.

قاز K a z: Əfrasiyabın qızmın adı[138]. قَزوین Kazvin (Qəzvin) şəhərini o salmışdır. [Kazvin sözünün] əsli «قاز أینی kaz oynı»dır, [yəni Kazm oynadığı yer, sahədir]. Çünki Əfrasiyabın qızı

---

136 Bəsim Atalayın fikrincə, yazma və basma nüsxələrdə «تَرجی tərçi» şəklində verilən bu söz əslində «تَر tər» olmahdır (DLT, III, s.148). Uyğurlar da Bəsim Atalayın bu fikrini dəstəkləmiş və bu mənada belə bir qeyd vermişlər: «Bu sözdə -çi şəkilçisi artıqdır. Biz sözün mənasına əsaslanaraq onu «tər» şəklində transkripsiya etdik» (TTD, III tom, bet 203). Salih Mütəllibov da bu sözün «tər» olduğuna inanır (TSD, III tom, bet 162).

137 Bu misal iki maddə əvvəlki «taz at»a aiddir, yanlışlıqla buraya qoyulmuşdur.

138 «Kaz» adını Firdovsi «Şahnamə»də Firəngiz kimi vermişdir.

orada yaşayır, orada oynayırmış. Buna görə də bəzi türklər Qəzvini türk şəhəri sayır, türk ölkəsinin sərhədini oradan başlayırlar. قوُم Kum [Qum] şəhəri də türk ölkəsi hüdudları içində sayılır. Çünki «kum» sözü türkcədir. Üstəlik, Əfrasiyabın qızı tez-tez oraya gedərək orada ov edirmiş. Digər türklər isə türk sərhədinin مَرو الشاهِجان Mərv əş-Şahicandan başlandığını söyləyirlər. Çünki Kazm atası olan «تُنكا آلب اَر Tonqa Alp Ər» [Əfrasiyab]مَرو Mərv şəhərini qurmuşdur. Əfrasiyab buranı Təhmurəs tərəfindən şəhərin daxili qalası tikildikdən üç yüz il sonra bina etmişdir. Bəziləri isə Yenkənddən[139] başlayaraq bütünماوَراءالنَّهر Mavəra ün-nəhri[140] türk ölkəsinin bir parçası sayırlar. يَنكَنْد Yenkəndin digər adı دِزروُبين Dizruyindir, «mis qalası» deməkdir,[141] sarılığı üzündən belə adlanır. Bura بُخارا Buxaraya yaxındır. Əfrasiyabm qızı Kazm əri سياوُش Siyavuş burada öldürülmüşdür. Məcusilər [atəşpərəstlər] ildə bir gün buraya gəlir, Siyavuşun öldüyü yerin ətrafında ağlayır, qurban kəsir, qurbanm qanmı məzarm üstünə tökürlər. Bu onlarm adətidir.

Bütün ماوَراءالنَّهر Mavəra ün-nəhri, يَنكَنْد Yenkənddən şərqə doğru uzanan yerləri türk ölkəsi sayanlarm əsası budur: سَمَرقَنْد Səmərqəndə سَمِزكَنْد Səmizkənd,شاش Şaşa تَشكَنْد Daşkənd deyildiyi kimi, burada اوُزكَنْد Özkənd, Tünkənd şəhərləri də vardır ki, onların hamısmın adı türkcə şəhər demək olan

---

[139] Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər bu şəhərin adını «Baykənd» kimi (DLT-2005, s.419) oxumuşlar.

[140] Mavəra ün-nəhr (Çay arxası) Qərb tarixşünaslığında «Transoksiana» adlanır.

[141] Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər bu şəhərin adını «müdafiəsinin möhkəmliyi səbəbilə farsca diz ruyin, yəni tuncdan qala və ya şəhər» kimi (DLT-2005, s. 419) vermişlər. Uyğurlar isə «Diz ruyin mis şəhəridir» deyə yazmışlar (TTD, III tom, bet 205).

«kənd» sözü ilə düzəlmişdir. Bu şəhərləri türklər salmış, adlarını da özləri qoymuşlar. Bu adlar qədimdən bu günə qədər olduğu kimi işlənir. Bu yerlərdə farslar çoxaldıqdan sonra buralar əcəm şəhərləri kimi qəbul edilmişdir. Bu gün uzunluğu beş min fərsəx, eni üç min fərsəx, cəmisi səkkiz min fərsəx olan türk ölkəsinin sərhədlərinin ucları آبسكوُن Abisgün (Xəzər) dənizində birləşərək Rum diyarından və Özçənddən Çinə qədər uzanır.

قازسُقِى K a z s u w ı: ايلا İla=Ilı vadisinə axan böyük bir çay. Bu adın verilməsinin səbəbi Əfrasiyabm qızmm onun kənarında bir qala tikdirməsidir. Bu ad oradan qalmışdır.

قاز K a z: hər bir ağacm qabığı. Bu deyimdə də işlənmişdir: « قاذِنک قاسِنکا kadhınq kasmqa = qayın ağacına sərtlik xasdır». Burada ز z hərfi س ş hərfinə çevrilmişdir. Çünki ز z hərfi özündən sonra gələn س ş hərfimin[142] təsiri altında ərimiş, ona yer qalmamışdır. Ərəb dilində də ز z-nin س ş hərfmə çevrilməsi müşahidə edilir. Məsələn: « بوُزى وبَوُصِّى، لزق ولصق بُزاقٌ وَ بُصاقٌ ».

باش B a ş: baş.

باش B a ş: yara. Bu atalar sözündə də işlənmişdir: « كُنى بَررَكيک نِک كوُزندا اَذِن باشى يوُق köni barır keyikninq közində adhın başı yok = düz gedən geyikin gözündən başqa yarası yoxdur», (düz gedən, iki yanma baxmayan maralın gözündən başqa yarası yoxdur). Bununla «göz əslində yara deyildir» demək

[142] Belə çıxır ki, bu ifadə «kadhınq kazsınqa» şəklində olmalıdır. İkinci sözdə z ilə s yanaşı gəldiyi üçün söz ya iki s ilə «kassınqa» şəklində deyilməli, ya da z ümumən düşməlidir. Mahmud Kaşğarinin izahatından da bu anlaşılır.

istənir. Bu söz ağır işə girişən və hamı tərəfindən qınanan adam haqqında deyilir.

تاش T a ş: daş.

تاش توُن T a ş t o n: dış paltar, üstdən geyilən paltar.

تاش ييِر T a ş y e r: geniş açıqlıq, yazı; qürbət, yabançı yer.

ساش S a ş: «ساش اَت saş at = ürkək at».

قاش K a ş: gözün üstündəki qaş.

قاش K a ş: qaş, qara, yaxud ağ təmiz daş, nefrit. Bunun ağını üzük qaşına qoyurlar, adamı şimşəkdən, susuzluqdan və ildırım vurmasmdan qoruyur.

قاش اُكوز K a ş ö k ü z: خُتَن Xotən şəhərinin iki yanından axan iki çaydır. Birinə «اُرُنک قاش اُكوز Ürünq kaş öküz» deyilir, təmiz ağ daş burada olur. Bu ad bu daşa görə verilmişdir. Digərinə isə «قرا قاش اُكوُز Kara kaş öküz» deyilir, təmiz qara daş burada olur. Bu daş bütün dünyada ancaq buradadır.

قاش K a ş: hər hansı bir şeyin yaxası, kənarı, qıyısı. «يار قاشى yar kaşı =yarğanın kənarı, qıyısı». Başqası da belədir.

باغ B a ğ: bağ, üzüm tağı.

باغ B a ğ: odun və odun kimi şeylərin şələsi. «اُتُنک باغى otunq bağı = odun şələsi».

تاغ T a ğ: dağ. Bu atalar sözündə də işlənmişdir: « تاغ تاغقا قشماس، كِشى كِشيكا قشُور tağ tağka kawuşmas, kişi kişigə kawuşur = dağ dağa qovuşmaz, insan insana qovuşar», (iki dağ bir-birinə qovuşmaz, çünki onlar yerlərində sabit dayanmışlar, insanlar zaman keçsə də bir-birinə qovuşa bilərlər). Bu söz uzun ayrılıqdan sonra dostunu görən adam haqqında söylənir.

داغ D a ğ: atlara və başqa heyvanlara vurulan dağ, dağlama. Farslar bu sözü türklərdən almışlar, çünki türklərdən fərqli olaraq onlarda sürü yoxdur ki, dillərində də bu söz olsun. Mən bu sözü islam sərhədlərində də eşitdim[143].

داغ، ذاغ D a ğ, d h a ğ: «yox, deyil» mənasmdadır. «اَل اَندَغ داغ اَل ol andağ dağ ol=o elə deyil» deməkdir. Oğuzlar bunu arğulardan almış, «ذاغ اَل dağ ol» sözünü təhrif edərək «تَگُل təgül» demişlər. Oğuzlarla arğular qonşudur, dilləri də bir-birinə qarışmışdır.

ساغ S a ğ: ağıl, zəka. Oğuzca.

ساغ S a ğ: zirəklik, anlayış. Oğuzca. «سَندا ساغ يوُق səndə sağ yok = səndə ağıl və anlayış yoxdur».

ساغ S a ğ: sağlıq, əsənlik. «يِينِک ساغمُو yininq sağ mı = canın sağlamdırmı».

ساغ سوُف S a ğ s u w: sağ su, şirin su.

ساغ الِک S a ğ ə l i g: sağ əl. Oğuzca. Digər türklər bu sözləri bilməzlər.

ساغ S a ğ: yun atmaq, yun çırpmaq üçün işlənən çubuqlarm adı.

ساغ ياغ S a ğ y a ğ: sarı yağ, kərə yağı.

ساغ کُنکُل S a ğ k ö n q ü l: təmiz, saf, isti qəlb.

ساڤ S a w: atalar sözü, zərb-məsəl, məsəl. «ساڤدا مُندَغ کَلِر sawda mundağ kəlir = atalar sözündə belə deyilir».

ساڤ S a w: qissə, tarixi rəvayət.

---

[143] Burada Salih Mütəllibovun maraqh bir qeydi vardır. Onu olduğu kimi veririk: «Mahmud Kaşğarinin fikrincə, bu söz farsların deyil, çünki onlarda heyvan sürüləri olmadığı üçün bu söz də olmamışdır. Deməli, Mahmud Kaşğarinin fikrincə, dildəki sözlər həyat ilə bağhdır, həyatda sözə olan ehtiyac nəticəsində, mövcud olan nəyi isə ifadə etmək üçün yaranır. Bu fikir sözlərin cəmiyyətdəki tərəqqi və tələbata uyğun şəkildə, meydana çıxan yenilikləri ifadə etmək üçün yaranması haqqında nəzəriyyə ilə səsləşir. Mahmud Kaşğarinin hələ min il bundan əvvəl sözlərin yaranması haqqında bu püxtə və parlaq görüşü onun nə qədər yetkin dilçi olduğunu göstərməsi baxımından əlamətdardır» (TSD, III tom, bet 167).

ساڤ S a w: hekayə.

ساڤ S a w: məktub, risalə.

ساڤ S a w: söz, nitq.

ساڤ S a w: xəbər, soraq. Buradan alınaraq elçiyə «ساڤجی sawçı» deyilir. Çünki elçi bəzi xəbərlər söyləyir və yazılı şeyləri çatdırır. «ساڤجی sawçı = nişanlılar, qaymlar, qudalar arasmda gedib-gələn, elçilik edən adam». Çünki «ساڤجی sawçı» yuxarıda da deyildiyi kimi, onun sözünü buna, bunun sözünü ona çatdırır. Bu beytdə də işlənmişdir:

بلـــكا ارَن سَڤلَرن اَلغِل اُكُت

اَذكُو سَڤغ اَذلَسا اوزُكا سِنكار

«Bilgə ərən sawlarm alğıl ögüt,

Edhgü sawığ edhləsə özgə sinqər».

Bilgə ərlərin sözünü öyüd kimi alginən,

Çünki iyi, yaxşı söz təsir etsə, qəlbə sinər.

ساڤ Ş a w: çögən kimi bir otdur. Uç şəhərində bitir, onunla paltar təmizlənir, yuyulur.

قاڤ K a w: qov, çaxmaq çaxılarkən tutuşdurulan qov.

قاڤ قوُڤ K a w - k u w: «تُون قاڤ قوُڤ بُلدی ton kaw-kuw boldı = pis tikildiyi üçün paltar qıvrıldı, büzüşdü».

لاڤ L a w: möhür mumu, möhür basmaq üçün işlənən mum.

قاق K a k: şəftəli qaxı. Başqası da belədir.

قاق سوُڤ K a k s u w: su yığılması, su yığıntısı.

باك B ə g: bəy.

باك B ə g: qadınm əri. Evində bəyə bənzədiyi üçün belə deyilmişdir.

تاك T ə k: bənzətmə sözü. «اُل اَندَغ تاك ol andağ tək = onun kimi, ona bənzər».

جاک Ç ə k: qumaş biçimində bir pambıq toxunmadır. Ondan örtü hazırlanır. Onu yəməklər geyirlər.

ناک N ə k[144]: timsah.

ناک یلان N ə k y ı l a n: əjdaha.

ناک یلی N ə k y ı l ı: türklərin on iki ilindən biri. Bu kitabı yazdığımız [dörd yüz] altmış doqquzuncu il ناک یلی nək ilidir.

بال B a l: bal. Suvar, qıpçaq və oğuz dillərində. Digər türklər bala «arı yağı» deyirlər. Bu beytdə də işlənmişdir:

بَردی سَنکا یاک اوُترُ تُتُب بال

بَرجِـن کَذِبَن تَلوُ یُقْغا بُلُب قال

«Bardı sanqa yek otru tutup bal,

Barçın kedhibən tələ yuwğa bolup kal».

Gəldi yanma şeytan tutub bal,

İpək geyibən, səfeh olub qal.

(Şeytan sənə qarşı çıxdı, sənə bal verdi (bununla dünya ləzzətini və nemətlərini nəzərdə tutur), ipək paltar geydirdi, onun hiyləsini anlayıb başa düşmədin, artıq yuxa ağıllı, kəmsər və dəli olaraq qal).

تال T a l: yaş budaq. Boyu düz, qədd-qamətli adama «تال بوُدَلغ tal bodhluğ» deyilir. Bədən yumşaqlıqda təzə budağa bənzədilir və bu söz daha çox incə, uzun cariyələr üçün işlədilir.

جال قوی Ç a l k o y: ala-bula qoyun.

سال S a l: qamış və tuluqlardan düzəldilən yüngül qayıq, qayıqça, sal[145]. «تار tar» sözü də bu mənadadır.

---

[144] Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər «nək=timsah» sözünü «nağ», «nək yılan= əjdaha» sözünü «nağ yılan», «nək yılı=timsah ili» sözünü isə «nağ yılı» kimi (DLT-2005, s.340) oxumuşlar.

[145] Müxtəlif sözlərlə bağlı tez-tez dahi Əlişir Nəvaidən misallar göstərən Salih Mütəllibov müqayisə təriqilə «sal» sözünə də Əlişir Nəvaidən olduqca gözəl bir beyti misal gətirmişdir. Onu burada verməkdən özümüzü saxlaya bilmədik. Həmin beyt belədir:

سال S a l: tutğaldan hazırlanan yapışqan bir şeydir. Çin qablarına və buna bənzər şeylərə sürtür, sonra onun üstünə naxış vurular; lak, çini lakı.

تام T a m: divar.

ام سام Ə m-s ə m: dərman. «səm» sözü tək işlənmir[146].

قام K a m: qam, şaman; kahin.

تان T a n: səhər-axşam əsən sərin əsinti, külək.

خان X a n: türklərin ən böyük başbuğu. Əfrasiyab oğullarına da «خان xan» deyilir. Əfrasiyab «خاقان xakan = xaqan»dır. Bu adm verilməsinin uzun və tarixi bir hekayəsi vardır[147].

سان S a n: say, hesab. «قوی سانی نجا koy sanı neçə = qoyunun sayı neçədir».

قان K a n: qan. Bu məsələdə də işlənmişdir: «قانغ قان برلا یوماس kanığ kan birlə yumas=qanı qanla yumazlar», (fəsad və düşmənçilik sülhlə aradan qaldırılar demək istənir).

مان قشلاغ M a n k ı ş l a ğ: oğuz ölkəsində bir yer adı.

مان کند M a n k ə n t: Kaşğar yaxmlığmda bir şəhərin adı, hazırda xarabadır.

مان M a n: «مان یاشلغ قوی man yaşlığ koy = dörd yaşını keçən qoyun». Bu söz ancaq qoyun haqqında işlənir.

Bəhri-əşkim içrə kim tapmaz zərər göz mərdümi,
Guya kirpik neyistanından anınq sah var.

M ə z m u n u: adətən suya qərq olan hər şey həlak olur. Bəs niyə göz yaşı dəryasına qərq olan gözüm həlak olmadı? Çünki gözümü qoruyan kirpiyim kirpik neyistanından (ney=qamış) qamış sal düzəltdi, ona görə də gözüm salamat qaldı (TSD, III tom, bet 171). Nə qədər də gözəldir!

[146] Bəsim Atalayın yazdığına görə, Qərbi Anadoluda «o adam əmə-səmə yaramaz=o, xeyrə-şərə yaramaz» deyimi bu gün də işlənir (DLT-III, s.157).

[147] Təəssüf ki, Mahmud Kaşğari həmin hekayəni verməmişdir. «Divan»ın bir çox yerində «bunun bir hekayəsi, tarixçəsi vardır» deyən müəllif nə üçünsə həmin hekayələri

SONU HƏRFİ-İLLƏTLİ OLAN SÖZLƏR

بای B a y: zəngin, varlı.

بای یغاج B a y y ı ğ a ç: Köçə şəhəri ilə Uç arasmda, Uça yaxın bir yer.

تای T a y: day, dayça. Bu beytdə də işlənmişdir:

ثُکر مَنِک سا قمی بلکالکا ای

تِتِر قلـی اَتتسا قِسرَق سِنِی تای

«Təgür məninq sawımı bilgələgə, ay,

Tınar kalı atatsa kısrak sıpı tay».

Çatdır mənim sözümü bilgələrə, de:

Day at olanda qısraq dincələr, çünki onu minərlər[148].

سای S a y: qara daşlı yer.

سای یَرَق S a y y a r ı k: bədənə geyilən zireh.

قای K a y: türklərdən bir bölük, boy.

BU BABIN MİSAL OLAN BAŞ TƏRƏFİ HƏRFİ-İLLƏTLİ SÖZLƏRİ

یاب یوُب Y a p - y u p: hiylə, al, «**یاب یوُب قِلدی** yap-yup kıldı=hiylə qıldı».

---

nəql etməmişdir. Məsələn, nəcabətli qadınlara nə üçün cəm halmda «iş/i/lər» deyilməsi kimi. Bunlarm türk mədəniyyət tarixi üçün misilsiz əhəmiyyəti olardı.

[148] Bu şeir parçasının yazılışında və oxunuşunda mübahisə doğuran bəzi məqamlar var. Beytin ilk misrasında ərəb əlifbası ilə «**بلکالکا** bilgələgə» sözü I cilddə «bilgəligə» şəklindədir. Bəsim Atalayın fikrincə, bu söz «bilgələrgə» olmahdır. «Divan»ın I cildindəki şeirdə «atlarka», «tatlarka» yerinə r-siz «atlaka», «tatlaka» sözləri işlənmişdir. Burada da həmin vəziyyətdir. Beytin ikinci misrasında yanlışhqla «**سِنِی** sini» imlası ilə verilən söz isə «sıpı», yəni «sıpası=atın balası, dayçası» olmalıdır (DLT, III, s.158). Salih Mütəllibov onu inandıra bilmədiyi üçün Bəsim Atalayın ikinci qeydi ilə razılaşmamış və «sıpı» yerinə «sini» yazmışdır (TSD, III tom, bet 173). Çinlilər (DLT-Çin, III cild, s. 153), eləcə də uyğurlar «bilgələgə» və «sını» şəklində oxumuşlar (TTD, III tom, bet 216). Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər isə birinci misradakı mübahisəli sözü «bilgələkə», ikinci misradakı sözü isə «sanı» şəklində (DLT-2005, s. 544) oxumuş və belə mənalandırmışlar: «day atlar arasında sayılanda, yəni dayça böyüyüb at olsa, qısraq dincələr». Məntiqi cəhətdən bu oxunuş və tərcümə daha məqbul görünür.

ياد كِشى Y a d k i ş i: yad adam. Bu sözdən alınaraq «**ياد ياز يَذِل** yat baz yadhıl[149]» deyilir ki, «yad-yabançı, ayrıl» deməkdir.

ياد Y a d: yağış yağdırmaq və külək əsdirmək üçün qamların daşlar vasitəsilə gerçəkləşdirdiyi əfsun.

ياز Y a z: yay. Bu məsəldə də işlənmişdir: «**يازن قتغلنسا قيشِن سَقْنور** yazm katığlansa, kışın səwnür=yayda çalışan qışda sevinər».

ياس Y a s: ziyan, zərər. «**اَنِک تَلِم ياسى تَكدى** anmq təlim yası təgdi = ona yaman zərər dəydi».

ياس Y a s: ölüm, həlak olma. «**اَنِک أغلى ياس بُلدى** anmq oğlı yas boldı = onun oğlu öldü».

ياش Y a ş: göz yaşı. «**كُوزُم ياشى اقدى** közüm yaşı akdı = gözümün yaşı axdı».

ياش Y a ş: tərəvəz, səbzə. «**ياش ييدِم** yaş yedim=tərəvəz, göyərti yedim».

ياش Y a ş: yaş, təzə. «**ياش اَت** yaş ət = təzə ət».

ياغ Y a ğ: yağ.

ساغ ياغ S a ğ y a ğ: kərə yağı. Oğuzlar piyə də «**ياغ** yağ» deyirlər.

ياق يوُق Y a k-y u k: qabdakı bulaşıq.

ياق يوُق Y a k-y u k: uzaq qohumlara «**ياق يوُق قدَش** yak-yuk kadaş» deyilir ki, «uzaq qohum» deməkdir, yəni o bizə qabın bulaşığı kimi yapışıqdır.

ياک Y e k: şeytan. Bu atalar sözündə də işlənmişdir: « **بلمِش ياک بلماذک كِشيداً ييک** bilmiş yek bilmədük kişidən yeg = tanıdığm şeytan tanımadığın adamdan yaxşıdır». Bu söz tanış adamlara hörmət etməyin vacibliyi barədə deyilir.

يال Y a l: atın yalı. Bütün türk dillərində. «**اَت يالى** at yalı = at yalı, yalın bitdiyi yer».

يام Y a m: gözə və başqa şeyə düşən çör-çöp.

---

[149] Əslində isə «yadhılsın» olmalıdır.

يان Y a n: uca sümüyünün başı. Uca sümüyünə də «يان yan» deyilir.

BU BABIN BAŞQA BİR NÖVÜ

يای Y a y: yaz. Bu atalar sözündə də işlənmişdir: «كوُز كَلِكى ياين بَلكُولُك küz kəligi yayın bəlgülüg=payızın gəlişi yazdan bəllidir». Bu söz sonu əvvəlcədən bəlli olan iş barədə deyilir. Bu şeir parçasmda da işlənmişdir:

يای كُركنِـكا اِنَنما
سُقلـــــرا تَيَنما
اَسِـــــزلِكِك اَنَنما
تِلدا جقار اَذكوُ سوُز

«Yay körkinqə ınanma,
Suwlar üzə tayanma,
Əsizligig anunma,
Tılda çıkar edhgü söz».
Yayın gözəlliyinə inanma,
Su üzərində dayanma,
Pislik etməyə hazırlaşma,
Dildən çıxar yaxşı söz.

(Baharın rənglərinin gözəlliyinə inanma, ondan xeyir gözləmə, suya güvənmə, dünya nemətlərinin dadma və baharın sərin küləyinə güvənən suya qarşı durmuş kimidir, şərə hazırlaşma, xalqı məmnun edəcək şirin sözləri dilindən əskik etmə).

Qayda:

Bu bölmənin sözlərinə və ona bənzəyənlərə mənqus sözlər dedik. Çünki bu bölməyə daxil olan sözlərin ortasındakı yumşaq

hərf, yəni hərfi-lin düşür. Söz yazılışda deyil, tələffüzdə iki hərfli olur. «Qol» mənasına gələn söz yazılışda «قوُل kol» imlası ilə yazılır, tələffüzdə و vav hərfi düşür. «آنِک قلِن آلدی anmq kolm aldı = onun qolunu yaxaladı, tutdu» deməkdir. و vav hərfinin düşməsi ilə köləyə «قُل kul» deyilməsi də buna bənzəyir. Əsinti mənasma gələn «ییل yel» sözü də belədir, tələffüzdə y hərfi düşür. «آنِک یلی کوُجلُک anınq yeli küçlüg» deyilir ki, «onun yeli qüvvətlidir» deməkdir[150]. Sənə, il mənasına gələn «یل yıl» da belədir. Bu, mənqus qismindən olan bütün isim və fe'llər üçün keçərli ölçüdür. Görürsənmi, türk dili ərəb dili ilə yan-yana yüyürür. Çünki ərəbcə fe'llərdə «زانَ، یَزیُن، زن و کال، یَکیلُ، کِل» deyilir, bu sözlərdə yumşaq hərf düşmüşdür. Türk dilində isə bu qayda həm isimlərə, həm də fe'llərə şamildir, çünki türk dili genişdir. Ərəb dilində bu qayda ancaq fe'llərə aiddir, isimlərə isə aid deyil. Bunu yadmda yaxşı saxla!

فَعَل FƏ'ƏL KÖKÜNDƏN YARANAN و VAVLI SÖZLƏR

قِزِل جُوُت K ı z ı l ç ü v ü t: qızılı boya, zincifrə, süləyən.

آل جُوُت A l ç ü v ü t: al boya.

کُوک جُوُت K ö k ç ü v ü t: göy, lacivərd boya.

---

150 Burada Bəsim Atalayın belə bir qeydi var: «Bu sözlərdə göstərilən qayda sözlərin ərəb hərfləri ilə yazılışına görədir. Yeni hərflərimizlə (latın əlifbası ilə – R.Ə.) yazılışda bu qayda öz qüvvəsini itirir» (DLT, III, s.162). Türkcədə və «Divan»da uzun saitlər tezisini müdafiə edənlər bu izahata baxsınlar. İmlada و vavın və ی ye hərfinin iştirakı ilə yazılan «قوُل kol=qol», «قوُل kul=qul» və «ییل yel» sözlərindəki səslilər hansı uzunluqdadırsa, yazılışdaو vavın və ی ye-nin iştirak etmədiyi «قلِن kolın», «قلِن kulın» və «یلی yeli=yeli, küləyi» sözlərindəki sait səslər də eyni uzunluqdadır. Çünki türklər üçün sözlərin ərəb əlifbası ilə necə yazılmasının heç bir əhəmiyyəti yox idi və türk orfoepiyası ərəb əlifbasının imla qaydalarına tabe deyildi. Sizcə, türkcədə uzun saitlər vardımı?

ياشل جُوُت Y a ş ı l ç ü v ü t: yaşıl boya.

سارغ جُوُت S a r ı ğ ç ü v ü t: sarı boya, zırnıq, auripiqment. Yumşaq w ilə «**جفْت** çüwüt» də deyilir. Biləsən ki, «**جُوُت** çüvüt» sözü bütün rəngləri özündə əhatə edir. Onları bir-birindən fərqləndirmək üçün bu söz rənglərin adına əlavə olunur.

قُوُت K a v u t[151]: qovud. «**قاغُوت** kağut» da deyilir. Qovud darı unu, şəkər və yağın qarışığından ibarət yeməkdir, yeni doğan qadınlara verilir.

قُوُج K o v u ç: cin çarpmasımn nəticəsi. Cin çarpan adamların üzünə soyuq su səpilir, sonra «**قُوُج قُوُج** kovuç-kovuç» deyilir, başı üstündə üzərlik və öd ağacı yandırılır. Məncə, bu söz « **قج قج** kaç-kaç = qaç-qaç» deməkdir.

كُوج K ü v ü ç: «**كُوج يُكُون** küvüç yügün = kiçik yüyən».

قُوُز K o v u z: oğuzlar bu sözü «**قُوُج** kovuç» əvəzinə işlədirlər. « **ييل قُوُز بِتِكى** yel kovuz bitigi» ifadəsi «cin çarpmasma qarşı əfsun, sehr, dua» deməkdir.

قُوُز K a v u z[152]: içkidə olan xılt, çöküntü. «**قُوُز سُجِك دَن كَتار** kavuz süçikdən ketər = şərabı xıltdan təmizlə, süz».

كُوُز K ü v ü z: palaz. Yundan toxunmuş döşək və palaz kimi şeylər

يُوُغ Y u v u ğ: selin yuxarıdan yuvarladığı qaya parçaları. «**يُقْغ** yuwuğ» da deyilir.

سُوُق S u v u k: cıvıq. Yoğurt, bəkməz kimi duruldularaq maye halına salınan hər şeyə belə deyilir. «**سُوُق يُغُرت** suvuk yoğurt = sulu yoğurt».

---

151 Uyğurlar (TTD, III tom, bet 223), onların ardınca da çinlilər bu sözü «kuwut» şəklində yazmışlar (DLT-Çin, III cild, s.158).

152 Salih Mütəllibov bu sözü «kovuz» (TSD, III tom, bet 178), uyğurlar (TTD, III tom, bet 223) və onların təsiri altında olan çinlilər isə «kowuz» şəklində yazmışlar (DLT-Çin, III cild, s.159).

سُوُق S u v u k: «سُوُق قُذرُق suvuk kudhruk = qatır quyruğu kimi tüksüz və uzun quyruq». Ağac və ağaca bənzər şeylər də belədir. Qıpçaqca.

قُوُق K o v u k: qovuq, içi boş olan hər şey. «قُقُق kowuk» da deyilir.

قُوُق K a v u k: məsanə, sidik kisəsi. «قُقُق kawuk» da deyilir.

قُوُق K a v u k: kəpək, darı kəpəyi. Bu sözlərdəki و hərfi yumşaq w hərfindən çevrilmişdir.

كُوُك K ü v ü k: «كُوُك موُش küvük muş = erkək pişik».

كُوُك K ü v ü k: saman. Oğuzca.

تُول T o v ı l: davul, nağara. Ov zamanı şahin üçün çalınan davul. Bu sözün ərəbcədən almdığını və məxrəc yaxmlığı üzündən ط hərfinin ت t-yə keçdiyini zənn edirəm. Bu hal ərəb dilində də vardır. Məsələn: غَلِتَ، قَتَّرَ، قَطَرَ kimi. Eələcə də ثابت sözünü تبت kimi demişlər. Lakin mən bu sözü islam aləminin o biri ucunda əsil türklərdən də eşitdim.

BU BABIN ORTADA ى Y HƏRFİ OLAN SÖZLƏRİ

قِير K a y ı r: oğuzlar quma «قِير kayır», türklər «qaba torpaqlı yer» deyirlər.

تَوُش T a v u ş: duyğu, qımıltı. «تَقُش tawış» da deyilir[153].

تَيغ T a y ı ğ: «تَيغ يِير tayığ yer = sürüşkən yer».

تُيَغ T u y a ğ: heyvan dırnağı. «اَت تُيَغى at tuyağı = at dırnağı».

قُيُغ K o y u ğ: «قُيُغ نانك koyuğ nənq=özlü maddə, qatı maye», «قُيُغ سُجِك koyuğ süçik = qatı şərab»[154].

---

[153] Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevərin «tavış» və «tawış» kimi (DLT- 2005, s. 542 və 543) oxuduqları bu sözlərin ortasında ى y hərfi yoxdur.

[154] Salih Mütəllbov bu birləşməni «üzüm şərbəti» kimi tərcümə etmişdir (TSD, III tom, bet 180). Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər «koyuğ süçik» sözünü «üzüm şirəsi»

قَيغ K a y ı ğ: oğuzların qayı boyu.

قُيغ K u y u ğ: quyu. «قُذغ kudhuğ» da deyilir.

قِيغ K a y ı ğ: «قِيغ يِير kayığ yer = yoldan kənarda qalan yer». Başqası da belədir.

بَيق B a y ı k: «بَيق سوُز bayık söz = doğru söz». Oğuzca.

تَيُق T a y u k: «تَيُق اَر tayuk ər = incə, kübar gənc adam».

تَيَق T a y a k: dayaq, dayanğac. «كُذاكوُ تَيَق بيردى küdhəgü tayak berdi = təzəbəy dayaq verdi», (gəlin atdan düşərkən dayaq kimi əlini çiyninə qoyması üçün təzəbəy ona cariyə, yaxud kölə verdi). Bu, varlılar arasında adətdir. Cariyə, yaxud kölə gəlinin malı olur. Bu atalar sözündə də işlənmişdir: « تَيَق بلا تَيماس. تَنُق سوُزُن بُتماس tayak bilə taymas, tanuk sözün bütməs = dayağı olan sürüşməz, şahid sözü ilə bir şeyə inanmaq olmaz», (əlində dayağı olan adamın ayağı sürüşkən yerdə də sürüşməz, şahidin sözü ancaq şahidlik zamanı bəlli olar).

تُيُق T u y u k: «تُيُق كِشى tuyuk kişi = canı sıxılan adam, sıxıntılı adam».

تُيُق T u y u k: «تُيُق كوُن tuyuk kün = sisli, çiskinli gün».

تُيُق T u y u k: «تُيُق قَبُغ tuyuk kapuğ = bağlı qapı».

قَيَق K a y a k: qaymaq. Bu şeirdə də işlənmişdir:

سَذرَمِش اُلغُن قَياق

سَرمَمِش سوُتُّن قَياق

«Sedhrəmiş olğun koyak,
Sarmamış süttən kayak».
Seyrəlmiş olğun başaq,
Tutmamış süddən qaymaq.

və «çox şirin şərab» kimi (DLT-2005, s. 446), uyğurlar «qatı şərab» kimi (TTD, III tom, bet 227) çevirmişlər.

(Darının yetişmiş başaqları, dənləri seyrəldi, süddən də qaymaq süzüldü, yeyə bilmək üçün ikisini birlikdə bişirmək lazımdır).

قِيق K ı y ı k: sözdə durmamaq. Bu söz bəzən sifət olur və «قِيق كِشي kıyık kişi» deyilir ki, «sözündən qaçan adam» deməkdir.

قِيق K ı y ı k: «قِيق نانك kıyık = əyri olan hər şey», (çəpinə kəsilmiş qələm kimi). Başqası da belədir.

مَيَق M a y a k: dəvə qığı, dəvə gübrəsi. Bu söz ən çox dəvəyə nisbətdə işlənir. Buradan alınaraq «قوُى مَيَقى koy mayakı» da deyilir ki, «qoyun qığı» deməkdir. At təsinə isə «يُندَق yundak» deyilir. Bu məsəldə də işlənmişdir: « تَقْى بَدُك اَرسا مَيَقى بَدُك اَرماس təwəy bedük ərsə, mayakı bedük ərməs=dəvə böyük olsa da, qığı böyük olmaz». Bu söz özündən müştəbeh, təkəbbürlü adam haqqında deyilir, «böyüklük sənə yox, yanında köləsi olduğun adama yaraşır» mənasına gəlir.

كَيك K e y i k: bu sözlə əslində vəhşi heyvanlar nəzərdə tutulur. Bu söz əti yeyilən heyvanlardan ceyran, maral, dağ keçisi kimi heyvanlar haqqında işlənir.

كَيك K e y i k: «كَيك كِشى keyik kişi = meymunsifət adam»[155].

كَيك K e y i k: «كَيك سُكُت keyik sögüt=yabanı söyüd, çöl söyüdü». Hər şey iki növdür, birincisi əhlidir (evcildir), ikincisi vəhşidir. Vəhşi növə «كَيك keyik» deyilir.

---

155 Bu, B.Atalayın tərcüməsidir (DLT-III, s.168), orijinalı belədir: «maymun yapılı kişi», yəni meymuna bənzəyən adam. Əslində isə söhbət vəhşi insandan, qulyabanıdan gedir, çünki «keyik» sözü hər şeyin vəhşisini, yabanısını ifadə edir. Həmin sözü S. Mütəllibov belə çevirmişdir: «suda yaşayan adam şəklindəki heyvan» (TSD, III tom, bet 182). Bu, su pərisinə uyğun gəlir. Uyğurlar «kəyik kişi=yava adam» (TTD, III tom, bet 230) kimi vermiş, çinlilər ərəb və latın hərfləri ilə «kəyik kişi» yazmışlar (DLT-Çin, III cild, s.163), ancaq hansı mənanı verdikləri anlaşılmır. Hüseyn Düzgün «kəyik kişi»ni «yəni meymuni-adəmnüma, nəsnas» (د ل ت s.510), Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər isə «vəşhi, ibtidai adam, nəsnas» (DLT-2005, s.312) kimi vermişlər.

كَيُک K e y ü k: yapıncı kimi şeylər. ذ dh hərfini ى y edənlərin dilində.

كَيُک K ö y ü k: «كَيُک ناتىک köyük nənq = yanmış şey, yanan şey».

مَيل M a y ı l: «مَيل يَمِش mayıl yemiş = yetişmiş şaftalı və qovun kimi meyvələrin çürüməyə, xarab olmağa üz tutması».

قِيم K ı y ı m: düşmənin gəlməsi üzündən bir vilayətin sakinlərinin qorxu və dəhşətə düşməsi. «قُرقُنج قِيم بُلدى korkunç kıyım boldı =qorxunc qıyım oldu, böyük dəhşət yaşandı».

كيم كيم K i y i m-k i y i m: «أل كيم كيم كوُن كَجُرذى ol kiyim-kiyim kün keçürdi = o, tənbəlliklə gün keçirdi», (nə işləyərək, nə də işi tam buraxaraq qəflət içində gün keçirdi).

بُين B o y ı n: boyun, insanın boynu.

بُين B o y ı n: qılmcm qəbzəsinə «قِلِج بُينى kılıç boynı», bıçağın dəstəyinə «بِجاک بُينى biçək boynı» deyilir.

بُيُن B u y u n[156]: qövm, boy, tayfa. ذ dh hərfini ى y hərfinə çevirənlərin dilində.

تُين T u y ı n: «اَر تُين tuyın ər = paxıl, sıxmtılı kişi».

تُين T o y ı n: müsəlman olmayanlarm ruhani başçısı, [buddist rahibi]. Bu, islam dinindəki imam və müfti dərəcəsinə bərabər ruhanidir. Toyın həmişə bütün yanında durur, kitab və kafirlik hökmlərini oxuyur. Ulu Tanrı bizi onun şərindən qorusun. Bu məsəldə də işlənmişdir: « بير بُين بَشى اَغريسا قمُغ تُين بَشى اغريماس bir toyın başı ağrısa, kamuğ toym başı ağrımas=[müsəlman olmayan] bir din böyüyünün başı ağrısa, bütün din böyüklərinin başı ağrımaz». Bu söz dostlarınm yediyi bir şeyi hər hansı səbəb üzündən yeməkdən çəkinən adam haqqında deyilir.

[156] Uyğurlar bu sözü «boyun» şəklində yazmışlar (TTD, III tom, bet 231). Çinlilər də eyni şəkildə vermişlər (DLT-Çin, III cild, s.164).

BU BABIN MATVİ OLANLARI

قيا K a y a: qaya.

قِيا K ı y a: tərkibində غ ğ və ق ka hərfi olan qalm ahəngli sözlərdə kiçiltmə-əzizləmə şəkilçisidir. «أغلقِيا oğulkıya=oğulcuğaz», « قِيز قيا kızkıya = qızcığaz».

كُيا K ü y ə: güvə. Keçə və keçəyə bənzər şeyləri yeyən böcək.

كِيا K i y ə: tərkibində ك ke hərfi olan incə ahəngli sözlərdə kiçiltmə-əzizləmə şəkilçisidir. «أركِيا ərkiyə = ərciyəz», «يِركيا yerkiyə =yerciyəz».

يَنا Y a n a: yenə, təkrar; geri qayıtma ədatıdır. «يَنا كلدِم yana kəldüm = yenə gəldim, təkrar gəldim».

BU BABIN BAŞQA BİR NÖVÜ

يَيا Y a y a: yançaq, yanbız. Bu söz ancaq insanlar barədə deyilir.

[Qayda]:

İsimlərin bu növü nə yazılışda, nə də tələffüzdə hərf baxımmdan ixtisar edilməz, azaldılmaz. Çünki bunlarda sözün ortası hərəkəlidir. İxtisar ancaq ortası sükunlu olan sözlərdə aparılır.

Mücərrəd sözlər bölməsi bitdi.

ZİYADƏLİ SÖZLƏR BÖLMƏSİ

فاعَل FA'ƏL BABI

تلدُن T a d u n: bir yaşındakı buzov.

ثُوذُون T u d h u n: mənbədən suyu paylayan adam, mübaşir, cuvar.

تيذين T ı d h ı n: vaxt bildirən söz. «بوُ تيذين كلدى bu tıdhm kəldi = bu vaxtda gəldi, bu vaxt gəldi».

فعال FƏ'AL BABI

بَيات B a y a t: ulu tanrının adı. Arğuca.

بَيات B a y a t: oğuzlardan bir oymağm adı.

قيار K o y a r: kölələrə və heyvanlara nisbətdə işlədilən söyüş. «بوُ قيارى bu koyarı = bu, ağzından selik axanın biridir». Bu, « سوُف قيدى suw koydı» cümləsindəki «قيدى koydı» sözündən almmışdır, «su və suya bənzər şeyləri tökdü» deməkdir.

قياس K a y a s: toxsı, çigil ölkələrindəki bəzi şəhərlərin adı. Üç şəhər belə adlanır, birincisi «ساباِلغ قياس Saplığ Kayas», ikincisi «اُرُنك قياس Ürünq Kayas», üçüncüsü «قرا قياس Kara Kayas»dır.

قياش K u y a ş: möhkəm isti, bürkü, xəfə, günəşin şiddətlə yandırıb-yaxması.

اياغ A y a ğ: ayama, ləqəb. Bu şeirdə də işlənmişdir:

قُذغِل مَنــكا اقيلِق

بُلسُن مَنــكا اياغا

اِذغِل مَنــى تُقِشغا

يُقُكِل مَنــكا ألاغا

«Kodhğıl manqa akılık
Bolsun manqa ayağa,
Idhğıl məni tokışka,
Yüwgil manqa ulağa».
Buraxginən comərdlik
Olsun mənə ayama,
Göndər məni savaşa,
Mindir məni bir ata.

(Qoy comərdlik mənim ayamam olsun, məni döyüşə göndər, ancaq döyüşə getmək üçün mənə bir at verərək kömək et).

مُيان M u y a n: səvab. «مُيانلِق muyanlık = yollarda gəlib-keçənlərin su içməsi üçün düzəldilən xeyrat bulağı, ehsan bulağı».

HƏR NÖV HƏRƏKƏSİ İLƏ فعلى FƏ'Lİ BABI

بوُجى B u ç ı: «بوُجى قُبُز buçı kubuz = simli udlardan biri». Bu, qaz köksü (bərbət) adı verilən çalğı alətlərindən biridir.

قيدا K a y d a: harada. «قيدا سَن kayda sən = haradasan». ن n hərfi ilə «قندا kanda» deyildiyi kimi, «kayuda» şəklində də deyilir.

كُيدا K ö y d ə: qızıl və gümüşün əridilərək süzüldüyü ocaq, domna sobası.

قُيقا K o y k a: dəri. Əslində dəri barədə işlənsə də, bəzən kürk üçün də işlədilir. «أل قوُيُغ قُيقلادى ol koyuğ koykaladı=o, qoyunu soy-

madan dərisinin tüklərini yandıraraq təmizlədi». Bu, yunun qaynar su vasitəsilə dəridən təmizlənməsidir.

قِيما K ı y m a: «قِيما اُكرا kıyma ügrə = bir əriştə növü». Xəmiri sərçə dili kimi əyri kəsilir.

قُيما K u y m a: yağlı bir çörək növü. Resepti: xəmiri qədaif xəmiri[157] kimi incəldilir, tavada qaynamaqda olan yağm içinə atılır, qarışdırılır, üstünə şəkər tökülərək yeyilir.

قُيما K u y m a: hər hansı bir metaldan çəkiclə döymə surətilə deyil, əridərək tökmə [qəlib] yolu ilə düzəldilən həvəng, şamdan və çəkic kimi alətlərin hamısına «قُيما kuyma» deyilir.

HƏR NÖV HƏRƏKƏSİ İLƏ فعالوُ FƏ'ALU BABI

تَياغُو T a y a ğ u: daş və təzək parçası.

تُريغا T u r ı ğ a: torağay, sərçənin bir növü.

سُياغوُ S u y a ğ u: xoruzun ayağmdakı mahmız.

بِتيكوُ B i t i g ü: türk qələmdanı və buna bənzər şeylər.

كُليكا K ö l i g ə: qatı kölgə.

قَليما K a l ı m a: dörd sütunlu açıq çardaq, günəşlik.

اكاما İ k ə m ə: bir çalğı növü.

كُشيكا K ö ş i g ə: az kölgə, zəif kölgə.

BU BABIN MİSAL OLANLARI

يُريغا Y o r ı ğ a: yorğa. «يُريغا اَت yorığa at = yorğa at».

---

[157] Təxminən şəkərbura xəmiri kimi çox nazik, incə yayılan xəmirdir. Salih Mütəllibov «qədaif xəmiri» ifadəsini «unu şərbət ilə yoğrulan xəmir» kimi (TSD, III tom, bet 188) çevirmişdir.

يُلِيكوُ Y ü l i g ü: saç təraş edən ülgüc. Oğuzlar bu sözü işlətmir, əvəzində «كَرای kərəy» deyirlər.

اِياكوُ Ə y ə g ü: hər heyvanın kürək sümüyü.

فَعلان FƏ'LAN BABI

تَيغان T a y ğ a n: tazı. Bu atalar sözündə də işlənmişdir: « تَيغان يُكرُكِن تَيلكوُ سَقماس tayğan yügrügin[158] tilkü səwməs = tazının iti qaçanmı tülkü sevməz». Bu söz özünü digərindən ağllı sayan, bir-birinin paxıllığmı çəkən iki alim haqqmda deyilir.

كَيكان K ə y k ə n: Kayasdan Ilıya axan iki çayın adı. Birinə «كِچِک كَيكان Kiçik Kəykən» deyilir, bu, kiçik çaydır, digərinə «اُلغ كَيكان Uluğ Kəykən» deyilir, bu, böyük çaydır.

HƏR NÖV HƏRƏKƏSİ İLƏ فَيعَل FƏY'ƏL BABI

قِيمَج K ı y m a ç: «قِيمَج بُرک kıymaç börk = tiftikdən [keçi tiftiyindən] hazırlanan ağ papaq». Onu çigillər geyirlər.

بَينَق B a y n a k: nəcis, gübrə. Oğuzca.

بُينَق B o y n a k: dağ boynu, bələn.

بُينَق B o y n a k: ilana ağı verən kərtənkələ.

قِيغِن K a y ğ ı k: qayıq.

مَيغُق M a y ğ u k: kosa adam. Qoşa dırnaqlı deyil, top dırnaqlı heyvanlardan tükləri qısa olanı.

كَيلِک K e y l i g: meymun.

---

[158] Bu misala «Divan»da bir neçə dəfə rastlanır, bir yerdə o, «tayğan yügürgənni tilkü səwməs» şəklində keçir.

كَيلِك K e y l i g: buna bənzədilərək çaşqın və ya qərib kimi iki tərəfə baxa-baxa yeriyən adama «كَيلِك كِشى keylig kişi» deyilir.

بُيمل B o y m u l: «بُيمل اَت boymul at = boynunda ağlıq olan at». Qoyuna və başqa heyvanlara da belə deyilir.

بَيرَم B a y r a m: oğuzca. Bunun xalqm sevinc və gəzinti mənasmda işlətdiyi «بَذرَم badhram» sözündən çevrilmiş olduğunu sanıram, [doğrudan da] bayram sevinc, şadlıq günüdür. Çünki islamiyyətdən əvvəl bayramın nə olduğu bilinmədiyi üçün onun adı da ola bilməzdi, əgər olmuş olsaydı, bunu bütün türklər bilərdi. Bu sözü ancaq dillərində ذ dh hərfini ى y hərfinə çevirənlər bilir.

جَيدَم Ç a y d a m: döşəyə doldurulan və plaş tikilən incə keçə.

سَيرَم S a y r a m: اِسبيجاب İsbicab da deyilən Beyza şəhərinin adı. Bu şəhərə سَرَيم Sayram[159] da deyilir.

سَيرَم S a y r a m: «سَيرَم سوُف sayram suw = topuqdan yuxarı çıxmayan su, dayaz su».

HƏR NÖV HƏRƏKƏSİ İLƏ فعالِ FƏ'ALİL BABI

بَقلَنَق B a k a n a k[160]: qoşa dırnaqlı heyvanların iki dırnağmın arası və iki dırnaqdan biri.

---

[159] Bu şəhər hazırda Çimkənt adlanır. Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər bu iki maddəni belə çevirmişlər: «Sayram. Sipencab (Kaleyi-Səfid) də deyilən Bəyaz kəndin (mədineyi-Beyza) adı. Digər adı Sayramdır». «Sayram. Sayram suw: dayaz su» (DLT-2005, s. 479). Farsca adı Ağ qala, türkcə Bəyaz kənd mənasına gələn bu şəhərin adını Bəsim Atalay və digər naşirlər İsficab kimi verirlər, islam coğrafiyaşünaslığmda adı da İsficabdır. Faruq Sümər və digər tarixçilər də onu İsficab kimi yazırlar.

[160] Bəsim Atalayın qeydinə görə, bu sözü və bundan sonrakı sözü hərəkələrdəki qeyri-dəqiqlik üzündən həm «bakanak», həm «bakayak», həm «bakanuk», həm də «bakayuk» şəklində oxumaq mümkündür (DLT, III, s. 177). Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər bu maddəni belə çevirmişlər: «Bakanak (bakayak). Qoşa dırnaqlı heyvanlarda dırnaqların arasındakı boşluğa və ya dırnaqların iki yanına verilən ad. Atların

بَقانُق B a k a n u k[161]: atm dırnaqlarınm ortasmda olan çıxıntılı ət parçası.

تُقَيمَق T o k ı m a k: toxmaq, camaşır döyəcləmək üçün toxmaq.

قياجُق K a y a ç u k: gözəl qoxulu bir dağ otudur. Zənnimcə, bu ot ya türfə yarpağı, ya da zəfərandır.

BU BABIN MİSAL OLANI

مُندى M ü n d i: mindi. «اَر اَتِن يَبُيتِق مُندى ər atın yaputak[162] mündi = adam çılpaq ata mindi, keçəsiz və yəhərsiz ata mindi».

toynağının (iki dırnağlı heyvanların ayağına qoşa dırnağ, tək dırnağh heyvanların ayağına toynaq deyilir – R.Ə.) içini, ayaq dabanının ortasında olan üçbucaq şəklindəki sərt hissəni anlatmaq üçün bu söz işlədilir» (DLT-2005, s.170). Uyğurlar bunu «bakayak», bundan sonrakı sözü «bakayuk» kimi vermişlər (TTD, III tom, bet 244).

[161] Bax: bundan əvvəlki qeydə.

[162] Bu söz bu cildin (bizim nəşr) 48-ci səhifəsinin 19-cu sətrində «yabıtak» imlası ilə keçir.

BEŞ HƏRFLİLƏR BÖLMƏSİ

HƏR NÖV HƏRƏKƏSİ İLƏ فَعْلَل FƏ'ƏLƏL BABI

قَيرلِغ K a y ı r l ı ğ: «قَيرلِغ يير kayırlığ yer = düz və qaba torpaqlı yer».

قُيَسلِغ K u y a s l ı ğ: «قُيَسلِغ ار kuyaslığ ər = kuyaslı, Kuyas şəhərindən olan adam, kuyas sakini».

تُيَغلِغ T u y a ğ l ı ğ: «تُيَغلِغ يلقى tuyağlığ yılkı = dırnaqlı heyvan».

قُيُغلُق K o y u ğ l u k: qatılıq, mayelərdə qatılıq.

ORTASI SÜKUNLU OLANLAR

سَنْدُواج S a n d u v a ç: bülbül. Bu şeirdə də işlənmişdir:

سَنْـــداً قَجَر سُنْدِلاج
مَنْـــدا تِنْر قَرغِلاج
تَتْلِـــغ اُتَر سَنْدُواج
اركَك تِشى اُجرُشُور

«Səndən kaçar sundılaç,
Məndə tmar karğılaç,
Tatlığ ötər sanduvaç,
Erkək – tişi uçruşur».
Səndən qaçar at quşu,
Məndə dinər qaranquş,
Şirin-şirin ötər bülbül,

Erkək-dişi uçuşar.

(Yaz qışa xitabla deyir: at quşu səndən qaçar, qaranquş məndə dincələr, bülbül də şirin-şirin ötər, hamı onun səsindən zövq alar, bütün erkək-dişi quşlar yazda cütləşər, oynaşarlar).

بُلغَيُق B u l ğ a y u k: «بُلغَيُق سوُڤ bulğayuk suw = bulanıq su».

سَرقَيق S a r k a y ı k: heyvanlarm mədəsində qırxbayır adı verilən bir işkəmbə. Bəzən ن n ilə «سَرقَنق sarkanuk» deyilir. Ərəb dilində də belə şeylər olur. Məsələn: « ميزاب، مِنزاب، ميشار، مِنشار » kimi.

قُدُوَجق K u d u ç a k: büzdüm.

BUNUN BAŞQA BİR NÖVÜ

بَيبَيُق B a y b a y u k: kəpənək quşu deyilən bir quşdur. Ağac budaqları arasında yuvasını zənbil şəklində hörür, gözəl ötür.

BU BABIN ALTI HƏRFLİLƏRİ

بُيُندُروق B o y u n d u r u k: iki öküzün boynunun üstünə birdən qoyulan boyunduruq.

مُيَنجِلِق M u y a n ç ı l ı k: miyançılıq, vasitəçilik, barışdırmaq üçün iki adamın arasma girmək. «سَن مُيَنجِلِق قِل sən muyançılık kıl» deyilir ki, «sən bizə vasitəçilik et» deməkdir. Əsli «səvab» mənasına gələn «مُيان muyan» sözüdür.

Mənqus isimlər kitabı bitdi



BİSMİLLAH İR-RƏHMAN İR-RƏHİM

MƏNQUS FE'LLƏR KİTABI

İKİ HƏRFLİLƏR BÖLMƏSİ

كِيجتى K e ç t i: «اَر كِيجتى ər keçti = adam işdə gecikdi, ağır hərəkət elədi», (كِيجار - كِيجماك keçər – keçmək).

بوُردى B u r d ı: «يبار بوُردى yıpar burdı = müşk qoxdu».

بوُردى B u r d ı: «سوُڤ بوُردى suw burdı=suyun buğu yüksəldi, buğlandı». Hər hansı bir şey gözəl qoxu versə və buğlansa, yenə belə deyilir, (بُرار - بُرماق burar – burmak).

بيردى B e r d i: «اُل مَنكا يَرماق بيردى ol manqa yarmak berdi = o mənə pul verdi». Başqası da belədir, (بيرُر - بيرماك berür – bermək).

تاردى T a r d ı: «بَك سوُسِن تاردى bəg süsin tardı = bəy qoşununu yaydı, dağıtdı». Bir adam bir şeyi dağıtsa, yenə belə deyilir, (تارار - نارماق tarar – tarmak).

ثُردى T u r d ı: «اَر يُقارُو ثُردى ər yokarı turdı = adam yuxarı durdu, qalxdı». Başqası da belədir, (ثُورُر - ثُورماق turur – turmak).

ثُورُر T u r u r: keçmiş zamanı və məsdəri olmayan müstəqbəl bir fe'ldir. Ərəb dilinin « يَدَع » və « يَذَرُ » sözləri kimi. Bu söz bir şeyin adı çəkilən anda bir yerdə durduğunu və bulunduğunu bildirir. «اُل اَقدا تورُر ol əwdəturur» deyilir ki, «o, [bu an] evdədir, evdə var» deməkdir. Bu sözlə ayağa qalxmaq murad edilmir. «اَرمسُكَل ثُرُر ər sökəlturur» deyilir ki, «adam xəstədir» deməkdir. Bu sözlə xəstə ayağa qalxdı deyilmək istənmir.

تُوردی T u r d ı: «آت تُوردی at turdı = at durdu, zəiflədi, inkişafdan qaldı». Başqası da belədir, (تُورار - تورُماق turar – turmak).

تِيردی T e r d i: «أل تَقّار تِيردی ol tawar terdi = o, mal yığdı». Başqası da belədir, (تِيرار - تِيرماک terər – tərmək).

ساردی S ə r d i: «أل آنی ساردی ol anı sərdi = o ona sərt sözlər dedi, qaba sözlər dedi», (سَرار - سَرماک sərər – sərmək).

سُردی S o r d ı: «كَنج سوُت سُردی kənc süt sordı = uşaq süd əmdi». Başqası da belədir.

سُردی S o r d ı: «ار سوُز سُردی ər söz sordı = adam söz, xəbər soruşdu».

سُردی S o r d ı: «ار يثک سوُردی ər yitük sordı = adam itiyi barədə soruşdu, itiyini aradı», (سُرار - سُرماق sorar–sormak). Bu son iki söz oğuzcadır.

قاردی K a r d ı: «ار سُقّا قاردی ər suwka kardı = su adamın boğazında qaldı».

قاردی K a r d ı: «سوُف ارقتِن قاردی suw arıktın kardı = su arxdan daşdı», (qışda çaydan su daşdı). Bu, suyun və qarın donması, çayın suyunun buz üstünə çıxması nəticəsində baş verən daşmaya deyilir, (قرار - قرماق karar – karmak).

توُزدی T ö z d i: «ار ثملغقا توُزدی ər tumluğka tözdi=adam soyuqdan acdı», (توُزار - ثوزماک tözər – tözmək). Qıpçaqca.

سيزدی S ı z d ı: «ياغ سيزدی yağ sızdı = yağ əridi».

سيزدی S ı z d ı: «ألمادِن سوُف سيزدی olmadın[163] suw sızdı = qabdan və buna bənzər şeylərdən su sızdı».

سيزدی S ı z d ı: «كوُن سيزدی kün sızdı=günəş göründü, günəşin ucu şərqdən göründü», (سيزار - سيزماق sızar – sızmak).

---

[163] Bu söz ərəb hərfləri ilə «ألمادِن olmadhın» şəklində yazılmışdır. Təbii ki, bu yazılış səhvdir. ذ dh yerinə د d yazılmahdır, çünki adlıq halda «olma» sözü qab, sürahi, kuzə deməkdir.

قیشدی K ı ş d ı: «ار یولدن قیشدی ər yoldan kışdı = adam yoldan çəkildi, sürüşdü». Günəş göyün ortasından çəkilsə, yenə belə deyilir. (قیشار - قشماق kışar – kışmak)[164].

توغدی T o ğ d ı: «توغ توغدی toğ toğdı = toz göyə yüksəldi», (توغار - توغماق toğar–toğmak). Bu şeirdə də işlənmişdir:

اغلدی قزل بیراق
توغدی قرا تبراق
یتشو کلیب اغراق
تقشیب انین کیجتمز

«Ağdı kızıl bayrak,
Toğdı kara toprak,
Yetşü kəlip oğrak,
Tokşıp anın keçtimiz».
Ucaldı qızıl bayraq,
Tozlandı qara torpaq,
Yetişdi gəlib oğrak,
Vuruşaraq gecikdik.

(Müsəlmanların qızıl bayrağı yüksəldi, qara torpaqdan göyə toz buludu yüksəldi, oğrak atlıları da yetişərək gəlib bizə qatıldılar, onlarla birlikdə savaşa girdik, ona görə də geri dönməkdə gecikdik).

ایقدی E w d i: «ار ایقدی ər ewdi=adam tələsdi», (ایقار - ایقماک ewər-ewmək).

قوقدی K o w d ı: «ار انین قوقدی ər atın kowdı=adam atını qovdu, çapdı». Başqası da belədir, (قوقار - قوقماک kowar – kowmak)[165].

---

[164] Bəsim Atalayın haqh qeydinə görə, bu söz əslində «kaydı-kayar–kaymak» şəklində olmahdır, burada ortaqlıq, müştərəklik bildirən -ış şəkilçisinə ehtiyac yoxdur, üstəlik, bu bölmədə iki hərfli sözlər nəzərdən keçirilir (DLT, III, s.182). Salih Mütəllibov bu qeydlə qismən razıdır. O belə hesab edir ki, bir sözün başqa bir babda verilməsi elə də böyük səhv sayılmamalıdır (TSD, III tom, bet 198-199).

[165] Bu fe'lin müzare və məsdərini biz qoydıq.

جِقی Ç ı w ı: cinlərdən bir tayfa. Türklər buna inanırlar ki, iki boy birbiri ilə vuruşanda həmin boylarm vilayətlərində yaşayan cinlər də öz aralarında savaşır və öz vilayətinin adamlarına kömək edirlər. Cinlərdən hansı tərəf qalib gəlsə, o boy zəfər qazanır. Gecə vuruşan cinlərdən biri qaçsa, onların təmsil etdiyi vilayətin xaqanı da qaçır. Türk əsgərləri gecələr cinlərin atdığı oxlardan qorunmaq üçün çadırda gizlənirlər. Bu, türklər arasında geniş yayılmış bir ənənədir.

قُقی K o w ı: «قُقی یغاج kowı yığaç = içi boş, çürük ağac». Bəzən و vavla «قُوی kovı» deyilir.

قُقی K o w ı: «قُقی ار kowı ər = talesiz, uğursuz adam». Arğuca. Bu atalar sözündə də işlənmişdir: «قُقی ار قُدُغقا کرسا یل آلیر kowı ər kuduğka kirsə yel alır = bəxtsiz adam quyuya girsə, yel alar», (bəxtsiz adam quyuya girsə belə yel onu oradan dartıb çıxarar və zillət çəkdirər).

---

[197] Salih Mütəllibov bu sözü belə tərcümə etmişdir: «Bir şəhərdən ikinci şəhərə satış üçün gətirilən mal» (TSD, III tom, bet 244).Uyğurlar isə bunu «cəncəl» deyə tərcümə etmişlər (TTD, III tom, bet 311).

بَقا B a k a: bağa; qurbağa. Bu sözdən alınaraq tısbağaya «مُنكُز بَقا münqüz baka[198]» deyilir.

بَقاجُق B a k a ç u k: bu, «بَقا baka»nm kiçiltməsidir. Bu, qabırğa sümüyü ilə qol arasındakı ət parçasıdır.

بَقُو B a k u: təpə, yüksəklik.

بُقا B u k a: buğa.

تَقى T a k ı: dəxi, yenə, daha mənasmda sözdür. «تَقى يَرماق بير takı yarmak ber = yenə pul ver». Bu söz oğuzlarda «ilə» mənasmdadır.

تَقى T a k ı: «اُل تَقى اَندا ol takı anda = o da oradadır».

تُقُو T o k u: toqqa, kəmər toqqası.

سَقا S a k a: dağ ətəyi, yamac.

سُقُو S u k u: həvəng. Bu sözün əsli qoşa ق ka ilədir, qısaldılmışdır. Yüksəklik, təpəlik mənasındakı «بَقُو baku» sözü də əslində qoşa ق ka-lıdır. Yağmur yapmçısı, plaş mənasındakı «يَقُو yaku» sözünün əsli «ياغقُو yağku»dur. Bu, ulu Tanrmm «فَظْلِتُم تَقَكّهوُنَ» sözü kimidir, əsli «فَظْلِلتُم»-dür, qısaldılmışdır. Bu da elədir.

اُرى قِقى U r ı – k ı k ı: gurultu, fəryad.

بُكا B ü k ə: əjdaha, uzun ilan. Bu ibarədə də işlənmişdir: «يتى بَشلِغ يل بُكا yeti başlığ yıl bükə[199] = yeddi başlı əjdaha». Yabakularm ən böyüyünə «بُكا بُدرَج Bükə Budraç» deyilir, bəzi bahadırlarına da bu ad verilir. Yeddi yüz min əsgəri olduğu halda ulu Tanrı Bükə Budracı qırx min əsgəri olan islam

---

[198] «Münqüz» buynuz deməkdir. Tısbağaya «münqüz baka» deməklə onun buynuzlu deyil (tısbağanın buynuzu olmur), məhz sümükdən zirehi olması nəzərdə tutulmuş olmalıdır. Çağdaş özbək dilində tısbağaya «taşbaka» deyilir. Burada sümük «taş=daş» sözü ilə ifadə olunmuşdur. Bəlkə də bizdəki «tıs» sözü «taş»ın təhrifidir.

[199] «Bükə» sözünü «bökə» şəklində verən uyğurlar bu ibarəni «yeti başlığ yel bökə» kimi oxumuşlar (TTD, III tom, bet 314).

sərkərdəsi Arslan Təkin Qazi ilə savaşda məğlubiyyətə düçar etdi. Mahmud deyir ki, mən bu savaşda iştirak edənlərdən yağı bu qədər çox olduğu halda niyə məğlub oldu deyə soruşdum. Mənə belə cavab verdilər: biz özümüz də bu işə mat qaldıq, bunun səbəbini əsir düşən kafirlərdən soruşduq, bu qədər çox olduğunuz halda niyə yenildiniz dedik. Onlar bildirdilər ki, davullar vurulub şeypurlar çahndığı zaman başımızm üstündə yaşıl bir dağ gördük, bu dağ bütün göyü örtmüşdü. Dağdan saysız-hesabsız qapılar açıldı və qapılardan üstümüzə cəhənnəm odu yağmağa başladı. Biz də bundan vahiməyə düşdük və məğlub olduq. Mən də bu, əleyhissəlam peyğəmbərimizin müsəlmanlara bəxş etdiyi möcüzələrdən biridir dedim.

بَكى B ə g i: kişi adlarmdandır.

بُكُو B ü k ü[200]: bilgin, alim, ağıllı, hakim. «بلكا bilgə» sözü ilə birlikdə «بُكُو بلكا bükü bilgə» deyilir. Bu bənddə də işlənmişdir:

بلكنـــى اِردَمِ
بُكونُـــى اُدْرُدُم
اُزْمـــنى اَدْرِدِم
يَلغِل اَتِم يَزْلِـنوُر

«Biligni irdədim,
Bükünü udhurdum,
Özümni adhırdım,
Yalğıl atım yazlınur».
Biliyi axtardım,
Ağıllmı seçdim,

[200] Uyğurlar (TTD, III tom, bet 315) və çinlilər (DLT-Çin, III cild, s. 223) bu sözü isə «bögü» kimi oxumuşlar.

Özümü ayırdım,

Ağ yallı atım açılır.

(Bilik və hikmət aradım, ağıllı və hakim adamı seçdim, xalq arasından özümü ayırdım, bu iş üçün hazırlanmış ağ yalh atımm bağı açıhr).

تكا T ə k ə: buynuzundan yay düzəldilən erkək maral.

تكا T ə k ə: təkə. Buradan alınaraq, saqqalı təkə saqqalına bənzədilərək kosa adamlara «تكا سقال təkə saqqal» deyilir.

تُكا T ü g ə: düyə. İki yaşma basmış buzov.

تُكا T ü g ə: «تِشى تُكا tişi tügə = dişi düyə».

تِكوُ T i k ü[201]: tikə. «بير تِكوُ اَت bir tikü ət=bir tikə ət». Əslində ك ke hərfi şəddəlidir, bu da yuxarıda göstərilən sözlər kimi qısaldılmışdır.

چكى Ç i g i: sağlam, möhkəm. «چكى يى çigi yi = möhkəm tikiş, ikiqat tikiş». Burada چ ç hərfi «يكى تِكتى yigi tikti» sözündəki ى i hərfini əvəz etmişdir, «möhkəm tikdi, təkrar tikdi» deməkdir. Bu kitabın lap əvvəlində söylədiyim kimi, qıpçaqların və digərlərinin dilində چ ç hərfi ى i hərfindən çevrilmişdir. Onlar inciyə «چِنجوُ çinçü» deyirlər, əsli ى y ilə «yinçü»dür.

تُكوُ تُكوُ T ü k ü – t ü k ü: köpək əniyini, yəni küçüyü çağırmaq üçün işlənir.

تُكى T ö g i: darmm qabığı çıxarıldıqdan sonra qalan qismi[202]. Oğuzca.

تِكى T i k i: gecələr eşidilən səs. Türklərin inamına görə, ruhlar ildə bir gecə vaxtilə yaşadıqları yerlərdə yığışır və xalqı ziyarət

---

[201] Uyğurlar bu sözü «tekü» kimi oxumuşlar (TTD, III tom, bet 316). Çinlilər də eyni şəkildə vermişlər (DLT-Çin, III cild, s. 224).

[202] Bizdə ədəbi dildə «düyü», dialektlərdə «dügü/dügi» kimi tələffüz olunan bu sözlə bağlı Bəsim Atalayın maraqh bir qeydi vardır. Onun fikrincə, bu sözün kökü «döymək» fe'lindən olub əsli «dögü»dür, daha sonra dəyişikliyə uğrayaraq «dügi/dögi» şəklini almışdır (DLT, III, s. 229).

edirlər. Həmin gecə bu səsi eşidən adam ölür. Bu inam türklər arasında geniş yayılmışdır. Bu söz dildə «tiki» şəklində işlənsə də, mənim fikrinmcə, «təgi» şəkli daha münasibdir. Çünki qadın ərə getdikdən sonra öz ata evini ziyarət etdiyi zaman «تَكدى كَلدى təgdi kəldi», yəni «ziyarətçi gəldi» deyilir.

سَكوُ S ə k ü: səki, dükan.

سُكا S ö k ə: diz üstü. «اَر سُكا اُلتُردى ər sökə olturdı = adam dizi üstə oturdu» deməkdir. Bu şeirdə də işlənmişdir:

اَرَن ايـذِب سُكا تُردى
بَشى بُيِنِن سُكا تُردى
اُفت بوُلـُب بُكا تُردى
اُدُو قـــَما تَبن تَغدى

«Ərən ıdhıp sökə turdı,
Başı, boynın sökə turdı,
Ufut bolup bükə turdı,
Udhu kama tibən tiğdi».
Ərən göndərib dizi üstə oturdu,
Başma, boynuna döyərək durdu,
Utanaraq, bükülərək durdu,
Məni qovma deyə baş əydi.

(Məğlub olmuş bir adamdan bəhs edərək deyir: yanıma minnətə çoxlu ərən göndərdi, özü də gəlib önümdə dizi üstə çökdü, tutduğu əməldən peşman olaraq başma-gözünə döydü, utandı, büzüşdü, məni qovma, bağışla deyə yalvardı, mən də onu bağışladım).

كُكُوُ K ü k ü: bibi. «كُكُوى küküy» də deyilir, doğrusu budur. «كُكُوُيم كَلدى küküym kəldi = bibim gəldi».

بَلا B a l a: quş balası. Ev və çöl heyvanlarımn balalarına da belə deyilir. «قُش بَلاسی قسِنجِغ، اِت بالاسی اُخشَنجِغ» kuş balası kusınçığ, ıt balası oxşançığ = quş balası iyrənc, it balası qucağa alıb oxşanacaq qədər gözəl olur». Böyüdükdən sonra vəziyyət dəyişir.

بَلوُ B a l u: bir arğu qəsəbəsinin adı.

بَلوُبَلوُ B a l u–b a l u[203]: layla, ninni. Qadınlar uşağı beşikdə uyutmaq üçün belə deyirlər.

بَلا B a l a: bir adama işlərində kömək edən şəxs, şəyird. Ondan əsasən əkinçilik işlərində istifadə olunur.

تَلوُ T ə l ü: axmaq, dəli. Oğuzca.

تَلوُ T a l u: «تَلوُ نانک talu nənq = seçmə nəsnə».

تُلوُ T o l u: «تُلوُ اِدِش tolu idhiş = dolu qab». Dolu olan hər bir nəsnəyə belə deyilir.

تُلی T o l ı: göydən yağan dolu.

تِلی T i l i: ox təmrəni üstünə sarınan qayış.

چِلا Ç i l ə[204]: atın hələ yaş olan gübrəsi, təsi.

سَلی S a l ı: suvaq malası.

سُلی S ü l i: kölələrə verilən adlardandır. سُلَیمان Süleyman sözünün ixtisarı olmalıdır.

قُلا K u l a: «قُلا اَت kula at = zəfəran rəngli at».

قَلی K a l ı: «əgər, necə olsa» mənasma gələn bir ədatdır. Bu şeirdə də işlənmişdir:

كَـــلسا قَلی قتِغلِق

اَرتـَـر تَیوُ سَرنـکِل

---

[203] Uyğurlar bunu «bəlü-bəlü» şəklində oxumuşlar (TTD, III tom, bet 319). Çinlilər də eynən bu cür vermişlər (DLT-Çin, III cild, s. 227).

[204] Bu söz yazma nüsxədə «چلا ر çilər» şəklindədir. O şəkil bu baba uymur, uyması üçün «چِلا çilə» olmalıdır.

اَذلک ایشِن بِلِب ثُر

اَنجـــا اَنکَر تِرَنِکل

«Kəlsə kalı katığlık
Ərtər teyü səringil,
Ödhlək ışm bilip tur,
Ança anqar tirəngil».
Gəlsə əgər fəlakət,
Keçər deyə səbr elə,
Zəmanənin işini bilib dur,
Ona müqavimət göstər.

(Əgər sənə fəlakət və sıxıntı üz versə, bu da ötüb-keçər de və səbr elə, dünyanın halmm belə olduğunu bil, mətin ol, üzülmə). « بوُ سَن بوُ ایشغ قلی قِلدِنک bu sən bu ışığ kalı kıldınq[205] = sən bu işi necə etdin», «سَن قلی بَرسا سَن sən kalı barsa sən = sən artıq gedərsən».

كُلی K ü l i: yarmadan, ikiyə ayırmadan çəkirdəyi ilə birlikdə qurudulan qaysı və zərdalı kimi şeylər.

تَموُ T a m u: cəhənnəm. Bu atalar sözündə də işlənmişdir: « تَموُ قَبُغِن اَجار تَقُار tamu kapuğın açar tawar = cəhənnəmin qapısını mal açar», (rüşvət cəhənnəmin qapısmı açdığı halda, necə olar ki, başqa qapıları açа bilməsin)[206]. Bu söz işinin görülməsi üçün rüşvət verməsi tövsiyə olunan adama deyilir.

ثُما T u m a: «ثُما بُخسُن tuma buxsun = küpdə saxlanan darı şərabmın köpürən, fışqıran qismi».

---

[205] Bu nümunədəki birinci «bu» sözü artıqdır.

[206] Bu nümunənin mənası ilə bağlı Bəsim Atalayın belə bir qeydi vardır: «Bu atalar sözünə Kaşğarinin verdiyi anlam yerində deyildir. Buradan belə bir məna çıxmır. Zənnimcə, bu söz malına güvənənlər, malını xeyir işlərə sərf etməyənlər üçün söylənmiş olmalıdır. Bu sözün türkcə əsil mənası «cəlıənnəm qapısını açan maldır» deməkdir» (DLT, III, s. 234).

جُغى Ç a m ı: gurultu, bağırtı. «جُغى جَمى قِلدى çoğı çamı kıldı = o, gurultu, səs-küy qopardı». «جَمى çamı» sözü tək deyil, «جُغى çoğı» ilə birlikdə işlənir.

سُما S u m a[207]: islanmış buğda qurudularaq üyüdülür, ondan bulamac, çörək kimi şeylər bişirilir. Şərbət xəmiri düzəldilən isladılmış arpa üçün də belə deyilir[208].

كَمى K ə m i: gəmi. Oğuzca və qıpçaqca.

كُمي K ü m i: «كُمي تلاس Kümi Talas = uyğur sərhədində bir yer adı».

كِمى K i m i: gəmi. Oğuzlardan başqa digər türklər belə deyirlər. Bu şeirdə də işlənmişdir:

كِمـــى اِجرا اُلدُرُوب
اِلا سُـــــقِن كَجتِميز
اُيغُرتَبـــــــا بَشلتِب
مِنكلق اِيلِن اَجتِميز

«Kimi içrə oldurup
Ila suwın keçtimiz,
Uyğur taba başlanıp
Mınqlak elin açtımız».
Gəmi içrə oturub
Ila çaymı keçdik,
Uyğurlara yönəldik,
Mmqlak elini aldıq.

مَما M a m a[209]: xırman döyərkən ortada bulunan öküz. Digər öküzlər onun çevrəsində dönürlər.

---

[207] Uyğurlar bunu «sümə» şəklində oxumuşlar (TTD, III tom, bet 323). Çinlilər də uyğurlar kimi vermişlər (DLT-Çin, III cild, s. 230).
[208] Ehtimal ki, bu, nişastadır.
[209] Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər bu sözü «məmə» kimi (DLT-2005, s.342), uyğurlar isə «mama» kimi oxumuşlar (TTD, III tom, bet 324)..

مَمو M a m u: gərdək gecəsi gəlinlə göndərilən qadm. Bu kəlmə əsil türkcə deyildir.

نَما N ə m ə: bilməm mənasında bir sözdür. «نَما نا قِلدی nəmə[210] nə kıldı = bilməm necə etdi».

تَنا T ə n ə[211]: küncüt kimi şeylər. Uç və arğu dilində.

يَنو يَموُ Y a n u–y a m u[212]: «görəcəksən» mənasmda iki sözdür. « مَن بَرغای مَن يَموُ mən barğay mən yamu = mən gedəcəyəm, sən də görəcəksən».

مُنى S u n ı: evin dirəkləri.

قَنوُ K a n u: «قَنوُ كِشى kanu kişi = hansı adam». Arğuca. Burada ن hərfi y hərfinin yerinə keçmişdir.

قَنى، قانى K a n ı: hanı. «أغلم قَنى oğlum kanı = oğlum hanı, haradadır».

كُنى K ö n i: düz, düzgün. «كُنى نانك köni nənq = düz nəsnə». İnanılan adama isə «كُنى اَر köni ər = düzgün adam» deyilir.

كُنى K ü n i: günü. Bu atalar sözündə də işlənmişdir: «كُنى نِك كُلينا تَكوُ يَغى künininq külinə təgü yağı = gününün külünə qədər düşmən», (günü günüyə düşməndir, hətta birinin külü o birinin gözünə sovrular).

مُنوُ M u n u: «قانى kanı=hanı» sözünə cavabdır, «budur, burada» deməkdir.

دَوا D a v a: yulğun ağacmm meyvəsidir[213]. Boyaqçılar ondan istifadə edirlər.

---

[210] Bəsim Atalayın qeydinə görə, bu söz hazırda Anadolu kəndlərində «nəmmən», Azərbaycanda (onun təbiri ilə Azəristanda) «nəmənə» şəklində işlənir. Ancaq bizdə «nəmənə» ilə yanaşı «mənnəm=mən nə bilim» şəkli də var.

[211] Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər bu sözü «tana» kimi oxumuşlar (DLT-2005, s.527). Uyğurlar da eynən bu cür oxumuşlar (TTD, III tom, bet 324).

[212] Bəsim Atalay bu sözləri «يَنوُ يَموُ yanu-yamu» kimi oxumağı böyük tərəddüdlə təklif etmişdir. Bizcə, «tanu-tamu» şəklində də oxuna bilər. Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər «tanu (yamu)» şəklində oxumuşlar (DLT-2005, s. 528). Uyğurlar isə bu sözü

دَوا D a v a: yun süməyi, sümək. Yun didilir, sonra halqa şəklinə salınıb qola keçirilir və əyirilir.

قُوا K o v a: vedrə. Oğuzca[214].

قُوا K o v a: türklərin düzəltdikləri yüyəndə atm burnuna doğru uzadılan qayış.

«yənü yəmü» kimi oxumuş və Bəsim Atalayın qeydinə bənzər qeyd də vermişlər (TTD, III tom, bet 325). Çinlilərdə də belə bir qeyd var (DLT-Çin, III cild, s. 231).

[213] Uyğurlara görə, bu, yulğun ağacının meyvəsi yox, sadəcə yulğun çiçəyidir (TTD, III tom, bet 326).

[214] Uyğurlar bu sözü «kuva» şəklində oxumuşlar (TTD, III tom, bet 326). Çinlilər hər dəfə olduğu kimi bu dəfə də uyğurları təkrar etmişlər (DLT-Çin, III cild, s. 232).

[DÖRD HƏRFLİLƏR BÖLMƏSİ]

HƏR NÖV HƏRƏKƏSİ İLƏ فاعِل FA'İL BABI

لتو...[215]: ərištə şorbasının bir növü. Su, qar, buz kimi şeylərlə soyudulur, sonra içinə ədviyyat vurulur, soyuq yemək qismində yeyilir.

قاجا K a ç a: qab. «قاقاجا kakaça = qab-qacaq». Qısaldılaraq «قجا kaça» deyildiyi hallar da vardır.

قوُجوُ K o ç u: uyğur şəhərlərindən biri.

جوُجوُ Ç u ç u: bir türk şairinin adıdır.

قیجی K ı ç ı: xardal.

اوُنوُ O n u: o, onu. «موُنوُ munu = bu, bunu» deməkdir.

سوُنوُ S u n u: çörək otu, küncüt toxumu, koreandr, nigella sativa.

قانی K a n ı: hara.

لِیوُ L i y ü: quruduğu zaman quru palçıq halma düşən narın qumlu çamur.

اوُهی Ü h i: bayquş. Türklərin çoxu «اوُکی ügi» deyir.

---

215 «لتو» sözünün yazılışı və oxunuşu Bəsim Atalayı tərəddüdə salmışdır. O, sözün «litü» və ya «latu» şəklində ola biləcəyi ehtimalı üzərində durmuşdur (DLT, III, s. 238). Salih Mütəllibov isə ərəb əlifbası ilə bu sözü «latu» şəklində vermiş, transkipsiya etməmişdir. (TSD, III tom, bet 255). Uyğurlar (TTD, III tom, bet 326), eləcə də Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər «litü» kimi oxumuş və transkripsiya etmişlər (DLT-2005, s.399). Çinlilər isə bu sözü ərəb əlifbası ilə «لتو», latın əlifbası ilə «letü» şəklində vermişlər (DLT-Çin, III cild, s.233). Hüseyn Düzgün həmin sözü «لنتو ləntü» şəklində oxumuşdur (د ل ت s.539), lakin bu variant bu baba uymur, n, yaxud t artıqdır.

HƏR NÖV HƏRƏKƏSİ İLƏ فعال FƏ'AL BABI

خِتای X ı t a y: Yuxarı Çin.

تَغای T a ğ a y: dayı.

چِغای Ç ı ğ a y: yoxsul, kasıb. Bu şeirdə də işlənmişdir:

كُنكُل كِمِنكِ بُلسا قَلى يوُق چِغای

قِلســـــا كُجُن بُلمَس آنى تُق باى

«Könqül kiminq bolsa kalı yok çığay,

Kılsa küçün bolmas anı tok, bay».

Kimin könlü yox-yoxsul olsa,

Onu güclə tox və zəngin etmək olmaz.

(Təbiət etibarilə qəlbi yoxsul olaraq yaradılan adamı güclə zəngin etmək mümkün deyil).

HƏR NÖV HƏRƏKƏSİ İLƏ فعلى FƏ'LA BABI

تُرنا T u r n a: durna.

قَروى K a r v ı: «قَروى يا karvı ya=incə yay». Buradan alınaraq « قَروى قَشلغ كِشى karvı kaşlığ kişi = yay kimi incə qaşlı adam» deyilir. Bu, ərəb dilinə uyğundur, çünki ərəbcə yay biçimində olan hər şeyə «قَروَ qərvə» deyilir. Şairin[216] bu beytində də işlənmişdir:

روُبَـــهٌ يَذكُرُ بَعَيرَهُ

قَرواءَ مرجاب فُنُق

---

[216] Bu beyt tanmmış ərəb şairi Rübənin (685-762) qələminə məxsusdur. Ömrünü hərbi səfərlərdə, çöllərdə və savaşlarda keçirən, bu mövzularda çoxlu mədhiyyələr yazan şair bu beytdə özünün yay kimi gərilən, iri bədənli, dolğun ətli dəvəsini vəsf etmişdir (DLT-2005, s.408).

HƏR NÖV HƏRƏKƏSİ İLƏ فعلال FƏ'LAL BABI

شَنبوُی Ş ə n b u y[217]: başqa bir dəvətdən sonra gecələr gedilən içki ziyafəti. Kənçəkcə.

بُختای B o x t a y: paltar boğçası, heybəsi. «بُختُوی boxtuy» da deyilir.

لُختای L o x t a y: qırmızı Çin ipəyi. Üstündə sarı xalları var.

قُنجوُی K u n ç u y: xatundan bir dərəcə aşağı olan qadm, bikə, şahzadə. Buradan alınaraq «قاتون قُنجوُی katun kunçuy» deyilir.

بُغدای B u ğ d a y: buğda. Bu məsəldə də işlənmişdir: « بُغدای قَتِندا سَرفج سُقالوُر buğday katmda sarkaç suwalur=buğda yanmda qaramuq da suvarılır», (buğdanm bərəkəti və dövləti sayəsində qaramuq da suvarılır). Bu söz öz dostu sayəsində xoş günə çatan şəxs haqqmda deyilir. Barsğan xalqı «بُغدای buğday» deyə bilmir, «بُدغای budğay» deyir. Barsğanlı olmadığmı söyləyən adam bu sözlə sınanır.

جِلدای Ç ı l d a y[218]: atlarm döşünə çıxan irinli yara, dağlanaraq müalicə olunur.

سَمدوُی S a m d u y: isti ilə soyuq arasında olan, təbə xoş gələn bir yemək adı.

قُردای K o r d a y: qu cinsindən bir quş. Bu beytdə də işlənmişdir:

قُـــردَی قُغوانَدا اُجُب یمغِن اُتار

قُزغُن ینـکان سَیرَب اَنِن اُنی بُتار

«Korday, kuğu anda uçup yumğın ötər,

Kuzğun, yanqan sayrap anm üni bütər».

---

[217] Uyğurlar (TTD, III tom, bet 329) və çinlilər bu sözü «şənbüy» (DLT-Çin, III, s. 235), Seçkin Ərdi ilə Sərap Yurtsevər isə «şanbuy» kimi oxumuşlar (DLT-2005, s.520).

[218] Uyğurlar (TTD, III tom, bet 330) və çinlilər bu sözü «çildəy» (DLT-Çin, III, s.236), Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər isə «çildey» kimi oxumuşlar (DLT-2005, s.237).

Korday, qu orada uçub toplaşaraq ötər,

Quzğunun və alacaqarğanın isə səsləri batar.

(Olduğu yerin gözəlliklərini vəsf edərək deyir: burada qutan, qu və bir çox quş su ətrafında uçuşur və gözəl səslə oxuyur, quzğun və alacaqarğa kimi quşlarm isə bağırmaqdan səsləri batır, tutulur).

قمشوُی K o m ş u y: qan soraraq şişmiş gənə. Bu söz sidiyi tutulan və siyiyə bilməyən adamlar haqqında da deyilir.

بُورغوُی B o r ğ u y: nəfəslə çalınan boru.

جِرغوُی Ç ı r ğ u y[219]: ox təmrəninin şişkin olan yeri.

جِرغوُی Ç ı r ğ u y: paltar qurşağının keçəcəyi iki tərəfli körpücük.

جَلغای Ç a l ğ a y: quş qanadınm ucları.

قِرقوُی K ı r k u y: qırğı, bildirçin ovçusu. Ona bənzəyən bir quşa isə «جِبَک قِرقوُی çibək kırkuy» deyilir[220].

قَرغوُی K a r ğ u y: dağ zirvələrində və ya yüksək yerlərdə minarə şəklində ucaldılan güllə. Onun üstündə tonqal qalanaraq düşmənin gəlişi xəbər verilir, bu sayədə camaatın hazırlaşması və mallarnı, əşyalarmı yığması təmin edilir.

مِنغوی M ı n ğ u y: bir xəmir növü olub onunla kağız yapışdırılır. Yaxşı yapışması üçün suda qaynadılaraq xeyli qatılaşdırılır.

جُلقوُی Ç u l k u y[221]: «جُلقوُی اَتُک çulkuy ətük = topuğunun bir tərəfi yarılan, topuğu bir tərəfə əyilən ayaqqabı».

جُلقوُی Ç u l k u y: qolu çolaq adama «جُلقوُی اَلِک çulkuy əlig» deyilir.

---

[219] Uyğurlar bu sözü «ox başlığımn qabartma halqası» (TTD, III tom, bet 331) kimi mənalandırmışlar.

[220] Özbəkcə nəşrdə bu maddədə «qırğı» sözündən sonra «yu-yu deyə səs çıxaran quş», «deyilir» sözündən sonra isə «düşmənin gəlişini bildirdiyi üçün» yazılıb (TSD, s.259).

[221] Seçkin Ərdi ilə S.T.Yurtsevər bu sözü «çolkuy» kimi (DLT-2005, s.239), çinlilər (DLT-Çin, III cild, s.237) və uyğurlar isə «çulkuy» kimi oxumuşlar (TTD, III, bet 332)

BEŞ HƏRFLİLƏR BÖLMƏSİ

تَرغجی T a r ı ğ ç ı: cütçü, əkinçi.

سُرُغجی S o r u ğ ç ı: soruşan, sorucu, itiyini soraqlayan.

قُرُغجی K o r u ğ ç ı: qoruqçu, bir şeyi qoruyan.

قُرُنجی K u r u n ç ı: çadırda və başqa yerlərdə tüstüdən kirlənmiş keçə. Başqası da belədir.

بُقُرسی B u k u r s ı[222]: kotan dəmiri.

BU BABIN ALTI HƏRFLİLƏRİ

جنجرغا Ç a n ç a r ğ a[223]: sərçə quşu.

سُكُلنجوُ S ö k l ü n ç ü: kabab[224].

قَملنجوُ K a m l a n ç u: اِكّی اوكوز İkki Öküzə yaxm kiçik bir qəsəbənin adı.

كِزلنجوُ K i z l ə n ç ü: gizli. Bu məsəldə də işlənmişdir: «كِزلنجوُ كلِندا kizlənçü kəlində = gizli şey gəlində olar», çünki o, yaxşı şeyləri əri üçün saxlayar.

كَسلِنجوُ K ə s l i n ç ü: sarı kərtənkələ[225].

---

[222] Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər bu sözü «bokursı» (DLT-2005, s.195), uyğurlar isə «bukursı» kimi (TTD, III tom, bet 333) oxumuşlar. Çinlilər də uyğurlar kimi vermişlər (DLT-Çin, III cild, s.238).

[223] Salih Mütəllibov bu sözü «çançurğa» (TSD, III tom, bet 260), Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər «çıpçırğa» (DLT-2005, s.233), çinlilər (DLT-Çin, III cild, s. 238) və uyğurlar isə «çançarğa» kimi vermişlər (TTD, III tom, bet 333).

[224] Salih Mütəllibov bu sözü «qovurma» kimi (TSD, III tom, bet 260) çevirmişdir.

فَعُولَى FƏ'ULƏLİ BABI

حُقُوبَرى H u k u b a r ı[226]: [metal əritmək məqsədilə] tigel sobası düzəltmək üçün işlənən gil.

قراغنى K a r a ğ u n ı: axşamlar uşaqlarm oynadıqları bir oyun adı.

فعلال FƏ'ƏLLAL BABI

تُرُمتاى T u r u m t a y: yırtıcı quşlardan birinin adı. Bu həm də kişilərə ad və ya ləqəb olaraq verilir.

Dörd hərfli isimlər kitabı bitdi.

---

[225] Bəsim Atalayın «sarı kərtənkələ» (DLT-III, s.242), Salih Mütəllibovun «başı kiçik, quyruğu uzun bir məxluq» (TSD, III tom, bet 261), Hüseyn Düzgünün farsca «vəzəğ= «qurbağa» (د ل ت s.541), Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevərin «böyük kərtənkələ» (DLT-2005, s.309) kimi çevirdikləri bu sözü uyğurlar «kəsləngçük» (TTD, III tom, bet 334) kimi vermişlər. Bu, onu qovan ilanı çaşdırmaq üçün öz quyruğunu kəsib atan kərtənkələnin xarakterini ifadə edir. Müq.et: siçanın bir adı və ya növü «kəsəyən»dir.

[226] Türkcədə h səsi olmadığına görə, bu söz «çukubarı» olmalıdır. Salih Mütəllibov da bu barədə müvafiq qeyd vermişdir (TSD, III tom, bet 261). Uyğurlar (TTD, III tom, bet 334) və təbii olaraq çinlilər (DLT-Çin, III cild, s.238), eləcə də Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər «çokıbarı» kimi oxumuşlar (DLT-2005, s.241).



BİMSİLLAH İR-RƏHMAN İR-RƏHİM

DÖRD HƏRFLİ FE'LLƏR KİTABI

İKİ HƏRFLİLƏR BÖLMƏSİ

تَيدى T a y d ı: «ار تَيدى ər taydı = adam sürüşdü». Hər hansı bir heyvanın ayağı yağmur və ya çamur üzündən sürüşsə, yenə belə deyilir, (تَيار - تَيماق tayar – taymak).

تُيدى T u y d ı: «ار ايشِن تُيدى ər ışın tuydı=adam işini duydu», (işində gizli qalan yeri duydı və anladı), (تُيار - تُيماق tuyar – tuymak).

تِيدى T ı y d ı: «اُل اَنى تِيدى ol anı tıydı=o onu rədd etdi». Əsli ذ dh hərfi ilə «تِذتى tidhtı»dır, qısaldılmışdır, (تِيار - تِيماق tıyar – tıymak).

تُيدى T o y d ı: «قرن تُيدى karın toydı = qarm doydu». Əsli ذ dh hərfi ilə «تُذتى todhtı»dır, yuxarıda dediyimiz kimi,ذ dh hərfi ى y hərfinə çevrilmişdir, bu, həmin hərfləri dəyişdirənlərin dilindədir, (تُيار - تُيماق toyar – toymak).

سُيدى S o y d ı: «ار قوُيُغ سُيدى ər koyuğ soydı = adam qoyun soydu, qoyunun dərisini soydu». Başqası da belədir, (سُيار - سُيماق soyar – soymak). Bu atalar sözündə də işlənmişdir: « بِير تِلكوُ تَريسِن اِكيلا سِيماس bir tilkü tərisin ikilə soymas = bir tülkünün dərisi iki dəfə soyulmaz». Bu söz bir adamdan yaxşılıq görərək ikinci dəfə yenə yaxşıhq istəyən şəxsə deyilir.

قيدى K a y d ı: «قداشِنكا قيدى kadaşınqa kaydı = qohumuna yazığı gəldi». Başqası da belədir. Bu atalar sözündə də işlənmişdir:

قدَش تِيمِش قيمادُق

قدِن تِيـــمِش قيمِش

«Kadhaş temiş kaymaduk.

Kadhın temiş kaymış».

Qardaş demiş – baxmamış,

Qayın demiş – baxmış»[227].

Bu söz qohumlara, qudalara hörmət göstərməsi tövsiyə olunan adama söylənir. Bu şeirdə də işlənmişdir:

بَردِنک تلُک ایمَدِنک

کیــرُو کُرُب قیمَدِنک

کنـــــکل برو یَیمدَنِک

بُلدُنـــــک ارنج بُلمَغوُ

«Bardmq nəlük aymadmq,

Kirü körüp kaymadınq,

Könqül berü yaymadınq,

Boldunq ərinç bölmağu».

Getdin, niyə demədin,

Geri baxıb yazığm gəlmədi,

Könül verib meyl etmədin,

Olmayacaq bir şey oldun.

(Getdin, getdiyini niyə xəbər vermədin, nə üçün yazığın gəlmədi, arxada qalanlara iltifat etmədin, niyə qəlbin bizə meyl etmir, yaraşmayan bir iş tutdun).

قیدی K a y d ı: «کیرو قیدی kirü kaydı = arxasma baxdı, iltifat etdi», (قیار - قیماق kayar – kaymak).

قُیدی K o y d ı: «سوُف قُیدی اَر کُبکا ər küpgə suw koydı = adam küpə su qoydu, suyu küpdə çalxaladı». Hər hansı bir maye də belədir, (قُیار - قیماق koyar - koymak).

---

[227] Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər bu məsəli belə çevirmişlər: «Qohum-qardaş demişlər vecinə almamış, qayın demişlər ehtiram göstərmiş» (DLT-2005, s. 417). Çox isabətli tərcümədir.

قِيدى K u y d ı: «اَت قِيدى at kuydı = at ürkdü». Başqası da belədir, (قِيار- قُيماق kuyar – kuymak).

قِيدى K ı y d ı: «اَر سوُزن قِيدى ər sözin kıydı = adam sözündən döndü».

قِيدى K ı y d ı: «اُل يغاج قِيدى ol yığıç kıydı = o, ağac kəsdi», (ağacı çəpinə doğradı), (قِيار- قِيماق kıyar – kıymak).

كُيدى K ö y d i: «اُتُنك كُيدى otunq köydi = odun yandı». Başqası da belədir, (كُيار- كُيماك köyər – köymək).

BU BABIN BAŞQA BİR NÖVÜ

يَيدى Y a y d ı: «اُل سوُقُدا توُنُغ يَيدى ol suwda tonuğ yaydı = o, suda paltarını çalxadı».

يَيدى Y a y d ı: «اُل مَننك كُنكُل يَيدى ol məninq könqül[228] yaydı =o mənim könlümü meyl etdirdi». Başqası da belədir.

يَيدى Y a y d ı: «يِيل يغاجغ يَيدى yel yığacığ yaydı = yel ağacı yırğaladı», (يَيار- يَيماق yayar – yaymak).

BUNUN DİGƏR BİR NÖVÜ

بادى B a d ı: «اُل اَتغ بادى ol atığ badı = o, atı bağladı». Hər hansı bir şey iplə bağlansa, yenə belə deyilir, (بار- باماق bar – bamak).

توُدى T u d ı: «اُل اَغزن توُدى ol ağzın tudı = o, ağzını qapadı». Hər hansı bir dəlik qapadılsa, yenə belə deyilir, (توُر- توُماق tur – tumak).

تِيدى T e d i: «اُل مَنكا اَندغ تِيدى ol manqa andağ tedi = o mənə belə dedi», (تِير- تِيماك ter – temək).

سادى S a d ı: «اَر قوُيُغ سادى ər koyuğ sadı = adam qoyun saydı». Başqası da belədir, (سار- ساماق sar–samak). Bu şeirdə də işlənir:

قرا تونُك كَجُرسادِم

اَغِراوُنـــى اُجُرسادِم

يَتيكانِك قـجُرسادِم

سَقِش اِجرا كُنُم تُغدى

«Kara tünüg keçürsədim,

Ağır unı uçursadım,

Yetigənig kaçur sadım,

Sakış içrə künüm toğdı»[229].

Qara gecənin keçməsini dilədim,

Ağır yuxunu uçurmaq istədim,

Yeddi qardaş ulduzunu neçə dəfə saydım,

Sayarkən günəşim doğdu.

(Qaranlıq gecənin keçməsini, ağır yuxunun uçmasını istədim. Yeddi qardaş ulduzunun [Böyük Ayı bürcü] dönməsini dəfələrlə saydım, mən sayarkən, nəhayət, günəşim də doğdu.

سوُدى S u d ı: «اُل اَنكَر بُيوُن سوُدى ol anqar boyun sudı = o ona boyun əydi, itaət etdi».

سوُدى S u d ı: «اُل مَنكا يوُنك سوُدى ol manqa yünq sudı = o mənə bükülmək üçün yun göndərdi», (o, bükülmək üçün mənə yun süməyi göndərdi), (سوُر - سوُرماق sur – sumak).

سيدى S ı d ı: «اُل اُتُنك سيدى ol otunq sıdı = o, odun qırdı». Başqası da belədir.

---

[228] Ərəb hərflərilə «könqə» yazılmışdır, texniki xətadır, «könqül» olmalıdır.

[229] Bəsim Atalay ilk iki misranın yanlış olduğunu yazmış və doğru variantı göstərmişdir. Misralar belə olmalıdır:

«Ağır udhı uçursadım,
Yetikənni kaçar sadım».

«Udhı» yuxu deməkdir. Onda məna düzəlir. «Kaçursadım» qovmaq, qaçırmaq deməkdir, halbuki neçə dəfə saydım mənasında «kaçar sadım» olsa, məna tam düzəlir. Zatən Mahmud Kaşğari bu şeiri «samak=saymaq» sözünə misal kimi vermişdir (DLT, III, s. 248).

سیدی S ı d ı: «أل سوُنی سیدی ol süni sıdı=o, qoşunu məğlub etdi», (سیر - سیماق sır – sımak).

قادی K a d ı: «أل اشِجکا أتُنک قادی ol əşiçgə otınq kadı = o, qazanın altına odun yığdı».

قادی K a d ı: «أل توُنُغ قادی ol tonuğ kadı=o, paltarı sandığa yığdı. qoydu», (قار - قاماق kar–kamak). Bu [iki] söz yağma dilindədir, doğru olanı «قالادی kaladı»dır.

BUNUN BAŞQA BİR NÖVÜ

یوُدی Y u d ı: «أل توُن یوُدی ol ton yudı = o, paltar yudu». Başqası da belədir, (یوُر - یوُماق yur – yumak).

ییدی Y e d i: «أل اش ییدی ol aş yedi = o, aş, yemək yedi». Başqası da belədir.

ییدی Y e d i: yabaku dilində «بَک کِشینی ییدی bəg kişini yedi = bəy adamın malını yedi və tələf etdi» deməkdir, (ییر - ییماک yer–yemək).

[Qayda]:

Biz fe'llərin bu növünə dörd hərfli dedik. Çünki I şəxsi ifadə edən söz dörd hərflidir. «أت بادِم at badım = at bağladım», «قوُی سادِم koy sadım=qoyun saydım» cümlələrindəki «بادِم badım» və «سادِم sadım» sözləri kimi. Bu, ərəb dilində də belədir. «غدَوتُ» və «دَعَوتُ » sözləri dörd hərflidir. Aralarında bənzəyiş olduğu üçün belə edildi.

ÜÇ HƏRFLİLƏR BÖLMƏSİ

ORTASI HƏR NÖV HƏRƏKƏ İLƏ HƏRƏKƏLİ فعلدى FƏ'ƏLDİ BABI

أبيدى A b ı d ı[230]: «أل آنى كِشيدَن أبيدى ol anı kişidən abıdı = o onu xalqdan gizlədi». Başqasmdan gizlədilən hər hansı bir şey üçün belə deyilir, (أبيماق - أبير abır – abımak).

أتادى A t a d ı: «أل آنكرلت أتادى ol anqar at atadı = o ona ləqəb verdi». Ad versə, yenə belə deyilir, (أتاماق - أتار atar – atamak).

أتادى U t a d ı[231]: «أل تَرغ أتادى ol tarığ utadı = o, əkinin yarpaqlarını kəsdi», (pozulmasın deyə əkinin yarpaqlarını kəsdi). Başağı kəsilən əkin üçün də belə deyilir, (أتاماق - أتار utar-utamak).

أتادى Ö t ə d i: «أل آنِک اِلمِن أتادى ol anmq alımm ötədi = o onun borcunu ödədi», (أتاماک - أتار ötər–ötəmək). Bu şeirdə də işlənmişdir:

بُلسا كِمِنک التُن كُمُش ارلا إتار

آندا بُلُب تَنكريكُرو تَبغـــِن أتار

«Bolsa kiminq altun-kümüş irlə itər,

Anda bolup tənqri gerü tapğın ötər».

Kimin qızılı-gümüşü olsa, yurd tutar,

Orada tanrıya ibadət borcunu ödər.

---

[230] Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər bu sözü «opıdı» kimi oxumuşlar (DLT-2005, s.357).

[231] Uyğurlar (TTD, III tom, bet 344), çinlilər (DLT-Çin, III cild, s.247) və Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər bu sözü «otadı» kimi oxumuşlar (DLT-2005, s.363).

(Qızılı-gümüşü olan adam yurd tutar, ev-eşik qurar, sonra orada yaşayaraq tanrıya qarşı olan ibadətini yerinə yetirər).

اُتيدى Ü t i d i: «اُل تونُغ اُتيدى ol tonuğ ütidi = o, paltarı ütülədi», (o, paltarın qırışlarını bir dəmir parçası ilə ütüləyib düzəltdi), (اُتير - اُتيماك ütir-ütimək).

اُتادى O t a d ı: «اُل اُتنكا اُتادى ol otunq otadı = o, odun qaladı, o, odunla isindi». Bu, incə bir sözdür, yağma və yəmək dilindədir.

اُتادى O t a d ı: «امجى انكَر اُت اُتادى əmçi anqar ot otadı = həkim ona dərman elədi», (اُتار - اُتاماق otar – otamak). Oğuzca.

اجيدى A ç ı d ı: «سيركا اجيدى sirkə açıdı = sirkə turşudu». Yaranın ağrıyıb acışmasına da belə deyilir, (اجير - اجيماق açır–açımak).

اريدى A r ı d ı: «اريدى نانك arıdı nənq = nəsnə təmiz oldu», (اريماق - ازير arır – arımak).

اروُدى Ə r ü d i: «ياغ اروُدى yağ ərüdi = yağ əridi». Başqası da belədir, (اروُمااك - اروُر ərür – ərümək).

اُريدى Ü r i d i[232]: «يغاج اُريدى yığaç üridi = ağac çürüdü», (uzun zaman qalmaqdan ağac çürüdü). Sümük çürüsə də belə deyilir, (اُريماك - اُرير ürir-ürimək).

ازيدى A z ı d ı[233]: «كُب ازيدى küp azıdı = küp sızdırdı, küpdən bir şey sızdı». Hər hansı bir şey torpaq qabdan sızsa, yenə belə deyilir.

ازيدى A z ı d ı «قُلاق ازيدى kulak azıdı = səs-küydən qulaq az qala kar oldu», (ازيماق - ازير azır – azımak).

اِسيدى İ s i d i: «موُن اِسيدى mün isidi = şorba isindi». Başqası da belədir.

---

[232] Uyğurlar (TTD, III tom, bet 346), çinlilər (DLT-Çin, III cild, s.249) və Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər bu sözü «iridi» kimi oxumuşlar (DLT-2005, s.290).

[233] Çinlilər (DLT-Çin, III cild, s.249) və uyğurlar bu sözü «azıdı» kimi (TTD, III tom, bet 346), Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər bunu və bundan sonrakı sözü «üzidi» kimi oxumuşlar (DLT-2005, s.642).

اِسیدی İ s i d i: «تَمُر اِسیدی təmür isidi = dəmir qızdı». Başqası da belədir, (اِسیر - اِسیماک isir – isimək).

اَشادی A ş a d ı: «اَر اَش اَشادی ər aş aşadı = adam yemək yedi». Xaqaniyyə türkləri bu sözü böyüklərin ziyafətində işlədirlər. Digər türklər isə fərq qoymadan bu sözü hər kəs haqqında işlədirlər, doğrusu da elə budur, (اَشار - اَشارماق aşar – aşamak).

اُشادی Ü ş ə d i: «اُل یِیرک اُشادی ol yerig üşədi = o, yeri aradı, yerdə bir şey axtardı». Başqası da belədir, (اُشار - اُشارماک üşər – üşəmək).

اَشوُدی Ə ş ü d i: «اُل انکار یُغُرقان اَشوُدی ol anqar yoğurkan əşüdi=o onun üstünə yorğan örtdü». Hər hansı bir nəsnənin üstünə bir şey örtülsə, yenə belə deyilir, (اَشوُر - اَشوُماک əşür–əşümək).

اُشیدی Ü ş i d i: «اَر اُشیدی ər üşidi = adam soyuqdan üşüdü», (اُشیر - اُشیماک üşir – üşimək).

اُقیدی O k ı d ı: «اُل مَنی اُقیدی ol məni okıdı = o məni çağırdı».

اُقیدی O k ı d ı: «اَر بِتِک اُقیدی ər bitik okıdı = adam kitab oxudu», (اُقیر - اُقیماق okır – okımak).

اُقیدی U k ı d ı[234]: «اَر اُقیدی ər ukıdı = adam qusdu». Bu, yumşaq ke ilədir. (اُقیر - اُقیماق ukır – ukımak).

اُکیدی Ü g i d i: «اَر بُغدای اُکیدی ər buğday ügidi = adam buğda üyütdü». Başqası da belədir, (اُکیر - اُکیماک ügir – ügimək).

اِکادی İ g ə d i: «اُل بِچاک اِکادی ol biçək igədi = o, bıçaq yeyələdi». Başqası da belədir.

اِکادی İ g ə d i: «بُغرا تیشِن اِکادی boğra tışın igədi = buğra dişini qıcırdatdı», (اِکار - اِکاماک igər–igəmək).

---

[234] Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər bu sözü «okıdı», mötərizə içində «ogıdı» kimi vermişlər (DLT-2005, s.359). Yanlışdır. «Okıdı» çağırdı deməkdir. «Ogıdı» variantı da mümkün deyil, çünki türkcədə o hərfindən sonra g səsi gələ bilməz. O zaman bu söz olsa-olsa, «ögidi», yəni «öyüdü, qusdu» ola bilər. Zatən bu sözün yumşaq ge ilə tələffüz edildiyi barədə Mahmud Kaşğarinin qeydi var. Çinlilər (DLT-Çin, III cild, s.247) «okıdı», uyğurlar isə «ögüdi» kimi oxumuşlar (TTD, III tom, bet 348).

اِكادى İ g ə d i: «اُل اَنكَر اِكادى ol anqar igədi = o ona qarşı çıxdı, inad etdi»,(اِكاماك - اِكار igər – igəmək).

اُلادى Ü l ə d i: «اُل يَرماق اُلادى ol yarmak ülədi = o, pul payladı». Başqası da belədir, (اُلار - اُلاماك ülər – üləmək).

اُلادى U l a d ı: «اُل يب اُلادى ol yıp uladı = o, ipi bir-birinə bağladı».

اُلادى U l a d ı: «اُل يَغوق اُلادى ol yağuk uladı=o, qohumlara, yaxm adamlara baş çəkdi», (اُلار - اُلاماق ular – ulamak).

اُليدى U l ı d ı: «بُرى اُليدى böri ulıdı = qurd uladı». Gecə köpək qorxunc şəkildə ulayanda da belə deyilir. Bir adam şiddətli ağrı üzündən qurd ulaması kimi bağırsa yenə belə deyilir, (اُليمار - اُليماق ulır – ulımak). Bu atalar sözündə də işlənmişdir: «يَزيدا بُرى اُليسا اَقدا اِت بَغرى تَرتِشوُر» yazıda böri ulısa əvdə ıt bağrı tartışur = çöldə qurd ulasa, evdə qurda acıyan köpəyin bağrı sızlar». Bu söz qohumların bir-birinə yardım etmələri üçün söylənir.

اُليدى Ö l i d i: «تونْ اُليدى ton ölidi = paltar islandı». Başqası da belədir, (اُلير - اُليماك ölir – ölimək). «كَذكلَك اُليماس، كُفج لِك كُريماس» kedhüklüg ölimәs, küfəçlig kürimәs = yapıncılı adam islanmaz, qantarğalı at özündən çıxmaz», (yapıncısı, plaşı olan adam yağışdan islanmaz, paltar onu qoruyar, qantarğalı at isə dəlilik etməz). Bu söz işə hazır olmaq üçün söylənir.

انوُدى A n u d ı: «انوُدى نانك anudı nənq = nəsnə hazırlandı». Bu, təsirsiz fe'ldir. Ərəbcə söyləmək lazım gəlsə, «اِنعَدَّ » deyilər. Ancaq bunun ərəbcəsi işlənmir, (انوُر - انوُماق anur – anumak).

اُنادى U n a d ı: «اُل بوْ ايشغ اُنادى ol bu ışığ unadı = o bu işə razı oldu», «سَن اُنادِنك موُ sən unadınq mu = sən qəbul etdinmi, sən bu işə razı oldunmu», (اُنار - اُناماق unar – unamak).

إنادی E n ə d i: «أل قوُين إنادی ol koy enədi = o, qoyun enlədi», (tanınması üçün qoyunun qulağına əlamət vurdu), (إناماك - إنار enər – enəmək).

سَبيدی S a p ı d ı: «لَت قُدرُقی سَبيدی at kudhrukı sapıdı=atın quyruğu sallandı». Başqası da belədir, (سَبيماق - سَبير sapır – sapımak).

سُبيدی S u b ı d ı: «سُبيدی نانك subıdı nənq = nəsnə uzandı, ucları incəldi», (سُبيماق - سُبير subır – subımak).

كَبيدی K ə b i d i[235]: «تونُ كَبيدی ton kəbidi = paltar qurudu», (paltarm üst tərəfi qurudu, təpidi). Bir şeyin bəzi yerləri qurusa, yenə belə deyilir, (كَبيماك - كَبير kəbir – kəbimək).

كُبيدی K ü b i d i[236]: «أل تونُ كُبيدی ol ton kübidi = o, paltara köbə qoydu, paltarı sıx tikişlə tikdi», (كُبيماك - كُبير kübir – kübimək).

تَتيدی T a t ı d ı: «أش اغزدا تَتيدی aş ağızda tatıdı = yemək ağızda dad verdi», (yeməyin ağızda dadı oldu), (تَتيماق - تَتير tatır–tatımak). Bu hikmətli sözdə də işlənmişdir: «كِشی أتی تِركلا تَتير kişi əti tiriglə tatır = insan əti diri ikən dadlıdır», (insan əti onun sağlığında dadlı olur). Bu o deməkdir ki, insan sağlığında mal qazanır, o malla dadlı yeməklər əldə edir və onlardan zövq alır[237].

---

[235] Salih Mütəllibov (TSD, III tom, bet 273) və Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər bu sözü «kəpidi» kimi oxumuşlar (DLT-2005, s.342). Bundan sonrakı sözü Salih Mütəllibov «kübidi» şəklində yazmışdır. Çinlilər (DLT-Çin, III cild, s.252) və uyğurlar «kəpidi» kimi oxumuşlar (TTD, III tom, bet 351).

[236] Çinlilər (DLT-Çin, III cild, s.252) və uyğurlar bu sözü «köbidi» şəklində oxumuşlar (TTD, III tom, bet 352). Deyəsən, doğrusu elə budur. Seçkin Ərdi ilə Sərap TuğbaYurtsevər bu sözü «küpidi» şəklində yazaraq misalı belə çevirmişlər: «o, paltarı ikiqat edib arasına pambıq qoyaraq tikdi» (DLT-2005, s.335). «Köbəmək», əslində, «köbə qoymaq» sözü astarla üz arasına əlavə parça qoyaraq tikiməyi ifadə edir. Çitəmək cırılaraq ayrılmış hissələri sapla yenidən tikmək, təpçimək həmin şeyi iplə etmək, gözəmək isə yırtılmış, qismən iri deşik açılmış yun corabı təpçiməkdir. Bilgi üçün.

[237] Bəsim Atalay bu məsəli başqa cür yozur: «İnsan sağ ikən dadlıdır, ölərkən hamı ondan qaçınır» (DLT, III, s. 257). Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər də bu məsəli təxminən Mahmud Kaşğari kimi mənalandırmışlar (DLT-2005, s.540). Bəsim Atalayın yozumu daha məntiqidir.

سُجيدى S ü ç i d i: «سُجيدى نانـك süçidi nənq[238] = nəsnə şirinləşdi və gözəlləşdi», (سُجير - سُجيماك süçir – süçimək).

سُجيدى S u ç ı d ı: «اَت سُجيدى at suçıdı = at sıçradı». Başqası da belədir, (سُجير - سُجيماق suçır – suçımak).

كُجادى K ü ç ə d i: «اُل اَنِـك تَقْارن كُجادى ol anınq tawarm küçədi=o onun malına insafsızlıqla əl qoydu, zülm etdi», (كُجار - كُجلماك küçər–küçəmək). Bu şeirdə də işlənmişdir:

اُذِك مَنَـــى كُجايُر
تُن كُن تُرُب يغليوُ
كُردى كُزُم تَقْرَقِن
يُرتى قلِـب اَغليوُ

«Üdhik məni küçəyür,
Tün-gün turup yığlayu.
Kördi közüm tawrakın,
Yurtı kalıp ağalyu».
Eşq mənə zülm edir,
Gecə-gündüz ağlayaraq,
Gözüm onun davrandığını gördü,
Yurdu boş qalaraq.

(Köçüb getmiş sevgilisindən söz açaraq deyir: eşq mənə zülm edir, gecə-gündüz durub ağlayıram, yurdunu boş qoyub uzaqlaşdığını öz gözlərimlə gördüm)[239].

كُجادى K ü ç ə d i: «اُغلاتِغ كُجادى oğlanığ küçədi=oğlana fənalıq, zülm etdi». Cariyəyə zülm etsə də belə deyilir.

---

[238] Uyğurlar bunu «nəsnə şirinləşdi və dadlandı» kimi çevirmişlər (TTD, III tom, 354).

[239] Bu şeir yazma və basma nüsxələrdə növbəti maddədə gəlir, lakin Bəsim Atalay onu bu maddənin içində vermişdir, biz də onun kimi etdik. Şeirin tərcüməsində Salih Mütəllibovun yozumunu daha filoloji, daha ağlabatan hesab etdik və ona yaxın çevirdik.

كِجيدى K i ç i d i: «اَتِم كِجيدى ətim kiçidi=ətim gicişdi, qaşındı». Heyvanlar barədə də belə deyilir, (كِجِير - كِجِيماك kiçir – kiçimək).

بَدوُدى B e d ü d i: «أغلان بَدوُدى oğlan bedüdi=uşaq böyüdü». Kiçik olub sonra böyüyən hər şey üçün belə deyilir, (يَدوُر - بَدُوماك bedür – bedümək).

بُذبدى B ü d h i d i: «قِيز بُذيدى qız büdhidi = cariyə rəqs etdi, oynadı». Başqası da belədir, (بُذير - بُذيماك büdhir – büdhimək). Bu atalar sözündə də işlənmişdir: «قُرتغا بُذيک بِلماس بِيرم تار تير kurtğa büdhik bilməs, yerim tar ter=qarı oyun bilməz, yerim dardır deyər». Bu söz bir şeyi ən yaxşı şəkildə bacardığını iddia edən, ancaq məqamı çatanda edə bilməyən və müxtəlif uydurmalarla işin içindən çıxmağa çalışan adam haqqında söylənir.

أذيدى U d h ı d ı: «ار أذيدى ər udhıdı = adam uyudu». Başqası da belədir, (أذير - أذيماق udhır – udhımak).

بُذودى B o d h u d ı: «أل تونُغ بُذودى ol tonuğ bodhudı = o, paltarını boyadı». Başqası da belədir.

بُذودى B o d h u d ı: «أل أقِن أردى كَيكنى يغاجقا بُذودى ol okın urdı, keyikni yığaçka bodhudı = o, oxunu atdı, ovu vurub ağaca yapışdırdı, mıxladı». Başqası da belədir, (يُذو رماق - يُذو ر bodhur –bodhurmak)[240].

قذودى K a d h u d ı: «أل تونُغ قذودى ol tonuğ kadhudı = o, paltarını seyrəkcə tikdi», (قذُوماق - قذُور kadhur – kadhumak).

يذيدى Y ı d h ı d ı: «يذيدى نانک yıdhıdı nənq = nəsnə qoxdu, xarab oldu». Bu, dəyərsiz bir sözdür, (يذماق - يذير yıdhır – yıdhımak)[241].

---

[240] Bu sözün məsdəri yazma və basma nüsxələrdə yanlış olaraq «بُذو رماق bodhurmak» şəklində verilmişdir, əslində «بُذو ماق bodhumak» şəklində olmalıdır.

[241] Bu sözün müzare və məsdərini biz qoyduq.

تَرادی T a r a d ı: «قِيز سَجِن تَرادی kız saçın taradı = qız saçını daradı».

تَرادی T a r a d ı: «اَنِک سوُسِن تَرادی anınq süsin taradı=onun qoşunu dağıldı». Əsli «تَردی tardı»dır, bir şeyi ayırdı mənasındadır. (تَرار – تَراماق tarar–taramak)[242].

[Qayda]:

Görürsənmi, ikisinin müzare şəkli eynidir. «Ayırdı» mənasmda «تَردی tardı» deyirsən, müzaresi «تَرار tarar» olur. «تَرادی taradı» deyirsən, müzaresi yenə «تَرار tarar» olur. Ancaq bu tərtib bütün fe'llərdə ümumi deyildir. İki hərfli və üç hərfli fe'llərdə müzare eynidir, lakin keçmiş zaman fərqlidir. Məsələn: « اَر ارت اَشدی ər art aşdı=adam dağ belini aşdı» və «اُل اَش اَشادی ol aş aşadı=o, yemək yedi» cümlələrindəki «اَشدی aşdı» və «اَشادی aşadı» fe'llərinin müzaresi eyni qəlibdə– «اَشار aşar» şəklindədir. «اُل سُققا قَندی ol suwka kandı = o, suya qandı, doyunca su içdi» cümləsindəki «قَندی kandı» fe'linin müzaresi «قَنار kanar», məsdəri «قَنماق kanmak»dır. Eynən bunun kimi «اُل اَتِن قَنادی ol atın kanadı =o. atından qan aldı» cümləsindəki «قَنادی kanadı» fe'linin müzaresi yenə «قَنار kanar» şəklindədir, məsdəri isə «قَنماق kanamak»dır[243]. «قَنماق kanmak» və «قَنماق kanamak» sözləri müzaredə birləşsələr də, keçmiş zamanda və məsdərdə ayrılırlar.

---

[242] Müzare və məsdəri biz qoyduq.

[243] Bu söz basma və yazma nüsxələrdə «قَنماق kanamak» əvəzinə səhvən «قَنماماق kanamamak» şəklində verilmişdir.

تَرُودی T a r u d ı: «اَف تَرُودی əw tarudı = ev daraldı». Köks, sinə və ya başqa şeylər daralanda da belə deyilir.

تَرُودی T a r u d ı: «اَر بُشدی تَرُودی ər buşdı tarudı=adam usandı, bezdi, cana doydu», (تَرُور - تَرُوماق tarur – tarumak).

تُرُودی T ö r ü d i: «يَلَنِكُق تُرُودی yalnquk törüdi = insan yaradıldı». Bu fe'l təsirsizdir, (تُرُور - تُرُوماک törür – törümək).

تَريدی T a r ı d ı: «اُل تَرغ تَريدی ol tarığ tarıdı = o, əkin əkdi». Başqası da belədir, (تَرير - تَريماق tarır – tarımak).

تِرادی T i r ə d i: «اُل قَبُغ تِرادی ol kapuğ tirədi = o, qapıya dirək vurdu». Hər hansı bir şeyə dirək vurulsa, yenə belə deyilir, (تِرار - تِراماک tirər – tirəmək).

سِريدی S ı r ı d ı: «اِت سِريدی ıt sırıdı = köpək pisləndi, siyidi».

سِريدی S ı r ı d ı: «اُل كِذِز سِريدی ol kidhiz sırıdı = o, keçəni sıx tikişlə sırıdı», (türkmənlərin çadır örtüləri və köç zamanı işlətdikləri bürgüləri [əşyalarını bükdükləri, örtdükləri örtü; məfrəş] kimi keçəni sıx tikişlə sırıdı), (سِرير - سِريماق sırır – sırımak).

سَرُودی S a r u d ı: «اُل سوُلُق سَرُودی ol suluk sarudı = o, sarıq, çalma. sarıdı». Bir şey başqa bir şeyin üzərinə sarmanda da belə deyilir, (سَروُماق sarumak)[244].

قَريدی K a r ı d ı: «اَر قَريدی ər karıdı = adam qocaldı». Başqası da belədir, (قَرير - قَريماق karır – karımak). Bu məsəldə də işlənmişdir: «اَرسلان قَريسا سِجغان اُتِن كُذا زوُر arslan karısa sıçğan ötin ködhəzür=aslan qocalsa, siçan tutmaq üçün onun yuvasmın ağzmda gözləyər». Bu söz böyük işlərə gücü yetməyən yaşh adamı kiçik işlərə razı salmaq üçün söylənir.

---

[244] Bu fe'lin müzaresi mətndə göstərilməmişdir.

قُريدى K u r ı d ı: «قُريدى ثُون kurıdı ton = paltar qurudu». Başqası da belədir, (قُرير - قُريماق kurır – kurımak).

قُريدى K o r ı d ı: «اَتغ قُريدى otığ korıdı = otu qorudu». Başqası da belədir, (قُرير - قُريماق korır – korımak).

كُرادى K ü r ə d i: «قُل كُرادى kul kürədi = qul qaçdı». Başqası da belədir, (كُرار - كُراماك kürər – kürəmək).

كُريدى K ü r i d i: «اَت كُريدى at küridi = at ön ayaqları ilə yeri eşdi».

كُريدى K ü r i d i: «اُل قارغ كُريدى ol karığ küridi = o, qarı kürədi», (كُرير - كُريماك kürir – kürimək).

يَزادى B ə z ə d i: «اُل اَڤِن يَزادى ol əwin bəzədi = o, evini bəzədi, naxışladı», (بَزار - بَزاماك bəzər – bəzəmək).

تُزادى T u z a d ı: «اُل اَت تُزادى ol ət tuzadı = o, ət duzladı». Bu söz «tuzladı» yerində işlənir, (تُزار - تُزاماك tuzar – tuzamak)[245].

قَزيدى K ə z ı d ı: «اُل يِيرك قَزَيدى ol yerig kazıdı = o, yeri qazdı və eşdi». Yara və yaraya bənzər şeyləri deşmək üçün də belə deyilir, (قَزير - قَزيماق kazır – kazımak).

قُريدى K u r ı d ı: «اَنِك يُغزى اَشقا قُريدى anınq boğzı aşka kurıdı=onun boğazı yemə yə qurudu», (boğazından yemək getmədi). İşlənən şəkli budur. Doğru olanı isə nöqtəsiz ر r hərfi ilə olanıdır[246]. Bu, qaydadan xaricdir. «سوُت اَمُزدى süt əmüzdi» cümləsindəki «اَمُزدى əmüzdi» sözü kimi, «süd əmizdirdi» deməkdir, (قُرير - قُريماق kurır – kurımak).

قِزُودى K ı z u d ı: «تَڤار قِزُودى tawar kızudı = mal bahalandı, malın qiyməti yüksəldi», (قِزوُر - قِزوُماق kızur – kızumak).

---

[245] Məsdərini və müzaresini biz qoyduq.

[246] Buradan belə çıxır ki, mətndə «قُريدى kurıdı» şəklində verilmiş olan söz nöqtəli ر r ilə, yəni ز z ilə «قُزيدى kuzıdı», müzare və məsdəri isə «kuzır – kuzımak» şəklində olmalı imiş. Əks halda, bu izahatın nə mənası var? Ehtimal ki, sözün «kurıdı» kimi yazılışı katib xətasıdır. Yenə eyni məntiqə görə, «əmüzdü» əvəzinə «əmürdi» olmalıdır.

قِزادی K ı z a d ı: «اُل قیزغ قِزادی ol kızığ kızadı = o, qızm qızlığını pozdu», (قِزار - قِزاماق kızar – kızamak).

کُزادی K ö z ə d i: «اُل اُت کُزادی ol ot közədi = o, odu maşa ilə və ya başqa şeylə çevirdi, qarışdırdı», (کُزار - کُزاماک közər – közəmək).

کُزادی K ö z ə d i: «اُل اُزمنی کُزادی ol üzümni közədi = o, üzümü dənələdi, salxımdan dənələri qopardı, yığdı».

کُزادی K ü z ə d i: «اُل یَیلاغدا کُزادی ol yaylağda küzədi = o, payızı yaylaqda keçirdi», (کُزار - کُزاماک küzər – küzəmək).

سَسِدی S a s ı d ı: «سَسِدی نانک sasıdı nənq = nəsnə sasıdı, qoxdu», (سَسیر - سَسیماق sasır – sasımak).

کُسادی K ö s ə d i: «اُل آنی کُرماکِن کُسادی ol anınq körməgin kösədi=o onu görmək istədi». Hər hansı bir şeyi görmək arzu ediləndə də belə deyilir, (کُسار - کُساماک kösər – kösəmək).

بَشادی B a ş a d ı: «اُل یغاچغ بَشادی ol yığacığ başadı = o, ağacı kərtiklədi, ağaca bir çox kərtiklər vurdu». Ağaclar bir-birinə söykənmiş şəkildə yığılsa, yenə belə deyilir, (بَشار - بَشاماق başar–başamak).

بُشوُدی B o ş u d ı: «اَنِک اوزی بُشوُدی anınq özi boşudı = onun içi boşaldı», (ishal oldu).

بُشوُدی B o ş u d ı: «تُکُون بُشوُدی tügün boşudı = düyün boşaldı, açıldı».

بُشوُدی B o ş u d ı: «اَت بُشوُدی at boşudı = atm bağı boşaldı, sərbəst oldu».

بُشوُدی B o ş u d ı: «خان یَلاوَجغ بُشوُدی xan yalavaçığ boşudı = xaqan ölkəsinə dönmək üçün elçiyə icazə verdi».

بُشوُدی B o ş u d ı: «ار اُراغتِن بُشوُدی ər urağutın boşudı=adam arvadını boşadı». Arğuca. Bu fe'l həm təsirli, həm təsir olur, (بُشوُر - بُشوُماق boşur – boşumak).

تَشوُدی T a ş u d ı: «اُل اَفکا یَرماق تَشوُدی ol əfgə yarmak taşudı = o, evə pul daşıdı». Başqası da belədir, (تَشوُر - تَشوُماق taşur–taşumak).

تُشادی T ü ş ə d i: «اُل تَوُش تُشادی ol tüş tüşədi = o, röya, yuxu gördü». Yuxuda ehtilam olsa, yenə belə deyilir, (تُشار - تُشاماک tüşər – tüşəmək).

تُشادی T ö ş ə d i: «تُشاک تُشادی töşək töşədi = döşək döşədi». Başqası da belədir, (تُشار - تُشاماک töşər – töşəmək)[247].

تِشادی T i ş ə d i: «تَکِرمان تِشادی təgirmən tişədi = dəyirman dişədi», (dəyirman daşını dişədi, itiləndi). Bu cümlədə müzəf atılmış, onun yerinə müzəfün-əleyh keçmişdir, çünki «تَکِرمان təgirmən» sözü bütövlükdə dəyirmana verilən addır, halbuki onun yalnız daşı dişənir.

تِشادی T i ş ə d i: «اُل اَرغاق تِشادی ol orğak tişədi = o, orağı itilədi, bülövlədi», (تِشار - تِشاماک tişər – tişəmək).

چِشادی Ç i ş ə d i: «اَغلان چِشادی oğlan çişədi = oğlan çiş etdi». Bu söz ancaq uşaqlarla bağlı işlənir, (چِشار - چِشماک çişər– çişəmək)[248].

سَشُودی S ə ş ü d i: «تُکُون سَشُودی tügün səşüdi = düyün az qala açıldı», (سَشُور - سَشوماک səşür – səşümək).

قَشیدی K a ş ı d ı: «اُل مَنی قَشیدی ol məni kaşıdı = o məni qaşıdı, bədənimi qaşıdı», (قَشیر - قَشیماق kaşır – kaşımak). Bu atalar sözündə də işlənmişdir: «اُلنَجی سجعان موُش تَشَقِن قَشیر öldəçi sıçğan muş taşakın kaşır=ölümü gələn siçan pişiyin xayasım qaşıyar», (siçanın ölümü yaxınlaşanda pişiyin xayasını qaşıyar). Bu söz təhlükəli bir işlə maraqlanan adam haqqında söylənir.

---

[247] Müzare və məsdərini biz qoyduq.
[248] Müzare və məsdərini biz qoyduq.

كُشيدى K ö ş i d i: «تام كوْنُك كُشيدى tam künüg köşidi = divar günün qabağını kəsdi». Hər hansı bir şey işığı qapasa, yenə belə deyilir, (كُشير - كُشيماك köşir - köşimək).

كِشادى K i ş ə d i: «اُل اَتِغ كِشادى ol atığ kişədi = o, atı cidarladı».

كِشادى K i ş ə d i: «اَرقوْلِن كِشلدى ər kulın kişədi = adam qulunu bağladı», (كِشار - كِشاماك kişər – kişəmək).

سُغيدى S o ğ ı d ı: «سوْف سُغيدى suw soğıdı = su soyudu». Başqası da belədir, (سُغير - سُغيماق soğır – soğımak).

ثُقيدى T o k ı d ı: «اُل قبُغ ثُقيدى ol kapuğ tokıdı=o, qapını çaldı, qapıya vurdu».

ثُقيدى T o k ı d ı: «اُل قوْلِن ثُقيدى ol kulın tokıdı = o, qulunu döydü». Oğuzca. Digər türklər «اُردى ثُقيدى urdı tokıdı» deyərək iki sözü birlikdə işlədirlər.

ثُقيدى T o k ı d ı: «تَمُرجى قِلِج ثُقيدى təmürçi kılıç tokıdı = dəmirçi qılınc döydü», (dəmirçi qılınc, bıçaq və buna bənzər şeylər düzəltdi).

ثُقيدى T o k ı d ı: « اَر بوْز ثُقيدى ər böz tokıdı=adam bez toxudu». Başqası da belədir.

ثُقيدى T o k ı d ı: «اَنى سُف ثُقيدى anı suw tokıdı = onu su alıb götürdü və batırdı».

ثُقيدى T o k ı d ı: «اَرنى يِيل ثُقيدى ərni yel tokıdı = adamı yel çarpdı, yel toxundu, cin çarpdı», (ثُقير - ثُقيماق tokır – tokımak).

سَقيدى S a k ı d ı: «اُل مَنِك كوْزُما سَقيدى ol məninq közümə sakıdı = o mənim gözümə xəyal kimi göründü», « ساقِغ سَقيدى sakığ sakıdı =sərab su sanıldı, ilğım göründü», (سَقير - سَقيماق sakır – sakımak).

سُقيدى S u k ı d ı: «اُل اَنى سُقيدى ol anı sukıdı = o onu barmağı ilə qıdıqladı», (سُقير - سُقيماق sukır – sukımak).

سِقادی S ı k a d ı: «أل آنِک بَشِن سِقادی ol anmq başın sıkadı=o onun başını sığalladı», (yazığı gələrək başını sığalladı, saçını oxşadı). Hər hansı bir şeyin üzərində əl gəzdirilərək yoxlansa, yenə belə deyilir, (سِقار- سِقلماق sıkar – sıkamak).

قَقِدی K a k ı d ı: «أل آندِن قَقِدی ol andm kakıdı=o ona qəzəbləndi, tutduğu işə görə hirsləndi», (قَقیر- قَقیماق kakır – kakımak). Arğu dilində «قَقیوُر kakıyur» şəklindədir. Çünki onlar zəmməni tələb edəcək bir şey olmadığı halda bu bölmənin müzare fe'llərini zəmməli edirlər. Onlarm dilində dolaşıqlıq var.

بَکودی B ə k ü d i: «تُکوُن بَکوُدی tügün bəküdi = düyün bərkidi». Bir iş bərkisə, möhkəmlənsə, yenə belə deyilir, (بَکوُر- بَکوُماک bəkür – bəkümək).

تُکادی T ü k ə d i: «ایش تُکادی ış tükədi = iş tükəndi, bitdi».

تُکادی T ü k ə d i: «بوُ آش قَمُغقا تُکادی bu aş kamuğka tükədi = bu yemək hamıya yetdi». Bu [iki] söz iki bir-birinə zidd mənadadır, (تُکر- تُکماک tükər – tükəmək)[249].

بَلادی B ə l ə d i: «قوی بَلادی koy bələdi = qoyun mələdi», (بَلار- بَلاماک bələr – bələmək).

بُلادی B u l a d ı: «قُزی بُلادی kuzı buladı = quzu bişirdi». Başqası da belədir, (بُلار- بُلاماق bular – bulamak)[250].

بلادی B i l ə d i: «أل بجاک بلادی biçək bilədi = bıçaq itilədi, bıçağı bülövə sürtdü».

بلادی B i l ə d i: «أل تیش بلادی ol tış bilədi = o, diş itilədi; o, diş qıcıdı», (بَلار- بلاماک bilər – biləmək).

بلادی B e l ə d i: «أل کَنجِن بلادی ol kənçin belədi = o, uşağmı bələdi, beşiyə qoydu».

---

[249] Sözün müzare və məsdərini biz qoyduq.
[250] Dilimizdə bişirmək mənasında ancaq «dovğa bulamaq» ifadəsi var.

بلادی B e l ə d i: «اُل انی قانِکا بلادی ol anı kanıgə[251] belədi = o onu qanına bələdi», (بلار - بلاماک belər – beləmək).

تُلادی T ü l ə d i: «اَت تُلادی at tülədi = at tükünü tökdü». At qış tükünü tökdü, yeni tük çıxardı deməkdir. Başqası da belədir, bu, qış tükünün tökülməsi, yenisinin çıxması deməkdir, (تُلار - تُلاماک tülər–tüləmək). Əsli و vavla «توُلادی tülədi»dir, sonra و vav düşmüşdür.

تُلادی T ö l ə d i: «قوُی تُلادی koy tölədi = qoyun döllədi, quzuladı». Oğuzca. (تُلار - تُلاماک tölər – töləmək).

تِلادی Ti l ə d i: «اُل انی تِلادی ol anı tilədi = o onu dilədi, arzuladı».

تِلادی Ti l ə d i: «تَنگری اَندَغ تِلادی tənqri andağ tilədi = tanrı belə istədi, belə lazım bildi», (تِلار - تِلاماک tilər–tiləmək).

چِلادی Ç i l ə d i: «تُونُغ چِلادی tonuğ çilədi=paltarı nəm elədi». Əsli «چیلادی çilədi»dir, ی i atılmışdır, (چِلار - چِلاماک çilər–çiləmək).

سُلادی S ü l ə d i: «بَک یَغیقا سُلادی bəg yağıka sülədi=bəy yağıya qarşı qoşun göndərdi, savaşdı». Əsli «سولادی sülədi»dir, و vav atılmışdır, (سوُلار - سوُلاماک sülər–süləmək). Bu beytdə də işlənir:

یَغِنک تَبا تِترو بَقِب بُکدَنـــک بلا
اُغرَب قلی کلسا سَنکا قرشوُ سُلا

«Yağınq taba titrü bakıp bügdənq bilə,
Oğrap kalı kəlsə sanqa karşu sülə».
Düşmən tərəfə düz bax, xəncərini itilə,
Nə vaxt üstünə cumsa, ona qarşı qoşun çıxar.

(Düşməni gözdən qoyma, xəncərini daimi iti saxla, elə ki, sənə qarşı hücuma keçdi, sən də ona qarşı qoşun çıxart).

---

[251] Bu variant çox nadir hallarda rastlanır. Uyğurlar «kanınqa» (TTD, III tom, bet 369), Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər «ol anı kanığa belədi=o ona qanını bulaşdırdı» kimi vermişlər (DLT-2005, s. 181). Hər ikisi yanlışdır, «kanigə»də ğ yoxdur.

قَلِيدى K a l ı d ı: «اَت قَلِيدى at kalıdı=at sıçradı», (قَلِياق - قَلِير kalır–kalımak).

كُلِيدى K ü l i d i: «اُلُك كُلِيدى ölüg külidi = ölünü gömdü». Başqası da belədir, (كُلِياك - كُلِير külir – külimək).

قَمادى K a m a d ı: «كُوز قَمادى köz kamadı = göz qamaşdı, günəş işığından göz qamaşdı», (قَماماق - قَمار kamar – kamamak).

قَمادى K a m a d ı: «اَنِك تِيشى قَمادى anınq tışı kamadı = onun dişi qamaşdı», (turş bir şey yeməkdən onun dişi qamaşdı). Bu atalar sözündə də işlənmişdir: « اَتاسى لَناسى اَجغ اَلمِلا يِيمسا أغلى قِيزى تِيشى قَمار atası-anası açığ almıla yesə, oğlı-kızı tışı kamar=ata-anası turş alma yesə, oğlunun-qızmm dişi qamaşar». Bu söz ata-ananın etdiyi cinayət üçün uşaqlarının tutulduğu, sorğuya çəkildiyi zaman söylənir.

قُمِيدى K o m ı d ı: «اَر اَقِنكا قُمِيدى ər əwinqə komıdı = adam öz evinə həsrət duydu». Bir adam hər hansı bir şey üçün darıxsa, ona qarşı ürəyində həsrət və şövq duysa, yenə belə deyilir, (قُمِير - قَمِياق komır – komımak).

تَنُوُدى T a n u d ı: «اُل مَنكا سوُز تَنوُدى ol manqa söz tanudı = o mənə bir söz söylədi, tapşırıq, əmr verdi». Hər hansı bir şeyi tövsiyə etsə, yenə belə deyilir, (تَنوُر - تَنوماق tanur – tanumak).

ثُنادى T ü n ə d i: «اُل مَندا ثُنادى ol məndə tünədi = o mənim yanımda gecələdi», (ثُنار - ثُناماك tünər – tünəmək).

سِنادى S ı n a d ı: «اُل اَنى سِنادى ol anı sınadı = o onu sınadı», (سِنار - سِناماق sınar – sınamak).

قَنادى K a n a d ı: «اُل اَتِن قَنادى ol atın kanadı = o, atmdan qan aldı», (قَنار - قَناماق kanar - kanamak).

قِنادى K ı n a d ı: «بَك اَنى قِنادى bəg anı kınadı = bəy ona işkəncə verdi».

قِنادى K ı n a d ı: «تَنكرِى اَنى قِنادى tənqri anı kınadı=tanrı onu cəzalandırdı».

قِنادی K ı n a d ı: «أل بِمباكِن قِنادی ol biçəkiı kınadı = o, bıçağına qın saldı, qın düzəltdi», (قِناماق - قِنار kınar – kınamak).

قَندی K a n a d ı: «بُروُن قَندی burun kanadı = burun qanadı». Bir adamın bədəninin hər hansı bir yeri qanasa, yenə belə deyilir. Əsli «قانیدی kanıdı»dır, الف əlif düşmüşdür. (قَنیماق - قَنیر kanır–kanımak)[252].

مُنادی M ü n ə d i: «أل تَوُنُغ مُنادی ol tonuğ münədi = o, paltarınm əyriliyini düzəltmək üçün uclarmdan kəsdi», (مُناماک - مُنار münər – münəmək).

سَنادی S a n a d ı: «أل قَوُین سَنادی ol koyın sanadı = o, qoyununu saydı, sanadı». Əsli «سانادی sanadı»dır, birinci الف əlif düşmüşdür, (سَناماق - سَنار sanar – sanamak).

BUNUN BAŞQA BİR NÖVÜ

بَیوُدی B a y u d ı: «اَر بَیوُدی ər bayudı=adam varlandı». Başqası da belədir, (بَیوُماق - بَیوُر bayur – bayumak).

تَیادی T a y a d ı: «أل اَنی تَیادی ol anı tayadı=o ona dayaq qoydu, dayaq vurdu, hətta üstünə çıxdı», (تَیاماق - تَیار tayar–tayamak).

Üç hərflilər bölməsi bitdi.

---

[252] Mətndə «Əsli «قانیدی kanıdı»dır» deyə yazılmış, müzare və məsdər «قَنیماق - قَنیر kanır–kanımak» şəklində verilmişdir.Əslində «kanadı-kanar-kanamak» şəklində olmalıdır.

DÖRD HƏRFLİLƏR BÖLMƏSİ

ORTASI SÜKUNLU, HƏR NÖV HƏRƏKƏ İLƏ HƏRƏKƏLİ فعللدی FƏ'LƏLDİ BABI[253]

ثُربادی B u r b a d ı: «اَر ایشیغ ثُربادی ər ışığ burbadı=adam işə səhlənkar yanaşdı, üstünə düşmədi», (بُربار - بُرباماق burbar–burbamak).

ثُربیدی T ö r p i d i[254]: «اَریغاج ثُربیدی ər yığaç törpidi=adam ağac rəndələdi». Başqası da belədir, (ثُربیر - ثُربیماک törpir – törpimək).

سِغتادی S ı ğ t a d ı: «أغلان سِغتادی oğlan sığtadı = uşaq ağladı». Başqası da belədir, (سِغتار - سِغتاماق sığtar – sığtamak). Bu fe'l خ x ilə də söylənir. Ərəbcə də belədir: غمارٌ الناس وَخُمارهُم وَغَدّارٌوَخَتّارٌ kimi. Bu ancaq fe'llərdə mümkündür, isimlərdə mümkün deyil. Ağlamaq üçün غ ğ yerinə خ x ilə «سِخِت sıxıt» demək doğru olmaz.

ثُرجیدی T ü r ç i d i: «اَر ایش ثُرجیدی ər ış türçidi = adam işə başladı», (ثُرجیر - ثُرجیماک türçir – türçimək).

---

[253] Başhqla bağh Bəsim Atalayın belə bir qeydi var: «Bu başlıq bu cür anlaşılmalıdır: ortası sükunlu olduğu halda, baş tərəfi hər növ hərəkə ilə hərəkələnə bilən bölmə. Bölmədə vəzn olaraq verilən fə'ləldi babma baxılsa, bu baba daxil olan sözlərin «burbandı», «sığtandı» şəklində olması lazımdır, lakin Mahmud Kaşğari burada da ərəb dilinin qaydalarına tam riayət etmişdir. Çünki ərəb dilində əlif, vav, ye hərfləri sükunlu hərf sayılır. Ancaq bu halda bölmədə verilən sözlər yuxarıdakı baba uyğun gələ bilər» (DLT, III, s. 275).

[254] Uyğurlar və onları təqlid edən çinlilər bu sözü «türpidi» şəklində oxumuşlar (TTD, III tom, bet, 375). «Törpidi» daha məqbuldur, çünki rəndəyə «törpi» deyilir. Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər də haqlı olaraq bu sözü «törpidi» kimi vermişlər (DLT-2005, s. 586).

تَقْجيدى T ə w ç i d i: «اُل تُونُغ تَقْجيدى ol tonuğ təwçidi=o, paltarını təpçidi». Bu, bir şeyi seyrəkcə tikmək deməkdir, (تَقْجير- تَقْجيماك təwçir–təwçimək).

تِنجيدى T ı n ç ı d ı: «اَت تِنجيدى ət tınçıdı = ət qoxdu», (تِنجير- تِنجيماق tmçır–tmçımak).

قرجادى K a r ç a d ı: «يُمشاق نانک قرجادى yumşak nənq karçadı = yumşaq nəsnə qatılaşdı, sərtləşdi», (قرجار- قرجاماق karçar–karçamak).

قِرجادى K ı r ç a d ı: «اُل اُق اَماجقا قِرجادى ol ok amaçka kırçadı = o ox hədəfin yanma, kənarına toxundu və hədəfi sıyırıb keçdi», (قِرجار- قِرجاماق kırçar – kırçamak).

قَقْجيدى K a w ç ı d ı: «آرى كِشيكا قَقْجيدى arı kişigə kawçıdı = arı adama hücum etdi», (arı sancmaq üçün adama hücum etdi). Bir adam başqasına qəzəblənsə və üstünə düşsə, yenə belə deyilir, (قَقْجير- قَقْجيماق kawçır – kawçımak).

بَغدادى B a ğ d a d ı: «اُل اَنِک اَذاقِن بَغدادى ol anınq adhakın bağdadı = o onun ayağmı sarmaya saldı, güləşdə sarmaladı», (بَغدار- بَغداماق bağdar – bağdamak).

قُنديدى K u n d ı d ı: «اُل قِلِج قُنديدى ol kılıç kundıdı = o, parlatğıcla qılınc parıldatdı», (قُندير- قُنديماق kundır – kundımak).

تَبرادى T ə p r ə d i: « تَبرادى نانک təprədi nənq=nəsnə tərpəndi, qımıldandı, hərəkət etdi», (تَبرار- تَبراماک təprər – təprəmək).

تُبرادى T o p r a d ı: «اَت تُبرادى ot topradı = ot qurudu», (تُبرار- تُبراماق toprar – topramak).

تَبريدى T a p r ı d ı: «تَفْى تَبريدى təwi taprıdı = dəvə sıçradı». Bu söz ancaq dəvəyə aiddir, (تَبرير- تَبريماق taprır – taprımak).

سَذَرَدى S e d h r ə d i: «كِشى سَذَرَدى kişi sedhrədi = camaat seyrəldi, seyrəkləşdi».

سَذْرَدی S e d h r ə d i: «تونْ سَذْرَدی ton sedhrədi = paltar süzüldü, yıprandı», (سَذْرار - سَذْراماک sedhrər – sedhrəmək).

بُغْرادی B o ğ r a d ı: «اُل يغاچغ بُغْرادی ol yığacığ boğradı = o, ağacın üstündə kərtik açdı». Başqası da belədir, (بُغْرار - بُغْراماق boğrar – boğramak).

تِغْرادی T ı ğ r a d ı: «ار تِغْرادی ər tığradı = adam sərt, mətin oldu, bahadır oldu», (تِغْرار - تِغْراماق tığrar – tığramak).

تُغْرادی T o ğ r a d ı: «اَت تُغْرادی ət toğradı = ət doğradı, tutmac üçün ət doğradı». Başqası da belədir, (تُغْرار - تُغْراماق toğrar toğramak).

يَقْرادی Y a w r a d ı: «ار يَقْرادی ər yawradı=adam tığrak, sərt, mətin və bahadır oldu, oldu». Bu, «تَغْدادی = tığdadı» sözü kimidir. (يَقْرار - يَقْراماق yawrar- yawramak). Bu şeirdə də işlənir:

قِش يايغرو سُقْلنور

اَرآت منـــن يَقْريوُر

اِكلَر يمـــا سَقْريوُر

ات ين تَقی بكرشور

«Kış yayğaru söwlənür,

Ər at mənin yawrayur,

İglər yəmə sawrıyur,

Ət, yin takı bəkrişür»[255].

Qış yaza pıçıldadı:

Ər və at mənimlə tığrak olur,

Xəstəliklər azalır, seyrəlir,

Ət və bədən bərkiyir.

---

[255] Bəsim Atalay bu bəndə iki yanlışlıq təsbit etmişdir. Birincisi, «söwlənür» əvəzinə «söwləyür» olmalıdır, çünki burada qayıdış və ya məchul fe'l deyil, III şəxsin təki nəzərdə tutulur, üstəlik, bu, qafiyənin tələbidir. İkincisi, «bəkrişür» yox, «bəkrəşür» olmalıdır (DLT, III, s. 279).

(Qışla yazın qarşılıqlı deyişməsini təsvir edir: qış yaza deyir ki, ərlə at mənim sayəmdə gümrahlaşır, xəstəliklər qışda azalır, insanın əti və bədəni qışda qüvvətlənir).

تُقْرادی T u w r a d ı: «أشاق نانک تُقْرادی uşak nənq tuwradı = kiçik şey böyüdü», (quzunun böyüdüyü kimi), (تُقْراماق - تُقْرار tuwrar–tuwramak). Bu söz «تُقُز يُنجوُ tuwuz[256] yinçü» ifadəsindəki «تُقُز tuwuz»dan alınmışdır, «iri mirvari, böyük inci» deməkdir.

بُقْريدی B u k r ı d ı: «أت سُجيدی بُقْريدی at bukrıdı = at sıçradı, şahə qalxdı». Bu söz tək işlənmir, «سُجيدی suçıdı» sözü ilə birlikdə işlənir, (بُقْرَماق - بُقْرار burkar – burkamak).

تِكْرادی T i k r ə d i: «أت أذاقی تِكْرادی at adhakı tikrədi = atm ayağı, nal səsləri əks-səda verdi».

تِكْرادی T i k r ə d i: «أغلان تِكْرادی oğlan tikrədi = uşaq böyüdü», (تِكْرار - تِكْراماک tikrər – tikrəmək).

جغروُدی Ç ı ğ r u d ı: «يير جغروُدی yer çığrudı = yer sərtləşdi», (üstündə çox gəzilməkdən və tapdanmaqdan sərtləşdi). Kövrək, yumşaq olub sonra sərtləşən hər şey üçün belə deyilir, (جغرُوماق - جفرور çığrur – çığrumak).

جُقْرادی Ç o k r a d ı: «أشِج جُقْرادی aşıç çokradı=qazan qaynadı», (içindəki bulamac kimi qatı şey qaynadı). Qazanın içində sulu şey olsa və o qaynasa, belə deyilməz, (جُقْراماق - جُقْرار çokrar–çokramak).

جُقْرادی Ç o k r a d ı: «مِنكَر جُقْرادی mınqar çokradı = bulaq qaynadı», (bulaq qazanın qaynadığı kimi qaynadı), (جُقْراماق - جُقْرار çokrar – çokramak).

---

[256] Bəsim Atalay «tuwradı» fe'lindən yaranan bu sözün «tuwuz» deyil, «tuwur» şəklində olmasının vacibliyini bildirmişdir (DLT, III, s.279).

چقرادی Ç ı k r a d ı: «تیش چقرادی tış çıkradı=diş qıcırdadı».

چقرادی Ç ı k r a d ı: «قبغ چقرادی kapuğ çıkradı=qapı cırıldadı». Bir adam düşmənçiliklə və ya buna bənzər hisslə qışqırsa, yenə belə deyilir, (چقرار - چقراماق çıkrar–çıkramak).

چکرادی Ç i k r ə d i: «اتملکتا تاش چکرادی ətməktə taş çikrədi = çörəkdə daş xırçıldadı», (çörəyin içindəki daş xırçıldadı), (چکرار - چکراماک çikrər – çikrəmək).

جلدادی Ç ı l d a d ı[257]: «اق کیش تا جلدادی ok kiştə çıldadı = ox oxdanda çar-çur elədi». Buna bənzər səslərə də belə deyilir, (جلدار - جلداماق çıldar – çıldamak).

سقرادی S a w r a d ı: «ایش سقرادی ış sawradı = iş yavaşıdı, üz-üstə qaldı». İşləyən adam işi buraxsa, yenə belə deyilir, (سقرار - سقراماق sawrar–sawramak).

سقرادی S a w r a d ı: «سکل ایکدن سقرادی sökəl igdin sawradı = xəstə yaxşılaşdı, xəstəliyi sovdu».

سکریدی S ə k r i d i: «ار سققا سکریدی ər suwka səkridi = adam suya doğru qaçdı, götürüldü». Başqası da belədir, (سکریر - سکریماک səkrir – səkrimək).

سمریدی S ə m r i d i: «قوی سمریدی koy səmridi=qoyun kökəldi, yağlandı». Başqası da belədir, (سمریر - سمریماک səmrir–səmrimək).

سنریدی S a n r ı d ı: «اسرک سنریدی əsrük sanrıdı = sərxoş axmaqladı, ava-yava danışdı». Əsli «سندریدی=sandrıdı»dır, (سنریر - سنریماق sanrır – sanrımak).

تنریدی T ə n r i d i: «اتک بشی تنریدی anmq başı tənridi = onun başı hərləndi». Bu, adamı yuxu basdığı halda yatmadığı zaman

---

[257] Bəsim Atalay bu sözün «çılradı» şəklində, müzare və məsdərinin isə «çılrar – çılramak» şəklində olacağını yazmışdır (DLT, III, s. 281).

baş verir. Bu üzdən insanın başında sanki qarışqa yeriyirmiş kimi bir şey eşidilir, (تَنْرير - تَنْريماك tənrir – tənrimək).

كُفْرادى K ö w r ə d i: «اِنِك كوُجى كُفْرادى anınq küçi köwrədi = onun gücü azaldı». Hər hansı bir şeyin qüvvəsi azalsa, yenə belə deyilir, (كَفْرار - كَفْراماك kəwrər – kəwrəmək)[258].

كُكْرادى K ö k r ə d i: «ارسلان كُكْرادى arslan kökrədi = aslan nərə çəkdi».

كُكْرادى K ö k r ə d i: «بُغْرا كُكْرادى boğra kökrədi = ayğır kişnədi».

كُكْرادى K ö k r ə d i: «بُلِت كُكْرادى bulıt kökrədi = bulud kükrədi». Savaşda igidlərin nərəsi buna bənzədilir. Bu atalar sözündə də işlənmişdir: «تَكِرمنْدا تُغمِش سِجغان كوُك كُكرَكِنكا قُرقماس təgirməndə toğmış sıçğan kök kökrəginqə korkmas = dəyirmanda anadan olan siçan göy gurultusundan qorxmaz». Bu söz təhlükəli işlərdə bişmiş adamı kiçik bir şeylə qorxutmaq istəyəndə söylənir, (كُكْرار - كُكْراماك kökrər - kökrəmək).

كُلْرادى K ü l r ə d i: «تاش قُدُغدا كُلْرادى taş kuduğda külrədi = daş quyuda əks-səda verdi, gurultu çıxardı», (كُلْرار - كُلْراماك külrər– külrəmək).

تَبْزادى T ə p z ə d i: «اُل اَنى تَبْزادى ol anı təpzədi = o ona həsəd apardı», (تَبْزار - تَبْزاماك təpzər – təpzəmək).

سِغْزادى S ı ğ z a d ı: «اُل تيش سِغْزادى ol tış sığzadı = o, çöplə dişini qurdaladı».

سِغْزادى S ı ğ z a d ı: «اُل اَتِك يِيسِن سِغْزادى ol ətik yisin sığzadı = o, məst, ayaqqabı kimi şeylərin arasma parça qoyub tikdi». İki şeyin arasına bir şey sıxışdırılıb qoyulsa, yenə belə deyilir, (سِغْزار - سِغْزاماق sığzar - sığzamak).

---

[258] Yazma və basma nüsxələrdə «köwrədi» şəklində verilən bu söz əslində «kəwrədi» olmalıdır.

قُبزادی K u p z a d ı: «اُل قُبُز قُبزادی ol kubuz kupzadı = o, qopuz çaldı», (قُبزار - قُبزاماق kupzar – kupzamak).

تَبسادی T ə p s ə d i: «اُل انی تَبسادی ol anı təpsədi = o ona həsəd apardı», (تَبسار - تَبساماک təpsər–təpsəmək). Bu söz ز z ilə də tələffüz olunur.

بُتسادی B ü t s ə d i: «باش بُتسادی baş bütsədi = yara yaxşılaşmağa üz qoydu», (بُتسار - بُتساماک bütsər – bütsəmək).

بُخسادی B u x s a d ı: «اُل انکَر بُخسادی ol anqar buxsadı = o onun əmrini saya salmadı, işi zorla gördü», (بُخسار - بُخساماق buxsar – buxsamak).

جَبسادی Ç a p s a d ı: «اُل سُقدا جَبسادی ol suwda çapsadı = o, suda üzmək istədi», (جَبسار - جَبساملک çapsar – çapsamak).

ستَسادی S a t s a d ı: «اُل اتِن ستَسادی ol atın satsadı = o, atını satmaq istədi». Başqası da belədir, (ستَسار - ستَساماق satsar–satsamak).

سُرسادی S ü r s ə d i: «اُل اتِغ سُرسادی ol atın sürsədi = o, atını sürmək istədi». Başqası da belədir, (سُرسار - سُرساماک sürsər – sürsəmək).

سُقسادی S u w s a d ı: «اَر سُقسادی ər suwsadı = adam susadı». Başqası da belədir. Bunun əsli də istəməyə və diləməyə gedib çıxır, (سُقسار - سُقساماق suwsar – suwsamak).

سُقسِدی S u w s ı d ı: «سِرکا سُقسِدی sirkə suwsıdı = sirkə sulandı, sulu oldu». Sirkədəki su sirkənin tündlüyünü pozdu, (سُقسیر - سُقسیماق suwsar – suwsamak).

قبسادی K a p s a d ı: «اِنِک تَکرا کِشی قبسادی anmq təgrə kişi kapsadı = onun ətrafına camaat toplandı», (قبسار - قبساماق kapsar–kapsamak).

قبسادی K a p s a d ı: «اُل اِنِک تَقّارن قبسادی ol anınq tawarın kapsadı = o onun malını qapmaq istədi».

قُبسادی K o p s a d ı: «اُل يُقارُ قُبسادی ol yokarı kopsadı=o, yuxarı çıxmaq istədi», (قُبساماق - قُبسار kopsar – kopsamak).

كُرسادِم K ö r s ə d i m: «مَن اَنی كُرسادِم mən anı körsədim = mən onu görmək istədim». Əsli «كُرُكسادِم körügsədim»dir. Zəlakə[259] hərflərində qayda belədir: tərkibində bu hərflərdən biri olan fe'ldə arzu şəkli yaratmaq istədikdə həmin fe'lin kökünə ا س ك g, s, ə [–gsə şəkilçisi] əlavə edilir, (كُرسارمَن- كُرساماك körsərmən– körsəmək).

كَلِكسادِم K ə l i g s ə d i m: «مَن سَنكا كَلِكسادِم mən sanqa kəligsədim = mən sənə (sənin yanına) gəlmək istədim». «كَلسادِم kəlsədim»[260] də deyilir, (كَلساماك - كَلسارمَن kəlsərmən – kəlsəmək).

قَقسِدی K a k s ı d ı: «اَت قَقسِدی ət kaksıdı = ət qaxac oldu, az qala qaxac oldu», (قَقسيماق - قَقسير kaksır – kaksımak).

تُقْشَدی T ü w ş ə d i: «اَنِک تَرِی تُقْشَدی anınq təri tüwşədi = işləməkdən onun təri dənə-dənə oldu, muncuq kimi oldu», (تُقْشار- تُقْشاماک tüwşər – tüwşəmək).

تَقْشادی T ə w ş ə d i: «يِب قَمُغ تَقْشادی yip kamuğ təwşədi = ip büsbütün qarışdı», (ip dolaşdı, ucu tapılmayacaq şəkildə bir-birinə qarışdı), (تَقْشاماک - تَقْشار təwşər – təwşəmək).

جَخْشادی Ç a x ş a d ı: «تاش جَخْشادی taş çaxşadı = daş çağıl-çuğul etdi, çaqıl səsi verdi». Zinət əşyası, yaxud buna bənzər şeylər səs versə, yenə belə deyilir, (جَخْشاماق - جَخْشار çaxşar–çaxşamak).

---

[259] Salih Mütəllibov «hürufi-zəlakə» termini üçün bu izahatı vermişdir: «Qədim fonetikada dil və dodaq səsləri altı olub üçü – v, b, m dodaq səsi, üçü, yəni n, r, l isə dil səsləri adlandırırdı» (TSD, III tom, bet 13).

[260] Burada Bəsim Atalayın mühüm bir qeydi var: «Yazma nüsxədə son üç fe'l «kəlisədim-kəlisərmən-kəlisəmək» imlasındadır. Bu şəkil bölməyə uyğun gəlmir. Ona görə də tərcüməmizdə gördüyünüz şəkli aldıq. Bundan başqa, bir az irəlidə verilmiş «satsamak» fe'li «satısamak», «sürsəmək» fe'li «sürisəmək», «çapsamak» fe'li isə «çapısamak» imlasmdadır. Bu yazılış babın tələbinə uyğun olmadığı üçün onları da dəyişdirib uyğun şəkillərini aldıq» (DLT, III, s.285).

جُقْشادی Ç u w ş a d ı[261]: «جَغِر جُقْشادی çağır çuwşadı = şıra qaynadı və köpükləndi». Başqası da belədir.

جُقْشادی Ç u w ş a d ı: «قرن جُقْشادی karın çuwşadı=yemək mədədə turşuluq yaratdı, mədəni pozdu, qıcqırma başladı», (جُقْشار- جُقْشاماق çuwşar – çuwşamak).

سُفْشادی S u f ş a d ı: «اُل قُلاقا سُفْشادی ol kulakka sufşadı = o, qulağa gizli bir şey pıçıldadı».

سُفْشادی S u f ş a d ı: «سُكَل كا سُفْشادی sögəlgə sufşadı=dua oxuyub xəstəyə üflədi». Bu [iki] söz «سُفسادی sufsadı» şəklində də tələffüz edilir, (سُفْشار-سُفْشاماق sufşar – sufşamak).

قَرْشادی K a r ş a d ı: «اُل تونُغ قَرْشادی ol tonuğ karşadı=o, paltarmı qarışladı, qarışla ölçdü». Başqası da belədir, (قَرْشار- قَرْشاماق karşar – karşamak).

قُرْشادی K u r ş a d ı: «اُل قفتان قُرْشادی ol kaftan kurşadı = o, paltarın qurşağını bağladı». Başqası da belədir, (قُرْشار- قُرْشاماق kurşar – kurşamak).

قُغْشادی K o ğ ş a d ı: «قَتِغ نانک قُغْشادی katığ nənq koğşadı = qatı nəsnə yumşaldı», (قُغْشار- قُغْشاماق koğşar – koğşamak).

قُقْشادی K o w ş a d ı: «اَر اَقنی قُقْشادی ər oknı kowşadı = adam oxunu koğuş ağacının budağı ilə cilaladı», (قُقْشار- قُقْشاماق kowşar – kowşamak). Bu söz غ ğ ilə də işlənir.

كَقْشَدی K ə w ş ə d i: «تَقی اَت كَقْشَدی təwəy ot kəwşədi = dəvə ot gövşədi».

كَقْشَدی K ə w ş ə d i: «قُرج نانک كَقْشَدی kurç nənq kəwşədi=sərt şey yumşaldı», (كَقْشار- كَقْشاماک kəwşər–kəwşəmək). «كَقْشَک اَتماک kəwşək ətmək=mayalı, gözəl, yaxşı bişmiş kökəldici kövrək çörək».

---

[261] Seçkin Ərdi və Sərap Tuğba Yurtsevər bunu və bundan sonrakı sözü «çıwşadı» şəklində (DLT-2005, s.235) vermişlər.

تَسغادی T a s ğ a d ı: أل انی تَسغادی ol anı tasğadı = o onu yumruqladı», (تَسغار - تَسغاماق tasğar – tasğamak).

سَتغادی S a t ğ a d ı: «أل اَنِک بُینِن سَتغادی ol anmq boynın satğadı =o onun boynunu qanırdı, əzdi».

سَتغادی S a t ğ a d ı: «بیریوُل بیرک سَتغادی bir yol birig satğadı = bir yol bir yolla kəsişdi», (cənubdan gələn yol qərbdən gələn yolla birləşdi).

سَتغادی S a t ğ a d ı: «اِلم بیرمنی سَتغادی alım berimni satğadı=o, alacağını verəcəyi ilə qapadı, başa-baş oldu», (سَتغار - سَتغاماق satğar –satğamak). Bu beytdə də işlənmişdir:

اَژُن تُنی کُندُوزی یلکِن کَجار
کِمنی قلی سَتغسا کوُچِن کَفار

«Ajun tüni-kündüzi yəlkin keçər,
Kimni kalı satğasa, küçin kəwər».
Dünyanm gecəsi-gündüzü yolçu kimi keçər,
Kimin üstünə getsə, onun qüvvəsini zəiflədər.

(Zamanın günləri və gecələri yolçu kimi gəlib keçər, kimin üstünə getsə, basıb üstündən keçsə, onu zəiflədər). Bu söz oğuzlarda yol və borc mənasında işlədilir.

سِتغادی S ı t ğ a d ı: «أل قوُلِن سِتغادی ol kolın sıtğadı = o, qolunu sığalladı», (سِتغار - سِتغاماق sıtğar – sıtğamak).

بَدغادی B a d ğ a d ı: «أل اَنِک اَذا قِن بَدغادی ol anmq adhakın badğadı = o onun ayağını güləşdə sarmaya saldı». Bu söz hərflərin yer dəyişməsi ilə «بَغدادی bağdadı» şəklində də tələffüz olunur, (بَدغار - بَدغاماق badğar–badğamak).

بُلغادی B u l ğ a d ı: «أل سوُقُغ بُلغادی ol suwuğ bulğadı=o, suyu bulandırdı».

بُلغادى B u l ğ a d ı: «اُل تُتماج بُلغادى ol tutmaç bulğadı=o, tutmac buladı, qarışdırdı». Başqası da belədir. Bulamacı və ona bənzər şeyləri altı-üstü yaxşı bişsin deyə qarışdırmaq və qımıldatmaq da belədir.

بُلغادى B u l ğ a d ı: «اُل اَرانِک كُنكلِن بُلغادى ol ər anınq könqlin bulğadı = o adam onun könlünü bulandırdı». Əsli təbə uyğun gəlməyən yeməyi yeməkdən insanın könlünün bulanması və az qala qusmasıdır, (بُلغار - بُلغاماق bulğar – bulğamak).

تُلغادى T o l ğ a d ı: «قِيز يِنجوُ تُلغادى qız yinçü tolğadı = qız mirvari sırğa taxdı». Başqası da belədir.

تُلغادى T o l ğ a d ı: «اُل يوُنک تُلغادى ol yünq tolğadı = o, yun dükçəni, süməyi doladı».

تُلغادى T o l ğ a d ı: «اَنِک قرنى تُلغادى anmq karnı tolğadı=onun qarnı ağrıdan və buna bənzər şeylərdən buruldu», (تُلغار - تُلغاماق tolğar – tolğamak).

قرغادى K a r ğ a d ı: «تَنكرى انى قرغادى tənqri anı karğadı=tanrı onu lənətlədi, qarğıdı», (قرغار - قرغاماق karğar–karğamak).

قُرغادى K u r ğ a d ı: «يير قُرغلدى yer kurğadı = yer yağışın azlığmdan qurudu», (قُرغار - قُرغاماق kurğar – kurğamak).

قِزغادى K ı z ğ a d ı: «بَک انى قِزغادى bəg anı kızğadı=bəy onu uzaqlaşdırdı, ona sərt üz göstərdi, qovdu». (قِزغار - قِزغاماق kızğar – kızğamak). Görürsənmi, türklər tanrının lənəti ilə bir qulun bir qulu qovmasını necə ayırd edirlər. Birini fəthə ilə «karğamak», o birini kəsrə ilə «kırğamak» şəklində işlədirlər[262].

---

[262] Yazma və basma nüsxələrdə «kızğadı–kızğar–kızğamak» şəklində verilən sözlər yanhşdır, onlar «kırğadı–kırğar–kırğamak» olmalıdır. Çünki Mahmud Kaşğari «karğamak»la «kırğamak» fe'lləri arasındakı fərqin yalnız fəthə və kəsrədən ibarət olduğunu göstərir.

قرڤادی K a r w a d ı: «اُل قرَنكقوُدا قرڤادی ol karanqkuda karwadı = o, qaranlıqda nəyi isə axtararkən əli ilə bir şeyə toxundu», (قرڤار - قرڤاماق karwar–karwamak). «قروادی karvadı» da deyilir. Yuxarıda söylədiyimiz kimi, yumşaq w olan hər yerdə onu و vav hərfinə çevirmək mümkündür.

تَلكادی T ə l g ə d i[263]: «اُل اَتا سِن بُلغادی ol atasın bulğadı = o, atasmı cana yığdı». «تَلكادی tələgədi» sözü tək işlənmir, «بُلغادی bulğadı» sözü ilə qoşa işlənir, (تَلكار - تَلكاماك tələgər – tələgəmək).

بَتلادی B a t l a d ı: «اُل بوُزنی بَتلادی ol bözni batladı = o, bezi xurma əzməsinin məhlul ilə kraxmalladı», (بَتلار - بَتلاماق batlar–batlamak).

بُتلادی B u t l a d ı: «اِت اَرك بُتلادی it ərig butladı=it adamı budundan qapdı».

بُتلادی B u t l a d ı: bir adam başqasımn buduna vursa, yenə « بُتلادی butladı» deyilir, (بُتلار - بُتلاماق butlar – butlamak).

بِتلادی B i t l ə d i: «اَر بِت بِتلادی ər bit bitlədi = adam bit axtardı», (بِتلار - بِتلاماك bitlər – bitləmək).

بُزلادی B o z l a d ı: «تِتِر بُزلادی titir bozladı = dişi dəvə bozladı, bağırdı». Başqası da belədir, (بُزلار - بُزلاماق bozlar – bozlamak).

بَشلادی B a ş l a d ı: «اَر ابش بَشلادی ər ış başladı = adam işə başladı».

بَشلادی B a ş l a d ı: «اُل بوُل بَشلادی ol yol başladı = o, bələdçilik etdi».

بَشنلادی B a ş l a d ı: «اُل سوُ بَشلادی ol sü başladı = o, qoşunun önündə getdi», (qoşuna başçılıq etdi, komandirlik etdi), (بَشلار - بَشنلاماق başlar-başlamak)[264].

---

[263] Yazma və basma nüsxələrdə «bulğadı» sözü tək verilmişdir, lakin mətndən anlaşıldığına görə, bu söz tək işlənmir, «bulğadı–tələgədi» şəklində qoşa işlənir.

[264] Basma nüsxədə bu fe'lin müzare və məsdəri necə olmuşsa iki dəfə, yəni təkrar verilmişdir.

بَغلادی B a ğ l a d ı: «اُل اُتنک بَغلادی ol otunq bağladı = o, odun bağladı». Başqası da belədir, (بَغلار - بَغلاماق bağlar – bağlamak).

بُغلادی B o ğ l a d ı: «اُل تونُن بُغلادی ol ton boğladı=o, paltarı boğçaya qoydu, boğçaladı», (بُغلار - بُغلاماق boğlar-boğlamak). Türklər paltarı bağlamaqla başqa bir şeyi bağlamağı bir-birindən fərqləndirirlər. Bağlamaqda ب b hərfi fəthəli, boğlamaqda isə zəmməlidir.

بُقلادی B o k l a d ı: «یلقی بُقلادی yılkı bokladı = heyvan təzəkləndi». Oğuzca. (بُقلار - بُقلاماق boklar – boklamak).

بَکلادی B ə k l ə d i: «اُل نانکِن بَکلادی ol nənqin bəklədi=o, malını gözlədi».

بَکلادی B ə k l ə d i: «اُل قَبُغِن بَکلادی ol kapuğın bəklədi = o, qapısını bərkitdi, möhkəm bağladı, qapadı». Hər hansı bir şey möhkəm bağlansa, yenə belə deyilir, (بَکلار - بَکلاماک bəklər –bəkləmək).

بَکلادی B ə g l ə d i: «اُل اَنی بَکلادی ol anı bəglədi = o onu bəy saydı, ona bəy dedi», (بَکلار - بَکلاماک bəglər – bəgləmək).

تَبلادی T a p l a d ı: «اُل تونُغ تَبلادی ol tonuğ tapladı = o, paltarı qəbul etdi, razı oldu». Başqası da belədir, (تَبلار - تَبلاماق taplar – taplamak).

تُبلادی T ü p l ə d i: «اُل ایشغ تُبلادی ol ışığ tüplədi = o, işin lap kökünə, dibinə getdi», (تُبلار - تُبلاماک tüplər – tüpləmək).

تَتلادی T a t l a d ı: «اُل اَنی تَتلادی ol anı tatladı = o onu tat, fars saydı», (تَتلار - تَتلاماق tatlar – tatlamak).

تَرلادی T ə r l ə d i: «اَت تَرلادی at tərlədi = at tərlədi».

تَرلادی T ə r l ə d i: «اُل اَتِن تَرلادی ol atın tərlədi=o, atmı qaşovladı, atın üstündəki təri və zir-zibili təmizlədi», (تَرلار - تَرلاماک tərlər –

tərləmək). Bu söz bir-birinə zidd iki məna daşıyır, həm təsirli, həm də təsirsizdir.

تَزْلادی T a z l a d ı: «اُل اَنی تَزْلادی ol anı tazladı=o onu daz, keçəl saydı», (تَزْلار - تَزْلاماق tazlar – tazlamak).

تُزْلادی T u z l a d ı: «اُل اَت تُزْلادی ol ət tuzladı = o, ət duzladı». Başqası da belədir, (تُزْلار - تُزْلاماق tuzlar – tuzlamak).

تِزْلادی T i z l ə d i: «بُغرا اَرک تِزْلادی boğra ərig tizlədi = buğra adamı altma aldı, dizilə əzdi, dizlədi». Bir adam bir şeyi dizi ilə bassa, yenə belə deyilir, (تِزْلار - تِزْلاماک tizlər – tizləmək).

تَشْلادی T a ş l a d ı: «اُل اِتغ تَشْلادی ol ıtığ taşladı = o, iti daşladı».

تَشْلادی T a ş l a d ı: «اَر تَشْلادی ər taşladı = adam qürbətə getdi». Başqası da belədir, (تَشْلار - تَشْلاماق taşlar – taşlamak).

تُشْلادِم T u ş l a d ı m: «مَن اَنی تُشْلادِم mən anı tuşladım = mən onun tuşunda dayandım», (تُشْلارمَن - تُشْلاماق tuşlarmən–tuşlamak).

تِشْلادی T i ş l ə d i: «اُل اَنی تِشْلادی ol anı tişlədi = o onu dişlədi».

تِشْلادی T i ş l ə d i: bir adam başqasmın dişinə vursa, yenə « تِشْلادی tişlədi» deyilir, (تِشْلار - تِشْلاماک tişlər – tişləmək).

تَغْلادی T a ğ l a d ı: «اُل اَتِن تَغْلادی ol atın tağladı = o, atmı dağladı, damğa vurdu». (تَغْلار - تَغْلاماق tağlar–tağlamak). Atdan başqa heyvan dağlansa, yenə belə deyilir. Bu əsil sözlərdən deyildir.

تُغْلادی T u ğ l a d ı: «اُل یارغ تُغْلادی ol yarağ tuğladı = o, suyun, çaym gədiyini, yarığını bağladı, sel oyan yeri bağladı, düzəltdi», (تُغْلار - تُغْلاماق tuğlar – tuğlamak).

تُملیدی T u m l ı d ı: «سوُف تُملیدی suw tumlıdı=su soyudu». Başqası da belədir, (تُملیر - تُملیماق tumlır–tumlımak). Bu şeirdə də işlənmişdir:

كُـردی مَنـی اَملیوُ

بَقتـــی مَنـکا اِملیوُ

قلـدِم كُنكُل ثُملِيوُ

قدغوُمَنى ثُرغرُوُر

«Kördi məni əmləyü,

Baktı manqa imləyü,

Kaldım könqül tumlıyu,

Kadğu məni turğurur».

Məni sağaldaraq gördü,

Mənə işarə edərək baxdı,

Könlüm donaraq qaldım,

Qayğı məni durdurur.

(Sevgilim məni gördü və sağaltdı, mənə baxdı və salamla işarə etdi, mən onun arxasında könlüm donaraq qaldım, qayğı və kədər məni durğunlaşdırır, sıxır).

جَرلادى Ç a r l a d ı: «أغلان جَرلادى oğlan çarladı = uşaq ağladı».

جَرلادى Ç a r l a d ı: «يَنكان جَرلادى yanqan çarladı = fil bağırdı», (جَرلار- جَرلاماق çarlar – çarlamak).

جُغلادى Ç o ğ l a d ı: bu söz də «جَرلادى çarladı» kimi filin bağırmasını ifadə edir, (جُغلار- جُغلاماق çoğlar – çoğlamak).

جُغلادى Ç o ğ l a d ı: «أل توُنُغ جُغلادى ol tonuğ çoğladı = o, paltarı boğ-çaladı». Başqası da belədir, (جُغلار- جُغلاماق çoğlar–çoğla-mak).

جِغلادى Ç ı ğ l a d ı: «أل بوُز جِغلادى ol böz çığladı = o, türk arşını ilə bez ölçdü», (جِغلار- جِغلاماق çığlar – çığlamak).

جُقلادى Ç u w l a d ı: «أت جُقلادى ət çuwladı = ət sinirsədi». Bu, ətin yaxşı bişməməsidir, (جُقلار- جُقلاماق çuwlar – çuwlamak).

جِنلادى Ç ı n l a d ı: «أل ايشغ جِنلادى ol ışığ çınladı = o, işi təhqiq etdi», (جِنلار- جِنلاماق çmlar - çınlamak).

سَبلادی S a p l a d ı: «اَر قِلِج سَبلادی» ər kılıç sapladı = adam qılınca sap düzəltdi». Hər hansı bir şeyə sap qayrılsa, yenə belə deyilir, (سَبلار - سَبلاماق saplar - saplamak).

سَرلادی S a r l a d ı: «اُل سُقلق سَرلادی» ol suwluk sarladı=o, çalma sarıdı», «اَذا قِنکا یُرکانجُو سِزلادی» adhakınqa yörgənçü sarladı = ayağına dolaq sarıdı». Hər hansı bir şey başqa şeyin üzərinə sarınsa, yenə belə deyilir, (سَرلار - سَرلاماق sarlar–sarlamak).

سِرلادی S ı r l a d ı: «اَیاقجی اَیاق سِرلادی» ayakçı ayak sırladı = dulusçu fincan, qədəh, kasa şirlədi», (üstünə naxış salmaq üçün kasaya xüsusi məhlul vurdu), (سِرلار - سِرلاماق sırlar – sırlamak).

سوُزلادی S ö z l ə d i: «اُل مَنکا سوُز سوُزلادی» ol manqa söz sözlədi =o mənə söz söylədi», (سوُزلار - سوُزلاماک sözlər – sözləmək).

سِزلادی S ı z l a d ı: «اَنِک تیشی بوُزدُن سِزلادی» anınq tışı buzdun sızladı= onun dişi buzdan sızladı», (buzdan və ya soyuq su içməkdən onun dişində sızı peyda oldu), «اَرنِک سُنکوُکی سِزلادی» ərinq sünqügi sızladı=adamm sümüyü sızladı», (ağrıdan adamm sümüyü sızladı), (سِزلار - سِزلاماق sızlar – sızlamak).

سُغلِدی S o ğ l ı d ı: «اَر قوُنِقنکا سُغلِدی» ər koynqa soğlıdı[265] = adam əlini qoynuna soxdu», (bir şey axtarmaq, çıxarmaq üçün əlini qoynuna soxdu), (سُغلیر - سُغلیماق soğlır – soğlımak). Başqası da belədir.

سَقلادی S a w l a d ı: «اُل تلِم سَقلادی» ol təlim sawladı = o çox söz söylədi».

سَقلادی S a w l a d ı: bir adam atalar sözü söyləsə, yenə « سَقلادی sawladı» deyilir, (سَقلار - سَقلاماق sawlar – sawlamak).

---

[265] Bəsim Atalayın fikrincə, burada bir söz çatışmır, misal belə olmalıdır: «ər əligni koynqa soğlıdı» (DLT, III, s. 297). Uyğurlar isə «əl əligin koynqa suğlıdı» variantının da doğru olacağı barədə qeyd vermişlər (TTD, III tom, bet 406). Çinlilər (DLT-Çin, III cild, s.289) də uyğurlar kimi etmişlər. Əslində, burada «əligin/əligni» arasında ciddi fərq yoxdur. Hər ikisində məna eyni dərəcədə normal anlaşılır.

سُقْلادی S u w l a d ı: «اَت سُقْلادی at suwladı = at su içdi». Başqası da belədir.

سُقْلادی S u w l a d ı: «اَر تِتِک سُقْلادی ər titik suwladı=adam çamura su qatdı». Başqası da belədir, (سُقْلاماق - سُقْلار suwlar–suwlamak).

سَمْلادی S a m l a d ı: « اُل اَنی اَملادی سَمْلادی ol anı əmlədi-samladı=o ona dava-dərman elədi, sağaltdı». Bu söz tək işlənmir, «اَملادی əmlədi» ilə qoşa işlənir, (سَمْلاماق - سَمْلار samlar–samlamak).

سُمْلیدی S u m l ı d ı: «اَر سُمْلیدی ər sumlıdı = adam türkcədən başqa bir dildə danışdı», (danışan şəxsdən başqa o dili kimsə başa düşməz), (سُمْلیماق - سُمْلیر sumlır – sumlımak).

سَنْلادی S ə n l ə d i: «اُل اَنی سَنْلادی ol anı sənlədi = o ona sən deyə xitab etdi» (o ona önəmsiz adama xitab edilən kimi xitab etdi), (سَنْلاماک - سَنْلار sənlər–sənləmək). Bu söz «sən» mənasındadır. Müraciətdə çox zaman «سِزْلادی sizlədi» deyilir. Bunun mənası «siz» deməkdir. Bu, xaqanlara layiq xitabdır. Ulu Tanrınm إِنَّا أَنْزَلْنَاهُ [biz onu (Quranı) nazil etdik] sözü kimi.

قَرْلادی K a r l a d ı: «بُلِت قَرْلادی bulıt karladı = bulud qarladı, qar yağdırdı», (قَرْلاماق - قَرْلار karlar – karlamak).

قُرْلادی K u r l a d ı: «اُل قَفْتانِغ قُرْلادی ol kaftanığ kurladı = o, paltara qurşaq alıb üstündən bağladı», (قُرْلاماق - قُرْلار kurlar - kurlamak).

قِرْلادی K ı r l a d ı: «اُل یِیرک قِرْلادی ol yerig kırladı = o, yeri, torpağı qazdı», (o, qarpız və ona bənzər şeylər əkmək üçün yerdə şırımlar açdı).

قِرْلادی K ı r l a d ı: bir adam gölməçə, bənd düzəltsə, yenə « قِرْلادی kırladı» deyilir, (قِرْلاماق - قِرْلار kırlar – kırlamak).

قَشْلادی K a ş l a d ı: «اَرق قَشْلادی arık kaşladı=çaya bənd, sədd düzəltdi».

قشلادی K a ş l a d ı: başqasının qaşına vuranda da «قشلادی kaşladı» deyilir, (قشلاماق - قشلار kaşlar – kaşlamak).

قشلادی K u ş l a d ı: «بَک قشلادی bəg kuşladı = bəy quş ovladı», (قشلار - قشلاماق kuşlar - kuşlamak).

قِشلادی K ı ş l a d ı: «اَر اَقِندا قِشلادی ər əwində kışladı = adam evində qışladı». Başqası da belədir, (قِشلار - قِشلاماق kışlar–kışlamak).

قِنلادی K ı n l a d ı: «اُل بِجاک قِنلادی ol biçək kınladı = o, bıçağa qm düzəltdi». Başqası da belədir, (قِنلار - قِنلاماق kınlar – kınlamak).

کُتلادی K ö t l ə d i: «اُغلاغ کُتلادی oğlanığ kötlədi = uşağa fənalıq etdi». Başqası da belədir, (کُتلار - کُتلاماک kötlər – kötləmək).

کَذلادی K ə d h l ə d i: «اَر کَذلادی ər kədhlədi = adam çabalıdı, çalışdı», (güclü adamların etdiyini elədi), (کَذلار - کَذلاماک kədhlər – kədhləmək).

کَزلادی K ə z l ə d i: «اُل اُقِن کَزلادی ol okm kəzlədi = o, oxunu gəzlədi, oxun gəzini düzəltdi, sahmana saldı».

کَزلادی K ə z l ə d i: əgər adam qazanın dibini yanıqdan təmizləsə, yenə « کَزلادی kəzlədi» deyilir. (کَزلار - کَزلاماک kəzlər –kəzləmək).

کُزلادی K ö z l ə d i: «اُل اَنی کُزلادی ol anı közlədi = o onun gözünə vurdu», (کُزلار - کُزلاماک közlər – közləmək).

کِزلادی K i z l ə d i: «اُل کِزلادی نانکنی ol kizlədi nənqni = o, nəsnəni gizlədi»,(کِزلار - کِزلاماک kizlər – kizləmək).

کَسلادی K ə s l ə d i: «اُل اِتغ کَسلادی ol ıtığ kəslədi = o, iti kəsəklə vurdu», (کَسلاماک - کَسلاز kəslər-kəsləmək).

کُکلادی K ö k l ə d i: «اُل اَدَرکُکلادی ol ədhər köklədi=o, yəhərin bağını bağladı», (کُکلاماک - کُکلار köklər – kökləmək).

کُکلادی K ö g l ə d i: «یلقی کُکلادی yılkı köglədi = heyvanlar göy ot yedi», (کُکلاماک - کُکلار köglər – kögləmək).

كُكلادی K ö g l ə d i: «ار كُكلادی ər köglədi = adam çalıb-oxudu, təğənni etdi, ahənglə melodiya yaratdı», (كُكلار - كُكلاماك köglər–kögləmək)[266].

كَملادی K ə m l ə d i: «أت كَملادی at kəmlədi = at xəstələndi». Bu söz bəzən «كَملاندی kəmləndi» şəklində də tələffüz edilir, (كَملار - كَملاماك kəmlər – kəmləmək).

مُنلادی M ü n l ə d i: «ار مُنلادی ər münlədi = adam şorba içdi», (مُنلار - مُنلاماك münlər – münləmək).

بُلنادی B u l n a d ı: «ار يَغيني بُلنادی ər yağmı bulnadı = adam yağını əsir aldı», (بُلنار - بُلناماق bulnar – bulnamak).

تُكنادی T ü k n ə d i: «أل باشِن تُكنادی ol başm tüknədi = o, yarasmı dağladı», (yarasını odla dağladı), (تُكنار - تُكناماك tüknər– tüknəmək).

چِكنادی Ç i k n ə d i: «قيز چِكِن چِكنادی qız çikin çiknədi = qız naxış vurdu», (qız qızıl saplarla ipək paltara naxış vurdu), (چِكنار - چِكناماك çiknər – çiknəmək).

چِكنادی Ç i k n ə d i: «ار چِكنا چِكنادی ər çiknə çiknədi = adam yerə sürgü çəkdi, tapanladı, tırpanladı».

سُكنادی S ü k n ə d i: «ار سُكُل سُكنادی ər sükül süknədi = adam ziyilə dava-dərman edib sağaltdı», (سُكنار - سُكناماك süknər–süknəmək)[267].

---

[266] Ərəb hərfləri ilə eyni «كُكلادی» imlasında olan bu sözü latın hərfləri ilə Bəsim Atalay «köglədi» (DLT, III, s. 301), Salih Mütəllibov «köklədi» (TSD, III tom, bet 315), çinlilər (DLT-Çin, III cild, s.292) və uyğurlar isə «küglədi» (TTD, III tom, bet 411) şəklində transkripsiya etmişlər. Bu sözü və bundan üstdəki sözü Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər «küglədi» kimi (DLT-2005, s. 332) kimi transkripsiya etmişlər.

[267] Ərəb hərfləri ilə eyni «سُكنادی» imlasında olan bu sözü latın hərfləri ilə Bəsim Atalay «süknədi» (DLT, III, s. 301-302), Salih Mütəllibovla (TSD, III tom, bet 316), çinlilər (DLT-Çin, III cild, s.293) və uyğurlar «sögnədi» (TTD, III tom, bet 412), Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər isə «sügnədi» (DLT-2005, s. 109) şəklində transkripsiya etmişlər.

قینادی K a y n a d ı: «اَر اَنکَر قینادی ər anqar kaynadı = adam onun əmrini dinləmədi, qarşı çıxdı, sözünü rədd etdi», (قینار- قیناماق kaynar – kaynamak).

قسنادی K a s n a d ı: «اَر تُملُغقا قسنادی ər tumluğka kasnadı = soyuqdan adamın çənəsi şaqqıldadı». Köpək soyuqdan zəngildəsə, yenə belə deyilir, (قسنار- قسناماق kasnar – kasnamak).

قلنوُدی K a l n u d ı: « یُفقا نانک قلنوُدی yufka nənq kalnudı = yuxa nəsnə qalınlaşdı», (قلنوُر- قلنوماق kalnur – kalnumak).

قُلنادی K u l n a d ı: «قِسراق قُلنادی kısrak kulnadı = qısraq qulunladı», (قُلنار- قُلناماق kulnar – kulnamak).

کِشنادی K i ş n ə d i: «اَت کِشنادی at kişnədi = at kişnədi».

کِشنادی K i ş n ə d i: «قتِر کِشنادی katır kişnədi=qatır anqırdı», (کِشنار- کِشناماک kişnər–kişnəmək).

BU BABIN MİSAL OLANLARI

یَستادی Y a s t a d ı: «اُل اَنکَر یَستُق یَستادی ol anqar yastuk yastadı = o ona yastıq yasladı», (söykənmək üçün yastıq qoydu).

یَسنادی Y a s t a d ı: «اُل منکا سوُز یَستادی ol manqa söz yastadı = o mənə açıq sözlə deyil, kinayə ilə göz atdı», (یَستار- یَسناماق yastar–yastamak).

یُنجیدی Y u n ç ı d ı: «اَر یُنجیدی ər yunçıdı = adam yoxsullaşdı, kasıblıq üzündən halı pisləşdi». Həmin söz bu bənddə də işlənmişdir:

بلکا بُکوُ یُنجیدی

اَژُن اَتسی یَنجِدی

اَردَم اَتسی تِنجِدی

یَرکا تَکِب سُرتُلوُر

«Bilgə bükü yunçıdı,
Ajun əti yənçidi,
Ərdəm əti tınçıdı,
Yergə təgip sürtülür».
Bilgələr, alimlər pisləşdi,
Dünya onlarm ətini yedi,
Ərdəmin bədəni xarab oldu,
Yerə dəyib sürtünür.

(Zəmanədən bəhs edərək deyir: alimlərin vəziyyəti pisləşdi, dövr onların ətini dişləyib əzab verdi, ədəb və fəzilətin bədəni də xarab oldu, zəiflikdən yerə sürtünür). «تَنجَدی tançadı» sözünün əsli «تَنجغادی tançğadı»dır. Oğuzlarla qıpçaqlar isimlərin və fe'llərin ortasındakı غ ğ hərfini atırlar, (يُنجير - يُنجيماق yunçır–yunçımak)[268].

يَقْريدی Y a w r ı d ı: «اَر يَقْريدی ər yawrıdı=adamın halı pisləşdi, yoxsulluqdan və ya xəstəlikdən arıqladı», (يَقْرير - يَقْريماق yawrır – yawrımak).

يِيسادی Y e y s ə d i: «اَل اَتماک يِيسادی ol ətmək yeysədi=o, çörək yemək istədi». Başqası da belədir, (يِيسار - يِيساماک yeysər–yeysəmək).

يَبسادی Y a p s a d ı: «اَر اَتماک يَبسادی ər ətmək yapsadı = adam çörək yapmaq istədi».

يَبسادی Y a p s a d ı: bir adam qapını itələsə, yenə belə deyilir.

يَبسادی Y a p s a d ı: «اَر توُزاق يَبسادی ər tuzak yapsadı = adam tələ qurmaq istədi», (يَبسار - يَبساماق yapsar – yapsamak).

يَتسادی Y a t s a d ı: «اَر يَتسادی ər yatsadı = adam yatmaq, uyumaq istədi», (يَتسار - يَتساماق yatsar – yatsamak).

[268] Sözün unudulmuş müzaresini və məsdərini biz qoyduq.

يتسادى Y e t s ə d i: «أل مَنى يتسادى ol məni yetsədi = o az qala mənə yetişdi, çatdı», (يتسار - يتساماك yetsər – yetsəmək).

يَذسادى Y a dh s a d ı: «أل تُشاك يَذسادى ol töşək yadhsadı = o, döşək yaymaq istədi, az qala döşədi».

يَذسادى Y a dh s a d ı: «أل سوُسِن يَذسادى ol süsin yadhsadı=o, qoşununu yaymaq istədi». Başqası da belədir. Xəmir açmaq və yaymaq istəmək də belədir, (يَذسار - يَذساماق yadhsar – yadhsamak).

يُذسادى Y o d h s a d ı: «أل بِتِك يُذسادى ol bitik yodhsadı = o, kitabı silmək istədi». Qılıncdan qanı silmək və başqası da belədir, (يُذسار - يُذساماق yodhsar – yodhsamak).

يَرسيدى Y a r s ı d ı: «أل يَرسيدى نانكنى ol yarsıdı nənqni = o, bir şeyi murdar saydı və ondan iyrəndi», (يَرسير - يَرسيماق yarsır – yarsımak).

يَزسادى Y a z s a d ı: «أل قوُرين يَزسادى ol kurm yazsadı = o, qurşağını açmaq istədi». Başqası da belədir, (يَزسار - يَزساماق yazsar – yazsamak).

يَشسادى Y a ş s a d ı: «أل مَندِن يُشسادى ol məndin yaşsadı = o məndən gizlənmək istədi», (يَشسار - يَشساماق yaşsar – yaşsamak).

يَغسادى Y a ğ s a d ı: «أر يَغسادى ər yağsadı = adamın ürəyi yağ istədi», (adamm ürəyi kərə yağı və ya başqa yağ istədi), (يَغسار - يَغساماق yağsar – yağsamak).

يَغسيدى Y a ğ s ı d ı: «يَغسيدى نانك yağsıdı nənq[269] = adam kərə yağın dadmı aldı». Bu məsəldə də işlənmişdir: «يَقرى ياغى يَغسيماس yakrı yağı yağsımas = piy yağm yerini verməz, onu əvəz

[269] Bəsim Atalaym fikrincə, burada qeyri-dəqiqlik var. Ərəbcəsinə baxaraq bunu «أر يَغسيدى ər yağsıdı» şəklində düzəltmək mümkündür (DLT,III, s.306). Uyğurlar bu barədə qeyd vermiş, «أر يَغسيدى ər yağsıdı = adam yağın dadını daddı» şəklinin doğru olduğunu yazmışlar (TTD, III tom, bet 418).

edə bilməz». (يَغسير - يَغسيماق yağsır – yağsımak). Bu sözün əsli «يَغسادى yağsadı»dır.

يقسادى Y u w s a d ı: «أل ثُبق يُقسادى ol topık yuwsadı = o, top yuvarlatmaq istədi». Başqası da belədir, (يُقسار - يُقساماق yuwsar – yuwsamak).

يقسادى Y a w s a d ı: « أل مَنكا تَقار يقسادى ol manqa tawar yawsadı=o, malla mənim könlümü almaq istədi», (يَقسار - يَقساماق yawsar–yawsamak).

يقسادى Y ı k s a d ı: «أل تام يقسادى ol tam yıksadı=o, divar yıxmaq istədi». Başqası da belədir, (يقسار - يقساماق yıksar–yıksamak).

يُكسادى Y ü k s ə d i: «يُكسادى نانك yüksədi nənq = nəsnə yüksəldi, uzandı», (يُكسار - يُكساماك yüksər – yüksəmək).

يُمشادى Y u m ş a d ı: «يُمشادى نانك yumşadı nənq = nəsnə yumşaldı», (يُمشار - يُمشاماق yumşar – yumşamak).

يَلغادى Y a l ğ a d ı: «أياق يَلغادى ayak yalğadı = qab yaladı». Başqası da belədir, (يَلغار - يَلغاماق yalğar – yalğamak). Bu atalar sözündə də işlənmişdir: «يَقاداقى يَلغاغالى اِلكداكى اِجغنُور yakadakı yalğağalı əligdəki ıçğınur = yaxadakı, yaxaya tökülən yemək yalanırkən əldəki boşqab düşər, qarma heç nə getməz». Bu söz bir şeyə tamah edərək əlindəkini xərcləyən adama əvvəlcə əlindəkini qoruması və tamahdan vaz keçməsi, uzaqlaşması üçün söylənir.

يَلقادى Y a l w a d ı: «ار ياغ يَلقادى ər yağ yalwadı = adam yağ yaladı». Başqası da belədir. Bu söz əvvəlkindən çox işlənir, (يَلقار - يَلقاماق yalwar – yalwamak).

يُركادى Y ö r g ə d i: «أل اَذاقِن يُركادى ol adhakın yörgədi = o, ayağmı sarıdı». Başqası da belədir. Hər hansı bir şey sarınsa, yenə belə deyilir, (يُركار - يُركارماك yörgər – yörgəmək).

يبلادى Y ı p l a d ı: «أراغت يوزن يبلادى urağut yüzin yıpladı = qadın üzünə epilyasiya etdi», (يبلار - يبلاماق yıplar – yıplamak).

يَتلادى Y a t l a d ı: «يلتجى يَتلادى yatçı yatladı = şaman yada daşı ilə əfsun elədi», (şaman yada daşı ilə yağış yağdırmaq üçün əfsun elədi).

يَتلادى Y a t l a d ı: «أل انى يَتلادى ol anı yatladı = o onu yad saydı», (يَتلار - يَتلاماق yatlar – yatlamak).

يبلادى Y ı p l a d ı: «أر يبلادى ər yıpladı = adam ip üstündə kəndirbazlıq elədi», (يبلار - يبلاماق yıplar – yıplamak).

يذلادى Y ı d h l a d ı: «أل يبار يذلادى ol yıpar yıdhladı = o, müşk iylədi». Başqası da belədir, (يذلار - يذلاماق yıdhlar – yıdhlamak).

يَرلادى Y a r l a d ı: «أل انِک يُوزنکا يَرلادى ol anmq yüzinqə yarladı=o onun üzünə tüpürdü», (يَرلار - يَرلاماق yarlar–yarlamak).

يرلادى Y ı r l a d ı: «أر يرلادى ər yırladı = adam melodiya qoşdu, şərqi oxudu», (يرلار - يرلاماق yırlar – yırlamak).

يَشلادى Y a ş l a d ı: «أت يَشلادى at yaşladı = at yaş, göy ot yedi». Başqası da belədir. Əsli «ياشلادى yaşladı»dır. Başqa sözlərdə olduğu kimi burada da sürət naminə ا əlif düşmüşdür, (يَشلار - يَشلاماق yaşlar – yaşlamak).

يَغلادى Y a ğ l a d ı[270]: «أرقُغش يَغلادى ər koğuş yağladı = adam qayış yağladı». Başqası da belədir, (يَغلار - يَغلاماق yağlar – yağlamak). Əsli [ا əlif ilə] «ياغلادى yağladı»dır, [burada da sürət naminə ا əlif hərfi düşmüşdür].

---

[270] Salih Mütəllibov söz sırasını pozmuş, bu fe'ldən başlayaraq «yüklədi» fe'linə qədər olan sözləri «yelnədi» maddəsindən sonra vermişdir. Bəsim Atalay, Hüseyn Düzgün, uyğur nəşrində və Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər nəşrində isə söz sırası eynidir. Bütün nəşrlərdə misal «ər koğuş yağladı», uyğur nəşrində isə «ol koğuş yağladı» şəklindədir (TTD, III tom, bet 422). Texniki səhvə bənzəyir.

يُغلادى Y o ğ l a d ı: «أل ألكا يُغلادى ol ölüggə yoğladı = o, ölüyə ehsan verdi». Bu, türklərin adətidir, (يُغلاماق - يُغلار yoğlar – yoğlamak).

يغلادى Y ı ğ l a d ı: «أغلان يغلادى oğlan yığladı = uşaq ağladı». Başqası da belədir. Bu şeirdə də işlənmişdir:

يلكِن بُلب بَردُقى كُنكُلم آنكار بَغليوُ
قلـــــدِم آرنج قدغقا ايشِم أذوُ يغليوُ

«Yəlkin bolup bardukı
Könqlüm anqar bağlayu,
Kaldım ərinç kadğuka
Işım udhu yığlayu».
Yolçu olub yürüdü,
Könlüm ona bağladım,
Qayğı məni bürüdü,
Hey dalmca ağladım.

(Sevgilim yolçu olub səfərə getdi, mən isə könlümü ona bağlamışdım, o, səfərə çıxalı məni qayğı-kədər bürüdü, eşimin dalmca durmadan ağlayıram). (يغلاماق - يغلار yığlar–yığlamak)[271].

يُكلادى Y ü k l ə d i: «أل تَفى كا يوُك يُكلادى ol təvəygə yük yüklədi =o, dəvəyə yük yüklədi». Başqası da belədir, (يُكلاماك - يُكلار yüklər – yükləmək).

يكلادى Y i k l ə d i: «أل ييرك يكلادى ol yerig yiklədi = o, yeri tapdadı». Bu söz الف əlifi ى i hərfmə çevirənlərin dilincədir. Doğrusu «iklədi» variantıdır, (يكلاماك - يكلار yiklər – yikləmək)[272].

يَملادى Y a m l a d ı: «أل أقِن يَملادى ol əwin yamladı = o, evini süpürdü», (يَملاماق - يَملار yamlar – yamlamak).

---

[271] Sözün müzare və məsdərini biz qoyduq.
[272] Uyğurlar bunu «yiglədi-yiglər-yigləmək» kimi vermişlər (TTD, III tom. bet 424).

يملادى Y i m l ə d i: «أل مَنكا يملادى ol manqa yimlədi = o mənə him-cim elədi, işarə verdi», (يملاماك - يملار yimlər – yimləmək). Əsli «imlədi»dir.

يَشنادى Y a ş n a d ı: «يَشِن يَشنادى yaşın yaşnadı = şimşək parladı». Tas, ləyən, ayna kimi şeylərin parlaması da bu sözlə ifadə olunur, (يَشناماق - يَشنار yaşnar – yaşnamak).

يَلنادى Y e l n ə d i: «بى يَلنادى bi yelnədi = qısrağm döşü südlə doldu, yelinlədi». Döl vaxtı heyvaıların məməsinin südlə dolması üçün də belə deyilir, (يَلناماك - يَلنار yelnər – yelnəmək).

BU BABIN MƏNQUS OLANLARI

بُيبادى B u y b a d ı: «أل ايشغ بُيبادى ol ışığ buybadı = o, işi üzüstü buraxdı, səhlənkarlıq etdi», (بُيبامماق - بُيبار buybar – buybamak).

سَيبادى S a y p a d ı: «أل تَوارن سَيبادى ol tavarın saypadı = o, malmı israf etdi, sağa-sola xərclədi», (سَيباماق - سَيبار saypar–saypamak).

سَيرادى S a y r a d ı: «سَنَدُواج سَيرادى sanduvaç sayradı = bülbül ötdü».

سَيرادى S a y r a d ı: «ار تَلِم سَيرادى ər təlim sayradı = adam çox sarsaqladı». Bu iki söz zidd mənalı sözdür. (سَيراماق - سَيرار sayrar –sayramak).

يَيلادى Y a y l a d ı: «ار ناغدا يَيلادى ər tağda yayladı = adam dağda yayladı», (يَيلاماق - يَيلار yaylar – yaylamak).

Qayda:

Bu bölmənin əmr şəkli dörd hərflidir. Ona görə bölməyə dörd hərfli dedik. «ات تُغرا ət toğra=ət doğra» və «أفكا أغرا əwgə oğra = evə uğra» cümlələrindəki «تُغرا toğra» və «أغرا oğra» sözləri

kimi. Söyləyən adam istəsə «تُغراغِل toğrağıl = doğraginən» və «أغراغِل oğrağıl = uğraginən» deyə bilər. Əmri-qaibdə «تُغراسوُن toğrasun=doğrasın» və «أغراسوُن oğrasun=uğrasm» deyilir. İnkar halmda əmr şəkli üzərinə م m və ا əlif [-ma/mə şəkilçisi] əlavə edilərək «تُغراما toğrama=doğrama» və «أغراما oğrama=uğrama» deyilir. İnkarm qaibində isə «تُغراماسون toğramasun = doğramasın» və «أغراماسوُن oğramasun=uğramasm» deyirlər.

İşin gələcək zamanda görüləcəyi bidirilmək istəndikdə əmr şəklinə qahn ahəngli və غ ğ-li sözlərdə غ+الف+ى [yəni –ğay], incə ahəngli və ك ke-li sözlərdə isə ك+الف+ى [yəni -gəy/kəy] şəkilçisi qoşulur. Məsələn: «مَن اَت تُغراغای مَن mən ət toğrağay mən=mən ət doğrayacağam», «مَن اَنكَر أغراغای مَن mən anqar oğrağay mən = mən ona uğrayacağam».

Bu və digər bölmələrdəki fe'llərin hamısı bu qaydaya tabedir. Ərəb dilində sözlərin əvvəlinə artırılan hərflərlə, yəni müzare və sual ədatları ilə, istiqbal bildirən س s hərfi ilə, kəsmə الف əlifləri ilə, و vav bağlayığısı ilə və buna bənzər digər vasitələrlə bəzi mənalar yaradılır.

Türk dilində isə söz dəyişmədən sağlam şəkildə qalır, bəzi mənalar bildirmək üçün qoşulan hərflər, gördüyümüz kimi, sözün sonuna əlavə edilir. Ərəbcə ziyadə qılınan hərflər sözlərin ortasma artırılır. Məsələn: غافِرٌ، غفّارٌ، غفُورٌ sözlərində olduğu kimi. Türkcədə isə söz tamlığını, bütünlüyünü saxlayır, şəkilçilər sonra əlavə olunur.

Müzarenin inkar şəklini yaratmaq üçün inkar hərfimdən sonra [yəni -ma/mə-dən sonra] bir س s artırılır. «أل اَت تُغراماس ol ət toğ-

ramas = o, ət doğramaz» və «اُل سنكا اُغرُاماس ol sanqa oğramas = o sənə uğramaz» kimi.

İnkarm qaib şəklində [yəni III şəxs təkdə] «اُل اَت ثُغراماسوُن ol ət toğramasun», «اُل اَنكار اُغراماسوُن ol anqar oğramasun» olur.

Cəm halma gəlincə, bunun qaydasını vermişdik. Bu, qıpçaq və oğuzlarda əmr şəklinin təki üzərinə gənizdən gələn bir نک nq hərfi artırılmasıdır. «اَت ثُغرانک ət toğranq = ət doğrayın», «اَفكا اُغرانک əfgə oğranq=evə uğraym» kimi. Doğru olan qayda budur. Digər türklər bu şəkli, yəni gənizdən gələn نک nq hərfi ilə yaranan şəkli yaşlı və hörmətli şəxslərə söyləyirlər. Onların, yəni digər türklərin cəmdə «ثُغرانک لار toğranqlar», «اُغرانک لار oğranqlar» deməsi səhv sayılmır. Belə olmasaydı, digər türklərdə iki cəmlik formasmın varhğmı izah etmək mümkün olmazdı. Oğuzlarla qıpçaqlar birinci üsulu işlədirlər, onlarm söyləyişi qaydaya uyğundur.

Bu bölmənin failini yaratmaq üçün əmr şəklinin sonuna –ğuçı/güçi şəkilçiləri qoşulur. Məsələn: «اَت ثُغراغوُجی ət toğra+ğuçi = ət doğrayıcı», «اَفكا اُغراغوُجی əfgə oğra+ğuçı=evə uğrayıcı» kimi. Lakin oğuzlar, qıpçaqlar, onlara uyan köçərilər və suvarlar bu mənada «ثُغراداجی toğra+daçı», «اُغراداجی oğra +daçı» deyirlər.

İşi davamlı görən fail üçün «ثُغراغان toğra+ğan», «اُغراغلن oğra+ğan» deyilir ki, «daima doğrayan», «daima uğrayan» deməkdir.

Bu bölmənin arzu şəkli üçün bu model işlənir: qalın ahəngli və tərkibində ذلاقه zəlakə hərflərindən biri, habelə غ ğ olan sözlərə غ, س, الف, ق [yəni –ğsak], incə və ک ke-li sözlərə isə ک,

س, الف , ک hərfləri [yəni –gsək şəkilçisi] artırılır. Məsələn: «أل ات ثُغرَغساق أل ol ət toğra+ğsak ol=o, ət doğramaq arzusundadır», «أل تَقْيَكا يُک يُكلكساک ol təwəygə yük yüklə+gsək ol =o, dəvəyə yük yükləmək istəyir». Bu model başqa bölmələrdə çox işləndiyi halda, dörd hərfli sözlərdə az işlənir.

Bir işi işləməyə yönələn, əzm edən, ancaq hələ başlamayan fail üçün «أل ات ثُغرَغلى أل ol ət toğra+ğlı ol = o, ət doğramağı nəzərdə tutmuşdur, düşünür», «أل سَنكا أغرَغلى أل ol sanqa oğra+ğlı ol = o sənin yanına gəlməyi düşünür» modeli mövcuddur. Başqaları da analoji qaydada düzəlir.

Əgər bir işi işləmək failin haqqıdırsa, onun modeli aşağıdakı şəkildədir: «أل ات ثُغرَغلى اَردى ol ət toğra+ğlık ərdi = ət doğramaq onun haqqı idi», «أل سَنكا أغرَغلى اَردي ol sanqa oğra+ğlık ərdi = sənin yanına gəlmək onun haqqı idi». Lakin oğuzlar və qıpçaqlar bu sözləri ل l yerinə س s ilə [yəni –ğlık əvəzinə –ğsık şəkilçisi] işlədir və «أل ات ثُغراغسِق اَردى ol ət toğra+ğsık ərdi = ət doğramaq onun haqqı idi», «أل سَنكا أغراغسِق اَردى ol sanqa oğra+ğsık ərdi=sənin yanma gəlmək onun haqqı idi» deyirlər.

Çoxları digər türklər kimi söyləyirlər.

Bu tipli fe'llərin inkar şəklini düzəltmək üçün əmr formasmın sonuna –ma/mə artırılır. Məsələn: «أل اَر ات ثُغرامَدَجى ثُروُر ol ər ət toğra+ma+daçı turur = o, ət doğramayan adamdır», « أل يُک يُكلامَدَجى ثُروُر ol yük yüklə+mə+dəçi turur=o, yük yükləməyəndir».

Digər bir dildə qalm ahəngli sözlərə م , غ, ل , ى hərfləri [yəni –mağlı], incə ahəngli sözlərə isə م , ک, ل , ى hərfləri [yəni –məgli

şəkilçisi] əlavə olunur: «تُغرامَغلی اُل toğra+mağlı ol», « يُکلا مَکلی اُل yüklə+məgli ol» deyilir.

Görülən işi göstərən məchul fe'li sifət aşağıdakı kimidir: «تُغرامِش اَت toğramış ət = doğranmış ət» və «ایرغامِش یغاج ırğamış yığaç =yırğadılan ağac» qəlibindəki «doğranmış» və «yırğadılan» sözləri kimidir.

Məsdərlərə gəlincə, onları əsas fe'llərin izahı zamanı bəyan etmişik. Bu yerdə əslində məsdər olmayan, izafət nəticəsində məsdərə çevrilənlər haqqında danışmışdıq. bu cür məsdərlər sözün kökünə ک ke, yaxud غ ğ qoşularaq yaranır. Məsələn: « اَنِک اَت تُغراغی کُر anınq ət toğrağı kör = onun ət doğramasım gör», «اَنِک اُغراغی کُر anınq oğrağı kör = onun uğramağmı gör» cümlələrindəki «toğrağı», «oğrağı» sözləri kimi. Bu növ məsdərlər isim yerində işlədilir. Bunlar çox isifadə olunduqları üçün onları məxsusi olaraq vurğuladıq.

Zaman ismi, məkan ismi və alət ismi kimi şeylərin qaydaları yuxarıda göstərilən kimidir: «بوُ اَت تُغراغوُ bu ət toğrağu = bu, doğradılacaq ətdir», «بوُ اَت تُغراغواُغرُ اُل bu ət toğragu oğur ol = bu, ət doğradılacaq vaxtdır», «بوُ تُغراغوُ یِر اُل bu toğrağu yer ol=bu, doğradılacaq yerdir», «بوُ تُغراغوُ نانک bu toğrağu nənq=bu, doğradılacaq nəsnədir». Bunun inkar şəkli aşağıdakı kimidir: «بوُ تُغراغوُ اُغر ارماس bu toğragu oğur ərməs =bu, doğradılacaq vaxt deyil». Başqaları da analoji qaydada düzəlir.

Onu da bilasən ki, mən keçmiş zaman, müzare və məsdərləri bir yerdə bəyan etdim. Çünki keçmiş zamanla müzare fe'llərinin ortalarındakı hərəkə və sükunlar bəzən bir-birinə uyğun gəlsə də, bəzən zidd olur. Bu, qayda ilə müəyyənləşmir. « یِر

قُرغادی yer kurğadı = yer qurudu» keçmiş zaman fe'linin müzaresi və məsdəri olan «قُرغار- قُرغاماق kurğar–kurğamak» sözləri bir-birinə uyğundur. «یا قُردی ya kurdı» sözünün müzare və məsdəri də («قُرار- قُرماق kurar–kurmak») bir-birinə uyğundur. Uyğun olmayanları keçən bəhslərdə söyləmişəm.

Bu bölmənin fe'lləri bir neçə funksiya daşıyır. Birinci funksiya: iki və ya üç hərfli mənqus fe'llərdən ibarət olur və failin adı çəkilən işdə bir şey etdiyini bildirir. Məsələn: «اَر اُق کُزلادی ər ok kəzlədi = ər ox gəzlədi». Bunun əsli «کَز kəz» ismidir, لادی- lədi şəkilçisi artırılaraq fe'lə çevrilmişdir. «اَر تَقارکِزلادی ər tawar kizlədi = adam mal gizlədi». Burada isə «کِز kiz» ismi fe'l olmuşdur. Başqası da belədir.

Mənqus fe'llərə aşağıdakılar misal ola bilər: «بُلِت قرلادی bulıt karladı = bulud qarladı, qar yağdırdı», «قُغُش یَغلادی koğuş yağladı = dəri yağladı». Bunların əsilləri «قار kar» və «یاغ yağ»dır. Bu sözlərdəki الف əlif sürət naminə atılmışdır.

İsim salim və ya üç hərfli isimdirsə, onu fe'lə çevirmək üçün bir الف əlif artırmaq kifayətdir. Əlifin ل l ilə bərabər artırılmasına ehtiyac yoxdur. Məsələn, «یَشِن yaşın = şimşək» sözündən fe'l düzəltmək istənsə, «یَشِن یَشنادی yaşın yaşın+a+dı» deyilir, «şimşək çaxdı» deməkdir. «قِسراق قُلنادی kısrak kulnadı = qısraq qulunladı, doğdu» cümləsindəki «قُلنادی kuln+a+dı» sözü də belədir. «قِسراق یلنادی kısrak yelnədi = qısraq yelinlədi» cümləsindəki «یلنادی yeln+ə+di» sözü də buna bənzəyir. Bu fe'llər səhih (sağlam) isimlərdən düzəldiyi üçün bir hərfin (الف əlif) ziyadə qılınması ilə, ل l hərfinə ehtiyac olmadan da tam bir fe'l əmələ gəlmişdir.

Dörd hərfli səhih isimlər də sonundakı hərfi atılmaq şəritlə bu bölməyə daxil edilə bilər. O zaman söz üç hərfli olur, sonra fe'l düzəltmək üçün ona bir الف əlif artırılır, fe'l dörd hərfli sözə çevrilir. Yumşaq nəsnəyə «يُمشاق yumşak», bir şey yumşaldığı zaman isə «يُمشادى yumşadı»[273] deyilir. « أل آنكر سوُز يَستادى ol anqar söz yastadı = o ona sözlə toxundu» cümləsindəki «يَستادى yastadı» sözü də belədir. Söykənmək üçün yastıq qoymaq da bu sözlə ifadə olunur. Fe'lin əsli «يَستُق yastuk»dur. «سوُف بُلغادى suw bulğadı» sözü də belədir. Əsli «بُلغاق bulğak»dır. Bu isimlərdən ق ka atılmış, fe'l düzəltmək üçün onlara yalnız bir الف əlif əlavə edilmişdir. Yaxud isimlər bir hərf qəbul etməklə fe'ldən yaranmışlar. Məncə, ən doğrusu budur. Çünki isimlər fe'llərdən düzəlir. Məsələn: «سوُنتى sudhtı» və «سِذتى sidhti» sözlərini götürək. Bunlardan «سُذق sudhuk» və «سِذك sidhük» sözləri çıxmışdır. «sudhtı=tüpürdü», «sidhti=siyidi», «sudhuk= tüpürcək», «sidhik=sidik» deməkdir. «أت يشدى ət pıştı» cümləsindəki «يشدى pışdı» sözü də belədir. Bişirilən ət üçün «أت بيشغ pışığ ət» deyilir. Bu hal ərəb və türk dilləri üçün üçün bir fəzilətdir, başqa dillərdə belə şey yoxdur.

İkinci funksiya: bu bölməyə daxil olan fe'l başqa mənada deyil, öz mənasında işlənir. Məsələn: «أر يغاج أرغادى ər yığaç ırğadı =adam ağac yırğaladı», «أر يغلادى ər yığladı=adam ağladı», «أر ايشقا أغرادى ər ışka oğradı = adam işlə uğradı».

Ərəb dilinin müfaələ babında olduğu kimi, bir işin iki və daha çox adam tərəfindən görüldüyünü bildirmək istəsək, sözün

[273] Burada «yumşadı» deyil, «yumşadı nənq» olmalıdır.

sonundakı hərfi-illət atılır, onun əvəzinə ش ş hərfi əlavə olunur. «أل مَنِک برلا يغاج إرغشدی ol məninq birlə yığaç ırğaşdı =o mənimlə birlikdə ağac yırğaladı», (bu həm yarışma, həm də yardımlaşma mənası daşıya bilər), «كِشی بَرجا يغلشدی kişi barça yığlaşdı = hamı ağla(ş)dı». Bu, başqaları üçün modeldir.

Bir adamın bir işi əslində görmədiyi halda, özünü görürmüş kimi göstərməsi zamanı sözdən hərfi-illət atılır, onun yerinə م , س , ن [yəni –msın/msin şəkilçisi] artırılır. «أل سَنکا أغرمَسنِدی ol sanqa oğra+msın+dı=o, gerçəkdən sənin yanına gəlmədiyi halda, özünü elə göstərdi», «أل يُک يُکلمسِندی ol yük yüklə+msin+di = o, gerçəkdən yük yükləmədiyi halda özünü yük yükləyirmiş kimi gösiərdi» deməkdir.

Bu qaydalardan başqalarını salim kitabında göstərmişik. Bütün sözlər bu qaydalara müvafiq yaranır.

Ulu Tanrı istəsə, buradan kənara çıxılmaz.

HƏR NÖV HƏRƏKƏSİ İLƏ FƏ'ULADİ, FƏ'ALADİ, FƏ'İLADİ فعالادی، فعُولادی، فعيلادی BABI

تَبالادی T a b a l a d ı[274]: «أل اَنی تَبالادی ol anı tabaladı = o onu qınadı, utandırdı, tənə qıldı, ayıbladı», (تَبالار- تَبالاماق tabalar – tabalamak).

تُبوُلادی T ü p ü l ə d i: «أل يَغينی تُبوُلادی ol yağmı tüpülədi = o, yağını təpələdi, təpəsinə vurdu, məğlub etdi», (تُبُولار- تُبُولاماک tüpülər – tüpüləmək).

---

[274] Uyğurca nəşrində bu söz «tapaladı» şəklində verilmişdir (TTD, III tom, bet 439). Seçkin Ərdi ilə Sərap Tuğba Yutrsevər də həmin şəkildə oxumuşlar (DLT-2005, s.112).

سُبيلادى S u b ı l a d ı: «سُبيلادى نانكنى subıladı nənqni = enli şeyin yanlarmı kəsib daraltdı, naziltdi», (سُبيلار - سُبيلاماق subılar – subılamak).

جَتيلادى Ç a t ı l a d ı: «بَرگا جَتيلادى bərgə çatıladı = qamçı şaqqıldadı». Hər hansı bir şey qamçı şaqqıltısı kimi səs çıxarsa, yenə belə deyilir, (جَتيلار - جَتيلاماق çatılar – çatılamak).

سَتوُلادى S a t u l a d ı: «اُل تِلم سَتوُلادى ol təlim satuladı = o, bir yığm mənasız söz danışdı», (سَتوُلار - سَتوُلاماق satular – satulamak).

سَجوُلادي S a ç u l a d ı: «اُل سُفلُق سَجوُلادي ol suvluk saçuladı = o, yaylıq və yayhğa bənzər şeyləri saçaqladı, saçaq düzəltdi, (سَجوُلار - سَجوُلاماق saçular – saçulamak).

قَجالادى K a ç a l a d ı: «اُل نانكنى قَجالادى ol nənqni kaçaladı = o, nəsnəni qaba qoydu», (قَجالار - قَجالاحاق kaçalar – kaçalamak). Əsli «قاجالادى kaçaladı»dır,الف əlif düşmüşdür.

قِجيلادى K ı ç ı l a d ı: «اُل مَنى قِجيلادى ol məni kıçıladı = o məni qıdıqladı». İnsanı güldürmək üçün onun qoltuğunu və ayağınm altmı qaşıyırlar, (قِجيلار - قِجيلاماق kıçılar – kıçılamak).

قرالادى K a r a l a d ı: «اُل قرالادى نانكنى ol karaladı nənqni = o, nəsnəni qaraladı», (قرالار - قرالاحاق karalar – karalamak).

قريلادى K a r ı l a d ı: «اُل ييرک قريلادى ol yerig karıladı = o, yeri qarışladı, ölçdü». Başqası da belədir.

قريلادى K a r ı l a d ı: «اُل اَرک قريلادى ol ərig karıladı =o, adamı qoca saydı, yaşlı saydı», (قريلار - قريلاماق karılar – karılamak).

قرالادى K a r a l a d ı: «اِت ıt قرالادى karaladı = it pislədi», (قرالار - قرالاماق karalar – karalamak)[275].

---

[275] Bu sözün müzare və məsdərini Bəsim Atalay qoymuşdur.

قريلادى K a r ı l a d ı: «تُبى قارغ قريلادى tüpi karığ karıladı = boran uğultu ilə qar gətirdi», (قريلار - قريلاماق karılar–karılamak).

جُغيلادى Ç o ğ ı l a d ı: «اَر جُغيلادى ər çoğıladı = adam bağırıb-çağırdı», (جُغيلار - جُغيلاماق çoğılar – çoğılamak). Bu söz bəzən «جَغيلادى çağıladı» şəklində də deyilir.

جَغيلادى Ç a ğ ı l a d ı: «سوُف جَغيلادى suw çağıladı = su çağladı». «زَغيلادى jağıladı», «شَغيلادى şağıladı» sözləri də var. (شَغيلار - شَغيلاماق şağılar–şağılamak). Bu şeirdə də işlənmişdir:

قتُــــن سينى جُغيلادى
تَنُكـــت باكِن يَغيلادى
قنـــــى اَقِب زَغيلادى
بُيُن سوُقُن قِزِل سَغدى

«Katun sini çoğıladı,
Tanqut bəgin yağıladı,
Kanı akıp jağıladı,
Boyun suwm kızıl sağdı».
Katun sini bağırdı-çağırdı,
Tanqut bəyi ilə düşmən oldu,
Qanı axıb çağladı,
Boynunun suyu qızıl sağdı.

(Katun sini (bura bir yer adıdır, tanqutlarla Çin arasmda yerləşən kiçik bir şəhərdir) xalqı ilə tanqut xalqı çarpışdılar. Katun sini xalqı bağırdı-çağırdı, hayqırdı, tanqutlarla və onların bəyi ilə düşmən oldu, qanları su kimi çağlayaraq axdı, boyunlarından qırmızı su, yəni qan sağıldı, şoranlandı).

سَغوُلادى S a ğ u l a d ı: «اَر بُغداى سَغوُلادى ər buğday sağuladı = adam buğdanı ölçdü». Başqası da belədir, (سَغوُلار - سَغوُلاماق sağular – sağulamak).

جِفيلادى Ç ı f ı l a d ı: «كُب جِفيلادى küp çıfıladı = küp çıqıl-çıqıl səs verdi». Şira səs salaraq qaynasa, yenə belə deyilir, (جِفيلار - جِفيلاماق çıfılar – çıfılamak).

تُقُولادى T o k u l a d ı: «ار قَدْش تُقُولادى ər kadhış tokuladı = adam qayışa toqqa saldı, qayışı, kəməri toqqaladı»,(تُقُولار - تُقُولاماق tokular – tokulamak).

تَقِيلادى T ı k ı l a d ı: «تَقِيلادى نانک tıkıladı nənq = nəsnə tıq-tıq elədi, tıqqıldadı». Dirəyin palaz üstünə, yaxud yumşaq şeyin sərt bir zəminə tappıltı ilə düşərkən çıxardığı səsə də belə deyilir, (تَقِيلار - تُقِيلاماق tıkılar - tıkılamak).

تِكُولادى T i k ü l ə d i[276]: «اُل مَنكا اَت تِكُولادى ol manqa ət tikülədi=o mənə bir tikə ət verdi», (o mənə əti tikə-təkə, loxma-loxma verdi). Başqası da belədir.

تِكُولادى T i k ü l ə d i: «اُل بَككا نانک تِكُولادى ol bəggə nənq tikülədi = o, bəyə rüşvət olaraq bir şey verdi». Bu söz əvvəlki sözdən alınmışdır. (تِكُولار - تِكُولاماک tikülər – tikiləmək).

تِكِيلادى T i k i l ə d i: «تِكِيلادى نانک tikilədi nənq = nəsnə xışıltı saldı», (تِكِيلار - تِكِيلاماک tikilər – tikiləmək).

تَلُولادى T a l u l a d ı: «اُل تَلُولادى نانكنى taluladı nənqni = o, nəyi isə seçdi», (تَلُولار - تَلُولاماق talular – talulamak).

تُميلادى T ü m i l ə d i: «اَشياک تُميلادى eşyək tümilədi = eşşək səkərək qoşdu». Bu söz çox zaman «تُميلندى tümiləndi» şəklində deyilir, (تُميلار - تُميلاماک tümilər – tümiləmək).

تَمُولادى T a m u l a d ı: «اُل سُوقُغ تَمُولادى ol suwuğ tamuladı = o, suyun bəndini, səddini möhkəmləndirdi», (تَمُولار - تَمُولاماق tamular –tamulamak).

---

[276] Uyğurlar bu sözü «tikilədi» kimi (TTD, III tom, bet 444), çinlilər isə «tekülədi» kimi oxumuşlar (DLT-Çin, III cild, s.315).

BU BABIN MİSAL OLANLARI

يُبيلادى Y u b ı l a d ı: «اُل انى يُبيلادى ol am yubıladı = o onu aldatdı, ona hiylə etdi, al etdi». Bu şeirdə də işlənmişdir:

تَنكُت خانى يبيلادى
اُلـــــم برلا تُبوُلادى
قـذش لارى تَبالادى
اُلم كوُرُب يُزى اَغدى

«Tanqut[277] xanı yubıladı,
Ölüm birlə tüpülədi,
Kadhaşları tabaladı,
Ölüm körüp yüzi ağdı».
Tanqut xanı hiylə qurdu,
Ölüm ilə zərbə vurdu,
Qohumları tənə vurdu,
Ölüm görüb rəngi qaçdı.

(Tanqut xanı Katun sini xanına hiylə qurub onu aldatdı və başına ölümcül zərbə vurub öldürdü. Düşmənlər sevindi, ölən xanm qohum-qardaşı bundan çox utanc duydu, ölümü görüb rəngi qaçdı).

Bu söz oğuz və qıpçaq dillərindədir, (يُبيلار - يُبيلاماق yubılar–yubılamak). Digər türklər bu sözü az işlədir və hiyləyə «يَب يَب yap-yup» deyirlər, fe'lini düzəltmirlər.

---

[277] Son iki bənddəki şeirdə «Tanqut» sözü «Tənqüt» imlası ilə verilmişdir. Bu, türk ləhcələrinin birindədir, şübhəsiz ki, «Tanqut» deməkdir. Bəsim Atalay şeirdə və izahda «Tənqüt» (DLT, III, s. 327), Salih Mütəllibov şeirdə «Tənqüt», izahda «Tanqut» şəklini (TSD, III tom, bet 340-341) seçmişdir. Uyğur nəşri bu sözləri özbək nəşrində olduğu kimi vermişdir (TTD, III tom, bet 445-446). Bu savaş və şeir çox əski dönəmə aiddir, şeir də həmin savaşın poetik xatirəsidir.

يَسيلادى Y a s ı l a d ı: «اُل يَسيلادى نانكنى ol yasıladı nənqni = o, bir şeyi yastıladı, yaydı», (o, bir şeyi süfrə üstünə yayılan xəmir kimi yaydı).

يَسيلادى Y a s ı l a d ı: «اُل سوُزُک يَسيلادى ol sözüg yasıladı = o, sözü açıqca söylədi, kinayə yolu ilə söyləmədi», (يَسيلار - يَسيلاماق yasılar – yasılamak).

يَغيلادى Y a ğ ı l a d ı: «اُل آنى يَغيلادى ər anı yağıladı = adam ona düşmən oldu», «اَر يَغى يَغيلادى ər yağı yağıladı = adam yağı yağıladı, adam düşmənlə savaşdı, çarpışdı», (يَغيلار - يَغيلاماق yağılar – yağılamak).

BU BABIN MƏNQUS OLANLARI

اَيالادى A y a l a d ı: «قيز اَيالادى kız ayaladı = qız çəpik çaldı, əllərinin ayasını, ovcunun içini bir-birinə vurdu», (اَيالار - اَيالاماق ayalar–ayalamak). Bu, fəsih bir sözdür.

اُيالادى U y a l a d ı: «قُش اُيالادى kuş uyaladı=quş yuva qurdu», (اُيالار - اُيالاماق uyalar - uyalamak).

ڭُيالادى K ü y ə l ə d i: «اَر كِذِر ڭُيالادى ər kidhiz küyələdi = adam keçənin güvəsini silkdi, keçəni güvədən təmizlədi». Başqası da belədir, (ڭُيالار - ڭُيالاماک küyələr – küyələmək).

[Qayda]:

Bu bölmənin qaydaları bundan əvvəlki bölmədəki ilə eynidir. Bu bölmə bir neçə vəzifə daşıyır.

Birincisi: əsli dörd hərfili olan üç hərfli isimlərə –لادى [ladı/lədi şəkilçisi] qoşulması ilə fe'l düzəldilir, fail isə adı çəkilən hal və hərə-

kətdə bir iş görür. Məsələn: «ار تونْ قرالادی ər ton karaladı = adam paltarı qaraladı», «يير قريلادی yer karıladı=yeri qarışladı, ölçdü».

İkincisi: bir ismə لادی [-ladı/lədi şəkilçisi] qoşulmaqla yaranan fe'ldə adı çəkilən şeyə nisbət və izafət bildirir. Məsələn: « أل ارک اقيلادی ol ərig akıladı = o, adamı səxavətə sövq etdi», « أل انی قريلادی ol am karıladı = o onu qocalığa nəsbət etdi».

Üçüncüsü: fe'l başqa heç bir məna daşımır, öz müstəqim mənasında çıxış edir. Məsələn: «أل انی قجيلادی ol anı kıçıladı = o onu qıdıkladı», (o onun güləcək yerini qaşıdı), «اشياک تُميلادی eşyək tümilədi = eşşək səkərək qoşdu».

Dörd hərflilər bölməsi bitdi.

BEŞ HƏRFLİLƏR BÖLMƏSİ

ع ƏYN HƏRFİNİN HƏR NÖV HƏRƏKƏ İLƏ HƏRƏKƏLİ OLDUĞU فعلعادى FƏ'ƏL'ADİ BABI

تُبْتلادى T ü b ü t l ə d i: «اُل انى تُبْتلادى ol anı tübütlədi = o onu tibetli saydı, tibetliyə nisbət qıldı», (tübütlər bir tayfadır). (تُبْتلار- tübütlər – tübütləmək).

كِرتلادى K i r i t l ə d i: «اُل قَبُغ كِرتلادى ol kapuğ kiritlədi = o, qapını bağladı», (كِرتلار- كِرتلاماك kiritlər – kiritləmək).

جَنْجلادى Ç a n a ç l a d ı: «اُل انى جَنْجلادى ol anı çanaçladı = o onu arıq gördü», (o onu arıqlığa, zəifliyə nisbət etdi), (جَنْجلار- جَنْجلاماق çanaçlar – çanaçlamak).

قُلجلادى K u l a ç l a d ı: «اُل اُرُقنى قُلجلادى ol uruknı kulaçladı = o, urğanı qulacladı». Başqa şey qulaclansa, yenə belə deyilir, (قُلجلار- قُلجلاماق kulaçlar – kulaçlamak).

قِلِجلادى K ı l ı ç l a d ı: «اُل انى قِلِجلادى ol anı kılıçladı = o onu qılıncladı, qılıncla vurdu», (قِلِجلار- قِلِجلاماق kılıçlar – kılıçlamak).

قَمِجلادى K a m ı ç l a d ı: «اُل موُنْك قَمِجلادى ol münüg kamıçladı = o, şorbanı çömçələdi, çömçəni şorba ilə doldurdu», (قَمِجلار- قَمِجلاماق kamıçlar – kamıçlamak).

بَغِرلادى B a ğ ı r l a d ı: «اُل انى بَغِرلادى ol anı bağırladı = o onun bağrma vurdu».

بَغِرلادی B a ğ ı r l a d ı: «اُل یاسِن بَغِرلادی ol yasın bağırladı = o, yayın dəstəyini islah etdi, yayı sahmana saldı, düzəltdi», (بَغِرلار- بَغِرلاماق bağırlar – bağırlamaq).

جَغِرلادی Ç a ğ ı r l a d ı: «اُل اُزمنی جَغِرلادی ol üzümni çağırladı = o, üzümü şirə elədi», (جَغِرلار- جَغِرلاماق çağırlar – çağırlamaq). Biri içki içəndə də bu söz işlənir.

جِغِرلادی Ç ı ğ ı r l a d ı: «یِیرک جِغِرلادی yerig çığırladı = yerdə cığır saldı». Qar yolu örtsə və biri ayağı ilə cığır açsa, yenə belə deyilir, (جِغِرلار- جِغِرلاماق çığırlar – çığırlamaq).

سِغِرلادی S ı ğ ı r l a d ı: «اُل آنی سِغِرلادی ol anı sığırladı = o onu inəyə, sığıra nisbət qıldı, sığır saydı», (سِغِرلار- سِغِرلاماق sığırlar – sığırlamaq).

بُکُرلادی B ö g ü r l ə d i: «اُل آنی بُکُرلادی ol anı bögürlədi = o onun böyrəyinə, böyrünə vurdu».

بُکُرلادی B ö g ü r l ə d i: «اُل یَغینی بُکُرلادی ol yağmı bögürlədi=o, düşməni sol cinahdan, böyürdən, yandan vurdu»,(بُکُرلار- بُکُرلاماک bögürlər – bögürləmək).

تَرَسلادی T a r a s l a d ı: «آلب جَرك تَرَسلادی alp çərig tarasladı = alp igid qoşunu dağıtdı», «جَغِری قازغ تَرَسلادی çağrı kazığ tarasladı = çağrı quşu qaz sürüsünü dağıtdı». Hər hansı adam qüvvə ilə bir şeyi dağıtsa, yenə belə deyilir, (تَرَسلار- تَرَسلاماق taraslar – taraslamak).

تُرُسلادی T a r u s l a d ı: «اُل اِفِن تُرُسلادی ol əwin tarusladı = o, evinin damını düzəltdi», (تُرُسلار- تُرُسلاماق taruslar – taruslamak).

قُرُتسادی K u r u t s a d ı: «اَر قُرُتسادی ər kurutsadı = adamın könlü qurut istədi», (قُرُتسار- قُرُتساماق kurutsar – kurutsamak).

بَغِرسادی B a ğ ı r s a d ı: «اَر بَغِرسادی ər bağırsadı = adamm könlü qara bağır istədi», (بَغِرسار- بَغِرساماق bağırsar–bağırsamak).

كَدْرسادى K e d h ü r s ə d i: «اُل مَنكا تونُن كَدْرسادى ol manqa ton kedhürsədi =o mənə paltar geydirmək istədi», (كَدْرسار - كَدْرساماك kedhürsər – kedhürsəmək).

تَتِغسادى T a t ı ğ s a d ı: «اَر تَتِغسادى ər tatığsadı = adamın könlü şirni istədi», (تَتِغسار - تَتِغساماق tatığsar – tatığsamak).

سَتِغسادى S a t ı ğ s a d ı: «اَر اَتِن سَتِغسادى ər atm satığsadı = adam atmı satmaq istədi», (az qala satdı, satan kimi oldu). Bu şeirdə də işlənmişdir:

اَڤــن بَرقِن سَتِغسادى
يُلــغ بيرب يَرغسادى
تــرِك ارسا تُرُغسادى
اَنــكَر ساقِنج كُنى تُغدى

«Əwin-barkm satığsadı,
Yoluğ berip yarığsadı,
Tirig ərsə turuğsadı,
Anqar sakmç küni toğdı».
Ev-eşiyini satmaq istədi,
Fidyə verib özünü qurtarmaq istədi,
Sağ olduqca yaşamaq istədi,
Ona qayğı dolu gün doğdu.

(Özünü qurtarmaq üçün fidyə versin deyə düşmən onun evini-mülkünü satmaq istədi, o, sağ qalmaq, yaşamaq arzusu ilə buna razı oldu, ancaq qayğılı-kədərli günləri başladı», (سَتِغسار - سَتِغساماق satığsar - satığsamak).

بَرغسادى B a r ı ğ s a d ı: «اُل اَڤكا بَرغسادى ol əwgə barığsadı = o, evə getmək istədi». Başqası da belədir, (بَرغسار - بَرغساماق barığsar –barığsamak).

تُرُغسادی T u r u ğ s a d ı: «اُل مَندا تُرُغسادی ol munda turuğsadı = o burada durmaq istədi», (تُرُغسار - تُرُغساماق turuğsar – turuğsamak).

قُرُغسیدی K u r u ğ s a d ı: «قُرُغسیدی kuruğsadı[278] = qurumağa üz tutdu», (قُرُغسیر - قُرُغسیماق kuruğsar–kuruğsamak). Buna görə mədəyə «قُرُغساق kuruğsak=qursaq» deyilir, çünki qursaq saatdan-saata quruyur, yemək istəyi coşur.

بَلِقسادی B a l ı k s a d ı: «اَر بَلِقسادی ər balıksadı = adamın könlünə balıq düşdü», (بَلِقسار - بَلِقساماق balıksar – balıksamak).

بِلِکسادی B i l i g s ə d i: «اُغلان بِلِکسادی oğlan biligsədi = uşaq ağıllı olmaq istədi, ağıllanmaq istədi», (بِلِکسار - بِلِکساماک biligsər – biligsəmək).

بَرکسادی B e r i g s ə d i: «اُل مَنکا تَوار بَرکسادی ol manqa tavar berigsədi = o mənə mal vermək istədi, az qala mal verdi». Başqası da belədir, (بَرکسار - بَرکساماک berigsər – berigsəmək).

کُرُکسادی K ö r ü g s ə d i: «اُل مَنی کُرُکسادی ol məni körügsədi = o məni görmək istədi, mənə qovuşmaq istədi», (کُرُکسار - کُرُکساماک körügsər – körügsəmək).

کِرکسادی K i r i g s ə d i: «اُل اَڤکا کِرکسادی ol əwgə kirigsədi = o, evə girmək istədi». Başqası da belədir, (کِرکسار - کِرکساماک kirigsər – kirigsəmək).

کَلِکسادی K ə l i g s ə d i: «اُل مَنکا کَلِکسادی ol manqa kəligsədi = o mənim yanıma gəlmək istədi», (کَلِکسار - کَلِکساماک kəligsər – kəligsəmək).

---

[278] Burada türkcə bir söz çatışmır. Ərəbcəsinə baxdıqda onun «nənq» olduğu anlaşılır. Seçkin Ərdi ilə Sərap Tubğa Yurtsevər bu sözü «kuruğsıdı» (DLT-2005, s.453) kimi oxumuşlar. Onlar misalda türkcə hər hansı bir sözün çatışmaması barədə mötərizə içində heç bir qeyd verməmişlər. Uyğurların bu çatışmazlıq barədə qeydləri var: «ərəbcəsinə baxdıqda, bu yerdə «nənq kuruğsıdı» cümləsindən «nənq» sözünün düşmüş olduğunu görürük» (TTD, III tom, bet 456). Çinlilər də (DLT-Çin, III cild, s.324) bu barədə qeyd vermişlər.

بَغْشلادی B a ğ ı ş l a d ı: «اُل مَنکا اَت بَغْشلادی ol manqa at bağışladı = o mə-nə at bağışladı». Başqası da belədir, (بَغْشلار - بَغْشلاماق bağış-lar – bağışlamak).

تَقْشلادی T a w u ş l a d ı: «تَقْشلادی نانک tawuşladı nənq=nəsnə qımıldan-dı», (bir şeydə sezgi və hərəkət başladı), (تَقْشلار - تَقْشلاماق tawuşlar – tawuşlamak).

سُرُشلادی S u r u ş l a d ı: «اُل تَرغ سُرُشلادی ol tarığ suruşladı = o, buğda başağını sütül elədi», (سُرُشلار - سُرُشلاماق suruşlar – suruşla-mak).

قَدْشلادی K a d h ı ş l a d ı: «اُل کوْنْک قَدْشلادی ol könüg kadhışladı = o, gön-dən qayış düzəltdi», (قَدْشلار - قَدْشلاماق kadhışlar – kadhışla-mak).

قرشلادی K a r ı ş l a d ı: «اُل بَرچِن قرشلادی ol barçın karışladı = o, ipək parça qarışladı». Başqası da belədir, (قرشلار - قرشلاماق ka-rışlar – karışlamak).

بِشِغلادی P ı ş ı ğ l a d ı: «اُل اَت بِشِغلادی ol ət pışığladı=o, ət bişirdi». Baş-qası da belədir, (بِشِغلار - بِشِغلاماق pışığlar – pışığlamak).

سَتِغلادی S a t ı ğ l a d ı: « اُل اَنِک برلا سَتِغلادی ol anınq birlə satığladı=o onunla birlikdə sövdələşdi», (سَتِغلار - سَتِغلاماق satığlar–satığ-lamak). Doğru olanı «سَتِغلشدی satığlaşdı»dır. İkisi də işlə-nir.

سَرغلادی S a r ı ğ l a d ı: «اُل تونْنِ سَرغلادی ol tonm sarığladı = o, paltarını sarı elədi, sarı boyadı». Başqası da belədir, (سَرغلار - سَرغلاماق sarığlar – sarığlamak).

قِدْغلادی K ı d h ı ğ l a d ı: «اُل بُرک قِدْغلادی ol börk kıdhığladı = o, börkü-nün kənarını tikdi». Başqası da belədir, (قِدْغلار - قِدْغلاماق kı-dhığlar – kıdhığlamak).

قُرُغلادى K u r u ğ l a d ı: «قُرُغلادى نانكنى kuruğladı nənqni = nəsnəni quru istifadə elədi», (قُرُغلاماق - قُرُغلار kuruğlar–kuruğlamak).

قَسِغلادى K a s ı ğ l a d ı: «اُل قُلِن قَسِغلادى ol kulm kasığladı = o, qulunun ovurduna, ağzma vurdu», (قَسِغلاماق - قَسِغلار kasığlar–kasığlamak)[279].

بُتَقلادى B u t a k l a d ı: «اُل يغاجغ بُتَقلادى ol yığaçığ butakladı =o, ağacı budadı», (o, ağacın budaqlarını kəsdi), (بُتَقلاماق - بُتَقلار butaklar–butaklamak)[280]. Əsli «butıdı»dır.

تُتُقلادى T u t u k l a d ı: «اُل اُغلِن تُتُقلادى ol oğlın tutukladı = o, oğlunu axtaladı, yaxud onun axta, xədim adamla əlaqədə olduğunu düşündü», (تُتُقلاماق - تُتُقلار tutuklar – tutuklamak).

بَشَقلادى B a ş a k l a d ı: «اُل سُنكوُ بَشَقلادى ol sünqü başakladı = o, nizəyə başaq taxdı», (mizrağa dəmir ucluq taxdı), (بَشَقلاماق - بَشَقلار başaklar – başaklamak).

تُرُقلادى T u r u k l a d ı: «اُل اَتغ تُرُقلادى ol atığ turukladı = o, atı arıq saydı». Başqası da belədir, (تُرُقلاماق - تُرُقلار turuklar – turuklamak).

چِبقلادى Ç ı b ı k l a d ı: «اُل اَتِن چِبقلادى ol atm çıbıkladı = o, atnı çubuqladı, çubuqla vurdu», (چِبقلاماق - چِبقلار çıbıklar–çıbıklamak).

جَرُقلادى Ç a r u k l a d ı: «اُل اَذاقِن جَرُقلادى ol adhakın çarukladı = o, ayağına türk çarığı geydi», (جَرُقلاماق - جَرُقلار çaruklar – çaruklamak).

جَرُقلادى Ç a r u k l a d ı: «جَرُق çaruk» adlı boya nisbət edilsə, yenə belə deyilir[281].

---

[279] Yazma və basma nüsxədə ka hərfinin üstündə fəthə, altmda kəsrə var. Bu, sözün hər iki variantda oxuna biləcəyinə işarədir.

[280] Həm yazma, həm də basma nüsxədə bu maddənin sözlərindəki t hərfinin üstündə fəthə, altında kəsrə var. Bu, həmin sözlərin hər iki variantda oxuna biləcəyinə işarədir.

قَبقَلادی K a p a k l a d ı: «اَر قیزغ قَبقَلادی ər kızığ kapakladı = adam qızm bakirəliyini aldı», (قَبقَلار - قَبقَلاماق kapaklar–kapaklamak).

قُجقَلادی K u ç a k l a d ı: «اُل بَرجِن قُجقَلادی ol barçın kuçakladı = o, ipək parçanı qucaqladı», (قُجقَلار - قُجقَلاماق kuçaklar–kuçaklamak)[282].

قَرقَلادی K a r a k l a d ı: «اُل تَوارغ قَرقَلادی ol tavarığ karakladı = o, yol kəsib mal aldı», (قَرقَلار - قَرقَلاماق karaklar – karaklamak). Yağmaca.

قَشقُلادی K a ş u k l a d ı: «اُل بالِغ قَشقُلادی ol balığ kaşukladı = o, balı qaşıqladı», (قَشقُلار - قَشقُلاماق kaşuklar – kaşuklamak)[283].

قُلقلادی K u l a k l a d ı: «اُل اُغلِن قُلقلادی ol oğlın kulakladı = o, oğlunun qulağma vurdu», (قُلقلار - قُلقلاماق kulaklar–kulaklamak).

قُمقُلادی K u m u k l a d ı: «اَت قُمقُلادی at kumukladı=at təslədi, təzəklədi».

قُمقُلادی K u m u k l a d ı: biri Kumuk adlı bəyin himayəsinə girsə, yenə belə deyilir. (قُمقُلار - قُمقُلاماق kumuklar–kumuklamak).

قُنقلادی K o n u k l a d ı: «بَک مَنی قُنقلادی bəg məni konukladı = bəy məni qonaq etdi». Başqası da beldir, (قُنقلار - قُنقلاماق konuklar – konuklamak). Oğuzlardan başqa boyların dilində bu söz bir adamın ev sahibinin razılığı olmadan onun evində gecələməsi mənasmdadır. Bu şeirdə də işlənmişdir:

يَغـی بَکدِن اُنقلادی
کُرُب سوُنی اِنقلادی
اُلـــم اَنی قُنقلادی
اَغِزاجِرا اَغوُ سَغدی

---

[281] «Çaruk»la başlayan sözlərdəki r hərfinin üstündə fəthə, altında kəsrə var. Bu, həmin sözlərin həm «çaruk», həm də «çarık» oxuna biləcəyinə işarədir.

[282] Bəsim Atalayın qeydinə görə, bunun ərəbcəsində dolaşıqlıq var (DLT, III, s. 338).

[283] Burada isə sözlərdə ş hərfinin üstündə fəthə, altında kəsrə var. Bu, həmin sözlərin həm «kaşuk», həm də «kaşık» oxuna biləcəyini göstərir.

«Yağı bəgdin udhukladı,
Körüp süni adhıkladı,
Ölüm anı konukladı,
Ağız içrə ağu sağdı».
Yağı bəydən yana uyudu,
Qoşunu görüb çaşdı,
Ölüm onu qonaq etdi,
Ağzınm içinə ağı sağdı.

(Düşmən bəydən sarı uyudu, onu ciddiyə almadı, qəfildən qoşunu görəndə çaşdı, heyrətə düşdü, ölüm onu qonaq etdi, ağzma zəhər töküb öldürdü).

بِجَكلادى B i ç ə k l ə d i: «اُل اَنى بِجَكلادى ol anı biçəklədi = o onu bıçaqladı», (بِجَكلار - بِجَكلاماك biçəklər – biçəkləmək).

بَدُكلادى B e d ü k l ə d i: «اُل مَنى بَدُكلادى ol məni bedüklədi = o məni böyük saydı», (بَدُكلار - بَدُكلاماك bedüklər – bedükləmək).

بَلَكلادى B e l ə k l ə d i: «اُل مَنكا بَلَكلادى ol manqa beləklədi = o mənə ərməğan verdi», (بَلَكلار - بَلَكلاماك beləklər – beləkləmək).

تَزَكلادى T ə z ə k l ə d i: «اَت تَزَكلادى at təzəklədi = at təslədi», (تَزَكلار - تَزَكلاماك təzəklər - təzəkləmək).

تَژكلادى T ə j i k l ə d i: «اُل اَنى تَژكلادى ol anı təjiklədi = o onu tacik, fars saydı, tacikə nisbət qıldı», (تَژكلار - تَژكلاماك təjiklər – təjikləmək).

تَشُكلادى T e ş i k l ə d i: «اُل اَنى تَشُكلادى ol anı teşiklədi = o onu acgöz, qarınqulu saydı», (تَشُكلار - تَشُكلاماك teşiklər–teşikləmək).

جُرَكلادى Ç ö r ə k l ə d i: «اُل اوُنغ جُرَكلادى ol unuğ çörəklədi = o, undan çörək bişirdi», (جُرَكلار - جُرَكلاماك çörəklər – çörəkləmək).

كَرَكلادى K ə r ə k l ə d i: «اُل اَنى كَرَكلادى ol anı kərəklədi = o onu axtardı, araşdırdı», (كَرَكلار - كَرَكلاماك kərəklər – kərəkləmək).

كُرُكلادى K ö r ü k l ə d i: «اُل اُوتُغ كُرُكلادى ol otuğ körüklədi = o, odu körüklədi», (كُرُكلار - كُرُكلاماك körüklər – körükləmək).

كُجُكلادى K ö ç ü k l ə d i: « اُل اُغلِن كُجُكلادى ol oğlın köçüklədi = o, oğlunun yanına vurdu», (كُجُكلار - كُجُكلاماك köçüklər–köçükləmək).

كِجكلادى K i ç i k l ə d i: «اُل اَنى كِجكلادى ol anı kiçiklədi = o onu kiçik saydı», (كِجكلار - كِجكلاماك kiçiklər – kiçikləmək).

تُرُمالادى T u r u m l a d ı: «اُل سوُقُغ تُرُمالادى ol suwuğ turumladı = o, suyu boyu ilə ölçdü», (suyun dərinliyini boyu ilə ölçdü», (تُرُملار - تُرُملاماق turumlar – turumlamak).

تَرملادى T a r ı m l a d ı: «اُل اُكُزُنى تَرملادى ol öküzni tarımladı = o, bir adacıqdan digərinə hoppanmaqla çayı keçdi», (تَرملار - تَرملاماق tarımlar – tarımlamak).

بُتُنلادى B ü t ü n l ə d i: «اُل سوُزُك بُتُنلادى ol sözüg bütünlədi = o, sözün gerçək olub-olmadığını araşdırdı». Başqası da belədir, (بُتُنلار - بُتُنلاماك bütünlər – bütünləmək).

بُرُنلادى B u r u n l a d ı: «اُل اَنى بُرُنلادى ol anı burunladı = o onu burunladı, onun burnuna vurdu», (بُرُنلار - بُرُنلاماق burunlar–burunlamak).

تَبَنلادى T a b a n l a d ı: «تَوى تَبَنلادى təvəy tabanladı=dəvə ona dabanı, ayağı ilə vurdu», (تَبَنلار - تَبَنلاماق tabanlar–tabanlamak).

سَبَنلادى S a p a n l a d ı: «اُل يِيرك سَبَنلادى ol yerig sapanladı = o, yeri xışla, kotanla sürdü», (سَبَنلار - سَبَنلاماق sapanlar–sapanlamak).

BU BABIN MİSAL OLANLARI

يَغرلادى Y a ğ ı r l a d ı: «اُل اَتِن يَغرلادى ol atın yağırladı = o, atın yağırını sağaltdı». Atı yağır eləsə «اُل اَتغ يَغرتّى ol atığ yağrıttı» deyi-

lir. Bu, ərəb dilində də belədir, yoxsul oldu mənasmda تَرِبَ, zəngin oldu mənasında اَترَبَ deyilir. قَسَطَ sözü zülm etdi, اَقسَطَ söz isə ədalətli oldu deməkdir, (يَغرِلاماق - يَغرِلار yağırlar – yağırlamak).

يَقُزلادى Y a w u z l a d ı: «اُل يَقُزلادى نانكنى ol yawuzladı nənqni=o, nəsnəni pis hesab etdi», (يَقُزلاماق - يَقُزلار yawuzlar-yawuzlamak).

يَزُقلادى Y a z u k l a d ı: «بَك آنى يَزُقلادى bəg anı yazukladı = bəy onu bir günahı üzündən yaxaladı», (يَزُقلاماق - يَزُقلار yazuklar – yazuklamak).

يِتِكلادى Y i t i k l ə d i: «اُل آت يِتِكلادى ol at yitiklədi = o, itən atını soraqladı, at barədə yetikləşdi». Başqası da belədir, (يِتِكلار - يِتِكلاماك yitiklər – yitikləmək).

يَرملادى Y a r ı m l a d ı: «اُل يولُغ يَرملادى ol yoluğ yarımladı = o, yolu yarı etdi». Başqası da belədir, (يَرملاماق - يَرملار yarımlar – yarımlamak).

يِلمِلادى Y e l i m l ə d i: «اُل اُق يِلمِلادى ol ok yelimlədi = o, oxa ələk yapışdırdı».

يِلمِلادى Y e l i m l ə d i: « اُل يولُغ يِلمِلادى ol yoluğ yelimlədi=o, yolu yoxladı», (yolda düşmənin avanqardı və pusqu olub-olmamasını öyrənmək üçün qoşundan öncə ayrılıb getdi), (يِلملار - يِلملاماك yelimlər – yelimləmək).

يَغرنلادى Y a ğ r ı n l a d ı: «اُل آنى يَغرنلادى ol anı yağrınladı=o onun kürəyinə, yanma vurdu», (يَغرنلاماق - يَغرنلار yağrınlar–yağrmlamak)[284].

---

[284] Yazma və basma nüsxələrdə bu sözlərin imlası ilə bağlı fərqlər var. Yazma nüsxədə «yarınlar–yarınlamak» şəklində yazılan bu sözlər sonra düzəldilərək «yarğınlar–yarğmlamak» şəklinə salınmışdır. Bu baba uyğun gəlməsi üçün onlar «yarınladı-yarınlar–yarınlamak» şəklində olmalıdır.

Qayda:

Bu bölmənin əmri-hazır şəkli beş hərf üzərində qurulur. Məsələn: « مَنَى اَغِرلا məni ağırla = məni əzizlə, mənə hörmət et», « مَنكا اَت بَغِشلا manqa at bağışla» cümlələrindəki «اَغِرلا ağırla», «بَغِشلا bağışla» sözləri kimi.

İqrarda, inkarda, xitabda, faillər və faillərin sifətlərində, ismi-məfulda, zaman, məkan və alət isimlərində qayda keçən bölmədə olduğu kimidir. Hamısmda qayda birdir, dəyişməz.

Bu bölmədən məchul bir fe'l yaratmaq üçün əmr şəkli üzərinə bir ل l əlavə edilir. Bu surətlə sözdə iki ل l olur. «اَر اَغِرلدى ər ağırlaldı=adam əzizləndi», «اَت بَغِشلدى at bağışlaldı=at bağışlandı» kimi. Bunlarm «اَر اَغِرلندى ər ağırlandı», «اَت بَغِشلندى at bağışlandı» kimi söylənməsi də mümkündür. Ancaq birinci variantı daha işləkdir.

İki adam arasmda bir işin ortaq, müştərək görüldüyünü göstərmək üçün ش ş hərfinin əlavə edildiyini söyləmişdik.

Bu bölmə altı cür olur.

Birincisi: söz hərfi-illətsiz üç hərfli isimlərdən yaranmış olur. Məsələn: «قَبُغ كِرتلادى kapuğ kiritləndi = qapı kilidləndi». Sözün əsli üç hərfli «كِرت kirit»dir. Ona –ləndi şəkilçisi artırılmaqla fe'l düzəldilmişdir. «اَل اَنى قَسِغلادى ol anı kasıkladı = o onun ovurduna vurdu». Üç hərfli «قَسِغ kasığ» ovurd deməkdir, ona –لادى [-ladı şəkilçisi] əlavə edilməklə fe'l yaradılmışdır. Bu bölmə hər mənada bu şəkildə davam edir.

İkincisi: fe'l adı çəkilən şey və ya adam cümləsindən sayılır, ona nisbət qılınır. Məsələn: «اَل اَنى اُغزلادى ol anı oğuzladı=o onu oğuz

saydı, oğuzlara nisbət qıldı», «أل انى جكلادى ol anı çigilədi = o onu çigillərə nisbət qıldı, çigil saydı». Bir adam hər hansı bir şeyə nisbət qılınsa, yenə belə deyilir. «أل انى سرنلادى ol anı saranladı» sözü də belədir, «o onu xəsis saydı» deməkdir. Ərəb dilində də belədir, فسقته ظلمته deyilir ki, «sən onu zülmə, fisqə nisbət etdin» deməkdir.

Üçüncüsü: adı çəkilən bədən əzasma vurmaq mənasındadır. « أل انى قرنلادى ol anı karınladı = o onun qarnma vurdu», « أل انى بكرلادى ol anı bögürlədi = o onun böyrəyinə vurdu». Bu, ərəb dili ilə atbaşı yarışan türk dili üçün böyük fəzilətdir. Çünki ərəb dilində də isimdən fe'l yaradıla bilir. Məsələn: فخذه yanbızına vurdu, رأسه başma vurdu, مشته sidikliyinə vurdu, جلده dərisinə vurdu deməkdir. Başqaları da buna bənzəyir. Türklər də eyni şəkildə isimdən fe'l düzəldirlər. «توشلادى töşlədi = döşünə vurdu» kimi. Əsli «توش töş»dür, köks, sinə deməkdir. Bütün türk dillərində bu mənalarda istifadə edilən isimlərdən fe'l yaradılır.

Dördüncüsü: fail adı çəkilən alətlə bir işi məfulun üzərndə həyata keçirir. «أل انى قلجلادى ol anı kılıçladı = o onu qılıncladı, qılmcla vurdu», «أل انغ جبقلادى ol atığ çıbıkladı = o, atı çubuqladı, çubuqla vurdu» kimi.

Beşincisi: adı çəkilən şeyi öz cinsindən ayırmaqdır. Məsələn: « بامق أرغلادى pamuk uruğladı=pambıq çiyiddən ayrıldı», « تلولادى نانكنى taluladı nənqni = nəsnəni seçdi».

Altıncısı: fe'l yuxarıda saydığım mənalardan heç birini ifadə etmir, öz müstəqim mənasında çıxış edir. Məsələn: «أل منكا انت بغشلادى ol manqa at bağışladı = o mənə at bağışladı», « تنكرى مانى أغرلادى tənqri məni ağırladı=tanrı məni əzəzlədi».

Bundan sonra bunu da bilmlisən ki, qaydaya uyğun olsa belə hər isimdən fe'l yaranmaz. Söz gəlimi, «قسِق kosık», yəni fındıq sözündən «قسِقلادی kosıkladı» deyə bir fe'l düzəldə bilməzsən, ancaq «قشُق kaşuk» sözündən «قشُقلادی kaşukladı= qaşıqladı» fe'lini düzəldə bilərsən. Yenə bu şəkildə « اَت قنَقلادی at konakladı» deyə bilməzsən, («قنَق konak» yabanı bir darı növüdür), ancaq «اُل مَنی قنُقلادی ol məni konukladı =o məni qonaq etdi» deyə bilərsən. Halbuki onların ikisi də üç hərflidir. Deməli, isimlərin bir qismindən fe'l yaratmaq olar, bir qismindən isə olmaz. Əgər bir adam analogiya yolu ilə belə isimlərdən fe'l düzəldərək danışsa, eybi yoxdur, ona heç kim mane olmaz, səhv elədin deməz. Bu, o adam üçün bir çıxış yoludur.

Bu bölmə ilə [yəni ل lamlı bölmə] ن nunlu bölmə[285] arasında fərqlər var. Demişdik ki, nunlu fe'llər fe'lin failə lazım olduğunu və failin o işi təkbaşma gördüyünü bildirir. Bu bölmənin fe'lləri isə fe'lin faildən başqasma, yəni işin işi görəndən başqasma keçməsini bildirir.

Birincisi: ن nunlu fe'lə misal olaraq «اَر اتُکلندی ər ətükləndi = adam ayaqqabı sahibi oldu», «یغاج اَرُکلندی yığaç ərükləndi = ağac ərik verdi» cümlələrini göstərmək olar. Bu bölmə ərəblərin اِنفِعال babma uyğundur. ل lamlı bölməsinə daxil olan, -لادی [-ladı şəkilçisi] qəbul edən fe'llər isə ərəbcənin təf'il

[285] Ərəb dilinə və hərflərinə aşina olmayan oxucuların bu izahatı daha aydın şəkildə başa düşmələri üçün qısa şəkildə deməliyik ki, Mahmud Kaşğari burada «-ladı/lədi» suffiksi qəbul edən sözlər bölməsi ilə «-landı/ləndi» şəkilçisi qəbul edən sözlər bölməsini müqayisə edir, birinciyə tərkibindəki l hərfindən dolayı «lamlı», ikinciyə n hərfindən dolayı «nunlu» deyir. Öz dilimizdə sadə bir misal: «o, qapını kilidlədi», «qapı kilidləndi». Ərəb dilçiliyinə xas olan izahat üzündən dolaşıq görünən məsələ əslində bu qədər bəsitdir.

babma uyğun gəlir, həmişə təsirli olur. «اُل اَت كُرْكلادى ol ot körüklədi = o, od körüklədi», «اُل قَبُغ كِرتلادى ol kapuğ kiritlədi = o, qapmı kilidlədi» kimi.

Əgər fail adı çəkilən şeylə bərabərdirsə, ن nunlu bölmə bu mənada isimlərin hamısmıdan fe'l yaratmağı qəbul edir. Bunun qaydasını göstərmişik. Bu fe'llər şəxs şəkilçiləri ilə birgə işləndikdə onlardan ل l hərfi düşür. Məsələn: «مَن اُذقَلدِم mən udhıkladım», «سَن اُذقَلدِنـک sən udhıkladmq», «اُذقَلدى ol udhıkladı», «yuxuladım», «yuxuladm», «yuxuladı» deməkdir. Digər fe'llər bunlarla müqayisə olunaraq düzəldilə bilər.

Dörd hərfli fe'llərdə iki sükunlu ard-arda gələ bilməz. Çünki bu növ sözlərin son hərfi ذلاقه zəlakə hərfləri ilə yanaşı gəlir. O məna burada olmaz. «ارمَكوُردى- ارمَكوُرار- ارمَكوُرماك ərməgürdi–ərməgürər–ərməgürmək» kimi, «tənbəlləşdi–tənbəlləşər–tənbəlləşmək» deməkdir. Bununla bərabər bu sözlərdən و vav hərfi düşür və söz «اَرمَكُردى » şəklini alır və iki sükunlu bir arada olmur[286].

Bunu yadmda yaxşı saxla!

[286] Bəsim Atalay türk sözlərinin ərəb əlifbası ilə yazılışı zamanı ortaya çıxan mənasız qaydalara bu dəfə yumşaq şəkildə reaksiya vermişdir: «Bu qaydalar sözün ərəb hərfləri ilə yazılışına görədir» (DLT, III, s.349).

BEŞ HƏRFLİLƏR BÖLMƏSİ[287]

HƏR NÖV HƏRƏKƏSİ İLƏ فَعْلَلَادی FƏ'LƏ'LƏDİ[288] BABI

تَقْغاجلادی T a w ğ a ç l a d ı: «اُل اَنی تَقْغاجلادی ol anı tawğaçladı = o onu tavğaç, maçinli saydı», (تَقْغجلاماق - تَقْغجلار tawğaçlar – tawğaçlamak).

سُرقْجلادی S u r k u ç l a d ı: «اُل بجاک سُرقْجلادی ol biçək surkuçladı=o, bıçağm sapa girən ucunu lök ağacından alınan surğucla bərkitdi», (سُرُقجلار - سُرُقجلاماق surkuçlalar–surkuçlamak).

قَلبُزلادی K a l b u z l a d ı: «اُل قَلبُزلادی نانکنی ol kalbuzladı nənqni = o, nəsnəni loxma, tikə halma saldı; loxma-loxma uddu», (قَلبُزلار - قَلبُزلاماق kalbuzlar–kalbuzlamak).

قِرتِشلادی K ı r t ı ş l a d ı: «اُل سَغرینی قِرتِشلادی ol sağrmı kırtışladı = o, sağrı dərisini qazıdı». Başqası da belədir, (قِرتِشلار - قِرتِشلاماق kırtışlar – kırtışlamak).

بُغمَقلادی B o ğ m a k l a l d ı: «کُنکلک بُغمَقلادی könqlək boğmaklaldı[289]= köynək düymələndi». Başqası da belədir, (بُغمَقلانُور - بُغمَقلانماق boğmaklanur–boğmaklanmak)[290].

---

[287] «Beş hərfli sözlər bölməsi» başlığı ikinci dəfə verilir. Bax: 16 səhifə əvvələ.

[288] Yazma nüsxədə «fə'lə'ldi» şəklində yazılan bu söz yanlışdır. Aşağıda göstərilən misallardan anlaşıldığına görə «fə'lə'lədi» şəklində olmalıdır.

[289] Bu söz yanlışdır, baba uyğun şəkli «boğmakladı»dır.

[290] Bunlar da yanlışdır. Doğru şəkilləri «boğmaklar–boğmaklamak»dır.

تَمغقلادی T a m ğ a k l a d ı: «أل انی تَمغقلادی ol am tamğakladı = o onun boğazına vurdu», (تَمغقلار- تَمغقلاماق tamğaklar – tamğaklamak).

قرلقلادی K a r l u k l a d ı: «أل انی قرلقلادی ol anı karlukladı = o onu karluq boyundan saydı», (قرلقلار- قرلقلاماق karluklar–karluklamak). Karluqlar bir türkmən boyudur.

قِفجاقلادی K ı f ç a k l a d ı: «أل انی قِفجاقلادی ol anı kıfçakladı = o onu qıpçaq boyundan saydı», (قِفجقلار- قِفجقلاماق kıfçaklar–kıfçaklamak).

قلتقلادی K o l t u k l a d ı: «أل أتنک قلتقلادی ol otunq koltukladı = o, odun qoltuqladı, qoltuğuna odun vurdu», (قلتقلار- قلتقلاماق koltuklar – koltuklamak).

BU BABIN BAŞQA BİR NÖVÜ

کُربالادی K ö r p ə l ə d i: «اَت کُربالادی at körpələdi = at körpə ot yedi», (کُربالار- کُربالاماک körpələr – körpələmək).

تُرتالادی T ü r t ə l ə d i: «أل بُرک تُرتالادی ol börk türtələdi = o, papağa qızıl pərəklər taxdı, yapışdırdı». Başqası da belədir, (تُرتالار تُرتالاماک türtələr – türtələmək)[291].

قِفتُولادی K ı f t u l a d ı: «أل قِفتُولادی بُوزُک ol kıftuladı bözüg=o, bezi qırxdı». Bezi və ya başqa şeyi qayçı ilə qırxmaq və kəsmək bu sözlə ifadə olunur, (قِفتُولار- قِفتُولاماق kıftular – kıftulamak).

کِرتُولادی K i r t ü l ə d i: «أل انی کِرتُولادی ol anı kirtülədi = o onun sözünü təsdiq etdi», (کِرتُولار- کِرتُولاماک kirtülər–kirtüləmək).

---

[291] Bu maddədəki sözlər yanlışdır, b hərfi ilə başlamalıdır. Uyğurlar ərəb əlifbasında tu- ilə «turtaladı», latın əlifbasında bu- ilə «burtaladı» yazmış və müvafiq qeyd vermişlər (TTD, III tom, bet 480). Çinlilər (DLT-Çin, III cild, s.341) eyni şəkildə hərəkət etmişlər.

تَنجوُلادی T a n ç u l a d ı: «ارآنماک تَنجوُلادی ər ətmək tançuladı = adam çörək çeynədi». Başqası da belədir, (تَنجوُلار - تَنجوُلاماق tançular –tançulamak).

قَمجیلادی K a m ç ı l a d ı: «اُل اَتِن قَمجیلادی ol atın kamçıladı=o, atını qamçıladı». Başqası da belədir, (قَمجیلار - قَمجیلاماق kamçılar – kamçılamak).

بُکدالادی B ü k d ə l ə d i: «اُل انی بُکدالادی ol anı bükdələdi = o onu xəncərlədi», (بُکدالار - بُکدالاماک bükdələr – bükdələmək).

سَغریلادی S a ğ r ı l a d ı: «اُل کوُنک سَغریلادی ol könüg sağrıladı = o, qaba dərini sərtləşdirdi», (سَغریلار - سَغریلاماق sağrılar–sağrılamak).

تَمغالادی T a m ğ a l a d ı: «اُل بِتِک تَمغالادی ol bitik tamğaladı = o, kitaba, məktuba xaqanın damğasmı, möhürünü basdı», (تَمغالار - تَمغالاماق tamğalar-tamğalamak).

سُرکیلادی S ü r k i l ə d i: «اِت کَیکنی سُرکیلادی ıt keyikni sürkilədi = it geyiki qovdu», (it geyik dalına düşərək onun izini sürdü, tutmaq üçün qovdu). Hər hansı bir şey qovulsa və təqib edilsə, yenə belə deyilir, (سُرکُلار - سُرکُلاماک sürkilər– sürkiləmək)[292].

سِرکالادی S i r k ə l ə d i: «اُل اُغلَن باشِن سِرکالادی ol oğlan başm sirkələdi = o, uşağı başmı sirkədən təmizlədi».

سِرکالادی S i r k ə l ə d i: «اُل سوُقْغ سِرکالادی ol suwuğ sirkələdi = o, suya sirkə qatdı», (سِرکالار - سِرکالاماک sirkələr –sirkələmək).

Bu bölmədə qaydalar yuxarıda söylədiyim kimidir.

قَرمالادی K a r m a l a d ı: «اُل قَرمالادی نانکنی ol karmaladı nənqni = o, nəsnəni qapdı, qarmaladı, yağmaladı», (قَرمالار - قَرمالاماق karmalar – karmalamak)[293]. Dörd hərfli sözlər kitabı bitdi.

---

[292] Yazma və basma nüsxələrdə imla xətası olan bu sözləri Bəsim Atalay indiki şəkildə düzəltmişdir (DLT, III, s. 353).

[293] Bu sözün müzare və məsdəri yazma nüsxədə var, basma nüsxədə yoxdur.



BİSMİLLAH İR-RƏHMAN İR-RƏHİM

ĞÜNNƏLİ [İSİM]LƏR KİTABI

İKİ HƏRFLİLƏR BÖLMƏSİ

Mahmud deyir ki, günnəli sözlər iki növdür. ج ç hərfi ilə olan günnəlilər [nç] və ک ke hərfi ilə [nq] olan günnəlilər. Bunlar da öz növbəsində iki qola ayrılır. Bu hərflər bəzi sözlərin ortasında, bəzi sözlərin isə axırında gəlir. Onlarm hamısını öz yerində bəyan edəcəyik.

بُنک B ö n q: «بُنک کِشی bönq kişi = cüssəli, yoğun, yöndəmsiz adam». Bunun əsli «شَبَنک şəbənq»dir, dəmirdən düzəldiimiş əsa deməkdir. Bönq həmin sözün qısaldılmışıdır.

بُنک B ö n q: «بُنک اَتّی bönq etti=ağır bir şey yerə düşərək səs çıxardı».

بَنک B a n q: «أغلان بَنک سِغتادی oğlan banq sığtadı=uşaq bağıraraq ağladı».

تَنک T ə n q: tən, yaşıd, tay, tuş. Bu sözdən almaraq «تَنک توُش tənq tuş =tən, tay, tuş» deyilir.

تَنک T ə n q: fürsət, sıra, imkan. Bu atalar sözündə də işlənmişdir: «تَنکسیزدا تَگرمان تُرغُرسا یَرَغسِزدا یار یَریر tənqsizdə təgirmən turğursa, yarağsızda yar berir = biri yaraşmayan yerdə dəyirman tiksə, gözlənilmədən yarıq peyda olar», (mümkün olan və yaraşan yerdə dəyirman tikməyən adam üçün heç gözlənilmədən yarıq, çat peyda olar). Bu söz işini öz vaxtında görməyən adam barəsində deyilir.

تَنک T a n q: ələk. Arğuca.

تَنک T a n q: «تَنک نانک tanq nənq = qəribə şey, əcaib şey». Bu sözdən alınaraq «تَانک کُردُم tanq kördüm=əcaib bir şey, danılacaq bir şey gördüm» deyilir.

تَنک T a n q: dan, sübh çağı. Bu şeirdə də işlənmişdir:

تَنک اَتا یـــــُرتَلِم
بُذرُج قَنـــــِن اِرتَلِم
بَسـمِل بَکِن اُرتَلِم
اَمدی یکِت یقلسوُن

«Tanq ata yortalım,
Budhruç kanm irtəlim,
Basmıl bəgin örtəlim,
Əmdi yigit yuwulsun».
Dan yeri atanda yüyürək,
Budhruçun qanmı istəyək,
Basmıl bəyini yandıraq,
İndi igidlər toplansm.

(Dan yeri söküləndə yola çıxaq, Budhruçun (yabakuların bahadırlarından biridir) qanını istəyək, qisasım alaq, basmıl bəyini yandıraq, qoy igidlər toplaşsınlar).

تَنک T a n q: «تَنک اَتّی tanq attı = dan yeri ağardı, dan söküldü».

تُنک T o n q: «تُنک تُنک اَتّی tonq tonq etti = sərt bir şey başqa şeyin üstünə düşərək səs çıxardı».

تُنک T o n q: içi boş olmayan, dolu olan hər şeyə «تُنک نانک tonq nənq» deyilir.

تُنک T o n q: «تُنک قَمِش tonq kamış = içi boş olmayan qamış»; qındıra otu.

تُنک T o n q: soyuqdan donmuş ətə «تُنک اَت tonq ət» deyilir. Başqası da belədir.

تَنک T o n q[294]: qədim dövrlərə aid tikili, bərbad hala düşən, uçub–tökülən xarabalar kimi ancaq təməlləri qalmış tikili. Bu, höyük və ona bənzər şeydir.

تِنک T i n q: «اَر تِنک تُردی ər tinq urdu = adam dik durdu».

جَنک Ç ə n q[295]: çəng, zəng, musiqi aləti.

جُنک Ç u n q: «جُنک ات çunq ət = iri doğranmış ət».

جِنک Ç ı n q: «قُلاقِم جِنک اَتّی kulakım çınq etti = qulağım cingildədi». Çən və ləyən kimi şeylər səs versə, yenə belə deyilir. « قُلاقِم جِنک اَتّی kulakım çmq etti» deyilsə, əvvəlkindən daha fəsih olar[296].

جِنک Ç i n q: «جِنک تُلوُ کوُل çinq tolu köl = tam dolmuş hovuz». Hər hansı bir şey ağzmacan dolsa, «جِنک تُلوُ çinq tolu» deyilir.

دَنک D a n q: «دَنک دُنک اَتّی نانک danq dunq etti nənq = danq-dunq səsi çıxaran nəsnə». Bu, «تَنک تُنک اَتّی tanq-tunq etti» sözü kimidir, «səs çıxardı» deməkdir.

سَنک S a ŋ q: quş sılı. «قُش سَنکی kuş sanqı = quş sılı».

سُنک S o n q: bir adamın çoluq-çocuğu.

سُنک S o n q: «sonra» deməkdir. «سَن مَنِک سُنکدا کَل sən məninq sonqda kəl = sən məndən sonra gəl, arxamca, dalımca gəl».

سُنک S o n q: hər şeyin və hər işin sonu. «بُو سُوز سُنِکندا ایغل bu söz sonqında ayğıl = bu sözdən sonra söylə».

سِنک S i n q: «قُلاقِم سِنِک اَتّی kulakım sinq etti = qulağım cingildədi».

---

[294] Uyğur nəşrində bu söz «tanq» şəklində verilmişdir (TTD, III tom, bet 487). Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər də həmin sözü «tanq» kimi (DLT-2005, s.528) oxumuşlar. Çinlilərdə də «tanq»dır (DLT-Çin, III cild, s.347).

[295] Uyğurlar bu sözü «çonq», bundan sonrakı sözü «çunq» kimi (TTD, III tom, bet 487), Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər bu sözü «çanq» (DLT-2005, s.220), bundan sonrakı sözü isə «çonq» kimi (DLT-2005, s. 240) oxumuşlar. Çinlilər (DLT-Çin, III cild, s.347) uyğurlarla eyni şəkildə vermişlər.

[296] Bu misalın əvvəlkindən nə yazılışda, nə də tələffüzdə heç bir fərqi yoxdur. Nə üçün verildiyi anlaşılmır.

سِنک S i n q: «كِمُنجا سِنک اَتّی kimünçə sinq etti = ağcaqanad vızıldadı». Milçək vızıldayanda da belə deyilir.

قَنک K a n q: «قاز قَنک اَتّی kaz kanq etti = qaz səs saldı». Bu, özünə bənzəyən hər şeyin çıxardığı səsin hekayəsidir.

قُنک K u n q: «قُنک اَت kunq ət = əzələ».

كُنک K ü n q: cariyə[297].

كِنک K i n q[298]: «كِنک نانک kinq nənq=gen, geniş nəsnə». Bu atalar sözündə də işlənmişdir: « كِنک توُن أبراماس، كَنكاش لِک بِلِک أرتاماس kinq ton opramas, kənqəşlig bilig artamas = gen paltar yıpranmaz, məsləhətli iş pozulmaz», (paltar gen olsa yıpranmaz, məşvərətlə, məsləhətlə ağıl birləşsə, iş pozulmaz). Bu söz bir iş görəndə təkcə öz ağlına güvənməməsi, başqaları ilə məsləhətləşməsi vacib olan adam üçün deyilir.

مَنک M ə n q: quş yemi. Bu atalar sözündə də işlənmişdir: « قُش توُزَقا مَنک أجُن اِلنوُر quş tuzakka mənq uçun ılmur=quş tələyə yem üzündən düşər». Bu söz ruzi axtararkən fənalığa düşən adam barədə deyilir.

مَنک M ə n q: xal, üzdəki xal. Bu bənddə də işlənmişdir:

بيرنک مَنکا سوُزكِيا
مَنـــک لِک قرا تُرقِيا
يَلـــــقُن تتار كُزكِينا
مُنكُـــــم مَنک بَلِنکا

---

[297] «Divan»da cariyə sözünün sinonimi çoxdur: kırnak, kız, kız-kırkın, kinayə yolu ilə deyilən yinçü, kaçaç, as və nəhayət, küni. Bu son söz kişinin cariyə ilə rəsmi evlənməsinə işarədir. Qadın cariyəni deyil, ərinin digər rəsmi arvadını günü sayar.

[298] Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər bu sözü «kenq» kimi (DLT-2005, s. 304) oxumuşlar. Uyğur nəşrində (TTD, III tom, bet 489) və Salih Mütəllibovun tərcüməsində də həmin söz «kenq»dir (TSD, III tom, bet 370).

«Berinq manqa sözkiyə,
Mənqlig kara tuz kıya,
Yalwm tutar köz kiyə,
Munqum məniniq bilinqə».
Mənə bircə söz veriniz,
Ey xallı əsmər,
Şirin üzlü, gözləri əfsunlu,
Mənim nələr çəkdiyimi biləsən.

(Mənə tək bir kəlmə söz söyləyiniz, bir vəd veriniz, ey siyah xallı, şirin üzlü, ahu gözlü dilbər, sənin yolunda nələr çəkdiyimi bircə bilsən).

مُنک M u n q: «مُنک تاغ munq tağ = adam özünü tanıdığı, on altı-on yeddi yaşına çatdığı zaman çıxan diş». «مُنک تاغ لُندی munq tağ öndi = ərgənlik dişi [ağıl dişi ?] çıxdı».

مُنک M u n q: qəm, möhnət. Bu atalar sözündə də işlənmişdir: « ارکا مُنک تَکیر، تاغ سَنکرِیلکا یِیل تَکیر ərgə munq təgir, tağ sənqirinqə yel təgir = igidə möhnət gələr, dağ başına yel dəyər», (insanm başına iş gələr, necə ki, dağ başma yel dəyər, sonra yel gedər, dağ qalar).

مِنک M i n q: min, sayda min. Bu atalar sözündə də işlənmişdir: « بیرن بیرن مِنک بُلوُر، تَماتَما کُل بُلوُر birin-birin minq bolur, tama-tama köl bolur=birər-birər min olar, dama-dama göl olar». Bu söz az olan şeyi də qəbul etməsi məsləhət görülən adam üçün eyilir.

نَنک N ə n q: nəsnə, şey.«بوُ نا نانک اُل bu nə nənq ol= bu nə olan şeydir».

نَنک N ə n q: mal. Bu şeirdə də işlənmişdir:

بُلمِش نَنکِک سَقرسَن
اَقـــرُن اَنکَرسَقِنکِل

بَرمِـش تنكِک سَقِنما

اَزراق اَنـــكَر اَكْنكِل

«Bulmış nənqinq səwərsən,

Akrun anqar səwingil,

Barmış nənqinq sakmma,

Azrak anqar öküngil».

Əlində mal var ikən,

Çox sevinmə, çox gülmə,

Əgər getsə əlindən,

Saqın onda üzülmə.

(Əlindəki mala görə sevinirsən. Dəyməz, ona sevinmə. Ola bilər ki, o, əlindən çıxsın. Mal əldən getsə, ona az təəssüf elə, çünki acı və təəssüf o malı geri gətirməz).

BU BABIN MİSAL OLANLARI

يَنک Y a n q: bir şeyin qəlibi, əndazəsi, modeli. Bu, istənilən şeyin formasma görə hazırlanır və ona görə kəsilir. «بُرک يَنکی börk yanqı=papaq qəlbi». Kağızdan bəzi parçalar kəsilir, yaxud palçıqdan ocaq formasmda bir qəlib hazırlanır, onun ölçülərinə görə ipək qumaşlar kəsilir. Hər şeyin əndazəsi, qəlibi də belədir.

يُنک Y u n q: ciyərə bitişik ət parçası. Bunu ancaq qadınlar yeyirlər, kişilər yemirlər.

يُنک Y ü n q: yun, dəvə və ya qoyun yunu.

يُنک Y ü n q: pambıq. Arğuca. Yağmaca və karluqca da belə deyilir.

يَنک Y e n q: paltarın yanı.

ينک Y i n q: fırtıq.

İki hərflilər bitdi.

[ÜÇ HƏRFLİLƏR BÖLMƏSİ]

HƏR NÖV HƏRƏKƏSİ İLƏ فَعْل، فَعِل، فَعَل FƏ'ƏL, FƏ'UL, FƏ'İL BABI

تَنْكُت T ə n q ü t: Çinə yaxm yerdə yaşayan bir türk boyu. Onlar öz əcdadlarmın ərəblər olduğunu söyləyirlər.

كِنْكُت K i n q ü t: uyğur sərhədində bir şəhər adı.

سِنْكُت S i n q ü t[299]: əvəzində bir şey verilməyən və geri göndərilməyən ərməğan. «بو آت مَنكا سِنْكُت بِيردى bu at manqa sinqüt berdi = bu at mənə əvəzi ödənməyən ərməğan kimi gəldi», (o bu atı mənə qarşılıqsız ərməğan kimi verdi).

تُنْكُر T ü n q ü r: quda, dün(g)ür. Arvadın qohumları. Bunlar qardaş, ata, ana kimi kimsələrdir.

سَنْكِر S ə n q i r: dağ çıxmtısı, dağ burnu; hər hansı bir divarın ucu.

سِنْكِر S i n q i r: sinir.

قُنْكُر K o n q u r: «قُنْكُر اوُن konqur ün = boğuq səs».

قُنْكُر K o n q u r: «قُنْكُر قُوُى konqur koy = şabalıd rəngində qoyun». Bu rəngdə olan hər şey.

قِنْكِر K ı n q ı r: «قِنْكِر آر kınqır ər = çaş, çəpgöz adam. İki gözü birdən çaş olan adama «اِكى كوُزى قِنْكِر iki közi kınqır» deyilir.

---

[299] S hərfinin altında kəsrə, üstündə zəmmə işarəsi var. Bununla həmin sözün həm «sinqüt», həm də «sünqüt» kimi oxunacağı bildirilir.

مُنكَر M u n q a r: «مَن مُنكَر ايدِم mən munqar aydım = mən buna söylədim». Bu söz orada iştirak edən adam barədə işlənir.

مِنكَر M ı n q a r: bulaq, su gözü. Oğuzca.

تَنكِز T ə n q i z: dəniz.

تُنكُز T o n q u z: donuz.

تُنكُز T o n q u z: türklərin on iki ilindən biri.

قُنكُز K o n q u z: pis iy verən böcək.

كُنكُز K ü n q ü z[300]: xarabalıqlarda, yıxıntılarda olan küllük, gübrə. Bu sidiyin və dəvə qığınm keçələşmiş olanıdır.

مَنكِز M ə n q i z: bəniz, insanın rəngi. «قِزل مَنكِزلِك kızıl mənqizlig = qırmızı bənizli». Bu, əsasən, yanağın qırmızılığına görə deyilir.

مُنكُز M ü n q ü z[301]: buynuz. Bütün heyvanların buynuzu.

مُنكُز مُنكُز M ü n q ü z-m ü n q ü z: buynuz-buynuz. Bu, bir uşaq ounudur. Uşaqlar çayın kənarında oturur, ayaqlarmın arasına yaş qum doldururlar, sonra əlləri ilə quma vururlar. Onların başçısı «مُنكُز مُنكُز münqüz-münqüz» deyir, uşaqlar isə «نا مُنكُز nə münqüz» deyə soruşurlar. Başçı buynuzlu heyvanları bir-bir saymağa başlayır, uşaqlar da təkrar edirlər. Başçı birdən dəvə və eşşək kimi buynuzsuz bir heyvanın adını çəkir. Uşaqlardan kim həmin heyvanın admı təkrar etsə, onu çaya atırlar. Bu atalar sözündə də işlənmişdir: «سُسكان اوُذقا تَنكرى مُنكُز بيرمَاس süsəgən udhka tənqri münqüz berməs=vurağan öküzə tanrı buynuz verməz». Bu söz bir işi çox istəyən, ancaq bacarmayan adam

[300] Salih Mütəllibov bu sözü «gönüz» kimi oxumuşdur (TSD, III tom, bet 375).
[301] Salih Mütəllibov bunu və bundan sonrakı sözü «möqnüz» kimi oxumuşdur (TSD, III tom, bet 375).

üçün deyilir, əgər o adam o işi bacara bilsəydi, xalqa ziyan vuracaqdı.

كَنكَس K ə n q ə s: «كَنكَس سوُڤ kənqəs suw=az miqdarda su». Asan işə də belə deyilir.

سُنكُش S ü n q ü ş: savaşda hücuma keçmə, süngü ilə vurma.

سُنكُش S ü n q ü ş: kişi adıdır.

كَنكَش K ə n q ə ş: məsləhət, məşvərət, müşavirə, damşıq; məclis.

مَنكِغ M a n q ı ğ: addım. «اَنِک مَنكِغی كوُر anınq manqığı kör = onun addımını gör».

تَنكُق T a n q u k: xaqanlar səfərə və ya buna bənzər yerlərə çıxanda onlara verilən yemək və ya ipək qumaş kimi ərməğanlar.

تَنكُق T a n q u k: çovqan oyununda topu gərilmiş ipdən keçirən adama verilən ipək qumaş, nəmər, xələt.

تَنكُق T a n q u k: savaşda nizə və bayraqlarm ucuna taxılan ipək parça.

سِنكُق S ı n q u k: «سِنكُق نانک sınquk nənq = sınıq nəsnə, qırılmış nəsnə». Oğuzlar buna «سِنُق sınuk» deyirlər. Oğuzlarm dediyi qaydaya uyğun gəlir, çünki sözün əsli «سِندی sındı»dır, «qırıldı» deməkdir. Bu sözdə ğünnə yoxdur.

تَنكِل T ə n q i l: «تَنكِل كَيک tənqil keyik=qabaq ayaqlarında zol-zol cizgilər olan geyik». Başqası da belədir.

جِنكِل Ç ı n q ı l: «يُكوُن جِنكِل جِنكِل اَتّی yügün çınqıl-çınqıl etti = yüyən çmqıl-çmqıl səs çıxartdı». Buna bənzəyən hər səs belədir.

سِنكِل S i n q i l: kişinin (ərin) kiçik bacısı, baldız.

كُنكُل K ö n q ü l: qəlb, könül, anlayış. Bu sözdən alınaraq zəki adama «كُنكُل لُک اَر könqüllüg ər» deyilir. Bu atalar sözündə də işlənmişdir: «كوُزدَن يراسا، كُنكُل دَن يَما يرار közdən yırasa, könqüldən yəmə yırar = gözdən iraq olan könüldən də uzaq olar». «كُنكلنک نَنَک könqlünq nə tək = könlün necədir»?

BU BABIN MÜZAƏF OLANLARI

تَنكك T ə n q ə k[302]: hava.

سَنكَك S ə n q ə k: su içilən qab, ağacdan oyulan su qabı, sənək, səhəng (?). Oğuzca.

سِنكَك S i n q ə k: şəhərlilərin dilində ağcaqanad, köçərilərin dilində qara milçək[303]. Bu şeirdə də işlənmişdir:

سَنـــدا قُبر جَدَنلار

قُذغُوُ سِنكَك يِلَنلار

دُك مِنك قيوُنَمَن لار

قُذرُق تِـكِب يُكرُشوُر

«Səndə kopar çadhanlar,

Kudhu sinqək yılanlar,

Dük minq kayu təmənlər[304],

Kudhruk tikip yügrüşür».

Səndə olar çayanlar,

Çibin, sinək, ilanlar,

Min neştərli, təmənlər,

Quyruq dikib qaçışar».

---

[302] Bu sözün imlasında hərəkə yoxdur. Salih Mütəllibov onu «sögük» (TSD, III tom, bet 377), Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər isə «tənqig» (DLT-2005, s.551), çinlilər (DLT-Çin, III cild, s.356) və uyğurlar isə «tənqək» şəklində vermişlər (TTD, III tom, bet 500).

[303] Uyğur nəşrində «sinqək» maddəsi belə verilmişdir: «şəhərlilərin dilində «paşa», səhrahların [yəni köçərilərin] dilində «çibin» (TTD, III tom, bet 501).

[304] Basma nüsxədə «tümən» kimi verilən bu söz, Bəsim Atalayın fikrincə, «təmən», yəni «böyük iynə» olmalıdır (DLT, III, s. 367). Salih Mütəllibov həmin sözü «tümən» (TSD, III tom, bet 378), Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər bu sözü «tümən» kimi (DLT-2005, s.496) oxumuşlar. Uyğurlar həmin sözü «tömən» kimi vermiş, «nəştər» kimi tərcümə etmişlər (TTD, III tom, bet 501). Çinlilər (DLT-Çin, III cild, s.357) şeirdə ərəb əlifbası ilə «تُمَن لار», latın əlifbası ilə «tömənlər» şəklində yazmış, haşiyədə çincə nəsə bir qeyd vermişlər. Buradakı kayu sözü isə «koyu» ola bilər.

(Yazla qışın deyişiməsini təsvir edir, qış yaza deyir: sən gələndə əqrəblər, çibinlər, ağcaqanadlar, ilanlar, bir sözlə, neştərli həşəratlar quyruqlarını düyərək xalqın üstünə hücum edir).

سُنُک S ü n q ü k: sümük, gəmik. Bu atalar sözündə də işlənmişdir: «اَذكوُ اَرسُنكوُكى اَرير، اَتى قَلير ehdgü ər sünqügi ərir, atı kalır = yaxşı adamm sümüyü çürüyər, adı qalar»[305]. Bu məsəl adamlara xeyirxahlığı təşviq etmək üçün söylənir.

DÖRD HƏRFLİLƏR

تُنكوُ T u n q u: kar.

تُنكا T o n q a: bəbir. Qaplan cinsindən bir heyvandır. Fili öldürür. Əsas məsələ də budur. Bu ad türklərdə yaşayır, ancaq ilkin mənası unudulmuşdur. Əsasən kişi adı olaraq istifadə edilir[306]. «تُنكا خان Tonqa xan», «تُنكا تِكين Tonqa tigin» deyilir. Uşaqlara buna bənzər adlar çox qoyulur. Türklərin böyük xaqanı Əfrasiyabm əsil türk adı «تُنكا اَلب اَر Tonqa Alp Ər»dir, «bəbir kimi qüvvətli, igid adam» deməkdir.

سُنكوُ S ü n q ü: süngü, mizraq, nizə.

سنكا S a n q a: sənə. «سنكا اَيدِم sanqa aydım=sənə dedim, sənə xitab etdim».

سنكى S i n q i: «بوُ اَش اَل سنكى bu aş ol sinqi = bu aş içə sinən, həzm olunan yeməkdir».

---

[305] «İgid öiər, adı qalar» atalar sözünün ekvivalentidir.

[306] «Bəbir» sözü ilə bağlı Bəsim Atalayın belə bir qeyd vermişdir: «Türkiyədə «böbürlənmək» deyə bir fe'l vardır. Kök etibarilə «bəbir» sözündən olduğuna heç bir şübhə yoxdur, «qürrələnmək, fəxarət duymaq» mənasındadır" (DLT, III, s.368).

BU BABIN MATVİ [307] OLANLARI

يَنكا Y a n q a: dərənin yanı, hər hansı çayın bir yanı, sahili. Oğuzca.

يَنكى Y e n q i: «يَنكى نانك yenqi nənq = yeni nəsnə».

يُنكوُ Y u n q u: بارمان Barman qəsəbəsinə axan böyük bir çaym adıdır. Bu qəsəbəni Əfrasiyabın oğlu həmin çayın kənarında salmışdır. Barman adı bu qəsəbənin banisindən qalmışdır. روم Rum ölkəsinin adı da belədir. Bu ad əleyhissəlam İshaq peyğəmbərin oğlu İsu[308], İsunun oğlu Rumdan qalmışdır.

SONU ĞÜNNƏLİ OLANLAR

شَبِنك Ş ə b i n q: kiçik dəmir çomaq, dəmir əsa. Çigilcə.

سِدِنك S i d i n q: «سِدِنك كوُل Sidinq köl» قُجنكار باشى Koçnqar başına yaxm bir gölün adıdır.

قَذِنك K a d h ı n q: qaym ağacı. Bu atalar sözündə də işlənmişdir: « قَذِنك قاسِنكا، سُكُت سوُلِنكا kadhınq kasmqa, sögüt sülinqə». Bu sözün tərcüməsi verilmişdir.

قَشَنك K a ş a n q: köləyə söyülən vaxt işlənən bir sözdür, alçaq deməkdir.

بُرُنك B u r u n q: «بُرُنك اتّى burunq attı = bir ox məsafəsi uzaqlıqdakı yerə atdı».

بُرُنك B ö r ü n q: sularm yerdə açdığı yarıqlar.

---

[307] Ərəbcə əlif, vav, ye hərflərinə hərfi-illət, cözün tərkibində hərfî-illət varsa, ona «matvi» deyilir.

[308] Bu ad «Divan»da həm İysu, həm də İsu şəklində keçir.

تَرنک T ə r i n q: «تَرنک تَنکِز tərinq tənqiz = əngin, geniş, dərin dəniz».

تَرنک T ə r i n q: oğuzlar hər dərin və çox şeyə «تَرنک tərinq» deyirlər. Bu sözdən alınaraq geniş dərələrə, vadilərə və yollara « تَرنک اوُرى tərinq urı» deyilir.

تَرنک T ə r i n q: «تَرنک بِلکا tərinq bilgə = dərin bilikli bilgin, hakim, filosof adam».

تِرنک T i r i n q: «قُلاقِم تِرنک اَتّى kulakım tirinq etti = qulağım dınq etdi». Buna oxşar hər bir avaza belə deyilir. «یاسِن ترنک اَتُردى yasm tirinq ettürdi = yaymı dınq etdirdi, dınqıldatdı». Bu, kirişin çıxardığı səsi bildirir.

جِرنک Ç i r i n q: ləyən və ona bənzər şeylərin çıxardığı səsi bildirir.

کُرنک K ö r ü n q: «کُرُنک کوُل Körünq köl» Kaşğara yaxın bir gölün adı.

بِزنک B i z i n q: bizim. Bu «بِز biz» sözü ilə xitab نک ng-sinin birləşməsindən yaranmışdır. «بِزنک اَف bizinq əw = bizim ev».

تَکِنک T ə g i n q: samur.

بَلِنک B ə l i n q: düşmənin gəlişi üzündən xalq arasma düşən ürküntü, panika, vahimə. Çox qorxaq, ürkək adama «بَلِنکجى کِشى bəlinqçi kişi» deyilir.

بُلنک B u l u n q: bucaq, künc, zaviyə.

تُلنک T u l u n q: dulun, qulaq altı.

تُلنک T u l u n q: qantarğada olan bir halqa. Qulağın altmda olur. Başdan və dulundan keçən qayışları birləşdirir. Buna « یُکُن تُلنکى yügün tulunqı» deyilir ki, «qantarğa, gəm halqası» deməkdir.

جَلنک Ç a l a n q: «جَلنک باشى çalanq başı = çal-çənə, bağırqan adam».

جَلِنک Ç ə l i n q: «جَلنک اَیاق çəlinq ayak = Çin kasası».

جَلنک Ç a l a n q: «جَلنک یِیر çalanq yer=yanmış kimi qara, ot bitməyən, şoran yer».

خُلنک X u l ı n q: Çindən gətirilən, əlvan rəngləri olan ipək parça.

قلنک K a l ı n q: kalım, başlıq, mehr. Bu atalar sözündə də işlənmişdir: «قلنک بیرسا قیز آلیر، کَراک بُلسا قیز آلیر kalınq bersə kız alır, kərək bolsa kız alır = başlıq verən qız alar, lazım olsa qız alar», (bir adam başlıq versə, qız alar, lazım olsa onu qız (bahalı) alar). Bu şeirdə də işlənmişdir:

بـرِدِم سنکا قلنک
آمـــدی مُنی آلنک
آمکاک مَنِک بلنک
أغـــر تنکربَرغلی

«Berdim sanqa kalmq,
Əmdi munı alınq,
Əmgək məninq bilinq,
Oğrar tünqür barğalı».
Verdim sənə kalım,
İndi bunu alm,
Əmək mənim – bilin,
Quda getmək üzrədir.

(Nişanlı oğlan qayınatasma deyir: mən sənə başlıq verdim, bunu al, mənim bunu qazanmaq üçün nə qədər zəhmət, əziyyət çəkdiyimi bil. Qayınatası isə deyir: quda getmək üzrədir).

کُلنک K ö l ü n q: gölməçə, su yığıntısı. Bura quşlar qonar.

BU BABIN MİSAL OLANLARI

یَبَنک Y ə b ə n q: «یَبَنک یر yəbənq yer = qumlu yer, bataqlıq yer». Bu elə bir qumluqdur ki, heyvanların ayağı oraya batanda çətinliklə çıxarmaq mümkün olur.

يَتَنک Y ə t ə n q[309]: yun çırpılan, qabardılan yay, həllac yayı.

يَدِنک Y a d ı n q: «يَدِنک سوُڤ yadınq suw = yer üzünə yayılan bir az su».

يُشَنک Y ü ş ə n q: «يُشَنک تاش yüşənq taş = düz daş».

يَلِنک Y a l ı n q: «يَلِنک قِلِچ yalınq kılıç = qından çıxarılmış qılınc, sıyrılmış qılınc».

يَلِنک Y a l ı n q: «يَلِنک ار yalmq ər = çılpaq adam». Çılpaq olan hər şeyə «يَلِنک yalınq» deyilir.

يَلِنک Y e l i n q: yeli çox olan yer. «بو يَلِنک کوُن bu yelinq kün = bu küləkli gün».

ج NÇ-LI ĞÜNNƏLİLƏR

برنج B i r i n ç: «برنج نانک birinç nənq = birinci nəsnə». Qaydaya uyğun bir söz olsa da, az işlənir.

کُرُنج K ö r ü n ç[310]: bir şeyə tamaşa edən xalq.

بزنج B e z i n ç: ipək və yun yumağı.

بزنج? .....[311] budaqları və yarpaqları qırmızı olan bir bitkidir, dağlarda bitir, dərman kimi yeyilir.

سَڤِنج S ə w i n ç: sevinc. Bu atalar sözündə də işlənmişdir: « أکوُش سَڤِنج بُلسا قَتغ أخسُنوُر öküş səwinç bolsa, katığ oxsunur = çox sevinən yaman peşman olar», (çox sevinən adam bu üzdən

---

[309] Salih Mütəllibov üstdəki sözü «yebənq» (TSD, III tom, bet 383) şəklində vermişdir. Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər «yapanq» kimi (DLT-2005, s.660), oxumuşlar. Uyğur nəşrində isə bu söz «yabanq» kimi verilmişlər (TTD, III tom, bet 508). Salih Mütəllibov bu sözü «yetinq» (TSD, III tom, bet 383) şəklində oxumuşdur. Uyğurlar (TTD, III tom, bet 508) və Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər isə həmin sözü «yatanq» kimi (DLT-2005, s.673) oxumuşlar.

[310] Çinlilər (DLT-Çin, III cild, s. 364) və uyğurlar bu sözü «közünq» kimi vermişlər (TTD, III tom, bet 509).

[311] Bu söz hərəkəsiz olduğu üçün onu oxumaq çətindir. Karl Brokkelmann «bəzinç» şəklində yazmışdır (DLT-IV, s.87).

daha şiddətli qayğıya düşər). Bu söz ifrata varmaması məsləhət olan adama söylənir. Bu şeirdə də işlənmişdir:

مَندا بـــُلنُر سَقِنـج
اَتـــــى قَذغوُ اَتار
قَرشى كُرُب سَغدِج
اَنى اُجـــــمَق اَتار

«Məndə bulnur səwinç otı kadhğu atar,
Karşı körüp sağdıç anı uçmak atar».
Məndə sevinc otu var, qayğını atar,
Sarayımı görən sağdıc ona cənnət dedi»

(Məndə sevinc otu var, o, qayğmı, kədəri yox edər, dostum mənim sarayımı görəndə gözəlliyinə görə ona cənnət dedi).

سَقِنـج S a k ı n ç: qayğı, əndişə.

قِلِنـج K ı l ı n c: əxlaq, xasiyyət, rəftar. «اَنكوُ قِلِنـج edhgü kıhnc», yəni «xoş əxlaq» deyilir. Bunun ziddinə də «قِلِنـج kılınç» deyilir.

قِلِنـج K ı l ı n ç: qadınm naz-qəmzəsi. «اُكُش قِلِنجلنما öküş kılınçlanma = çox naz eləmə».

كُلُنـج K ü l ü n ç: gülünc.

BU BABIN MİSAL OLANLARI

يفنـج Y a f ı n ç: Ilaya yaxm bir məntəqənin adıdır.

يُكُنـج Y ü k ü n ç: namaz. Qıpçaqca. «تَنكريكا يُكُنـج يُكُندى tənqrigə yükünç yükündü = tanrıya səcdə etdi, namaz qıldı».

يُكُنـج Y ü k ü n ç «اُل بَككا يُكُنـج يُكُندى ol bəggə yükünç yükündü = o, bəyin önündə başmı əydi». Başqası da belədir.

DÖRD HƏRFLİLƏR

تُتُنجُو T u t u n ç u: «تُتُنجُواغُلْ tutunçu oğul=övladlığa götürülmüş uşaq».

سَزنجى S a z ı n ç ı: «سَزنجى تاشى sazınçı taşı = gips, gəc.

قَرنجا K a r ı n ç a[312]: qarışqa. Oğuzca.

BU BABIN MİSAL OLANI

يُرنجا Y o r ı n ç a: yonca, klever, lütsern. Oğuzca.

فَعال FƏ'AL BABI

سِنكار S ı n q a r: bir nəsnənin tərəfi, yanı. «سِنكاردِن يُرى sınqardan yorı =yandan yeri, yürü».

مُنكار M u n q a r: «مُنكار ايدِم munqar aydım=buna söylədim».

مِنكان M ı n q a r: bulaq, su gözü. Oğuzca.

ينكان Y a n q a n[313]: yalnız başı ağ olan alaca qarğa.

سَنكان S a n q a n: «سَنكان نانك sanqan nənq = dadı turş olan hər şey».

---

[312] Bu sözün «karınçak» variantı da var.

[313] Bəsim Atalayın yazdığına görə, yazma və basma nüsxələrdə bu sözün ilk hərfində nə bir hərəkə, nə də bir nöqtə var. O belə hesab edir ki, bu sözü «ينكان yanqan» kimi oxumaq daha isabətli olardı (DLT, III, s.376). Ancaq bir az aşağıda 4 maddə sonra əsil «ينكان yanqan=fîl» sözü gəlir. Bu iki sözün eyni cür tələffüz olunması oxunuşda bəzi şübhələr yaradır. Uyğurlar mətnaltı haşiyədə alaca qarğa bildirən yanqan maddəsi barədə qeydlə bərabər bu iki sözü eyni imla və oxunuşla vermişlər (TTD, III tom, bet 513). Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər bu sözü «tanqan» kimi (DLT-2005, s.529) oxumuşlar. Bizcə, bunu ən doğru variant saymaq mümkündür.

BU BABIN MİSAL OLANLARI

يُنكاغ Y o n q a ğ: birini bəyə çuğullamaq. «انى يُنكاغ يُنكادى anı yonqağ yonqadı = onu xaqana çuğulladı».

يَنكاق Y a n q a k: çənə; ağzm iki yanmda olan, üzərində dişlərin durduğu sümük. Hər hansı bir şeyin yanına da belə deyilir.

يَنكاق Y a n q a k: yanov; qapının yan tərəflərində duran yanovlara « قَبُغ يَنكاقى kapuğ yanqakı» deyilir.

يَنكان Y a n q a n: fil. Oğuzlar bu sözü bilmirlər.

HƏR NÖV HƏRƏKƏSİ İLƏ فعلى FƏ'Lİ BABI

تَنكرى T ə n q r i: ulu tanrı. Bu atalar sözündə də işlənmişdir: « تُين تَبُغساق، تَنكرى سَفِنج سِز toyın tapuğsak, tənqri səfinçsiz = toym tapmaq, sitayiş etmək istər, ancaq tanrı məmnun deyil», (müsəlman olmayan türklərin din böyüyü [yəni buddist rahibi] tanrıya tapınır, ancaq ulu tanrı onun bu işindən xoşnud deyildir). Bu söz başqa birinə iş görərək yaxşılıq etdiyini zənn edən, ancaq iyrənilən adam üçün söylənir. Bu beytdə də işlənmişdir:

تُن كُن تَبُن تَنكريكا بُينمَغِل
قُـــرقُب انكَرايمَنوُ اُينمَغِل

«Tün-kün tapun, tənqrigə boynamağıl,
Korkup anqar eymənü oynamağıl».
Gecə-gündüz tanrıya tapın, boyun qaçırma,
Ondan qorxub çəkinrək oynama.

(Gecə-gündüz tanrıya ibadət et, dikbaşhq etmə, tanrıdan çəkin, qorx, saqın, onunla oyun oynama).

Yerə batası kafirlər göyə «تَنكرى tənqri» deyirlər. Onlar nəhəng bir dağ, nəhəng bir ağac kimi gözlərinə böyük görünən hər şeyə «تَنكرى tənqri» deyirlər. Bu üzdən bu kimi şeylərə səcdə edirlər. Onlar bilgin kimsəyə «تَنكركان tənqrigən» deyirlər. Bunların sapıqlığından bizi Allah özü qorusun!

تَنكرا T u n q r a: bədəndəki kir.

اُنكرا U n q r a[314]: «اَر اُنكرا يَتّى ər unqra yattı = adam arxası üstə yatdı».

تُنكرا T u n q r a: «اَر تُنكرا تُشتى ər tunqra tüşti = adam üzü üstə düşdü».

تُنكشوُ T ü n q ş ü[315]: şamdan.

جَنكشُو Ç ə n q ş ü: kiçik xirqə.

جَنكشى Ç ə n q ş i: Xotən bəyinin adıdır. Xotən bu bəyin sayəsində alınmışdır. Belə bir fikir var ki, جَنكشى Çənqşi sözü جمشيد Cəmşid sözündən yaranmışdır.

مَنككوُ M ə n q g ü: sonsuz, sonsuzluq, əbədi, əbədilik. Bu söz həm isim, həm də məsdər olur. «مَنككوُ اُزوُن mənqgü ajun = sonu olmayan dünya». Bu beytdə də işlənmişdir:

تُغب تَقى قلمَدى مَنككوُ اَرَن

اُزوُن كُتى يُلدُزى تُتجى تُغار

---

[314] Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər bundan əvvəlki sözü «tonqra» (DLT-2005, s.578), bu sözü «önqrə» (DLT-2005, s.375), bundan sonrakı sözü isə «tönqrə» kimi (DLT-2005, s.585) oxumuşlar. Uyğurlar bu sözləri müvafiq olaraq «tonqra», «onqra» və «tonqra» kimi vermişlər (TTD, III tom, bet 515-516). Çinlilər də uyğurlar kimi hərəkət etmişlər (DLT-Çin, III cild, s.368). Salih Mütəllibov isə həmin ardıcıllıqla «tuqra», «onqra» və «tonqra» kimi oxumuşdur (TSD, III tom, bet 388).

[315] Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər bu sözü «tunqşu» (DLT-2005, s.592), bundan sonrakı iki sözü isə «çanqşu» və «çanqşı» kimi (hər ikisi: DLT-2005, s.221) oxumuşlar. Uyğurlar bu sözləri müvafiq olaraq «tunqşu», «çənqşü» və «çənqşi» kimi vermişlər (TTD, III tom, bet 515-516). Çinlilər də uyğurlar kimi hərəkət etmişlər (DLT-Çin, III cild, s.369). Salih Mütəllibov isə həmin ardıcılhqla «tünqşü», «çənqşi» və «çənqşi» kimi oxumuşdur (TSD, III tom, bet 388).

«Toğup takı kalmadı mənqgü ərən,
Ajun küni, yulduzı tutçı toğar».
Doğulan ərənlər əbədi qalmadı,
Dünyanın günəşi, ulduzu daima doğar.

(Zamanı təsvir edərək deyir: doğulan adamlar əbədi yaşamaz, dünyanın günəşi və ulduzlar daima doğar, heç vaxt yıpranmaz).

جَنكلى Ç ə n q l i: «جَنكلى مَنكلى çənqli-mənqli = bir uşaq oyununun adıdır». Ərəblər buna لُلدَوداةُ deyirlər, «yelləncək» mənasındadır.

قَنكلى K a n q l ı: araba, üstünə yük yüklənən araba.

قَنكلى K a n q l ı: qıpçaqlardan böyük bir adamm adıdır.

سَلنكو **S** a l n q u:[316] sapand. **O**nunla çaqıl daşı atılır.

شُنكلا Ş ü n q l ə: arğu diyarında bitən bir otdur. Kökü çıxarılaraq yeyilir.

قَلنكو K a l n q u: suyun üstündə durmaq, suyun üzünə çıxmaq. « سُقْدا قَلنكولادى suwda kalnquladı = suyun üzünə çıxdı».

كُزنكوُ K ö z n q ü: güzgü, ayna.

BU BABIN MİSAL OLANLARI

يَكقوُ Y a n q k u: səsin geri gəlməsi, əks-sövt, əks-səda. **B**u atalar sözündə də işlənmişdir: «يَزماس اَتِم يَغمُر، يَكِلماس بِلكا يَكقوُ yazmas atım yağmur, yanqılmas bilgə yanqku = usta atıcı - yağış, yanılmaz bilgin – əks-sədadır», (usta atıcı yağışdır, çünki yağışın hədəfi yer üzüdür, yer üzü geniş olduğundan

[316] Bəsim Atalayın qeydinə görə, Karl Brokkelmann bu sözü «salınğu», bir maddə sonrakı sözü isə «kalmğu» şəklində səhv yazmışdır, çünki bu yazılış babın başlığına və ölçüsünə uyğun deyil (DLT, III, s. 379).

atılan şey hədəfdən sapmaz, hökmən bir yana düşər. Hər şeyi doğru söyləyən bilgin isə əks-sədadır, çünki nə desən, ona uyğun da sənə cavab verər). Bu söz bir səhvə yol verib üzr istəyən adam üçün söylənir.

يَنكو Y a l n q u: cariyələrin oynadığı bir oyundur. İpin iki ucu bir ağaca və ya dirəyə bağlanır, ortada cariyə oturur və ayağı ilə ipi geri itələyir, beləliklə, gah yüksəlir, gah da alçalır, (yelləncək oyunu).

ينجكا Y i n ç k ə: hər bir incə nəsnə. «ينجكا تُرقُو yinçkə turku = incə ipək parça».

ينجكا Y i n ç k ə: «ينجكا قيز yinçkə kız = hərəmə alman qız».

ينجكا Y i n ç k ə: «ينجكا كِشى yinçkə kişi = tanrıya ibadət edən adam».

يَنكا Y e n q g ə: yengə, böyük qardaşm arvadı.

فَعالُو FƏ'ALU BABI

تَيانكو T a y a n q u: mabeynçi, pərdəçibaşı. Türklərin arasında «حاجب hacib» sözü yayıldıqdan sonra bu söz unudulmuşdur. Əsli «تَيَندى tayandı» fe'lindən alınmışdır. Xaqan bu adama güvənir, xalq da inanır ki, tayanqu xalqm işlərini və diləklərini xaqana olduğu kimi çatdırır, sonra da cavabını verir.

BU BABIN MİSAL OLANI

يَنكيلا Y a n q ı l a: «اُل ايشغ يَنكيلا قِلدى ol ışığ yanqıla kıldı = o, işi yenidən gördü, təkrar başladı».

Üç hərflilər bölməsi bitdi.

DÖRD HƏRFLİLƏR BÖLMƏSİ

HƏR NÖV HƏRƏKƏSİ İLƏ
فَعَل فَعلل FƏ'LƏL, FƏ'ƏL BABI

تَنكُج T ə n q ü ç[317]: sacayağı kimi yarım arşın yüksəklikdə olan hər şey.

سَنكَج S ə n q ə ç: fmdıq kimi kiçik və şirin bir alma.

سُنكفُر S o n q k u r: sunqur quşu, yırtıcı quşlardan birinin adıdır. Bu, «طُغريل toğrıl» quşundan kiçikdir.

قُجنكار K o ç n q a r: qoç. Bu atalar sözündə də işlənmişdir: « اِكى قُجنكار بَشى بير اَشَجتا بِشماس iki koçnqar başı bır aşaçta[318] pışmas = iki qoçun başı bir qazanda qaynamaz». Bu söz bir yerə yığışan, ancaq birinin olması gərəkən iki başbuğ və ya iki bəy haqqında söylənir.

قُجنكارباشى K o ç n q a r b a ş ı: bir şəhər adı.

قَنكداش K a n q d a ş: «قَنكداش قَدش kanqdaş kadaş = ata bir qardaşlar». Bu atalar sözündə də işlənmişdir: « قَنكداش قَما اُرُور اِكدِش اُرُو تَرتار kanqdaş kuma urur, ikdiş örü tartar = ata bir qardaşlar bir-birinə paxıllıq edər və çox dalaşarlar, ana bir

---

[317] Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər bu sözü «tənqgüç» (DLT-2005, s.551), bundan sonrakı sözü isə «sənqgəç» kimi (DLT-2005, s. 482) oxumuşlar. Uyğurlar bu iki sözü «təngüç» və «sənkəg» (TTD, III tom, bet 520), Salih Mütəllibov isə «tənqüç» və «sənqləç» kimi vermişdir (TSD, III tom, bet 391-392).

[318] «Divan»ın çox yerində «aşıç» şəklində rastlanan bu söz burada «aşaç» kimi verilmişdir.

qardaşlar isə aralarında sevgi olduğu üçün bir-birinə kömək edərlər».

مُنكُلغ M u n q l u ğ: «مُنكُلغ ار munqluğ ər = sıxıntılı, qayğılı, dərdli adam».

تَنكسُق T a n q s u k: «تَنكسُق نانك tanqsuk nənq = qəribə şey, heyrət ediləcək şey». Bir adamm çox nadir hallarda tapdığı nəfis yeməyə də «تَنكسُق اش tanqsuk aş» deyilir.

تِرنكَق T ı r n q a k: dırnaq.

قِنكراق K ı n q r a k: ət və xəmir doğramaq üçün işlədilən behbuda bənzər böyük bıçaq.

قَزنكُق K a z n q u k: qazıq. Bu sözdən ahnaraq qütb ulduzuna da « تَمُر قَزنكُق təmür kaznquk[319]», yəni dəmirdən düzəldilmiş qazıq deyilir. Sanki göy onun üzərində fırlanır.

چِنكراق Ç ı n q r a k: «چِنكراق اوُن çınqrak ün = gur və nöqsansız səs».

قَنكرق K a n q r a k: damaq; [zəng].

قَنكسِق K a n q s ı k: ögey. «قَنكسِق اتا kanqsık ata=ögey ata».

قَنكسِق K a n q s ı k: «قَنكسِق أغُل kanqsık oğul = ögey oğul».

قَلِنكُق K a l n q u k[320]: başda yaranan kəpəkdir. Kürk və dəri kimi şeylərə yapışqan bir şeyin yapışması nəticəsində meydana gələn qıvrıntı.

تُنكلُك T ü n q l ü k: baca, pəncərə.

چَنكلك Ç ə n q l i k: sarmaşıq otu. (Bəzilərinin fikrincə, «karamuğ» adlı bir növ dağ yemişidir)[321].

كُنكلك K ö n q l ə k: köynək.

دنكال D a n q a l[322]: saman.

---

[319] Yazma və basma nüsxələrdə səhvən «kazunquk» şəklində verilmişdir.

[320] Yazma və basma nüsxələrdə səhvən «kalınquk» şəklində verilmişdir.

[321] Mötərizə içindəki cümlə ancaq özbəkcə nəşrində var. Bu cümlənin Mahmud Kaşğaridən daha çox Salih Mütəllibova aid olduğunu düşünmək olar.

BU BABIN MİSAL OLANLARI

يَنكَج Y e n q ə ç[323]: xərçəng. Oğuzca.

يَلنكوُس Y a l n q u s: yalnız, yalqız, tək, tənha. «يَلنكوُس اَر yalnqus ər= yalnız adam». «يَلنكوُس قاز اَتماس yalnqus kaz ötməs = yalnız qaz oxumaz». Bu söz işində başqalarından kömək alması tövsiyə olunan adama deyilir.

يَنكرَق Y a n q r a k: dağ qıvrımı, büküntü, uçurum və altmdan çay axan yol. Adam oradan sıçramaqla keçə bilər.

يَنكشَق Y a n q ş a k: «يَنكشَق اَر yanqşak ər = yanşaq, gəvəzə adam».

يَنكلُق Y a l n q u k: Adəm əleyhissalamın adı. Bu atalar sözündə də işlənmişdir: «يَنكلُق اُغلی يوُقاذُور، اَذكوُاَتی قلير yalnquk[324] oğlı yokadhur, edhgü atı kalır=adəm oğlu ölər, yaxşı adı qalar». Bu sözlə hər zaman yaxşılıq etməyin vacib olduğu vurğulanır.

يَنكلُق Y a l n q u k: insana verilən ümumi ad. Bu şeirdə də işlənmişdir:

يَغی اَرُر يَلنكُقنك نانكی تَقار
بِنك اری ياغِسِن نانِك سَقار

«Yağı ərür yalnqukunq nənqi tawar,
Bilig əri yağısın nəlik səwər».
Adamın malı onun düşməndir,
Ağıllı adam düşmənini niyə sevir.

يَنكلُق Y a l n q u k: cariyə. Oğuz, qıpçaq və köçərilərin dilində.

---

322 Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər bu sözü «dənqgəl» kimi (DLT-2005, s.246) oxumuş, «buğum və ya yumru» kimi tərcümə etmişlər.

323 Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər bu sözü «yenqgəç» kimi (DLT-2005, s.684) oxumuşlar.

324 Bu söz də yazma və basma nüsxələrdə yanlış–«yalınquk» şəklində yazılmışdır. Başlığa və ölçüyə uyğun gəlməsi üçün «yalnquk» olmalıdır.

يَنكلق Y a n q l u k: işdə, sözdə, əməldə və bunun kimi başqa şeylərdə yanılma.

BU BABIN ĞÜNNƏLİLƏRİ

تَبجَنك T a p ç a n q: süfrə böyüklüyündə üç ayaqlı nəsnə. Bağban onun üstünə çıxaraq talvardakı üzüm salxımlarını dərir.

جَلبَنك Ç a l p a n q: cıvıq palçıq.

جِفشانك Ç i f ş ə n q[325]: «جِفشانك جَغِر çifşənq çağır = turş mey».

جَفشانك Ç ə f ş ə n q: qoyunun yununu qırxmaq üçün işlədilən böyük qayçı, qırxılıq. Çigilcə.

جِقشانك Ç ə w ş ə n q: gözündən daim su axan adam.

كفشنك K ə f ş ə n q[326]: xırman sovulduqdan sonra gələn adama verilən arpa, buğda, azuqə kimi pay[327].

سُقلانك S u w l a n q: «سُقلانك يغاج suwlanq yığaç = qolu-budağı olmayan ağac[328]».

---

[325] Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər bu sözü «çıwşanq» (DLT-2005, s.235), bundan sonrakı sözü isə «çawşanq» kimi (DLT-2005, s. 225) oxumuşlar.

[326] Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər bu sözü wş ilə «kəwşənq» kimi (DLT-2005, s.311), Salih Mütəllibov isə fs ilə «kəfsənq» (TSD, III tom, bet 395) kimi oxumuşlar.

[327] Bu sözlə bağlı Bəsim Atalayın belə bir qeydi vardır: «Yazma və basma nüsxələrdə «kəfşənq» şəklində yazılan bu sözün üçüncü hərfinin nöqtəsi və bütün hərflərin hərəkəsi yoxdur. Brokkelmann qaynaq göstərmədən bunu «kəfşənq» imlasında yazmışdır. Biz də o şəkildə yazdıq, ancaq burada bir yanlışlıq olmalıdır. Başqırdlar xırman yerinə gələn adama verdikləri paya «kəfənq» deyirlər. Xırmana gələn adam «ırdına bərəkət» deyir. Xırman sahibi də ortada olan məhsuldan bir qədərini gələn adamın kisəsinə və ya ətəyinə tökərək «sənə də kəfənq» deyir» (DLT, III, s.386). Məncə, məsələ bir az başqa cürdür: «kəfşənq» sözü bizim bildiyimiz məşhur «kəfşən/ kövşən/köfşən» sözüdür. Xırman geniş, külək tutan açıq sahədə - kövşəndə qurulur. Xırman üstünə gələn hər adama hədiyyə olaraq verilən qovurğalıq buğdaya «kövşən payı» deyilir. Bu, qədim adətdir. Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər də təxminən buna yaxın izahat vermişlər: «Xırman təmizləndikdən sonra taxılın yığılmasına yardım edən adama ərməğan kimi verilən yemək» (DLT-2005, s.311). Salih Mütəllibov isə kövşən payına «dən hədiyyəsi» (TSD, III tom, bet 395) demişdir

[328] Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər bu sözü «yarpaqsız, gövdəsində budaq olmayan bir çalı» kimi (DLT-2005, s.512) mənalandırmışlar.

سُقْلانک S u w l a n q: «سُقْلانک سَچ suwlanq saç = qıvrım olmayan düz saç».

قَلقنک K a l k a n q: qalxan. Bu sözün «قَلقَن kalkan» şəkli də var.

BU BABIN MƏNQUS OLANI

تَيلنک T a y l a n q: «تَيلنک ار taylanq ər = incə, kübar, boy-buxunlu, rəngi parlaq, geyimləri təmiz adam». Bu söz daha çox gənclər haqqında işlədilir, «تَيلنک يکِت taylanq yigit=yaraşıqlı gənc».

BU BABIN ج NÇ-LI ĞÜNNƏLİSİ

قَزغَنج K a z ğ a n ç: qazanc.

قُرقَنج K o r k u n ç: qorxunc.

تَزگِنج T ə z g i n ç: dağ dönəməci, dağ büklümü, dağ çıxmtısı. Başqası da belədir. Girintili-çıxıntılı, qıvrılan yola «تَزگِنج يوْل təzginç yol» deyilir.

BU BABIN MİSAL OLANLARI

يُرکنج Y ö r g ə n ç: təzginç mənasmdadır.

يُرکنج Y ö r g ə n ç: ağaca sarmaşıb onu qurudan bir bitki növü, sarmaşıq.

فعللو FƏ'LƏLU BABI

قُنکَرغوُ K o n q r a ğ u: zəng, zınqırov, qumrov.

قُنقَرغو K o n q r a ğ u: qulağm altında olan çıxıq sümük.

سَنقَرگو S ə n q r ə g ü: «سَنقَرگو اَت sənqrəgü at = əngi xəstəliyi olan at». Daima burnundan irin kimi fırtıq axır. Daima fırtığı axan uşuğa bu sözlə söyülür.

BU BABIN MİSAL OLANI

ينكدَكو Y i n q d ə g ü: fırtıqlı. Uşaqlara söyüldüyü zaman belə deyilir.

BU BABIN BEŞ HƏRFLİLƏRİ

HƏR NÖV HƏRƏKƏSİ İLƏ فَعَلال FƏ'ƏNLAL BABI

سِنقَرسُق S ı n q a r s u k: iki nəfər ata minəndə arxada oturan adamm yeri.

مُنكزكاك M ü n q ü z g ə k: çox işləməkdən dolayı əldə yaranan qabar.

AXIRI ĞÜNNƏLİ SÖZLƏR

قَرَنكغو K a r a n q ğ u: qaranlıq.

قَزَنكقو K a z a n q k u: «يب قَزَنكقو بُلدى yıp kazanqku boldı = ip açılmayacaq dərəcədə çox dolaşdı».

BU BABIN MİSAL OLANI

يَنكِلغان Y a n q ı l ğ a n: «يَنكِلغان اَر yanqılğan ər = yanılan adam». Hər hansı bir şeyi unudan, yanılan adam.

BU BABIN BAŞQA BİR NÖVÜ

تَنكَلكَچ T ə n q ə l k ü ç: döləngəc[329] deyilən bir quş. Oğuzca.

تَنكَلكوُن T ə n q ə l g ü n: oğuzlardan başqa yerdə qalan türklərin dilində döləngəc adlanan quş.

تَنكركان T ə n q i r g ə n: tanrıya ibadət edən alim. Müsəlman olmayan türklərin dilində.

BU BABIN ALTI HƏRFLİLƏRİ

يَنكلدُرق Y a n q a l d u r u k: yapıncınm arxasına, boynuna tikilmiş bir keçə parçası; kukulet, başlıq. O, başı yağışdan, borandan qorumağa xidmət edir.

[Qayda]:

Bu bölmədə iki sükunlu yan-yana gəlmir. Çünki ğünnənin özü tələffüz üçün ağırdır. Bunun üstünə yan-yana iki sükunlu da gəlsə, tələffüz mümkün olmayacaq dərəcədə ağırlaşar. Ona görə də tələffüz asan olsun deyə ğünnə ذلاقه zəlakə hərfləri ilə bərabər gəlir. Bu, kifayət deyil. İki sükunlu ilə ğünnə yalnızca «سوُزنكرى كِشى sözənqri kişi = boşboğaz adam» ibarəsində gəlir. Burada ذلاقه zəlakə hərflərindən ر r vardır. O, tələffüzü asanlaşdırır. Bunu yaxşı bil.

Ğünnəli isimlər kitabı bitdi.

---

[329]Bəsim Atalayın qeydinə görə, bu gün Anadoluda «döləngəc» adlanan bu quşun adı «tölənqgəç» imlasında olmalı idi (DLT, III, s. 388).



BİSMİLLAH İR-RƏHMAN İR-RƏHİM

ĞÜNNƏLİ FE'LLƏR KİTABI

İKİ HƏRFLİLƏR BÖLMƏSİ

تِنكدى T ə n q d i: «قُش تِنكدى kuş tənqdi = quş havalandı».

تِنكدى T ə n q d i: «اُق تِنكدى ok tənqdi = ox havada yüksələrək gözdən itdi», (تَنكار - تَنكماك tənqər – tənqmək).[330]

تَنكدى T a n q d ı: «اُل اَنِك باشِن تَنكدى ol anmq başm tanqdı = o onun başmı bir sarğı ilə sarıdı». Hər hansı bir şey iplə möhkəm sarınsa, yenə belə deyilir, (تَنكار - تَنكماق tanqar – tanqmak).

تُنكدى T o n q d ı: dondu, buz bağladı. «سوُف تُنكدى suw tonqdı =su dondu». Başqası da belədir.

تُنكدى T o n q d ı: «اَر تُنكدى ər tonqdı = adam soyuqdan dondu, az qala öldü», (تُنكار - تُنكماق tonqar - tonqmak).

سِنكدى S i n q d i: sindi, həzm olundu. «اَش سِنكدى aş sinqdi = yemək sindi, həzm olundu».

سِنكدى S i n q d i: hopdu. «سوُف يِركا سِنكدى suw yergə sinqdi = su yerə hopdu».

سِنكدى S i n q d i: «سوُز كُنكُلكا سِنكدى söz könqülgə sindi = söz qəlbə yatdı», (سِنكار - سِنكماك sinqər – sinqmək).

---

[330] Burada Bəsim Atalayın və uyğur naşirlərin bu maddə ilə bağlı eyni məzmunda belə bir qeydi var: «Bu söz yazma nüsxədə «sənqdi-sənqər-sənqmək» şəklində s hərfi ilə yazılmışdır. Müəllifin bu sözün altında t hərfi ilə başlayan sözlər qrupunu yerləşdirdiyini nəzərə alaraq biz bu fe'lin keçmiş zaman, müzare və məsdərini t ilə «tənqdi-tənqər-tənqmək» şəklində verməyi qərara aldıq» (DLT, III, s. 390; TTD, III tom, bet 532). Salih Mütəllibov isə qeydə lüzum görmədən həmin sözləri «tənqdi-tənqər-tənqmək» kimi vermişdir (TSD, III tom, bet 398).

سِنکدی S i n q d i: «أردک قمِشقا سِنکدی ördək kamışka sinqdi = ördək qamışın, çör-çöpün arxasma girərək gizləndi». Bir adam ev yiyəsindən xəbərsiz onun evinə və ya başqa bir yerə girib gizlənsə, yenə belə deyilir. (سِنکار- سِنکماک sinqər – sinqmək).

مُنکدی M ö n q d i: «أت مُنکدی at mönqdi = at ayaqlarını yığdı və soncuq atdı, şıllaq təpik atdı», (مُنکار- مُنکماک mönqər–mönqmək).

BU BABIN MİSAL OLANI

يَنکدی Y e n q d i: «أر آنی يَنکدی ər anı yenqdi = adam bir işdə onu yendi, məğlub elədi». Oğuzca və qıpçaqca. (يَنکار- يَنکماک yenqər - yenqmək).

ÜÇ HƏRFLİLƏR BÖLMƏSİ

HƏR NÖV HƏRƏKƏSİ İLƏ فَعَلدى FƏ'ƏLDİ BABI

تَنكردى T ə n q ü r d i: «اَر اُق تَنكُردى ər ok tənqürdi = adam göyə doğru ox atdı», (ox göydə görünməz oldu). Əldən buraxılan quş uçub gözdən itsə, yenə bu söz işlədilir, (تَنكرر- تَنكرماك tənqürər – tənqürmək).

سِنكِردى S i n q ü r d i: «اُل تَنجوُ سِنكِردى ol tançu sinqürdi = o, loxmanı uddu, sindirdi». Başqası da belədir, (سِنكِرُر- سِنكِرُماك sinqürür – sinqürmək).

سِنكِردى S i n q i r d i: «ياغنى تَريكا سِنكِردى yağnı tərigə sinqirdi = yağı dəriyə hopdurdu, yedirtdi». Başqası da belədir, (سِنكِرُر- سِنكِرُماك sinqirür – sinqirmək).

قُنكُردى K o n q u r d u: «اَر يغاج قُنكُردى ər yığaç konqurdu = adam ağacı qanırdı, qopardı». Başqası da belədir. Əgər külək bir nəsnəni qoparsa, yıxsa, yenə belə deyilir, (قُنكُرُر- قُنكُرماك konqurur – konqurmak).

كِينكُردى K i n q ü r d i: «اَر اَفْن كِينكُردى ər əwin kenqürdi = adam evini genişləndirdi». Başqası da belədir, (كِينكُرر- كِينكُرماك kinqürür –kinqürmək).

تَنكِزدى T a n q ı z d ı: «اَر اَبكاسِندا تَنكِزدى ər öpkəsində tanqızdı = adam hirsindən, öfkəsindən şişdi». Bu, acığmdan şişmədir.

تَنكِزدى T a n q ı z d ı: «اُبكا تَنكِزدى öpkə tanqızdı = ciyər şişdi, kabab oldu». Bu, ciyər yeməyi bişərkən yaxşı bişməsi və qabarması üçün onun üstünə xardal və sirkə tökməkdir, (تَنكِزَر- تَنكِزماق tanqızar – tanqızmak).

تنكَشدى T ə n q ə ş d i: «تنكَشدى نانك tənqəşdi nənq = bir nəsnə bir nəsnə ilə tənləşdi, bərabərləşdi». Bu şeirdə də işlənmişdir:

مَنِـك بِلا كَينكَشدى
بِلكى مَنكا تَنكَشدى
اَرَن بِـلا سُنكشدى
اَلب لار بَشِن اُل يوُار

«Məninq bilə kənqəşdi,
Bilgi manqa tənqəşdi,
Ərən bilə sünqüşdi,
Alplar başm ol yuvar».
Mənimlə məsləhtəşdi,
Ağlı mənimkinə tən oldu,
Ərənlərlə süngüləşdi,
İgidlərin başını yuvarlayır».

(Məndən bəzi məsləhətlər aldı, bu sayədə ağlı, biliyi mənim qədər oldu, savaşda çarpışdı, igidlərin başını top kimi yuvarlayan odur), (تنكاشور- تنكَشماك tənqəşür – tənqəşmək).

تُنكُشدى T ü n q ü ş d i[331]: «اَر تُنكُشدى ər tünqüşdi = adam gücdən düşüb tabe oldu», (تُنكُشور- تُنكُشماك tünqüşür – tünqüşmək).

تُنكُشدى T o n q u ş d ı[332] : «تُنكُز تُنكُشدى tonquz tonquşdı = donuz gözlərini dikərək, zilləyərək adama hücum etdi».

---

[331] Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər bu sözü «tönqişdi» kimi (DLT-2005, s.585), uyğurlar «tüngüşti» kimi (TTD, III tom, bet 537) oxumuşlar.

[332] S.Ərdi ilə S.T.Yurtsevər bu sözü «tünqüşdi» kimi (DLT-2005, s.604) oxumuş, Salih Mütəllibov isə incə saitlərdə «tönqüşdi» şəklində vermişdir (TSD, bet 402-403). Həmin

تُنكُشدى T ö n q ü ş d ı: «اَر تُنكُشدى ər tönqüşdi = adam bir işi qəbul etməkdən çəkindi, gözlərini nifrətlə, iyrənərək əmr edən adama dikdi», (تُنكُشماك - تُنكُشوُر tönqüşür-tönqüşmək).

سِنكِشدى S ı n q ı ş d ı: «سُوقُلار قَمُغ سِنكِشدى suwlar kamuğ sinqişdi=sular büsbütün çəkildi». Başqa bir şeyin hissələri arasma hopan, sızan hər maye üçün belə deyilir, (سِنكِشماك - سِنكِشوُر sinqişür – sinqişmək).

سُنكُشدى S ü n q ü ş d i: «اِكّى اَر بِرلا سُنكُشدى ikki ər birlə sünqüşdi = iki adam bir-biri ilə savaşdı, süngüləşdi», (سُنكُشماك - سُنكُشوُر sünqüşür– sünqüşmək).

كينكَشدى K ə n q ə ş d i: «اُل مَنكا كينكَشدى ol manqa kənqəşdi = o mənimlə bir məsələ barədə gənəşdi», (كينكاشماك - كينكاشوُر kənqəşür – kənqəşmək).

اُنكُقتى O n q u k t ı: «اَنك يوُزى اُنكُقتى anmq yüzi onquktı=onun üzü xəstəlikdən və ya başqa səbəbdən bürüşdü».

اُنكُقتى O n q u k t ı: «بَرجِن اُنكُقتى barçın onquktı = ipək parçanın təzəliyi, gözəlliyi getdi, parlaqlığı soldu». Həmin vəziyyətə düşən hər nəsnə barəsində bu söz işlənir, (اُنكُقماق - اُنكُقار onqukar – onqukmak).

مُنكُقتى M u n q u k t ı: «اَر مُنكُقتى ər munquktı = adam böhrana, sıxıntıya düşdü», (مُنكُقماق - مُنكُقار munqukar–munqukmak).

اُنكُلدى O n q u l d ı: «سُكَل اُنكُلدى sökəl onquldı = xəstə yaxşılaşdı».

اُنكُلدى O n q u l d ı: «ايش اُنكُلدى ış onquldı=qarışıq iş düzəldi», (اُنكُلوُر - اُنكُلماق onqulur –onqulmak).

اُنكُلدى Ü n q ü l d i: «يغاج اُنكُلدى yığaç ünqüldi = ağac oyuldu». Başqası da belədir, (اُنكُلماك - اُنكُلوُر önqülür – önqülmək).

---

söz «tonquz» ismi ilə bağh fe'l olduğu üçün («tonq-» kökü hər ikisində var) «tonquşdı» şəklində olmalıdır. Uyğurlar da «tonquşdı» kimi vermişlər (TTD, III, bet 537).

تَنكِلدى T a n q ı l d ı: «تَنكِلدى باش tanqıldı baş = baş sarındı, sarıdıldı». Hər hansı bir şey iplə sarınsa, yenə belə deyilir, (تَنكِلوُر- تَنكِلماق tanqılur – tanqılmak).

تُنكُلدى T o n q u l d ı: «اَر ايشتِن تُنكُلدى ər ıştm tonquldı = adam işdən ümidini üzdü», (تُنكُلوُر- تُنكُلماق tonqulur – tonqulmak)[333].

تَنكِندى T a n q ı n d ı: «اَر بَشِن تَنكِندى ər başm tanqındı = adam başqa birinin köməyi olmadan başını sarğı ilə sarıdı», (تَنكِنُور- تَنكِنماق tanqmur–tanqınmak).

MÜZAƏF BABI

تُنكتّى T ü n q ü t t i: «اَر بَشِن تُنكتّى ər başın tünqütti = adam başmı əydi». Başqası da belədir, (تُنكتُور- تُنكتماك tönqütür–tönqütmək).

تَنِكتّى T ə n q i t t i: « اَر اُقِن تَنِكتّى ər okın tənqitti = adam oxunu göyə doğru yüksəltdi, oxunu səmaya milləndirdi», (تَنِكتُور- تَنِكتماك tənqitür – tənqitmək).

كِينكِتّى K i n q i t t i: «اَر اُقِن كِينكِتّى ər əwin kinqitti = adam evini genişləndirdi». Başqası da belədir, (كِينكِتور- كِينكِتماك kenqitür – kenqitmək).

DÖRD HƏRFLİLƏR

كِينكادى K ə n q ə d i: «اُل مَنكا كِينكادى ol manqa kənqədi = o mənimlə gənəşdi, bir məsələdə mənimlə məsləhətləşdi», (كِينكار- كِينكاماك kənqər – kənqəmək).

---

[333] Bunun müzare və məsdərini Bəsim Atalay qoymuşdur.

كِينكوُدى K i n q ü d i: «يِر كِينكوُدى yer kinqüdi=yer genidi, yer genişləndi». Başqası da belədir, (كِينكوُر- كِينكوُماك kinqür – kinqümək).

BU BABIN LƏFİF[334] NÖVÜ

يُنكادى Y o n q a d ı: «اُل اَنى بَككا يُنكادى ol anı bəggə yonqadı = o onu bəyə şikayət etdi». Başqası da belədir, (يُنكار- يُنكاماق yonqar–yonqamak).

[334] Fe'iin kökündə əlif, vav və ye hərflərindən ikisi olsa, ona «ləfif» deyilir. Həmin iki hərf yan-yana gəlsə «ləfifi-məqrun», yəni «bitişik, yanaşı ləfif», yan-yana gəlməsə «ləfifi-məfruq», yəni «ayrı, ayrılmış ləfif» adlanır.

DÖRD HƏRFLİLƏR BÖLMƏSİ

HƏR NÖV HƏRƏKƏSİ İLƏ فَعلَدی FƏ'LƏLDİ BABI

تَنكتردی T ə n q t ü r d i: «اُل قُش تَنكتردی ol kuş tənqtürdi = o, quşu əlindən uçurtdu». Oxu havaya doğru buraxsa, yenə belə deyilir, (تَنكترُر- تَنكترماك tənqtürür – tənqtürmək).

تُنكدَردی T ö n q d ə r d i: «اُل اَیاق تُنكدَردی ol ayak tönqdərdi = o, qabı döndərdi, altını üstünə gətirdi». Başqası da belədir, (تُنكدَرُر- تُنكدَرماك tönqdərür – tönqdərmək).

سِنكدُردی S i n q d ü r d i: «سُجك اَشغ سِنكدُردی süçik aşığ sinqdürdi = şərab yeməyi sindirdi, həzm etdirdi».

سِنكدُردی S i n q d ü r d i: «اُل اَنی اَقكا سِنكدُردی ol anı əwgə sinqdürdi =o, onu evə qapatdı, evdə gizlətdi». (سِنكدُرُر- سِنكدُرماك sinqdürür –sinqdürmək).

مُنكقردی M u n q k a r d ı: «اُل اَنی مُنكقردی ol anı munqkardı = o onu iztiraba, sıxmtıya saldı», (مُنكقرُر- مُنكقرماق munkarur – munkarmak).

تَنكَردی T ə n q ə r d i: «اُل بیر نانكنی بیركا تَنكَردی ol bir nənqni birgə tənqərdi = o bir nəsnəni bir nəsnəyə tən elədi», (تَنكَروُر- تَنكَرماك tənqərür – tənqərmək).

تَنكلشدی T ə n q l ə ş d i: «بیر نانك بیركا تَنكلشدی bir nənq birgə tənqləşdi= bir nəsnə o biri ilə tənləşdi», (تَنكلشوُر- تَنكلشماك tənqləşür – tənqləşmək).

تِنكلشدى T ı n q l a ş d ı: «اُل مَنِك برلا سوُز تِنكلشدى ol məninq birlə söz tmqlaşdı = o, söz dinləmək işində mənimlə yarışdı», (-تِنكلشوُر تِنكلشماق tınqlaşur – tınqlaşmak).

تَنكلشدى T a n q l a ş d ı: «كِشيلار بوُ ايشغ تَنكلشدى kişilər bu ışığ tanqlaşdı = adamlar bu işə mat qaldı, heyrət və təəccüb etdi», (-تَنكلشوُر تَنكلشماق tanqlaşur – tanqlaşmak). Həmin söz bu şeirdə də işlənmişdir:

اُردى بُـلِت اِنكَرشوُ
اقتـــى اقن مُنكرشو
قلـــدى بُدُن تَنكلشوُ
كُكرَرتَقى مَنكرَشوُر

«Ördi bulıt ınqraşu,
Aktı akm münqrəşü,
Kaldı budun tanqlaşu,
Kökrər takı manqraşur».
Bulud inləyərək toplaşdı,
Möhkəm sel axdı,
Xalq bu işə mat qaldı,
Göylər bağırıb kükrəyir.

(Yağışı vəsf edərək deyir: buludlar inilti ilə toplaşdı, onlardan gurultu ilə sellər axdı, xalq heyrətə düşdü, göydə şimşəklər çıxır, sanki göy hayqırır).

مَنكدَشدى M ə n q d ə ş d i: «اِكّى اُراغت مَنكدَشدى iki urağut mənqdəşdi = iki qadın qarşılıqlı olaraq bir-birinin üz tüklərini aldılar, epilyasiya etdilər», (مَنكدَشوُر- مَنكدَشماك mənqdəşür– mənqdəşmək).

BU BABIN BAŞQA BİR NÖVÜ

مِنكَشدى M i n q ə ş d i[335]: «اُل مَنِک برلا مِنكَشدى ol məninq birlə minqəşdi = o mənimlə bir ata mindi». Başqası da belədir, (مِنكَشُور- مِنكَشماک minqəşür – minqəşmək).

كُنكرَندى K ü n q r ə n d i: «اَر ايش قا كُنكرَندى ər işka künqrəndi =adam işə girişməkdən çəkinib öz-özünə söyləndi», (tənbəllikdən öz-özünə nəsə mızıldandı). Başqası da belədir, (كُنكرَنُور- كُنكرَنماک künqrənür – künqrənmək).

كِينكرُندى K i n q r ü n d i: «اُل كِينكرُندى ol kinqründi = o bir müddət naz-nemət içində yaşadı», (كِينكرُنور- كِينكرُنماک kinqrünür – kinq-rünmək).

تَنكلندى T ə n q l ə n d i: «اَر ايشِن تَنكلندى ər ışm tənqləndi = adam öz işinə özü çarə qıldı», (تَنكلنُور- تَنكلنماک tənqlənür – tənqlənmək).

BU BABIN MİSAL OLANLARI

ينكشُردى Y i n q ş ü r d i: «اُل اسِک سوُقُغ ثُملُغقا ينكشُردى ol isig suwuğ tumluğka yinqşürdi = o, isti suya soyuq su qatıb ilıqlaşdır-dı», (ينكشُرُر- ينكشُرماک yinqşürür – yinqşürmək).

يَنكفُردى Y a n q k u r d u: «اَر يَنكفُردى ər yanqkurdu = adam qeybdən bir səs və ya işarə almış kimi sağına-soluna baxmdı», (يَنكفُرار- يَنكفُرماق yanqkurar – yanqkurmak).

---

[335] Bu sözün ilk hərfi yazma nüsxədə həm zəmmə, həm də kəsrə ilə hərəkələnmişdir. Bəsim Atalay (DLT, III, s. 399) və uyğur naşirlər (TTD, III tom, bet 545) onu kəsrə ilə yazmağın doğru olacağmı müvafiq qeydlə bildirmişlər. Salih Mütəllibov isə bunun üstündən sükutla keçmiş, ancaq o da sözü kəsrə ilə vermişdir (TSD, III tom, bet 408). Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər bu sözü «münqəşdi» kimi (DLT-2005, s.347) oxumuşlar.

HƏR NÖVHƏRƏKƏSİ İLƏ فعلادی FƏ'LADİ BABI

سُنکدادی S o n q d a d ı: «اُل یَغینی سُنکدادی ol yağmı sonqdadı = o, düşməni qovdu», (o, ata minərək düşmənin dalınca düşüb onu qovdu). Yaxalamaq üçün hər hansı bir şeyin dalınca qaçsa, yenə belə deyilir, (سُنکدار - سُنکداماق sonqdar–soqdamak).

مَنکدادی M ə n q d ə d i: «اُل آنِکا سَچِن مَنکدادی ol anınq saçın mənqdədi = o onun saçını yoldu». Bu şeirdə də işlənmişdir:

اُدم بَرب سُنکدَدی
تـکرتُرب آنکدِدی
سَچن قرا مَنکدَدی
اَرزُولـــیوُ ار اقار

«Udhım[336] barıp sonqdadı,
Təgrə turup anqdıdı,
Saçm kıra mənqdədi,
Arzulayu ər awar».
Dalınca gedib qovladı,
Mühasirəyə aldı,
Saçını qırıb yoldu,

---

336 Bu bənddəki səhvlərlə bağlı Bəsim Atalay mətn altındakı haşiyədə geyd vermişdir (DLT, III, s. 401). Çinəcə (DLT-Çin, III cild, s.393) və uyğurca nəşrlərdə də qeydlər var (TTD, III tom, bet 548). Lakin Salih Mütəllibovun qeydi daha geniş və daha dolğundur. Ona görə də həmin qeydi cüzi ixtisarla veririk: «Şeir parçasımn birinci misrasmda «udhum barıp» sözünün doğru variantı «udhu barıp» olmalıdır. «Divan»m I cildindəki «mən anınq udhu kəldim» ibarəsi buna dəlildir. İkinci misaradakı «təgr» sözü ərəbcəyə «həvalə», yəni «ətraf» mənasında tərcümə edilmişdir. Bu mənadakı sözə əsərin bir neçə yerində «təgrə» şəklində rastlanır ki, doğrusu da budur. Dördüncü misradakı «arzu layu» sözünün ərəbcəsi «çaqqal» deməkdir. Bu mənadakı söz «Divan»ın I cildində «arju layu», yəni «çaqqal kimi» şəklində geniş izah edilmişdir. Demək, həmin söz «arzu» deyil, «arju» olmalıdır. Üçüncü misradakı «kara» sözünə gəlincə, Bəsim Atalay bunu «kıra» kimi oxumağı təklif etmişdir. Lakin bu sözün əlavə tədqiqata ehtiyacı var» (TSD, III tom, bet 409-410).

Çaqqal kimi adam ovlar».

(Bir bəyi məğlub edən adamı təsvir edir: o onun dalınca düşüb qovdu, onu tutmaq üçün ətrafmı sardı, adamlar da onu mühasirəyə aldılar, saçını yoldular. Burada xalqm toplaşmasını çaqqallarm toplaşmasma bənzədir. Çünki çaqqallar yalnız adama rast gəlsələr, onu mühasirəyə ahr və yeyirlər), (منكدار - منكداماك mənqdər–mənqdəmək).

چنكرَدی Ç ı n q r a d ı: «اُل قُنكراغوُ چنكرَدی ol konqrağu çmqradı=o, zəng, zmqırov, çaldı», (چنكرار - چنكراماق çınqrar–çınqramak). Buna bənzəyən hər səsə belə deyilir.

سُنكرادی S o n q r a d ı: «ار ايشقا سُنكرادی ər ışka sonqradı = adam işi qəbul etmədi, tənbəllikdən sözü rədd etdi», (سُنكرار - سُنكراماق sonqrar – sonqramak).

قُنكرادی K o n q r a d ı: «أغلان اوُنی قُنكرادی oğlan üni konqradı =uşağm səsi qalınlaşdı», (uşaq həddi-büluğa çatanda belə deyilir).

قُنكرادی K o n q r a d ı: «قوُی قُنكرادی koy konqradı = qoyunun rəngi qonurlaşdı», (قُنكرار - قُنكراماق konqrar – konqramak).

منكرادی M a n q r a d ı: «ار منكرادی ər manqradı = adam bağırdı». Başqası da belədir, (منكرار - منكراماق manqrar–manqramak).

مُنكرادی M ü n q r ə d i: «اوُذ مُنكرادی udh münqrədi = öküz böyürdü, (مُنكرار - مُنكراماق münqrər – münqrəmək)[337].

منكزادی M ə n q z ə d i: «بير نانك بيرگا منكزادی bir nənq birgə mənqzədi = bir nəsnə o birinə oxşadı,bənzədi», (منكزار - منكزاماك mənqzər – mənqzəmək).

تنكلادی T a n q l a d ı: « ار ايشغ تنكلادی ər ışığ tanqladı = adam işə heyran oldu, heyrət etdi», (تنكلار - تنكلاماق tanqlar–tanqlamak).

---

[337] Bu söz yazma nüsxədə «münqrəmək», basma nüsxədə «munqramak»dır. Özbək və uyğur nəşrlərində son variantda verilmişdir.

تَنكلادى T ə n q l ə d i: «بير نانك بيركا تَنكلادى bir nənq birgə tənqlədi = bir nəsnəni o birinə tən eləldi», (تَنكلار - تَنكلاماق tənqlər – tənqləmək).

تِنكلادى T ı n q l a d ı: «ار سوُز تِنكلادى ər söz tmqladı = adam söz dinlədi, sözə qulaq asdı», (تِنكلار - تِنكلاماك tınqlar–tınqlamak).

سَنكلادى S a n q l a d ı: «قُش سَنكلادى kuş sanqladı = quş pisladi», (سَنكلار - سَنكلاماق sanqlar – sanqlamak).

BU BABIN MİSAL OLANLARI

يَنكرادى Y a n q r a d ı: «اُل بير سوُز يَنكرادى ol bir söz yanqradı = o, gizlədilməli sözü söylədi, ağzmdan qaçırdı», (يَنكرار - يَنكراماق yanqrar – yanqramak).

يُنكلادى Y u n q l a d ı: «اُل قويُن يُنكلادى ol koyun yunqladı = o, qoyunun yununu qırxdı», (يُنكلار - يُنكلاماق yunqlar – yunqlamak).

HƏR NÖV HƏRƏKƏSİ İLƏ FƏ'İLADİ BABI

تِنكيلادى T ı n q ı l a d ı: «نانك تِنكيلادى nənq tınqıladı = ağır bir şey yerə düşərək dmq elədi», (تِنكيلار - تِنكيلاماك tmqılar – tınqılamak)[338].

جَنكيلادى Ç a n q ı l a d ı: «ات جَنكيلادى ıt çanqıladı = vurulan it zəngildədi». Bu, hürməkdən fərqli bir səsdir. Bir adam pis sözlər

[338] Bu sözü Bəsim Atalay (DLT, III, s. 403) və çinlilər (DLT-Çin, III cild, s.396) və uyğurlar (TTD, III tom, bet 552) «tınqıladı», Salih Mütəllibov isə «tinqilədi» şəklində (TSD, III tom, bet 412) oxumuşlar. Sözdəki ikinci ə əliflə, məsdər isə («tinqiləmək») ك ke ilə yazıldığı üçün Salih Mütəllibovun oxunuşu doğrudur. Məsdərdə ك ke-nin varlığını uyğurlar da qeyd etmiş və onu ق ka-ya çevirmişlər. Ancaq məsələ ondadır ki, bu söz (danqıldamaq, danq-dunq, dınqıltı və s.) incə saitlərlə işlənmir. Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər bu sözü qalın saitlərlə «tonqdadı» kimi (DLT-2005, s.578) oxumuşlar.

deyəndə «تَلِم جَنكيلادِنك tələm çanqıladmq = sən çox baş apardın, çox bağırdın» deyirlər. (جَنكيلار - جَنكيلاماق çanqılar =çanqılamak).

سُنكوُلادى S ü n q ü l ə d i: «اَل اَنى سُنكوُلادى ol anı sünqülədi = o onu süngülədi», (سُنكوُلار - سُنكوُلاماك sünqülər – sünqüləmək).

سِنكيلادى S ı n q ı l a d ı: «اِت سِنكيلادى ıt sınqıladı = it soyuqdan zəngildədi».

سِنكيلادى S ı n q ı l a d ı: «سوُف سِنكيلادى suw sınqıladı = su donacaq halda soyudu».

سِنكيلادى S ı n q ı l a d ı: «قُلاقِم سِنكيلادى kulakım sınqıladı = qulağım cingildədi», (سِنكيلار - سِنكيلاماك sınqılar – sınqılamak)[339].

تُنكالادى T o n q a l a d ı: «اَر تُنكالادى ər tonqaladı = adam igidlərin və bahadırlarm gördüyü işləri gördü», (تُنكالار - تُنكالاماق tonqalar – tonqalamak).

مَنكيلادى M ə n q i l ə d i: «اَر مَنكيلادى ər mənqilədi = adam beyin yedi». Sözün ilkin və əsil mənası budur. Daha sonra bu söz danışıq dilində ərəbcə «طوُبى لكَ tuba ləkə=[müjdələr olsun sənə]» ifadəsinə uyğun gələn bir məna qazanmışdır. Beyin yedi deyimi bir adam üçün qoyun kəsmək və qoyunun ən dəyərli yeri olan beynini həmin şəxsə verməklə onu şərəfləndirmək deməkdir. Sonralar bu söz ləziz yeməklərə sahib olan hər kəs haqda deyilmişdir. Bu şeirdə də işlənir:

اَنى يـــتب سُنكوُلادى
بَشِن يَندُروُ يَنكيلادى
اَرَن بايـــب مَنكيلادى
اَنِـــك اَلبِن قَرا بُغدى

[339] Salih Mütəllibov bu sözü incə saitlərlə vermişdir (TSD, III tom, bet 413).

«Anı yetip sünqülədi,
Başm yanduru yanqıladı,
Ərən bayup mənqilədi[340],
Anmq alpın kara[341] boğdı».
Ona yetib süngülədi,
Yarasını yenidən qanatdı,
Əsgərlərini qənimətlə varlı etdi,
Onun igidlərini qıraraq boğdu.

(Düşmən qoşununu məğlub edən bir bahadırı tərifləyərək deyir: çatıb düşməni süngülədi, onun qaysaqlanan yarasım qopardı, öz ərənlərinə çoxlu qənimət paylayaraq onları zəngin, varlı elədi[342], düşmənin alplarım boğaraq qırdı», (منكيلار- منكيلاماك mənqilər–mənqiləmək)[343].

BU BABIN MİSAL OLANI

يَنكيلادى Y a n q ı l a d ı: «أل توُنِن يَنكيلادى ol tonm yanqıladı = o, paltarım təzələdi». Başqası da belədir, (يَنكيلار - يَنكيلاماق yanqılar – yanqılamak).

---

340 Bəsim Atalay bu sözü maddə başında «منكيلادى = mənqilədi» kimi, şeirdə isə həm ərəb, həm də latın əlifbası ilə «münqilədi» kimi vermişdir (DLT, III, s.406). Biz hər yerdə «منكيلادى = mənqilədi» şəklində verdik. Bəsim Atalay maddəni də bir qədər dolaşıq, qeyri-sərrast çevirmiş, bu deyimin ilkin və əsil mənasını açıqlamamışdır. Ona görə də Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevərin tərcüməsindən (DLT-2005, s.343) istifadə etmək məcburiyyətində qaldıq.

341 Uyğurlar şeirin ikinci misrasında (eyni zamanda bizim nümunədə ərəb əlifbası ilə ikinci misrada) bir heca artıq olduğunu göstərmiş, oradakı «yanduru» sözünü «yandru», dördüncü misaradakı «kara» sözünü isə «kıra» şəklində oxumuşlar (TTD, III tom, bet 555). Çinlilər heç bir qeyd verməmişlər (DLT-Çin, III ctld, s.398). Salih Mütəllibov da bu bəndlə bağh heç bir qeyd verməmişdir (TSD, III tom, bet 414).

342 Hərfən: beyin yemiş kimi elədi. Yəni öz ərənlərinə o qədər qənimət verdi ki, onlar özlərini qoyun beyni yemiş kimi hiss elədilər.

343 Bu fe'lin müzare və məsdərini biz qoyduq.

BUNUN BAŞQA BİR NÖVÜ

يَشانكُزدى Y a ş a n q u r d ı: «اَيِک كوزى يَشانكُردى anmq közi yaşanqurdı =onun gözü gün şüasmdan yaşardı, gözündən yaş axdı», (يَشانكُر - يَشانكُرماق yaşanqurur[344] – yaşanqurmak).

BU BABIN BEŞ HƏRFLİLƏRİ

تُنكُرلندى T ü n q ü r l ə n d i: «اُل مَنكا تُنكُرلندى ol manqa tünqürləndi=o özünü mənə quda, düngür saydı», (تُنكُرلنمَاک - تُنكُرلنوُر tünqürlənür – tünqürlənmək).

سِنكِرلندى S i n q i r l ə n d i: «اَت سِنكِرلندى ət sinqirləndi = ət sinirləndi, ətdə sinir çoxaldı».

سِنكِرلندى S i n q i r l ə n d i: «يا سِنكِرلندى ya sinqirləndi = yaya kiriş, sinir sarıldı». Başqası da belədir, (سِنكِرلنمَاک - سِنكِرلنوُر sinqirlənür – sinqirlənmək).

مَنكِزلندى M ə n q i z l ə n d i: «كِشى مَنكِزلندى kişi mənqizləndi = adamm üzü, bənizi gözəlləşdi, rəngi-ruhu özünə gəldi», (مَنكِزلنوُر - مَنكِزلنمَاک mənqizlənür – mənqizlənmək).

مُنكُزلندى M ü n q ü z l ə n d i: «قُزى مُنكُزلندى kuzı münqüzləndi = quzunun buynuzu çıxdı». Başqası da belədir, (مُنكُزلنوُر - مُنكُزلنمَاک münqüzlənür – münqüzlənmək).

سُنكوُكلندى S ü n q ü k l ə n d i: «اُغلان سُنكوُكلندى oğlan sünqükləndi = uşaq sümükləndi, böyüdü». Başqası da belədir, (سُنكُكلنوُر - سُنكُكلنمَاک sünqüklənür-sünqüklənmək).

---

[344] Bu fe'lin müzaresi mətndə «yaşanqur» şəklində verilmişdir. Yanlışdır. Türk, özbək və uyğur nəşrlərində «yaşanqurur» şəklində düzəldilmişdir.

كُنكُلنَدى K ö n q ü l l ə n d i: «ار ايشقا كُنكُلنَدى ə l ışka könqülləndi = adam işə könülləndi, işləməyə əzm etdi». Uşaq bir şey düşünsə və başa düşsə, yenə belə deyilir, (كُنكُلنَوُر - كُنكُلنَماك könqüllənür – könqüllənmək).

سِنكِلَندى S i n q i l l ə n d i: «اُل قيزغ سِنكِلَندى ol kızığ sinqilləndi = o, qızı özünə bacı saydı», (cariyəni özünə bacılıq elədi), (سِنكِلَنوُر - سِنكِلَنماك sinqillənür – sinqillənmək).

BU BABIN DÖRD HƏRFLİLƏRİ

تُنكُرلادى T ü n q ü r l ə d i: «اُل مَنى تُنكُرلادى ol məni tünqürlədi = o məni özünə quda, düngür saydı», (تُنكُرلار - تُنكُرلاماك tünqürlər – tünqürləmək).

سِنكِرلادى S ı n q a r l a d ı: «اُل اَنى سِنكِرلادى ol am sınqarladı = o onu arxasız olduğu üçün zəif saydı və ondan öc aldı», (سِنكِرلار - سِنكِرلاماق sınqarlar - sınqarlamak).

سِنكِرلادى S i n q i r l ə d i: «اُل ياسِن سِنكِرلادى ol yasm sinqirlədi = o, yayma sinir sarıdı». Başqası da belədir, (سِنكِرلار - سِنكِرلاماك sinqirlər - sinqirləmək).

كَنكِرسيدى K ə n q i r s i d i: «اَشَج كَنكِرسيدى aşıç kənqirsidi = qazanın dibi yandı, qazandan iy yüksəldi», (كَنكِرسير - كَنكِرسيماك kənqirsir – kənqirsimək).

بَلِنكلادى B ə l i n q l ə d i: «ار بَلِنكلادى ər bəlinqlədi = adam qarabasma üzündən yuxusundan sıçrayıb oyandı». Hər hansı bir heyvan qəflətən bir şeydən qorxub sıçrasa, hürksə, yenə belə deyilir, (بَلِنكلار - بَلِنكلاماك bəlinqlər – bəlinqləmək).

تُلنكلادى T u l u n q l a d ı: «اُل قلِن تُلنكلادى ol kulın tulunqladı = o, qulunun qulağmın altına vurdu», (تُلنكلاماق - تُلنكلار tulunqlar – tulunqlamak).

BU BABIN BEŞ HƏRFLİLƏRİ

سَرنكوُلادى S ə r i n q ü l ə d i: «اَر سَرنكوُلادى ər sərinqülədi = adam buz üstündən sürüşdü». Başqa bir şeydən sürüşsə də belə deyilir, (سَرنكوُلار - سَرنكوُلاماق sərinqülər - sərinqüləmək).

سلِنكوُلادى S a l ı n q u l a d ı: «اُزُم سلِنكوُلادى üzüm salınquladı =üzüm çardaqdan sallandı». Hər lıansı bir şey yuxarıdan aşağıya doğru sallansa, yenə belə deyilir.

سلِنكوُلادى S a l ı n q u l a d ı: «اَر اِتغ سلِنكوُلادى ər ıtığ salmquladı = adam itini daşladı», (سلِنكوُلار - سلِنكوُلاماق salınqular– salınqulamak).

قلِنكُولادى K a l ı n q u l a d ı: «اَر سُقدا قلِنكُولادى ər suwda kalınquladı = adam başını sudan yuxarıda tutdu». Bu, ayaqlarını yerə vurub çiyinlərini oynadaraq su üstündə dik durmaqdır, suya batmamaqdır, (قلِنكُولار - قلِنكُولاماق kalınqular–kalınqulamak).

BU BABIN MİSAL OLANLARI

يَنكڤولادى Y a n q k u l a d ı: «تاغ يَنكڤولادى tağ yanqkuladı = dağ əkssəda verdi». Bu çıxardığın səsin eynən özünə qayıdıb eşidilməsidir.

يَنكڤولادى Y a n q k u l a d ı: «اَر قُلاقى يَنكقوُلادى ər kulakı yanqkuladı = adamın qulağına səs gəldi», (bir şey eşidib-duyan kimi ol-

du, sağına-soluna baxmdı), (يَنكقوُلار - يَنكقُولاماق yanqkular–yanqkulamak).

يَلِنكوُلادى Y a l ı n q u l a d ı: «قيز يَلِنكوُلادى kız yalmquladı = cariyə iplə, yelləncəklə oynadı». Başqası da belədir, (يَلِنكوُلار - يَلِنكوُلاماق yalınqular – yalınqulamak).

ينجكالادى Y i n ç k ə l ə d i: «اُل نانكنى ينجكالادى ol nənqni yinçkələdi = o, nəsnəni incə saydı». Bir şey incəldilsə, yenə belə deyilir, (ينجكالار - ينجكالاماك yinçkələr – yinçkələmək).

DÖRD HƏRFLİLƏRİN MÜZAƏFİ

تَرنكُكلندى T ə r i n q ü k l ə n d i: «سوُف تَرنكُكلندى suw tərinqükləndi = su dərinləşdi, axdı, çoxaldı», (تَرنكُكلنوُر - تَرنكُكلنماك tərinqüklənür – tərinqüklənmək).

كُنكلكلندى K ö n q l ə k l ə n d i: «اَر كُنكلكلندى ər könqləkləndi = adam köynək geydi, köynək sahibi oldu». Başqası da belədir, (كُنكلكلنوُر - كُنكلكلنماك könqləkləmir – könqləklənmək).

Tanrıya şükür olsun, günnəlilər kitabı bitdi.



BİSMİLLAH İR-RƏHMAN İR-RƏHİM

İKİ SÜKUNLUNUN YAN-YANA GƏLDİYİ SÖZLƏR KİTABI

İSİMLƏR BÖLMƏSİ

الدرک Ə l d r ü k: üzərlik deyilən bir bitkinin toxumu[345].

أرتمان Ö r t m ə n: örtmə, talvar, çardaq, dam.

أرتكوُن Ö r t k ü n: arpası, buğdası, samanı ayrılmış xırman.

أرسلان A r s l a n: aslan. Bu, xaqanlara da verilən addır. Bu atalar sözündə də işlənmişdir: «ألين أرسلان تُتار، كوُجن سبجغان تُتماس» alın arslan tutar, küçin sıçğan tutmas = al ilə aslan tutular, güc ilə siçan da tutulmaz», (hiylə ilə aslanı tutmaq olar, lakin güc ilə heç siçanı da tutmaq olmaz). Bu söz işdə qaba qüvvə ilə deyil, tədbirlə hərəkət etməsi lazım gələn adamlar haqqmda deyilir.

ألدُرُم O l d r u m: adamın oturğa yeri, yanbızı; kötürüm, yatalaq.

BU BABIN BAŞQA BİR NÖVÜ

تُركمان T ü r k m ə n: bunlar oğuzdurlar. Bunalara türkmən deyilməsinin bir hekayəsi var. Həmin hekayə belədir: Zülqərneyn Səmərqənddən keçib türklərin ölkəsinə doğru yönəldiyi zaman türklərin xaqanı çoxlu qoşunu olan شوُ Şu adlı gənc

[345] Salih Mütəllibovun bu sözlə bağlı qeydi belədir: «Bu söz kaşğarlıların dilində «yıdhığ ot», uç və barsğanlıların dilində «əldürük», oğuzların dilində «yüz ərlik» sözləri ilə ifadə edilir» (TSD, III tom, bet 419). Bu, bizim bildiyimiz məşhur «üzərlik»dir. Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər isə bu sözü «ildrük» (DLT-2005, s.287) və «ilrük» (DLT-2005, s. 288) oxumuşlar.

bir adam idi. Balasağun yaxınlığındakı qalanı o, fəth etmiş və tikmişdi. Hər gün Balasağundakı sarayın qarşısmda bəylər üçün üç yüz altmış növbət davulu vurulurdu. Xaqan Şuya Zülqərneynin yaxınlaşdığı xəbər verilmiş, «Əmriniz nədir, savaşaq, yoxsa yox? Nə buyurursunuz?» deyə soruşmuşlar. Xaqan Şu müşahidə aparmaq və Zülqərneyni izləmək üçün خُجَنْد Xocənd çayınm sahilinə qırx tarxanı göndərmişdi. Onlar gizli şəkildə getdikləri üçün ordunun bundan xəbəri yox idi. Buna görə də xaqanın ürəyi sakit idi. Xaqanın gümüşdən bir hovuzu var idi. Səfərə çıxanda onu da özü ilə birlikdə aparırdı. Hovuza su doldurulur, içində ördəklər, qazlar üzürdü. Xaqandan «nə deyirsiniz, hərb edəkmi?» deyə soruşduqları zaman o, «bu qazlara, ördəklərə baxın, necə suya dalırlar» demişdir. Bunu eşidənlər bu sözlərdən xaqanm savaşa hazırlaşmadığını və buradan çəkilib getmək niyyətində olmadığmı zənn etmişlər. Zülqərneyn Xocənd çaymı keçir və müşahidəçilər gecə ikən gəlib Zülqərnenynin çayı keçdiyini xaqana xəbər verirlər. Xaqan dərhal davullar çaldıraraq şərqə doğru yola düşür. Xalq getmək üçün heç bir hazırlıq görməyən xaqanm qəfildən getməsi üzündən ümidsizliyə düşür, ürküntü və qarışıqlıq yaşanır. Minik tapa bilənlər heyvanm üstünə atılıb xaqanın dalınca yollanırlar. Qarışıqlıqda çaşqınlıqla bir-birinin heyvanlarını alırlar. Səhər olunca ordugah düz bir ova halını alır. O zaman Taraz, İsficab, Balasağun kimi yerlər yox idi, bunlar sonradan salmmışdır. Həmin yerlərdə köçərilər yaşayırdılar. Xaqan ordusu ilə sovuşub gedəndən sonra orada çoluq-çocuğu ilə

iyirmi iki nəfər qalmışdı. Bunlar gecə ikən heyvanlarını tapa bilmədikləri üçün gedə bilməmişdilər. Bunlar kitabın əvvəlində adlarmı çəkdiyim, damğalarını bəyan etdiyim adamlardır: «قِنِق kınık», «سَلغُر salğur» və başqaları kimi. Bu iyirmi iki nəfər piyada çıxıb getmək, yoxsa orada qalmaq barədə danışanda daha iki nəfər gəlib çıxdı. Bunlar əşyalarını dallarına yükləmiş, ailələrini də yanlarına almışdılar. Ordunun izinə düşərək gedirdilər, çox yorulmuş və tərləmişdilər. Bu iyirmi iki nəfər yeni gələn iki adamla tanış olub danışdılar. Bu iyirmi iki adam dedi: «ey, siz ikiniz, Zülqərneyn adlı şəxs bir yolçudur, burada qalmaz, ötüb keçər, biz də öz yerimizdə qalarıq». İyirmi ikilər onlara türkcə «قال آج kal aç», yəni «qalın, gözləyin» dedilər. Sonradan onlar «خَلَج xalaç/xalac» adlandırılmışlar. Xalacların əsli belədir, onlar iki qəbilədir.

Zülqərneyn gəlib onları saçlı və üstlərində türk nişanələri ilə görüncə, heç nə soruşmadan «تُرکمان اند türkmanənd»[346] dedi, «türkə

[346] Bəsim Atalayın burada bir qeydi var. Onu olduğu kimi veririk: «Mətnin buradakı «تُرکمان اند türkman ənd» sözü yanlış olmahdır. Ehtimal ki, orijinal nüsxədə belə deyildir. Çünki türkmən sözündə bənzərlik mənası bulunduğu söyləndiyi üçün bu söz fars dilinin qanunlarına görə «تُرکمانَند türkmanənd» şəklində [«تُرکمان türkman» və «اند ənd» sözləri bitişik] olmalıdır. Mətndəki «تُرکمان اند türkman ənd» sözünün mənası «türkmənlərdir» deməkdir. Buradan belə anlaşılır ki, kitabı orijinal nüsxədən köçürən şəxs ya farsca heç bilmirmiş, ya da kitabı birinə oxudaraq özü yazırmış. Başqa cür fikirləşmək mümkün deyil, çünki Kaşğarinin belə bir səhvə yol verməsi ehtimal oluna bilməz» (DLT, III, s. 415). Salih Mütəllibov (TSD, III tom, bet 422) və uyğurlar da buna bənzər qeydlər vermişlər (TTD, III tom, bet 567). Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər bu şözü «bunlar türkə bənzəyir» kimi (DLT-2005, s.608) vermişlər. Burada bir mühüm məsələni qeyd etmək lazımdır. Bu tarixçənin «T ü r k m ə n» maddəsi içində verilməsi bəzi dolaşıqlıq yaradır. Əgər həmin tarixçə «T ü r k» maddəsində verilsəydi, məsələnin qoyuluşu fərqli olacaqdı. Çünki orada «تُرک türk» və «مانَند manənd», yəni «türkə+bənzəyirlər» sözləri və mənası heç bir şübhəyə yer qoymayacaqdı. Zatən mətndə də «Zülqərneyn gəlib onları saçlı və üstlərində türk nişanələri ilə görüncə» (türkmən nişanələri ilə deyil, məhz türk nişanələri ilə!) deyilir. Doğrudur, türkmənlər də türkdür, üstəlik, bu əhvalat tarixi realhğa söykənirsə, İskəndər üçün bu iyirmi iki nəfərin türk, yoxsa onun bir qolu olan türkmən olmasının nə fərqi vardı? Onun qarşısında

bənzər» deməkdir. Bu ad onlarda bu günə qədər qalmışdır. Türkmənlər əslində iyirmi dörd boydur. Lakin iki boydan ibarət olan xalaclar bəzi xüsuslarda onlardan ayrıldıqları üçün, onları oğuz saymırlar. Əsli, doğrusu budur.

Xaqan Şu Çinə doğru keçib getdi, Zülqərneyn də onun dalınca düşdü. Uyğurlara yaxın bir yerdə xaqan Şu Zülqərneynin üstünə bir bölük əsgər göndərdi. Zülqərneyn də əsgər göndərdi və التون قان Altun kan deyilən dağda vuruşma baş verdi. Həmin dağ bu gün التون خان Altun xan adlanır. Bundan sonra Zülqərneyn xaqanla sülh bağladı və uyğur şəhərlərini bina etdi, bir müddət orada qaldı. Zülqərneyn çəkilib getdikdən sonra xaqan شوُ Şu gəldi, Balasağuna qədər irəlilədi, bir qala tikdirdi və ona öz adını verdi. Oraya bir tilsim qoydurdu. Leyləklər o şəhərin qarşısma qədər uçub gəlir, ancaq şəhəri qətiyyən keçib getmirlər. Tilsim bu günə qədər smmamışdır.

BU BABIN BAŞQA BİR NÖVÜ

سَندرُش S a n d r u ş: çəkişmə. Bu atalar sözündə də işlənmişdir: « سَبَندا سَندرُش بُلسا، اُرتکوُن دا اِرتَش بُلماس sabanda sandruş bolsa, örtgündə irtəş bolmas=cüt zamanı hay-küy olsa, xırmanda dava-dalaş olmaz»[347].

türk adlı ümumi bir düşmən vardı, onun boylarının necə adlanmasımn elə bir mənası yox idi. Bəsim Atalay haqlı olaraq göstərir ki, bu söz «تُرک türk» və «مانند manənd», yəni «türkə bənzəyirlər» şəklində yazılmalıdır. Türkmənlər islama qədər türkmən deyil, daha çox oğuz adı ilə tanınırdılar.

[347] İki sükunlunun bir yerdə olduğunu göstərən bölmədə bu söz «sandruş» şəklindədir, başqa yerlərdə «sandırış» şəklində keçir.

بُرسُمَق P o r s m u k: porsuq. Köklükdə məsəl olmuşdur. Oğuzlar bu sözdəki م m hərfini ataraq «بُرسُق porsuk» deyirlər[348]. Onlar digər türklərin ayaqqabı mənasında işlətdikləri «بَشَق başak» sözünə bir m əlavə edərək «بَشمَق başmak» deyirlər.

قُلدرق K ı l d r u k: buğda sünbülündə olan qılçıq. Başqası da belədir.

قُرقلق K o r k l u k: «ار قُرقلق korkluk ər = qorxaq adam».

تُرتِكُل T ö r t g ü l: «اَف تُرتِكُل törtgül əw = dördkünc ev». Kvadrat şəkilli hər şeyə belə deyilir.

بَرسغان B a r s ğ a n: Əfrasiyabın oğlunun adıdır. Barsğan şəhərini də o qurmuşdur. Bu şəhər Mahmudun atasmm şəhəridir. Bəziləri isə belə deyirlər: uyğur xaqanınm Barsğan adlı bir mehtəri varmış. Havası gözəl olduğu üçün atları burada yetişdirirmiş. Sonra buraya Barsğan adı verilmişdir.

بُرسلان B u r s l a n: əslində bu söz bəbir mənasındadır. Buradan ahnaraq «ارسلان بُرسلان arslan-burslan» deyirlər.

بُرسلان B u r s l a n: kişi adlarındandır. «ارسلان بُرسلان arslan-burslan» sözü qoşa işlənir. «بُرسلان burslan» sözü tək işlənmir. Bu söz bəbir mənasındadır. Əgər həmişə arslan sözü ilə birlikdə işlənməsəydi, bu söz kişi adı olmazdı. Çünki ərəb dilində də belədir. Yalnız olaraq هذا شَىءٌ بَسَنٌ deyilmir, حَسَنٌ بَسَنٌ deyilir.

قِرقلم K ı r k l u m: «قِرقلم ساغوُ kırklum sağu=bir ölçü alətidir». Dolusu bir kilə[349] edər.

---

[348] Basma nüsxədə «porsumuk» şəklində yazılan bu söz əslində baba uyğunluq baxımından «porsmuk» olmalıdır.

[349] Bir «kilə» taxıl kimi dənəvər cisimlər ölçüsü olub qırx litrə bərabərdir. Salih Mütəllibov «dolusu bir kiloqram gəlir» deyə tərcümə etmişdir (TSD, III tom, bet 424). Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər isə «kilə» yazıb keçmiş, litrajını verməmişlər (DLT-2005, s427). Bu haqda çinlilərin qeydi yoxdur (DLT-Çin, III cild, s.409).

BU BABIN ALTI HƏRFLİLƏRİ

اِكِرجكوُن İ k i r ç k ü n: «اِكِرجكوُن ايش ikirçkün ış = görülüb-görülməməsi barədə tərəddüd olunan iş». «كُنكلُم اِكِرجكُون بُلدى könqlüm ikirçkün boldı = könlüm işləyib-işləməmək barədə tərəddüdə düşdü».

كُكُرجكُون K ö k ü r ç k ü n: göyərçin.

BU BABIN FE'LLƏRİ

اَلقتى A l k t ı: «اُل تُوارن اَلقتى ol tavarın alktı = o, malını bitirdi». Başqası da belədir, (اَلقار - اَلقماق alkar – alkmak).

[Qayda]:

İki sükunlunun yan-yana gəlməsinin az olduğunu bilməlisən. Çünki iki sükunlu ancaq ذلاقه zəlakə hərfləri adlanan ر, ل, ن r,l,n hərfləri ilə olur, isimlərdə və fe'llərdə göz önünə ahnacaq bir qaydadır. İki sükunlunun birləşməsi ancaq bu hərflərin işıtırakı ilə mümkündür. Bu hərflər sözü yüngülləşdirir, iki hərfi bir hərf kimi edir. Buna görə də iki sükunlu bir hecanı şair bir hərf kimi işlədə bilir, vəzn pozulmur.

اُركتى Ü r k t i: «قوُى اُركتى koy ürkti = qoyun ürkdü», (gecə və ya gündüz qoyun qurd və qurda bənzər şeylərdən ürkdü), « بُدوُن اُركتى budun ürkrti = xalq ürkdü», (düşmənin gəlişi üzündən xalq ürkdü), (اُركار - اُركماك ürkər–ürkmək).

اِرکتی İ r k t i: «اِر ثَوار اِرکتی ər tavar irkti=adam mal topladı». Başqası da belədir, (اِرکماک - اِرکار irkər–irkmək).

سُرجدی S ü r ç d i: «سُرجدی ات at sürçdi=at sürüşdü». Başqası da belədir, (سُرجار - سُرجماک sürçər–sürçmək).

سَنجدی S a n ç d ı: «سَنجدی بجاکِن آنی أل ol anı biçəkin sançdı = o onu bıçaqla vurdu, bıçaqladı». Başqası da belədir.

سَنجدی S a n ç d ı: «سَنجدی یَفیسِن بَک bəg yağısın sançdı=bəy düşmənini məğlub etdi», (سَنجار - سَنجماق sançar –sançmak).

کُرسدی K ü r s d i: «کُرسدی قانکا یِکِت yigit kanqa kürsdi = igid ətə-qana doldu», (onda kişilik əlamətləri göründü, qorxmaz, çəkinməz oldu). Bu sözün əsli xəmir və xəmirə bənzər şeylərin bir qaba doldurulduqdan bir saat sonra qabarıb daşması, acıması mənasındadır. Xəmir yaxşı olsa, bir saat sonra acıyaraq qabdan daşır,(کُرسار کُرساماک kürsər–kürsəmək)[350]. Bu sözün əsli təkəbbürlü və təcrübəsiz mənasmda olub ismə سلدی [-sadı/sədi şəkilçisi] artırılmaqla yaranan fe'ldir. Mənasını yuxarıda bəyan etmişik. (کُرسار - کُرساماک kürsər – kürsəmək)[351].

سَرقدی S a r k t ı: «سوُقْ سَرقدی suw sarktı=su sızdı». Hər hansı bir maye bir yerdən sızsa, damlasa, yenə belə deyilir.

سَرقدی S a r k t ı: «اَذاقِم سَرقدی adhakım sarktı=ayağım uyuşdu», (heyvana minməkdən yorularaq ayağım uyuşdu), (سَرقار - سَرقماق sarkar–sarkmak).

قُرقدی K o r k d ı: «قُل تَنکریدَن قُرقدی kul tənqridən korkdı = qul tanrıdan qorxdu». Başqa şeydən qorxsa, yenə belə deyilir, (قُرقار -

[350] Bu məsdər yanlışdır. Baba uyğun gəlməsi üçün «kürsmək» olmalıdır.

[351] Belə çıxır ki, burada bir sözün iki mənasından bəhs edilir: «kürsmək = ətə-qana dolmaq» və «kürsəmək = təkəbbürlü və təcrübəsiz olmaq». İlk mənada sözün kökü «kürs», ikincidə isə «kür»dür, -sə şəkilçisi qəbul etmişdir.

قرقماق korkar–korkmak). Bu atalar sözündə də işlənmişdir: «قرى أكوز بلدوقا قرقماس karı öküz balduka korkmas= qoca öküz baltadan qorxmaz». Bu söz alışdığı şeylə qorxudulmaq istənən adam üçün söylənir, çünki o şəxs qoca öküz baltaya alışdığı kimi, qorxudulan nəsnəyə alışmışdır. Bu beytdə də işlənmişdir:

قرقما انكر اترو ترب تكرا يرا

قبســـا انك البغتن اندن يرا

«Korkma anqar otru turup təgrə yerə,

Kapsa anınq alpağutın andan yara».

Qorxma ondan, qarşı durub onu mühasirə elə,

Onun bahadırlarını ondan uzaqlaşdır.

(Düşməndən qorxma, onu qarşıla, igidlərini mühasirəyə salaraq ondan ayrı sal, uzaqlaşdır).

قِرقدى K ı r k d ı: «أل قويُن قِرقدى ol koy kırkdı = o, qoyun qırxdı». Başqası da belədir, (قِرقار - قِرقماق kırkar – kırkmak).

سِلكدى S i l k d i: «أر يغاج سِلكدى ər yığaç silkdi = adam ağac silkələdi». Başqası da belədir, (سِلكار - سِلكماك silkər – silkmək).

BU BABIN DÖRD HƏRFLİLƏRİ

اندغردى A n d ğ a r d ı: «أل انى اندغردى ol anı andğardı = o ona and içdirdi», (اندغرُر - اندغرُماق andğarur – andğarmak).

كُندكَردى K ö n d g ə r d i: «أل يغاج كُندكَردى ol yığaç köndgərdi = o, ağac əkdi, düzəltdi». Başqası da belədir.

كُندكَردى K ö n d g ə r d i: «أغرينى كُندكَردى oğrını köndgərdi = oğrunu iqrar etdirdi».

كُندكَردى K ö n d g ə r d i: «اُل اَنى يولْقا كُندكَردى» ol anı yolka köndgərdi = o onu yola qılavuzladı», (yolu başa saldı), (كُندكُرُر - كُندكُرماك köndgürür - köndgürmək).

كِرتكُندى K i r t g ü n d i: «قُل تَنكريكا كِرتكُندى kul tənqrigə kirtgündi = qul tanrmın birliyinə iman gətirdi» (və peyğəmbəri təsdiq etdi). Bir adam söylədiyi sözü və gördüyü işi iqrar etsə, yenə belə deyilir, (كِرتكُنُور-كِرتكُنماك kirtgünür–kirtgünmək).

[Qayda]:

Bu bölmənin əmr şəkli beş hərfli olur. «يغاج كُندكُر yığaç köndgür=ağacı dik tut», «تَنكريكا كِرتكُن tənqrigə kirtgün=tanrıya inan».

Bu fe'lləri təsirli etmək istədikdə kökə bir ت t hərfi ziyadə qılmaq və iki sükunlunu bir arada cəmləmək olar. «اُل نانـك بَركلدّى ol nənq bərkləttı = o, bir şeyi qorutdurdu», «اُل يغاج كُندكُرتّى ol yığaç köndgürttı=o, ağacı dik tutdurdu» kimi. Bu bölmədə təsirli fe'l yaradan ت və ر [yəni –tur], غ və ر [yəni –ğur], ك və ر [yəni –gür] kimi tədiyə hərfləri olmaz. Misal üçün: «بَرتُردى bar+tur+dı=vardırdı» sözündəki ت və ر, « اُل اَنى تُدغُردى ol anı todh+ğur+dı=o onu doyurdu» cümləsinin تُدغُردى todh+ğur+dı sözündəki غ və ر , «تَنكرى اُلـك تِركُردى tənqri ölüg tir+gür+di=tanrı ölünü diriltdi» cümləsinin تِركُردى tir+gür+di sözündəki ك və ر hərfləri kimi.

BU BABIN MÜZAƏF OLANLARI

تِرسكاك T i r s g ə k: göz qapaqlarında çıxan sivilcə, it dirsəyi.

تِرسكاك T i r s g ə k: dirsək.

[Qayda]:

Müzaəf isimlərdə ortası sükunlu söz olmaz. Yalnız «مَكّه məkkəh» sözü istisnadır. Burada ك ke hərfi şəddəlidir. Sözün sonundakı h ه hərfinin əsli الف əlifdir. Bu, Çindən gətirilən bir mürəkkəbdir, türk yazısı bununla yazılır. Ortası sükunlu söz ziyadələrdə də olmaz.

BU BABIN FE'LLƏRİ

اَرتّی A r t t ı: «اَرتّی نانك arttı nənq = nəsnə artdı».

اَرتّی A r t t ı: «اَنِك اَيا كوسى اَرتّی anınq əyəgüsi arttı=onun qabırğası artdı», (bu, qürrələnməkdən kinayədir), (اَرتماق - اَرتار artar – artmak).

اُرتّی Ö r t t i: «اُل اُرتّی نانكنی ol örtti nənqni = o, bir şeyi örtdü», (اُرتار - اُرتماك örtər-örtmək).

اَرتّی Ə r t t i: «اَذلك اَرتّی ödhlək ərtti = zaman ötdü».

اَرتّی Ə r t t i: «اَر اَقْتِدَن اَرتّی ər əwindən ərtti = adam evindən keçdi». Bir yerdən keçib gedən adam üçün də belə deyilir, (اَرتار - اَرتماك ərtər – ərtmək).

بَرتّی B ə r t t i: «اُل اَنِك اَلِكِن بَرتّی ol anınq əligin bərtti = o onun əlini yara-bərə elədi». Bir adam hər hansı bir şeyi yaralasa və ya qırsa, yenə belə deyilir, (بَرتار - بَرتماك bərtər – bərtmək).

تُرتّی T ü r t t i: «كُونكا ياغ تُرتّی köngə yağ türtti = gönə yağ sürtdü, gönü yağla suvadı». Hər hansı bir şey suvansa və ya bulaşsa, yenə belə deyilir, (تُرتار - تُرتماك türtər – türtmək).

تَرتّى T a r t t ı: «اُل يَرماق تَرتّى ol yarmak tarttı = o, pul çəkdi». Başqası da belədir.

تَرتّى T a r t t ı: «اُل يب تَرتّى ol yıp tarttı = o, ip dartdı, uzatdı, çəkdi».

تَرتّى T a r t t ı: «اُل تَرتن تَرتّى ol tartın tarttı = o, ərzaq dartıb gətirdi, aldı». Hər hansı bir şey çəkilib gətirilsə, yenə belə deyilir, (تَرتار - تَرتماق tartar – tartmak).

تَرتّى T a r t t ı: «اُل اَتوُكِن تَرتى ol ətügin tarttı =o, ayaqqabısını çıxartdı». Bu atalar sözündə də işlənmişdir: «سوُڤ كُرماكِنجا اَتُك تَرتما suw körməgincə ətük tartma=su görməmiş ayaqqabmı çıxarma». Bu söz işində tələsən adam üçün söylənir.

جَرتّى Ç ə r t t i: «اُل جَرتّى نانكنى ol çərtti nənqi = o, bir şeyi əlindən buraxdı».

جَرتّى Ç ə r t t i: «اُل يَرماق اوُجِن جَرتّى ol yarmak uçın çərtti=o, pulun ucunu çərtdi, qopardı, qırdı». Bir yanı qırılan hər nəsnə üçün belə deyilir, (جَرتار - جَرتماك çərtər – çərtmək).

سُرتّى S ü r t t i: «اُل اَتماكا ياغ سُرتّى ol ətməkgə yağ sürtti = o, çörəyə yağ sürtdü».

سُرتّى S ü r t t i: «اُل يَرماقِغ تاشقا سُرتّى ol yarmakığ taşka sürtti = o, pulu daşa sürtdü». Başqası da belədir, (سُرتار - سُرتماك sürtər – sürtmək).

كَرتّى K ə r t t i: «اُل يغاج كَرتّى ol yığaç kərtti = o, ağac kərtti». Başqası da belədir.

كَرتّى K ə r t t i: «اُل قُلِن يُينى كَرتّى ol kulın boynı[352] kərtti=o, qulun boynunu kərtti». Bu, qulu xorlamaqdan, təhqir etməkdən kinayə yolu ilə düzəldilmiş sözdür, (كَرتار - كَرتماك kərtər-kərtmək).

[352] Doğrusu «boynın» olacaq.

[Qayda]:

Bu bölmənin əmr qəlibi üç hərflidir. «ارت ərt=keç», «كَرت kərt» sözləri kimi. Bu fe'llər əslində üç hərflidir, tələffüzdə iki hərfli olur. Yuxarıda qaydasını bəyan etdiyimiz kimi, bütün çəkmələr (təsriflər) buna görə düzəlir.

BU BABIN DÖRD HƏRFLİLƏRİ

اُبُرتُّم Ö p ü r t t ü m: «مَن انكَر سوُف اُبُرتُّم mən anqar suf öpürttüm = mən ona su içirtdim». Başqası da belədir, (اُبُرتُرمَن - اُبُرتملك öpürtürmən – öpürtmək).

اسُرتّى Ə s ü r t t i: « سُجِك انى اسُرتّى süçik am əsürtti = şərab onu sərxoş etdi», (اَسُرتر - اَسُرتماك əsürtür – əsürtmək).

اِسِرتّى I s ı r t t ı: «اُل انكَر اتملك اِسِرتّى ol anqar ətmək ısırttı = o ona çörək dişlətdi». Başqa bir şey dişləyən hər kəs üçün belə deyilir, (اِسِرتوُر - اِسِرتماق ısırtur – ısırtmak).

اكِرتّى Ə g i r t t i: « اُل كُنكا يب اكِرتّى ol künqgə yıp əgirtti = o, cariyəyə ip əyirtdi».

اكِرتّى Ə g i r t t i: bir qalanı fəth etmək üçün mühasirəyə aldırmağa da «اكِرتّى əgirtti» deyilir, (اكِرتُور - اِكِرتملك əgirtür – əgirtmək).

الرتّى A l a r t t ı: «اُل انكار كوُزن الرتّى ol anqar közin alarttı = o ona gözünü bərəltdi», (الرتُر - الرتماق alartur – alartmak).

اِلرتّى İ l ə r t t i: «اُل انِك كوُزينكا بير نانك اِلرتّى ol anmq közinqə bir nənq ilərtti = o onun gözünə bir şey ilişdirdi», (o onun gözünə bir xəyal göstərdi), (اِلرتُر - اِلرتماك ilərtür – ilərtmək).

اَمُرتّی A m u r t t ı: «اُل بَک اُبکاسِن اَمُرتّی ol bəg öpkəsin amurttı = o, bəyin hirsini yatırtdı». Bu söz dayı [atı] ram etmək, qazanın qaynamasını səngitmək üçün də işlədilir, (اَمُرتُور - اَمُرتماک amurtur – amurtmak)[353]. Bu şeirdə də işlənmişdir:

تُسُن مُنُب سَکِرتُسن
اَسِزلِـــکِن اَمُرتُسِن
اِتقا کَیـک قیتّر تُسن
تُتمـــِش سانی اُمتلِم

«Tosun münüp səgirtsün,
Əsizligin amurtsun,
Itka keyik kaytartsun,
Tutmış sanı umnalım».
Tosun daya minib çapsın,
Qoy onu ram eləsin,
İtinə geyik qovdursun,
Ovu tutmuş sanaraq ümidlənək.

(Bir igidi vəsf edərək deyir: qoy o, minilməmiş daya minsin, onu ram eləsin, at üstündə ov etsin, köpəyini geyikə qısqırtsm, biz də ovu tutulmuş sanaraq ətini yeməyə ümidlənək).

جُبرَتّی Ç u b r a t t ı: «اُغری اَرک جُبرَتّی oğrı ərig çubrattı = oğru, adamm malını soydu, onu çılpaq qoydu», (جُبرَتُر - جُبرَتماق çubratur–çubratmak). Çox zaman «çubratsudı», yəni «soydu və çılpaqladı» da deyilir.

جِبرتّی Ç ı b ı r t t ı: «اُل اُغلِن جِبرتّی ol oğlın çıbırttı = o, oğlunu çırpdı, çırpışdırdı», (təzə çubuqla döydü), (جِبرتُور - جِبرتماق çıbırtur –çıbırtmak).

---

[353] Müzare və məsdəri biz qoyduq.

قُبُرتّی K o p u r t t ı: «اُل اَرک اُرنِندِن قُبُرتّی» ol ərig ornmdın kopurttı = o, adamı yerindən qopardı, qaldırdı». Başqası da belədir, (قُبُرتُور - قُبُرتماق kopurtur – kopurtmak).

قَبَرتّی K a b a r t t ı: «اَتُک لذا قِغ قَبَرتّی» ətük adhakığ kabarttı = ayaqqabı ayağı döydü, qabartdı». Bu, şişkinlik ucundan qabartmm artmasıdır, (قَبَربُر - قَبَرتماق kabartur–kabartmak).

قَبَرتّی K a b a r t t ı: «اُل سوُزُک قَبَرتّی» ol sözüg kabarttı=o, sözü qabartdı, başını böyütdü, mübaliğə etdi». Belə edən adama «قَبَرتغان kabartğan» deyilir.

کُبُرتّی K ö p ü r t t i: «اوُت اشجنی کُبُرتّی» ot aşıçnı köpürtti = od qazanı köpürtdü». Bir şey suyu və buna bənzər şeyi köpürtsə, yenə belə deyilir, (کُبُرتُر - کُبُرتملک köpürtür – köpürtmək).

قَتِرتّی K a t ı r t t ı: «اَتِغ قَتِرتّی» atığ katırttı=atı qaytardı, rədd etməyi əmr etdi», (قَتِرتُر - قَتِرتماق katırtur – katırtmak).

قَجُرتّی K a ç u r t t ı: «اُل اَنی قَجُرتّی» ol anı kaçurttı = o onu qaçırtdı», (قَجُرتُر - قَجُرتماق kaçurtur – kaçurtmak).

قَذِرتّی K a d h ı r t t ı: «اُل اَنِک بُینِن قَذِرتّی» ol anmq boynın kadhırttı = o onun boynunu bükdürdü, qanırtdırdı», (قَذِرتُر - قَذِرتماق kadhırtur – kadhırtmak).

قِزَرتّی K a r a r t t ı: «اُل اَنِک توُنِن قِزَرتّی» ol anınq tonm kararttı = o onun paltarmı qaraltdı». Başqası da belədir, (قَرَرتُر - قَرَرتُماق karartur – karartmak).

قِزَرتّی K ı z a r t t ı: «اُل قِزَرتّی نانکني» ol kızarttı nənqni=o, bir nəsnəni qızartdı», (قِزَرتُر - قِزَرتماق kızartur – kızartmak).

سَقُرتّی S a w u r t t ı: «اُل اَنکَر تَرغ سَقُرتّی» ol anqar tarığ sawurttı =o ona taxıl sovurtdurdu». Başqası da belədir, (سَقُرتُر - سَقُرتماق sawurtur – sawurtmak).

سَكِرتّى S ə k i r t t i: «اُل اَت سَكِرتّى ol anqar at səkirtti = o ona at səkdirdi, at çapdırtdı». Başqası da belədir, (سَكِرتُر - سَكِرتماك səkirtür –səktirtmək).

كَجُرتّى K e ç ü r t t i: «اُل اَنكَر سوُف كَجُرتّى ol anqar suf keçürtti = o onu sudan keçirtdi». Başqası üçün bir iş keçirtsə, yenə belə deyilir, (كَجُرتُر - كَجُرتماك keçürtür – keçürtmək).

[Qayda]:

Bu bölmənin əmr qəlibi dörd hərflidir. «سَكِرت səkirt = atı çap» kimi. Bu söz tələffüzdə üç hərfli olur.

İsmi-fail, ismi-məf'ul, məkan, zaman, alət isimləri yuxarıdakı bölmələrdə qaydasmı bəyan etdiyimiz kimi düzəlir. Bu qayda dəyişməzdir, sabitdir.

BU BABIN MİSAL OLANLARI

يَلتغا Y a l t ğ a: bir şeyi ələ salma, istehza etmə. «اُل اَنّى يَلتغا قِلدى ol anı yaltğa kıldı = o onu ələ saldı».

يَلدرُق Y a l d r u k: «يَلدرُق نانك yaldruk nənq=cilalı ləyən kimi parlayan nəsnə». Başqası da belədir.

يَلدرُق Y a l d r u k: «يَلدرُق اَشلار yaldruk işlər=süslü, sığallı qadın». Bu və üstdəki sözdə ى y hərfi zəmməli də olur.

يَريماق Y a r t m a k[354]: pul. Uyğurca.

[354] Bu söz yazma və basma nüsxələrdə səhvən «yarıtmak» kimi getmişdir.

BU BABIN MÜZAƏF OLANI

يَرسغاغ Y a r s ğ a ğ: dağda və ya başqa yerdə ayağın sürüşə biləcəyi yer.

BU BABIN BAŞQA BİR NÖVÜ

يُلدرُغا Y o l d r u ğ a: qılmc kimi uzun bir bitkidir. Bəzən bu söz «يُلدرُغا yoldurğa» kimi də tələffüz edilir.

اَيايَرسكوُ A y a y ə r s g ü[355]: yarasa. Çigilcə. Bəziləri «يَرسا yarısa» da deyir.

SONU HƏRFİ-İLLƏTLİ OLAN SÖZLƏR

يُرنجغا Y o r ı n ç ğ a: yonca[356].

يلِنجغا Y ı l ı n ç ğ a: «يلِنجغا اَش yılınçğa aş = dadı, yağı, duzu olmayan yemək».

يُمُرتغا Y u m u r t ğ a: yumurta. Bütün quşlarm yumurtasına, insan və heyvanların xayasına «يُمُرتغا yumurtğa» deyilir.

يمرتغا Y ı m ı r t ğ a: «يمرتغا ياش yımırtğa yaş=damarı olmayan ispanaq, gül kələmi kimi təzətər tərəvəz». Xiyar kimi kövrək olan nəsnəyə də «يمِرتغا yımırtğa» deyilir.

---

[355] Bu sözü Bəsim Atalay «ayayarsku» (DLT, III, s.433), Salih Mütəllibov «aya-yərsgü» (TSD, III tom, bet 439), uyğurlar «yərsgü» (TTD, III tom, bet 588) Seçkin Ərdi ilə Sərtap Tuğba Yurtsevər isə «aya yərsgü (DLT-2005, s.161) şəklində oxumuşlar.

[356] Yonca sözü «yund=at» sözündəndir, «at üçün əkilən ot» deməkdir. Yundca> yonca şəklinə düşmüşdür. Latıncası klever və lütserndir.

BU BABIN FE'LLƏRİ

یاذتی Y a d h t ı: «اُل یاذتی نانکتّی ol yadhtı nənqni = o, bir nəsnəni yaydı», (süfrə üzərinə çörək və sair şeyləri yaydı, düzdü», (یَذار- یَذماق yadhar-yadhmak).

یوُذتی Y o d h t ı: «اُل تُبراق یُوزندِن یوُذتی ol toprak yüzindin yodhtı = o, torpağı üzündən sildi».

یوُذتی Y o d h t ı: «اُل بِتک یوُذتی ol bitik yodhtı = o, yazını pozdu, sildi, məhv etdi». Başqası da belədir, (یوُذار- یوُذماق yodhur – yodhmak).

یوُذتی Y ü d h t i: «اُل یُک یوُذتی ol yük yüdhti = o, yük yüklədi», (یوُذار- یوُذماک yüdhər – yüdhmək).

یِیذتی Y i d h t i: «اُل یَتکاک یِیذتی ol yetgək yidhti = o, boğçasını, heybəsini yığdı, topladı və uclarını birləşdirdi», (یِیذار- یِیذماک yidhər – yidhmək).

BU BABIN ÜÇ HƏRFLİLƏRİ

یُرتّی Y o r t t ı: «اَتلغ یُرتّی atlığ yorttı = atlı atını dördnala çapdı», (یُرتوُر- یُرتماق yortur – yortmak). Bir dildə «yortar»dır.

یرتّی Y ı r t t ı: «اُل توُنِن یرتّی ol tonın yırttı = o, paltarmı yırtdı», (یرتار- یرتماق yırtar – yırtmak).

یَنجدی Y ə n ç t i: «اُل قاغوُنُغ یَنجدی ol kağunuğ yənçti = o, qovunu yerə vurdu və ayağı ilə əzdi». Bir adam bir şeyi dişləyərək qoparsa və parçalarını bir-birinə qatsa, yenə belə deyilir, (یَنمار- یَنجماک yənçər – yənçmək).

يَلقدى Y a l k d ı: «اُل ياغقا يَلقدى ol yağka yalkdı = o, yağdan doydu, bıqdı», (يَلقار - يَلقماق yalkar – yalkmak). Bu atalar sözündə də işlənmişdir: «يَلقسا يَما ياغ اَذكوُ، كوُيسا يَما كوُن اَذكوُ» yalksa yəmə yağ edhgü, köysə yəmə kün edhgü = bıqsa yenə yağ yaxşıdır, yaxsa yenə gün yaxşıdır», (insan yağdan nə qədər bıqsa da, yenə dadsız-duzsuz yeməkdən yağ yaxşıdır, günəş nə qədər yaxsa da, yenə sisdən-dumandan yaxşıdır).

يُلقدى Y o l k d ı: «تاش اَنِنک اَذاقِن يُلقدى taş anınq adhakın yolkdı = daş onun ayağmı sıyırdı». Hər hansı nəsnə bir şeydə sıyrıq və çat yaratsa, yenə belə deyilir, (يُلقار - يُلقماق yolkar – yolkmak).

يُلقدى Y o l k d ı: «اُل اَندِن نانک يُلقدى ol andın nənq yolkdı = o ondan bir şey yoldu, çıxardı, soydu». Bunun mənası «o ondan faydalandı, bir şey əldə etdi» deməkdir, (يُلقار - يُلقماق yolkar – yolkmak).

BU BABİN DÖRD HƏRFLİLƏRİ

يَبُرتّى Y a p u r t t ı: «اُل سوُزُک يَبُرتّى ol sözüg yapurttı = o, sözün gizlədilməsini əmr etdi». Bir işin gizli saxlanması əmr ediləndə də belə deyilir.

يَبُرتّى Y a p u r t t ı: «اُل بيرک يَبُرتّى ol yerig yapurttı = o, yeri düzəltdi». Hər hansı bir şeyin dağınıq parçalarmı bir-birinə qatsa, yenə belə deyilir, (يَبُرتُر - يَبُرتماق yapurtur – yapurtmak).

يَشَرتّى Y a ş a r t t ı: «يَغمُر اوتُغ يَشَرتّى yağmur otuğ yaşarttı = yağış otu yaşartdı, göyərtdi», (يَشَرتُر - يَشَرتُماق yaşartur – yaşartmak).

يُغُرتّى Y o ğ u r t t ı: «اُل اَنکَر اوُن يُغُرتّى ol anqar un yoğurttı = o ona un, xəmir yoğurtdurdu», (يُغُرتُر - يُغُرتماق yoğurtur–yoğurtmak).

يُكُرتّى Y ü g ü r t t i: «اُل اَنى يُكُرتّى ol anı yügürtti = o onu yüyürtdü, yeritdi, qaçırtdı», (يُكُرتُر - يُكُرتماك yügürtür – yügürtmək).

BU BABIN BAŞQA BİR NÖVÜ

